Dərslə bağlı hazırlıq işlərini yalnız planlaşdırma ilə bitmiş hesab etmir, iş vərəqləri, əyani və texniki vəsaitlər hesabına dərslərin daha maraqlı, elmli və faydalı olmasına çalışır. Lakin, ikinci hazırlıq üzrə diqqətsizlik edən müəllimlər kimi, bu mərhələdə də kifayət qədər öz üzərində işləməyən, heç bir hazırlıq işi görməyən, yalnız dərs başlayanda jurnalı götürüb dərsə girən müəllimlər də az deyildir. Bir məsələni də qeyd etmək lazımdır ki, elə müəllimlər var ki, qeyd olunan hər üç istiqamət üzrə öz işlərini müasir tələblər səviyyəsində qururlar. Elələri də olur ki, hər üç istiqamətdə tənbəllik göstərirlər. Bəziləri isə müəyyən istiqamət üzrə ciddi fəaliyyət göstərməslər də, bəzilərini diqqətdə saxlayırlar. Sadaladığımız cəhətlər bir daha onu göstərir ki səmərəli fəaliyyət üçün hazırlıq nə dərəcədə mühüm əhəmiyyətə malikdir.

Müəllim əməyinin səmərəli olmasında planlaşdırma qədər dərsin təşkili də mühüm əhəmiyyətə malikdir. Çünki planlaşdırılmış işin hansı səviyyədə effektiv olması dərs zamanı üzə çıxır. Müəllimin tədris fəaliyyətinin təşkili ilə bağlı prof. Ə.Ə. Ağayev yazırdı: Müəllim öyrədən olaraq təşkilatçılıq, koordinator, məsləhətçi funksiyasını yerinə yetirir: şagirdlərin işinə müdaxilə etmədən problemlər qoyur, istiqamət verir, nəzarət edir, axtarış strategiyasını hazırlamağa kömək edir.

Göründüyü kimi müasir dərsdə müəllimdən dərs zamanı heç də əvvəlki kimi dərsdəki bütün ağırlığı öz üzərinə götürüb şagirdləri hərtərəfli biliklə silahlandırmaq deyil, təşkilatçı və məsləhətçi funksiyaların yerinə yetirilməsi tələb olunur. Əgər dərs prosesində müəllim bələdçi, şagird tədqiqatçı mövqeyində çıxış edirsə, müəllim şagirdi yönəldən, ona istiqamət verən mövqeyində dura bilirsə, demək həmin dərsdə o öz funksiyalarını yerinə yetirə bilir.

Amma praktikaya baxanda isə bir sıra hallarda fərqli mənzərənin şahidi oluruq. Məsələ bundadır ki, hər nə qədər yeni təhsil sisteminə keçid etsək də, müəllimləri müasir dərsin nəzəri cəhətlərini öyrənməkdən ötrü kurslara, təlimlərə dəvət etsək də, danılmaz həqiqətdir ki, hələ də müəllimlərimizin bir qismi müasir dərsin onlar-

dan nə tələb etdiyini ya zəif bilir, ya da ümumiyyətlə bilmirlər. Müşahidələrə əsaslanıb deyə bilərik ki, hələ də məktəblərimizdə bütün dərsi nəzəri məlumatları şagirdlərə ötürən, onlarda tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirmək əvəzinə hansısa nəzəri müddəanı əzbərləyib yadda saxlamağı tələb edən müəllimlərimiz də az deyil. Əlbəttə, yeni təhsil standartlarının tələblərinə uyğun yazılan dərsliklər müasir dərsin qurulmasında demək olar ki, cığır açır. Amma bədii dildə desək müəllimlər isə bu cığırla addımlayıb geniş bir sahəyə çıxmaq əvəzinə bir az da dolaşıqlığa düşüb yolu tamamilə azırlar. Əlbəttə belə olan halda səmərəli dərs fəaliyyətindən danışmaq qeyri mümkündür.

Şagirdlərin təlim fəaliyyətinin əsas hissəsi dərs zamanı həyata keçir. Çünki burada təlim, tərbiyə, təhsil və inkişaf eyni zamanda, sistemləşdirilmiş formada özünü göstərir. Şagirdin təlim fəaliyyətinin təşkili müəllimdən yüksək peşəkarlıq tələb edir. Müəllim təlim zamanı şagirdlərdə fikri fəallıq, öyrənilən anlayışa münasibət bildirmə, öz fikrini ifadə etmə bacarıqları formalaşdırmalıdır. Bəzən isə təlim fəaliyyətində bunun əksini görürük. Bu məsələni aydın şərh edən professor Nurəddin Kazımov yazır: Dərsdə sakit oturmağı, diqqətlə qulaq asmağı şagirdlərdən tələb edən müəllim, istər-istəməz, əsasən, özünü danışmağa məhkum edir, şagirdləri isə danışmaqdan, fikir yürütməkdən, düşünməkdən məhrum edir. Belə dərslərdə şagirdlərin təhsillilik səviyyəsini də, tərbiyəlilik səviyyəsini də, psixoloji qüvvələrin səviyyəsini də yüksəltmək müşkül işə çevrilir (3).

Şagirdlərin təlim fəaliyyətini təşkil edən zaman müəllimlər daha çox şagirdlərin tədris bacarıqlarının formalaşmasına diqqət edirlər. Əgər təlimin bir vəzifəsi şagirdin tədris bacarığının formalaşması ilə bağlıdırsa, digər vacib məsələ isə şagirdlərin idrak bacarıqlarının formalaşdırılması olmalıdır. Amma apardığımız müşahidələr zamanı müəllimlərin bir çoxunun hələ də dərs zamanı demək olar ki, yalnız tədris bacarığı üzrə iş apardığının şahidi oluruq. Tədris bacarığı nədir? Bu suala prof. N.M. Kazımov belə şərh verir: Təlim zamanı bu və ya digər fənn üzrə müvafiq biliklərin, yəni qaydaların, teoremlərin, qanun və qanunauyğunluqların və s.-nin yazılı, yaxud şifahi nitqdə və ya əməli fəaliyyətdə düzgün tətbiqi tədris bacarığıdır. Göründüyü kimi, tədris bacarığı özündə bilik, bacarıq və vərdişləri birləşdirir.

İdrak bacarığı üzrə iş aparılmayan dərsdə şagirdin fikri fəallığı yüksək olmur. Bəzi şagirdlərdə isə demək olar ki, dərsin müəyyən mərhələsində ümumiyyətlə dərketmə prosesi baş vermir. Şagird dərs zamanı öyrəndiyi qaydanı mexaniki şəkildə yadda saxlayır və tətbiqi tapşırıq zamanı həmin yadda saxladığı bilikdən istifadə edə bilmir. İdrak bacarığının formalaşmaması müəllimin təlimin təşkilində buraxdığı nöqsanlardan biri hesab edilməlidir. İdraki bacarıqlardan olan tutuşdurma, qarşılaşdırma, sistemləşdirmə və s. kimi bacarıqlar dərsin səmərəliliyini artırır və əldə olunan biliklərin uzun müddət mühafizə olunmasına səbəb olur. İdraki bacarıqları şərh edərkən professor Nurəddin Kazımov onları belə ümumiləşdirir: Təlim zamanı ayrı-ayrı fənlər üzrə mənimsənilən biliklərin, yəni qaydaların, teoremlərin, qanun və qanunauyğunluqların və s.-in mahiyyətinin dərindən başa düşülməsinə kömək edən fikri əməliyyatlara idrak bacarıqları deyilir**.**

Göründüyü kimi əsas məsələ şagirdlərin təkcə müəyyən biliklərin yadda saxlamaları deyil, həm də onu fəal şəkildə dərk etmək və praktikaya tətbiq etməkdir.

Təlim zamanı biliklərin şagirdlər tərəfindən aydın dərk edilməsi üçün onlarda fikri fəallığın yaradılması əsas şərtdir. Fikri fəallıq prosesində problemi müstəqil şəkildə həll edən şagird bilikləri daha yaxşı mənimsəyir və bunu uzun müddət yadda saxlaya bilir. K.D. Uşinski bu xüsusda demişdir: " Müəllim tərəfindən izah edilmiş fikrin şagird tərəfindən başa düşüləcəyini zənn etsək belə, yenə bu halda həmin fikir heç zaman şagirdin başında onun özünün hasil etdiyi fikir qədər möhkəm və şüurlu yerləşməz, onun tam mülkiyyətinə çevrilməz.

Demək dərsin səmərəli qurulması üçün müəllim həm dərsə yaxşı hazırlaşmalı, həm müasir təhsil sistemində tələb olunan prinsipləri öz dərslərində rəhbər tutmalıdır. Müəllim dərs boyu şagirdin marağını təmin edib onda fikri fəallıq, tədqiqatçılıq bacarıqlarını formalaşdırarsa, onun keçirdiyi dərsin səmərəsi də yüksək olacaq, tədris olunan mövzular qısa müddət ərzində şagird hafizəsindən silinib yox olmayacaqdır.

**Problemin aktuallığı.** Ümumtəhsil məktəblərində müəllimin tədris fəaliyyətinin səmərəliliyinin

təmin olunması böyük əhəmiyyət daşıyır. Belə ki, təhsilin son nəticəsi məhz buna bağlıdır.

**Problemin yeniliyi.** Müəllimin tədris fəaliyyətinin səmərəliliyinin artırılması yolları elmi-nəzəri faktlarla əsaslandırılmış, bu sahədə deyilən fikirlərə nəzər salmaq yolu ilə yeni müddəalar irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti.** Şagirdlərin təlim, tərbiyə və təhsil prosesini təşkil edən müəllimin tədris fəaliyyətinin səmərəliliyin artırılması yolları göstərilməklə tədqiqatçılara, müəllimlərə ətraflı məlumat verəcəkdir.

**Ədəbiyyat:**

1. A. Suleymanova. Tədris proqramları müəllim və şagirdlərin məktəbdəki fəaliyyəti fəaliyyəti nəzərə alınaraq tərtib olunmalıdır // Kurikulum, 2012, № 4

2. Y.R. Talıbov, Ə.Ə. Ağayev və b. Pedaqogika: Dərslik. Bakı, 2006.

3. N.M. Kazımov. Pedaqoji ustalığın problemləri. Bakı, 2009.

**E-mail:** shehriyarmecidov1990@gmail.com

**Rəyçi**: *ped.ü.fəls dok*. **İ.A. Cavadov**

**Redaksiyaya daxil olub: 16.03.2020**

UOT 373.3/.5

***Almaz İsrayıl qızı Həsrət***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun baş mütəxəssisi*

# MƏKTƏBLİLƏRDƏ İNFORMASİYA MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

***Алмаз Исраиль гызы Хасрет***
*главный специалист Института Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ ИНФОРМАЦИОННОЙ КУЛЬТУРЫ У ШКОЛЬНИКОВ

***Almaz İsrail Hasrat***
*chief specialist*
*of the Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF INFORMATION CULTURE AT SCHOOLS

**Xülasə.** Təqdim olunan məqalədə məktəblilərdə informasiya mədəniyyətinin formalaşdırılması istiqamətində aparılmış tədqiqat işinin ümumi şərhi verilmişdir. Məktəblilərin İKT-dən istifadə edərkən nəyə daha çox önəm vermələrinin vacibliyi vurğulanır. Tədqiqat işinin ümumi gedişatı barədə qeydlər göstərilib. İnformasiya mədəniyyətinə sahib ola biləcək məktəblilərlə işin aparılması barədə addımlar göstərilir. Araşdırma aparılan məktəblərin siyahısı göstərilib, nəticə qeyd olunub. Məqalədə aparılmış tədqiqat işində informasiya mədəniyyətinin şagirdlərdə formalaşmasının inkişafının önəmindən danışılır.

***Açar sözlər***: *İKT, internet, müəllim, şagird, informasiya, informasiya mədəniyyəti*

**Резюме.** В статье представлен общий обзор исследовательской работы, направленной на формирование информационной культуры у школьников. Подчеркивает важность того, на что особенно должны уделить внимание школьники при использовании ИКТ. Есть заметки об общем ходе исследования. Представлены шаги для работы со школьниками, которые могут иметь информационную культуру. Показан список школ, где были проведены исследования и отмечены результаты. В статье рассматривается важность развития информационной культуры у школьников.

***Ключевые слова***: *ИКТ, интернет, учитель, учащийся, информация, информационная культура*

**Summary.** This article gives a general review of the research paper about the formation of information culture at schools. The article emphasizes the issue which is considered the most important one when students use ICT. The article also summarizes the research procedure and suggests pedagogical approaches needed to apply while educating students with the potential for information culture. The article gives the list of the schools involved in the research and mentions the research results. Moreover, the importance of the formation of information culture in students is especially highlighted in the article.

***Keywords:*** *ICT, internet, teacher, student, information, information culture*

Bəşəri inkişafa və dəyərlərimizə uyğun cəmiyyətə ilkin mütəxəssis hazırlayan ümumtəhsil məktəblərinin fəaliyyətinin təkmilləşdirilməsi daim diqqət mərkəzində olmuşdur. Bunun üçün, ilk növbədə, təhsilin məzmunu dəyişdirilir. Bugünkü şagirdlər, 1990-cı ildə dünyaya göz açmış yeni nəsil internet və kompüter aləmində böyüyüblər. Yeni adlandırdığımız informasiya texnologiyaları indiki şagird üçün həyatının real təbii hissəsidir. İnternetə çıxış onların həyatının tam olmasa da, daha böyük hissəsini təşkil edir. Sanki artıq virtual həyat şagirdlər üçün real həyatları ilə eynilik təşkil edir. İndiki şagirdlər, yeni gənc nəsil öz valideynlərindən düşüncə tər-

zinə, dünyanın qavranılmasında və informasiyaların qəbulu davranışlarına görə kəskin surətdə fərqlənirlər. Müasir dövrün şagirdləri təhsil alarkən audiovizual məlumatları daha yaxşı qavrayırlar. Ənənəvi mətnlərdənsə hipermətnlərin olmasına üstünlük verirlər.

Müasir şagirdlərimizdə keçmiş dövrdə təhsil alan şagirdlərdən fərqli olaraq, tədris prosesində, təhsil almalarında artıq yüksəksürətlilik, məlumatların (informasiyaların) ani olaraq əldə olunması, onların paralel olaraq işlənməsi, emalı, təsadüfi yollarla axtarış əməliyyatları, yüksək səviyyəli ünsiyyət bacarığı kimi xüsusiyyətlər xasdır. Son 15-20 il ərzində informasiya resurslarının həcmi müxtəlif fənlər üzrə tədris materiallarının, multimedia daşıyıcılarının sayı artıb. İnformasiya bolluğu göz önündədir. Müasir şagird indiki durumda nə etməlidir? O, bu nəhəng, miqdarca stabil olaraq heç bir ölçü vahidi ilə ölçülə bilməyən sonsuz informasiya məkanındadır. Bu məkanda fərd olaraq müsbət inkişafa doğru olan yolun tapılması da mühüm addım sayılmalıdır. Bunun üçün çox ciddi düşünmək tələb olunur. Bu informasiya məkanında yüksək həssaslıqla və tam dürüstlüklə ölçülmüş yeni inkişaf strategiyası hazırlanmalıdır. Bunun üçün, ilk növbədə, tədrislə məşğul olanların hamısında informasiya mədəniyyətinin formalaşdırılmasına nail olmaq vacibdir.

Respublikamızda təhsilin məzmunu təkmilləşdirildikcə, gənclərimizin, xüsusilə də şagirdlərimizin tərbiyəsi də ən mühüm vəzifələrdən biri kimi daim diqqət mərkəzində olur. Təhsilin məzmunu dəyişdirildikcə, təlim prosesi də uyğun istiqamət üzrə təkmilləşir, nəticədə kadr hazırlığının strukturunda da əsas dəyişikliklər baş verir. Yeni pedaqoji təfəkkür formalaşır. Hər bir insanın, ən əsas da təhsil alan şagirdlərin milli və ümumbəşəri dəyərlər əsasında formalaşdırılmasında, anadan olduğu torpağına, Vətəninə, dövlətinə sədaqətli vətəndaş kimi yetişdirilməsində milli şərəf və ləyaqət, milli mənlik şüuruna yiyələnmələrinə və s. bənzər mədəniyyətə bilavasitə təsir edənlərin ən əsası ailə, ətraf mühit və təhsilverənlərdir. Bu işdə biz daim həmrəy olmalıyıq. Həmrəylik məhz ailədən başlayıb cəmiyyətə yönəlir. Bütün bunlar internet məkanında da görünür. Milli birlik, milli həmrəylik indi Azərbaycan xalqına xaricdən təcavüzə, təzyiqə, hədə-qorxuya məruz qaldığı bir dövrdə daha çox lazımdır (1, 2).

Ancaq unutmaq olmaz ki, ən əsas şagirdlərin özlərinin özünütərbiyə mədəniyyətlərinin səviyyəsi xüsusi rol oynayır. Yeni pedaqoji təfəkkür şəraitində İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT-nin) bir alət kimi, bir vasitə kimi həyatımıza daxil olaraq müdaxiləsi sayəsində artıq şagirdlərimiz tərbiyənin obyekti deyil, hətta subyekti olur. Bu şəraitdə, həmçinin virtual-internet məkanında, ailədə, cəmiyyətdə, məktəbdə şagirdlərimiz tərbiyə olunmaları ilə bərabər, özlərini tərbiyə etməyi də bacarmalıdırlar. Təhsil alanlar mənəvi keyfiyyətlərini inkişaf etdirməli və müsbətyönlü, mədəni davranış xüsusiyyətlərini özləri də inkişaf etdirməlidirlər. İstər real həyatda, istərsə də virtualda olsun, hər bir insan gərək ki, özünə kənardan başqa gözlə baxa bilsin. Bu zaman öz şəxsi nöqsanlarını görməli, davranışına diqqət etməli və mənfi keyfiyyətlərini aradan qaldırmağı bacarmalıdırlar.

Yeni əsrin ən mühüm amillərindən biri də internetin hər bir məktəblinin həyatına birbaşa daxil olmasıdır. Necə ki, illər öncə yeni yaradılan televizorlar evlərə daxil oldu, radioları əvəzlədilər. İnternet də həyatımıza daxil olaraq televizorları əvəz etdi. Artıq müasir məktəblilərin çox az sayının televizoru izlədiyinin şahidi oluruq. İKT və internet məişətimizə daxil olan bir vasitədir. İKT-dən istifadə dedikdə, ilk olaraq çox vaxt kompüterdən istifadə demək olduğunu anlayırıq. Kompüterin açılması, bağlanması, sonra müəyyən əməliyyatların aparılması və ən nəhayət, işi bitirdikdən sonrakı əməyiniz həmən görünəcəkdir. Bu əməyiniz nəticəsində kompüterin "iş masa"sının görünüşü, hazırladığınız mətn və ya hər hansı bir resursunuz, ilk növbədə, öz görünüşü ilə kənardakıları cəlb edəcəkdir.

Pedaqoji və informasiya texnologiyalarının ümumtəhsil məktəblərində tədrisi və tətbiqinə dair bir sıra tədqiqatlar aparılmış, dissertasiyalar, metodik vəsait və elmi məqalələr yazılmışdır. Belə ki, R.M. Əliquliyev, Z.İ. Qaralov, O.M. Rəcəbov, A.O. Mehrabov, Ə.Q. Pələngov, A.N. Abbasov, R.F. Məmmədzadə, N. Orucəliyev, R.Ş. Mahmudov, R.Ş. Mahmudova, M. Aslanov, V. Mahmudov, İ. İsmayılov, T. Rzayev, S. Qocayev, R. Əsədov, H. Balıyev, Ə. Ağayev, N. Abdullayev və b. tərəfindən müxtəlif müasir pedaqoji və informasiya texnologiya-

ları barəsində dəyərli məlumatlar verilmiş, onların mahiyyəti, məzmunu, formaları, İKT və ondan istifadə mexanizmləri, metod və vasitələri, onların təlim prosesində tətbiqi məsələləri araşdırılmışdır. Həmin elmi araşdırmalardan faydalı nəticələr əldə edilmişdir. Lakin ümumtəhsil məktəblərində təlim prosesində İKT-nin yalnız tətbiqi məsələlərinin çox öyrənilməsinə baxmayaraq, İKT-nin şagirdlərdə informasiya mədəniyyətinin formalaşmasına təsiri mexanizmi hələ araşdırılmadığından, bu işin sistemli tədqiq olunmasını vacib bildik. Mövcud problem tədqiqatın əhəmiyyətini və aktuallığını artırdığından, Azərbaycan məktəblərində xüsusi tədqiqat obyektinə çevrilmişdir.

Real həyatda özünütərbiyə barəsində çoxlu elmi əsərlər yazıldığından, pedaqogika və psixologiya elmlərində bu mədəniyyət formasının öyrənilməsi yeni problem deyildir. Azərbaycanlı pedaqoq, psixoloq və filosoflardan M.M. Mehdizadə, M.D. Məhərrəmov, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, V.C. Xəlilov, R.L. Hüseynzadə, L.Z. Allahverdiyeva, Z.B. Göyüşov, H.M. Əhmədov Ə.Ə. Ağayev, A.N. Abbasov, M.Ə. Həmzəyev; MDB məkanında A.İ. Koçetov, A.Q. Kovalev, Y.A. Samarin, İ.İ. İqnatovski, L.İ. Ruvinski, A.N. Aret, V.N. Kolbanovski, A.A. Bodalev və s. özünütərbiyənin nəzəriyyəsi və praktik məsələləri barədə dəyərli fikirlər irəli sürmüş, özünütərbiyənin mahiyyətinə aydınlıq gətirmiş, onun vasitələri, priyomları, təşkili yolları və metodları üzərində dayanmışlar. Tədqiqatlar göstərir ki, özünütərbiyə şagirdlərin özünü təkmilləşdirilməsinin daha yüksək formasıdır. Özünütərbiyə şagirdlərin psixi inkişafının da sürətləndiricisidir.

İKT-dən istifadə edərkən özünütərbiyə ilə məşğul olmaq üçün şagird ilk növbədə, özünü dərk və təhlil etməyi bacarmalıdır. Bunun üçün öncədən hazırlanmış, yaxşı düşünülmüş həyat və davranış planı olmalıdır. R. Abbasova tədqiqat işində yazır: “Özünütərbiyə şagirdin şəxsiyyətinin ictimai dəyərli keyfiyyətlərinin formalaşmasına, şagirdin inkişafının nəzərdə tutulmuş proqramını həyata keçirməyə, öz qüsurlarını aradan qaldırmağa yönələn şüurlu, planauyğun fəaliyyətidir” (7, s. 4).

Şagirdlərin özünütərbiyələndirilməsində özünütəhsilin çox böyük rolu vardır. Tədqiqatlardan məlum olub ki, özünütəhsil insanın öz hərəkət və əməllərinin, fəaliyyətinin sosial dəyərini, özünün xarakterinin müsbət və ya mənfi keyfiyyətlərinin ölçüb-biçməsi prosesidir. A.V. Kovalyovun fikrincə, “Özünütəhsil şəxsiyyətin özünüdərketməsinin ən mühüm komponentlərindən biri olub onun öz şəxsi ləyaqətlərinə və qüsurlarına münasibətlərini müəyyən edir” (5, 43).

İnformasiya bolluğunda təhsil alan şagirdlərin əksəriyyəti heç də sərbəst olaraq özünütəhsil və özünü təkmilləşdirmək barədə dərin fikirləşmirlər. Bu bolluq məkanında və internetdə olarkən, informasiya qalaktikasının sakini sayılan şagirdlər öz şəxsi idealını müəyyənləşdirməkdə çox çətinlik çəkirlər. Güvən və əminliklərindən, razı qalmaqdan tərəddüd edirlər. Məhz bu an onlara özünütərbiyəni aşılamaq gərəkdir. Bundan sonra şagirdlər, ilk növbədə, valideynlərinə, ailəsinə yaxın olanlara, həmçinin təhsil aldığı məktəbə, oxuduğu sinif və digər məktəb yoldaşlarına, ətraf mühitə, ümumiyyətlə, həyata, verilən tapşırıqlara çox həssas və çox məsuliyyətlə yanaşmağa başlayacaqlar. Nəticədə bütün bunlar virtual aləmdə olan şagirdin daxili aləminin, şüurunun və düşüncəsinin müsbətə doğru inkişafına səbəb olacaqdır. Bu inkişaf dinamikasını qoruyub saxlamaq yaratmaqdan qat-qat çətin olur. Müsbət keyfiyyətləri qoruyub saxlamaq üçün həm real həyatda, həm də virtual aləmdə, ilk növbədə, ailənin bütün üzvləri, ətrafdakılar, sinif yoldaşları, müəllimlər, ümumilikdə cəmiyyətimiz yüksək mədəniyyət sahibi kimi örnək olmalıdırlar. Belə olan halda cəmiyyətimizdə yüksək mədəni dəyərləri, ünsiyyəti, keyfiyyətləri gələcək nəslə şəxsi nümunələrimizlə ötürə bilərik.

Şagirdlərin yüksək milli-mənəvi dəyərlərə, mədəni davranış keyfiyyətlərinə yiyələnmələrində, yüksək səviyyəli davranış, rəftar və gözəl əxlaq təcrübəsi qazanmalarında, Vətənə layiqli bir övlad, əsl şəxsiyyət kimi böyümələrində İKT-dən istifadə zamanı onlarda informasiya mədəniyyətinin formalaşdırılması üçün özünütərbiyə prosesinin rolunun çox mühüm olduğunu bildirdik.

Müasir təhsil ocaqlarında tədris prosesi məqsədyönlü və əksinə ola bilər. Belə ki, uşaq ilk olaraq ailədə onun üçün nəzərdə tutulmayan söhbətləri dinləyir, ətrafında baş verən hadisələrin şahidi olur. Valideynlərin kompüterdən istifadəsi zamanı yanında olur. Valideynlərinin, ai-

lədəki böyük bacı və qardaşının internetdə başqası ilə ünsiyyətini eşidir. Yazışmalar və oyun oynayan zamanı böyüklərin reaksiyalarının kənardan seyrçisi olur. Bu zaman öyrənmə prosesinin subyekti uşaq özü olur. O, özü ətraf mühitdə, internetdə nə görürsə, onu da götürür, həm də çox vaxt özü də bilmədən, məqsədsiz şəkildə. Əslində bu proses öyrətmə yox, öyrənmə prosesidir və təkcə uşaqlıq dövrünü deyil, insanın bütün həyatını əhatə edir. Bu proses təlim və tərbiyəyə aid olmadığı kimi, özünütəlim və özünütərbiyəyə də aid deyil. Belə ki, sonucda subyekt insan özü olsa da, bu, məqsədyönlü, istiqamətli bir prosesdir. Onun öz metodikası, üsulları ola bilər və insan bu metodlardan şüurlu surətdə istifadə edə bilər. Bu mənada internet məkanda (virtual aləmdə) özünütəlim və özünütərbiyə də əslində təlim-tərbiyə prosesinin tərkib hissəsidir. Sadəcə olaraq, burada həm subyekt, həm də obyekt rolunu bir şəxs oynayır.

Araşdırmalar zamanı məlum olur ki, informasiya mədəniyyəti, ilk növbədə, insanın gördüyü, eşitdiyi, oxuduğu məlumatları düzgün mənimsəməsindən, doğru özünütəlim və özünütərbiyədən çox asılıdır. İnternetdən istifadə edərkən əksər vaxtlar aldığımız informasiyalar dürüst olmur və bilməyərəkdən biz o informasiyaları mənimsəyirik. Qeyri-şüuri, kortəbii mənimsəmə prosesi isə, əslində, təbii inkişafın tərkib hissələrindən biridir. Söhbət hələ rüşeym halında ikən hər bir uşağa xas olan təbii inkişaf potensialın reallaşmasından gedir. Bu proses təkcə insana yox, bütün canlılara aiddir. Bitki də müvafiq enerji dəstəyi aldığı zaman toxumda olan potensialı reallaşdırır ki, bu da əslində onun təbii inkişafıdır. Heyvanlar da həmçinin – instinktlə yanaşı duyğu üzvləri vasitəsilə əldə olunan informasiya heyvanı daha "təcrübəli" edir və o öz mühiti daxilində hansı şəraitdə necə rəftar etməli olduğunu öyrənmiş olur. Lakin bu öyrənmə, bitkilərdən fərqli olaraq, iki komponentə ayrılır. Kortəbii mənimsəmə ilə yanaşı, bura valideynlərin öyrətməsi də daxildir. (6, 25)

Təhsil müəssisələrində isə müəllimlər yeni pedaqoji fəaliyyətlərində əlavə olaraq İKT-nin tətbiqi ilə şagirdlərə fənlərini öyrətməyə çalışırlar. Müəllimlər şagirdlərdə özünütərbiyənin, mədəniyyətin yeni üsul və metodik yanaşmalarını işləmək üçün peşəkarlıqlarının artırılmasında böyük dönüşlərə yol açırlar. Bu hal müəllimlərdən böyük ustalıq tələb edir. Bəzi tədqiqatçılar apardıqları araşdırmalardan belə qənaətə gəliblər ki, pedaqoji rəhbərlik sənəti özfəaliyyətini bacarıqla formalaşdırmaq və istiqamətləndirməkdən, onda təşəbbüskarlığı, müstəqilliyi, yaradıcı fəallığı, öz davranışını tənzimləmək və təkmilləşdirməkdən ibarətdir. Rusiyalı alim A.İ. Kovalyovun qənaətincə: "Özünütərbiyə insanın şüurlu, planlı və sistemli fəaliyyətidir. Hazırda və gələcəkdə məhsuldar fəaliyyəti nəzərdə tutur, şəxsiyyətin kamilləşməsi və yeni keyfiyyətləri qazanması işidir" (5, 33).

Bizim ölkədə istənilən şəxs istər ölkə Konstitusiyası, istərsə də ayrı-ayrı qanunlar, həmçinin Azərbaycan Respublikasının tərəfdar olduğu, qoşulduğu beynəlxalq sənədlər əsasında özünü ifadə edə, bu praktikanı təkbaşına və ya başqalarıyla birləşərək həyata keçirə bilər. Bu baxımdan insanlarımızın onlayn məkanda, yəni virtual aləmdə özünüifadəsi üçün nəinki şərait yaradılıb, ümumiyyətlə, heç bir əngəl tətbiq edilmir. Bu baxımdan ölkəmiz, hətta ən inkişaf etmiş ölkələrdən belə irəlidədir. Azərbaycanda yaşından, cinsiyyətindən, etnik və dini mənsubiyyətindən, sosial statusundan asılı olmayaraq, hər bir təhsilalan, məktəblilər virtual imkanlardan heç bir müdaxiləsiz istifadəetmə haqqına və imkanına malikdir. Bu isə ondan xəbər verir ki, dövlətimiz məktəblilərin də özlərini müdaxiləsiz ifadə edə bilməsi üçün lazım olan texnoloji imkanları ən yüksək səviyyədə təmin edir. Bu isə, öz növbəsində, şagirdlərin məsuliyyətini artıran amillərdən biridir. Yəni onlayn məkandakı şagirdlər həm də məsuliyyət hissini unutmamalıdırlar.

Azərbaycanın ümumtəhsil məktəblərində dərs deyən müəllimlər şagirdlərin İKT-dən istifadə etməklə mənəvi normalara və tələblərə daha səmərəli şəkildə yiyələnmələrinə çalışırlar. Nəticədə şagirdlərdə informasiya mədəniyyətinin formalaşdırılmasının ilk növbədə, özünütərbiyədən asılı olduğunu bildirirlər.

Təhsil müəssisələri İKT avadanlıqları ilə təchiz olunur. "Электронный Азербайджан" jurnalında yazıldığı kimi, ölkənin informasiya-kommunikasiya texnologiyaları sahəsinin gəlirlərinin artım səviyyəsi 13,7 faizə çatmışdır (3). Bu sahənin inkişaf göstəricisi dünya İKT sənayesinin artım səviyyəsindən iki dəfə artıq olmuşdur (4, 8). Bu proses daim sürətlə davam edir. İnternet məkanda informasiya bolluğu artır.

Saniyələrcə, saatlarca, günlər və aylarca yeni-yeni məlumatlarla zənginləşən internetdən informasiyanın doğruluğuna əmin olmaq lazımdır. Bunun üçün nə etməli? Hansı üsul və metodlardan istifadə etməli? İnformasiyaların güvənli olub-olmaması üçün, onları digərləri ilə paylaşarkən qarşı tərəfə necə təsir edib-etməməyini müəyyənləşdirmək üçün yollar axtarılmalıdır.

**Problemin aktuallığı**. Pedaqoji sahədə İKT-dən istifadə zamanı informasiya mədəniyyətinin formalaşdırılması problem kimi tədqiq olunmadığından bu sahədə araşdırmalar aktuallıq kəsb edir.

**Problemin yeniliyi**. Şagirdlərin təhsil alarkən İKT-dən istifadə etməklə informasiya mədəniyyətinin formalaşdırılması probleminə münasibət bildirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2000, 448 s.
2. Семенюк Э.Л. Информационная культура общества и прогресс информатики. НТИ., 1994, № 7
3. Электронный Азербайджан // 2010, 23 yanvar, № 51, s. 3
4. Strateji təhlil, Azərbaycanın daxili və xarici siyasəti. Beynəlxalq münasibətlər üzrə analitik jurnal // iyul-sentyabr. 2010, № 1, s. 7, 8, 14, 15
5. Ковалев А.Г. Самовоспитание школьников. М., 1997, с. 33-43
6. Xəlilov S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2005, s. 25
7. Abbasova R.X. Özünütərbiyə tələbələrin müəllim peşəsinə hazırlanmasının vasitəsi kimi: Ped. elm. dok. … dis. Bakı, 2008, s. 4

**E-mail**: bilgi@almazhasret.com

**Rəyçilər:** *ped.ü. fəls.dok.dos., dos.* **Ə.M. Abbasov,**
*ped.ü.fəls dok., dos.* **A.X. Hacıyev**

**Redaksiyaya daxil olub: 27.01.2020.**

UOT 372.854

***Günay Dilqəm qızı Quliyeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi işçisi*

# TAPŞIRIQLARIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ TƏRTİBİ

***Гюнай Дильгам гызы Гулиева***
*старший научный сотрудник*
*Института Образования Азербайджанской Республики*

# ОПРЕДЕЛЕНИЕ И РАЗРАБОТКА ЗАДАНИЙ

***Gunay Dilqam Guliyeva***
*Senior scientific worker*
*of Institute of Education of the Republic of Azerbaijan*

# IDENTIFICATION AND COMPILATION OF TASKS

**Xülasə.** Məqalədə təlim fəaliyyətinin, qiymətləndirmə prosesinin əsasında duran tapşırıqların müxtəlif tipləri, bu tapşırıq tiplərinin idrak taksanomiyası ilə əlaqəsini əks etdirən “tapşırıq düsturu” verilmişdir. Kimya fənninin timsalında bu düsturun tərkib hissələri şərh edilərək nümunələr verilmişdir. Tapşırığın tərtibi prosesini daha da səmərəli həyata keçirmək üçün "tapşırıq düsturuna" əlavə olaraq bu aspektləri birləşdirən xüsusi "Tapşırıq halqaları" modelindən istifadə təklif olunur.
***Açar sözlər:*** *qiymətləndirmə, sual, tapşırıq, kimya, şagird, təlim, fəaliyyət, tapşırıq halqaları modeli*

**Резюме.** В статье приводится «формула задания», которая описывает различные типы заданий, которые лежат в основе учебной деятельности, процесса оценивания и взаимосвязи этих типов заданий с когнитивной таксономией. Примером предмета Химии является объяснение составных частей этой формулы. Чтобы сделать процесс разработки заданий более эффективным, предлагается использовать специальную модель «колец заданий», объединяющих эти аспекты в «формулу заданий».
***Ключевые слова:*** *оценивание, вопрос, задача, химия, ученик, обучение, действие, модель колец заданий*

**Summary**. The article presents a “task formula” that describes the various types of tasks that underlie the learning activities, the assessment process, and the relationship of these types of tasks with cognitive taxonomy. An example of a chemical subject is an explanation of the components of this formula. To make the task development process more efficient, it is proposed to use a special model of “task rings”, which combines these aspects into a “task formula”.
***Key words:*** *- evaluation, question, task, chemistry, student, education, activity, model of task rings*

Qiymətləndirmə üçün seçilmiş sual və tapşırıqlar müxtəlif məzmunda olduğu kimi, formaca da rəngarəng olmalıdır. Müxtəlif sual tiplərinin işlənməsi qiymətləndirmə prosesini və nəticələri daha uğurlu etmək üçün vacibdir. Kimya fənnindən ən çox istifadə olunan tapşırıq tipləri aşağıdakılardır:

***Sxem 1***




Fəal dərsin mərhələlərinin təşkili üçün tətbiq olunacaq təlim metodunun müəyyənləşdirilməsi kimi tədqiqatın aparılması üçün istifadə olunacaq tapşırıqların müəyyənləşdirilməsi də təlim məqsədlərindən asılıdır. Müəllim tapşırığı tərtib etmək üçün əvvəl təlim məqsədlərini, sonra isə bu məqsədə nail olmaq üçün təlim fəaliyyətini müəyyənləşdirməlidir. Təlim məqsədinin müəyyənləşdirilməsi isə, ilk olaraq, idrak prosesinin və onun səviyyəsinin müəyyənləşdirilməsindən ibarətdir.

Tapşırığın özü texnoloji cəhətdən şagirdlərin hər hansı bir *fəaliyyət növünün* məsələn, izah et, tərtib et, hesabla və s), idrak kateqoriyasını səciyyələndirən *"Açar" sözlər* (məsələn, xassə, fərq, əhəmiyyət, quruluş, təsnifat və s.) və öyrənilən sahəyə aid *idrak predmetinin* (məsələn, maddə, efir, spirt, beynəlxalq, kimyəvi, fiziki və s.) qarışığından ibarətdir. Həmçinin hazırlanmış tapşırıq şagirdin bilik, bacarıq və vərdişlərini hansı formada nümayiş etdirməli olduğunu göstərməlidir. Yəni, tapşırıq nəticələrin nümayiş etdirilməsi formasını və ya təqdimat formasını nəzərdə tutmalıdır.

**1.** ***Fəaliyyət növü*** - şagirdin təlim məqsədinə uyğun olaraq həyata keçirdiyi təlim fəaliyyətini əks etdirir. Fəaliyyət növünün məzmunu birbaşa təlim məqsədlərindən asılıdır.

***Fəaliyyət növlərinə nümunələr***

| ***FƏALİYYƏT NÖVLƏRİ*** | | | |
|---|---|---|---|
| **Təsnif et** | Oxşarlıqları və fərqi tap | Müqayisə et | Fərqləndir |
| **İzah et** | Qruplaşdır | Qur | Tərtib et |
| **Əlaqələndir** | Altından xətt çək | Müəyyən et | Müşahidə et |
| **Hesabla** | İfadə et | Uyğunluğu tap | Göstər |

**2.** ***" Açar" sözlər*** - hər hansı bilik sahəsinin öyrənilməsinin əsasını təşkil edən universal idrak kateqoriyalarını əks etdirir. Universal idrak kateqoriyaları şagirdin təfəkkür proseslərini dəqiq istiqamətləndirir, tənzimləyir, səmərəli düşünmə qabiliyyətini inkişaf etdirir. Əgər biz şagirdə adi sual veririksə (məsələn, Bu necədir?), o, müxtəlif idrak kateqoriyaları (obyektin xüsusiyyətləri, sinifi, əhəmiyyəti) arasında cavablar axtaracaq. "Açar" sözün suala əlavə olunması (məsələn, "Verilmiş maddənin hansı xüsusiyyətləri var?", "Verilmiş maddə hansı sinifə aiddir?, " Verilmiş maddənin nə kimi əhəmiyyəti (rolu) var?") şagirdə cavabın hansı istiqamətdə axtarılmasına yol göstərir. "Açar" sözlər əsasında sualların verilməsi bacarığının şagirdlərə aşılanması onun düşünmə qabiliyyətini daha dəqiq və savadlı edir.

***"Açar" sözlərə nümunələr***

| **"AÇAR" SÖZLƏR** | | | |
|---|---|---|---|
| **Nümunə** | Məsələ | Xassə | Mərhələ |
| **Fərq** | Üsul | Qanunauyğunluq | Tətbiq |
| **Sinif** | Qayda | Keyfiyyət | Məhsul |

**3.** ***İdrak predmeti*** - hər hansı fənn və ya bilik sahəsinin cisim və ya hadisəsini bildirən anlayış.

**4.** ***Təqdimat forması*** - təlim nəticələrinin nümayiş etdirilməsi yollarının təzahürü.

***Təqdimat formalarına nümunələr***

| **TƏQDİMAT FORMALARI** | | | |
|---|---|---|---|
| **Cədvəl** | Nümunə | Şəkil | Multimediya prezentasiyası |
| **Layihə** | Rollu oyun | Təcrübə | Qrafik |
| **Təqdimat** | Sxem | Yazı | Məsələ |

Təlim tapşırığının tərkib hissələrini "tapşırıq düsturundan" istifadə etməklə göstərmək olar.

*Tapşırıq =Fəaliyyət növü +" Açar" söz + İdrak predmeti + Təqdimat forması*

***Tapşırığın tərtibi texnologiyasına («Tapşırıq düsturuna») nümunələr***

| **Təlim məqsədləri (idrak prosesləri və səviyyələri)** | **Fəaliyyət növü** | **"Açar" sözlər** | **İdrak predmeti** | **Tapşırıq nümunələri, nəticələrin təqdimatı ilə birgə** |
|---|---|---|---|---|
| **Hafizə (yadda saxlamaq )** | Göstərmək | Alınma üsulları | Sirkə aldehidi | Sxem vasitəsilə sirkə aldehidinin laboratoriyada alınma üsullarını göstər |
| **Məntiqi təfəkkür (anlamaq, tətbiq etmək, təhlil etmək)** | Yazmaq | Ardıcıllıq | Aqreqat hal | Verilmiş qrafikə əsasən üzvi maddələrin aqreqat halının dəyişməsi ardıcıllığını yazın |
| **Tənqidi təfəkkür (dəyərləndirmək)** | Göstərmək | Səbəb və yolları | Üzvi maddə | Bir sıra üzvi maddələrin ətrafı çirkləndirməsinin səbəblərini və yollarını göstərir |
| **Yaradıcı təfəkkür (yaratmaq)** | Araşdırmaq, Hazırlamaq | Üzvi və qeyri-üzvi mənbələr, mühafizə | Atmosferin çirklənməsi problemi | Atmosferi çirkləndirən əsas üzvi və qeyri-üzvi mənbələri araşdırın və onların mühafizəsi ilə bağlı təkliflər hazırlayın |

Beləliklə, tapşırığın tərtibi texnologiyasını aşağıdakı alqoritm şəklində göstərmək olar:

**1.** Təlimin məqsədlərini müəyyən etmək: hansı idrak prosesini və hansı səviyyədə inkişaf etdirmək;

**2.** Təlim məqsədlərinə uyğun olan fəaliyyət növünü seçmək;

**3.** Təlim məqsədlərinə uyğun olaraq "açar" sözü və idrak predmetini seçmək;

**4.** *Gözlənilən təlim nəticələrini nümayiş etdirmək və təqdimat formasını müəyyən etmək.* Tapşırığın tərtibi prosesini daha da səmərəli həyata keçirmək üçün "tapşırıq düsturuna" əlavə olaraq bu aspektləri birləşdirən xüsusi "Tapşırıq halqaları" modelindən istifadə etmək olar.

"Tapşırıq halqaları" modelinin əsas məqsədi müəllimə fəal-interaktiv təlim üçün tapşırıqların tərtib edilməsində kömək edən faydalı alətin hazırlanması idi. Modeldə bir-biri ilə zəncirvari əlaqəli olan, idrak amillərini əks etdirən sistem verilmişdir:

a) idrak proseslərinin növlərinin (hafizə, mənt iqi, tənqidi və yaradıcı təfəkkür);

b) idrak məqsədlərinin səviyyələrinin;

c) onlara müvafiq təlim fəaliyyətlərinin;

d) "açar" sözlərin;

e) "təqdimat formalarının".

Model dörd halqadan və hər bir halqa müxtəlif sayda seqmentlərdən ibarətdir:

1) Mərkəzi (birinci) halqada əsas idrak prosesləri (hafizə, məntiqi, tənqidi və yaradıcı təfəkkür) əks olunub (4 seqment);

2) İkinci daxili halqanın 6 seqmentin tərkibi mərkəzi halqadakı idrak proseslərinə müvafiq olan L. Anderson və D. Kratvolun idrak taksonomiyasının 6 səviyyəsindən (təlim məqsədlərindən) ibarətdir: yadda saxlamaq – hafizə, anlamaq, tətbiq etmək, təhlil etmək – məntiqi təfəkkür, dəyərləndirmək – tənqidi təfəkkür, yaratmaq – yaradıcı təfəkkür;

3) Orta III halqadakı seqmentlərdə hər bir idrak səviyyəsini (II halqa) təsvir edən və müvafiq idrak prosesinə (I halqa) əsaslanan təlim fəaliyyətləri üzrə fellər təklif olunur;

4) Son IV halqa 2 növ seqmentə bölünüb: III halqadakı fəaliyyətlərin həyata keçirilməsinə kömək edən "açar" sözlər (I seqment) və təlim nəticələrini nümayiş edən "təqdimat formaların" nümunələri (II seqment) əks olunub.

Bununla fəal-interaktiv təlim üçün tapşırıqların hazırlanması məqsədilə müəllim idrak predmetini nəzərə almaqla:

1. Əvvəl I halqadan idrak prosesini və II halqada müvafiq təlim məqsədini müəyyənləşdirir;

2. Sonra təlim məqsədlərinə müvafiq olan fəaliyyət növlərini (III halqa) müəyyənləşdirir;

3. Sonda fəaliyyət növünə müvafiq olan «açar» sözünü və təqdimat formasını seçir (IV halqa).

**Problemin aktuallığı.** Şagirdlərdə maraq və diqqətin yaranmasına imkan verəcək müxtəlif tipli tapşırıqların hazırlanması problemi bu gün kimya fənn müəllimlərinin ən çox çətinlik çəkdikləri məsələlərdən biridir. Bu isə bir daha problemin nə dərəcədə aktual və vacib olduğunu sübut etmiş olur.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə tapşırıqların tipləri, bu tapşırıq tiplərinin tərtibini asanlaşdıracaq "tapşırıq düsturu" və "tapşırıq halqaları modeli" ətraflı və sistemli şəkildə araşdırılaraq müxtəlif nümunələr ilə təqdim edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Müasir məktəblərdə təhsilalanların qiymətləndirilməsinin təhsil sisteminin üzvi komponentlərindən biri olduğunu nəzərə alaraq hazırlanmış bu məqalə təhsilverənlər üçün istiqamətverici vasitə olacaqdır.

**Ədəbiyyat:**

1. Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə., Bakı, 2007.

2. Black P., Harrison C., Lee C., Marshall B., & Wiliam D. (2003) *Assessment for Learning: Putting it into practice*. Berkshire, England: Open University Press.

3. Butler D.L. & Winnie P.H. (1995) Feedback and self-regulated learning: a theoretical synthesis. *Review of Educational Research, 65*(3), 245-281.

4. Sadler D.R. (1998) Formative assessment: revisiting the territory. *Assessment in Education, 5*(1), 77-84.http://www.eduplace.com/science/profdev/articles/badders.html - author

5. William Badders - Methods of Assessment

**E-mail:** chemist.gunay@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok.* **A.H. Əliyev**
*ped.ü.fəl.dok., dos.* **İ.A. Cavadov**

**Redaksiyaya daxil olub: 01.02.2020.**

UOT 377

***Təranə Zakir qızı Piriyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# PEŞƏ TƏHSİLİ PİLLƏSİNDƏ PARTNYORLUĞUN İNSAN KAPİTALININ FORMALAŞMASINDA ROLU

***Тарана Закир гызы Пириева***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# РОЛЬ ПАРТНЕРСТВА В ФОРМИРОВАНИИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА НА СТУПЕНИ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ

***Tarana Zakir Piriyeva***
*doctorial student in the proqramme of a Ph.D*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# THE ROLE OF PARTNERSHIPS IN VOCATIONAL EDUCATION IN THE FORMATION OF HUMAN CAPITAL

**Xülasə:** Təhsil insanların əmək bazarında layiqli yer tutmalarını təmin etməkdə və xüsusilə insan kapitalının formalaşmasında mühüm rol oynayır. Ölkənin uğurlu və dayanıqlı iqtisadi artımına insan kapitalının hədəfli inkişafı sayəsində nail olmaq mümkündür. Peşə təhsilinin inkişaf səviyyəsi birbaşa işin keyfiyyəti, təlimin əmək bazarına uyğunlaşdırılması və ən qısa müddətdə məzunların işə götürülməsi kimi tələblərlə birbaşa müəyyən edilir. Bu tələblərə yüksək səviyyədə uyğunlaşma peşə təhsili müəssisələrinin işəgötürənlərlə partnyorluğu sayəsində mümkündür.

***Açar sözlər:*** *insan kapitalı, peşə təhsili müəssisələri, partnyorluq, formalaşdırmaq, əmək bazarı, işəgötürənlər*

**Резюме:** Образование играет решающую роль в обеспечении того, чтобы люди занимали достойное место на рынке труда, и особенно в формировании человеческого капитала. Успешный и устойчивый экономический рост страны может быть достигнут за счет целенаправленного развития человеческого капитала. Уровень развития профессионального образования напрямую определяется такими требованиями, как качество труда, адаптация обучения к рынку труда и трудоустройство выпускников в кратчайшие сроки. Высокий уровень соблюдения этих требований возможен благодаря партнерству учреждений профессионального образования с работодателями.

**Ключевые слова:** *человеческий капитал, учреждения профессионального образования, партнерство, формирование, рынок труда, работодатели*

**Summary:** Education plays a crucial role in ensuring that people occupy a worthy place in the labor market, and especially in shaping human capital. Successful and sustainable economic growth of the country can be achieved through the targeted development of human capital. The level of development of vocational education is directly determined by such requirements as quality of work, adaptation of training to the labor market and employment of graduates in the shortest possible time. A high level of compliance with these requirements is possible thanks to the partnership of vocational education institutions with employers.

***Key word:*** *human capital, vocational education institutions, partnerships, education, labor market, employers*

Təhsil insanların əmək bazarında layiqli yer tutmalarında və xüsusilə də peşə təhsili pilləsi insan kapitalının formalaşdırılmasında həll-edici rola malikdir. İnsan kapitalının məqsədyönlü inkişafı sayəsində ölkənin uğurlu və davamlı iqtisadi yüksəlişinə nail olmaq olar. Ölkə-

də insan kapitalının inkişafı davamlı iqtisadi inkişafa və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və bu yolla ölkənin beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına təsir edir və bu ölkənin təhsil sisteminin başlıca vəzifələrindən biridir.

Sürətli texnoloji tərəqqi bilik və bacarıqların müntəzəm yenilənməsinə, yeni ixtisaslara yiyələnməyə və daha münasib səriştələrin inkişafına tələbat yaradır. Peşə təhsili müəssisələrində təhsilin məzmununun səriştəyə əsaslanması sosial-iqtisadi inkişafa daha effektiv təsir edir. Səriştə əldə edilmiş bilik və bacarıqların konkret praktiki fəaliyyətdə tətbiq edilməsi qabiliyyətidir. İstehsalat təcrübəsi yolu ilə işəgötürənlərlə yaradılmış sistemli partnyorluq sayəsində təhsilalanlar səriştələrini möhkəmləndirə, qabiliyyətlərini təkmilləşdirə bilərlər.

İşəgötürənlərlə partnyorluq vasitələrindən biri istehsalat təcrübəsidir. İstehsalat təcrübəsi peşə təhsilinin məhsuldar karyeraya aparan yol olmasında əvəzolunmaz rol oynayır. İstehsalat təcrübəsi işəgötürənlərin yeni bacarıqlı gənc işçilərdən nə gözlədiklərini tam anlamalarına kömək edir, hazır kadrların yetişməsinə təkan verir. İstehsalat təcrübəsi gənclərin bacarıqlarını inkişaf etdirmək baxımından, işəgötürənlərin namizədlərdən gözlədiyi zəruri bacarıq, qabiliyyət və davranışların əldə edilməsi baxımından çox əhəmiyyətlidir. Daha mürəkkəb əmək funksiyalarını yerinə yetirmək və eləcə də normativə uyğun xidmət zonasında fəaliyyət göstərmək, peşə vərdişlərinin təkmilləşdirilməsi yalnız istehsalat təcrübəsi zamanı həyata keçirilir (5, s. 40).

Əmək bazarının subyektləri olan dövlət və qeyri-dövlət sektorunda tələbatın sistematik öyrənilməsi vacibdir. Bu maraqlı tərəflərin cəlb olunması yolu ilə peşə təhsili müəssisələrində təhsilin keyfiyyətinin dayanıqlı yüksəldilməsindən, təhsilin səmərəli idarə edilməsinin təmin olunmasından asılıdır.

Hazırda ölkədə 37 peşə məktəbi, 28 peşə liseyi, 14 peşə təhsil mərkəzi və 1 peşə-tədris mərkəzi mövcuddur (11). Azərbaycanda peşə təhsili pilləsi üzrə ilk peşə təhsili, texniki peşə təhsili, yüksək texniki peşə təhsili səviyyələrinə uyğun olaraq məzunlara ilk, texniki, subbakalavr peşə-ixtisas dərəcəsi verilir (10).

Peşə təhsilinin inkişaf səviyyəsi bilavasitə əməyin keyfiyyəti, kadr hazırlığının əmək bazarına uyğunlaşdırılması, məzunların qısa zaman ərzində işlə təmin olunması kimi tələblərin hansı səviyyədə təmin edilməsi ilə müəyyən edilir. Adı çəkilən tələblərin yüksək səviyyədə ödənilməsi peşə təhsili müəssisələrinin işəgötürənlərlə partnyorluğu sayəsində mümkündür.

Partnyorluq dedikdə, ümumi maraq və məqsədləri olan iki və ya daha çox subyektin könüllü surətdə birləşərək qarşılıqlı faydalı fəaliyyət göstərmələri nəzərdə tutulur. Bərabərhüquqluluq partnyorluğun vacib atributudur. Əgər rəqabətin mahiyyəti yarışdırsa, partnyorluğun mahiyyəti dəstəkdir (1, s. 105).

Tez dəyişən iş dünyasına gənclərin hazırlanmasına və həvəsləndirilməsinə məhz peşə təhsili müəssisələri ilə işəgötürənlərin partnyorluğu nəticəsində nail olmaq olar. İşəgötürənlər gənclərə karyera həyatında dəstək olmaqla özlərini mükafatlandıra bilər. Çünki, zəngin nəzəri və praktik biliyə malik kadrlar əmək məhsuldarlığının yüksək səviyyədə olmasına gətirib çıxaracaqdır. Gənclərin öz iş dünyasında uğur qazanmalarında peşə təhsili müəssisələri və işəgötürənlər mühüm rol oynayırlar. İşəgötürən iş dünyası haqqında daha çox məlumat əldə etmək üçün gənclərin yeganə acar vasitəsidir (Şəkil 1).



Partnyorluğun peşə təhsili müəssisələrinə, işəgötürənlərə və dövlətə faydası aşağıdakılardan ibarətdir:

- Peşə təhsili müəssisələrinə faydası, işçi heyətin müasir inkişafla bağlı məlumat əldə etməsi, şagirdlərin iş təcrübəsi ilə təmin edilməsi və onlar üçün real iş imkanlarının yaradılması;
- İşəgötürənlərə faydası, gələcək potensial işçilərin müəyyənləş-dirilməsi;
- Dövlətə faydası isə peşə təhsili müəssisələri məzunlarının əmək bazarının tələblərinə uyğun olaraq hazırlanması, onlar üçün iş imkanlarının artması və nəticədə işsizliyin və yoxsulluğun aradan qaldırılması və iqtisadi inkişafın yüksəlməsi.

Əvvəllər planlı iqtisadiyyat sistemində peşə təhsili müəssisələrinin məzunları təhsillərini bitirdikdən sonra dövlət tərəfindən istiqamətləndirilən və maliyyələşdirilən sənaye müəssisələrində iş təcrübəsi ilə və işlə təmin edilirdilər. Belə ki, əmək potensialını formalaşdıran təhsil sistemi ilə istehsalat arasında sıx əlaqə mövcud idi. Bu istehsalat və peşə hazırlığı sistemləri arasında kəsilməz əlaqə informasiya axını yaradırdı ki, bu da nəinki istehsalatın ayrı-ayrı sahələrinin, hətta konkret müəssisələrin tələbatına uyun olaraq əmək bazarının planlaşdırılmasını və proqnozlaşdırılmasını təmin edirdi (6, s. 4).

Böyük sənaye müəssisələrinin bağlanması və yenidən qurulması nəticəsində müxtəlif peşələrə olan tələbatda dəyişiklik baş vermiş və boş iş yerləri və işçilərin bacarıqları arasında uyğunsuzluq yaranmışdır. Nəticədə təhsil sahəsi və biznes qurumları arasında əlaqələr zəifləmişdir. Yaranmış problemin həlli məqsədilə peşə təhsili müəssisələri işəgötürənlərlə fəal şəkildə partnyorluq edərək onların ehtiyaclarını müəyyənləşdirməli, ehtiyaclara uyğun olaraq kurikulumlarda və təlim proqramlarında müvafiq dəyişikliklər etməli və iş təcrübəsi təşkil etməlidirlər. Əksər hallarda işəgötürənlərlə əlaqələr peşə təhsili müəssisələrinin direktorlarının və işəgötürənlərin rəhbərlərinin şəxsi təşəbbüsü ilə qurulur. İşəgötürənlər peşə təhsili müəssisələrini onların tələblərinə uyğun məzunlar hazırlamamaqda günahlandırır, peşə təhsili müəssisələri isə biznes müəssisəsində təcrübə üçün şəraitin yaradılmamasından narazılıq edirlər. Əmək bazarı əhalinin işə düzəlməsini, peşəyönümünü, peşə hazırlığını və yenidən hazırlanmasını, işçi qüvvəsinə tələb və təklif arasındakı tarazlaşdırmanın əldə olunmasını tənzimləyir (7, s. 40).

Qloballaşma prosesi müxtəlif dövlətlərin təhsil sisteminin inteqrasiyasını şərtləndirir. Təhsil sahəsində dövlətin vəzifələrindən biri milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını, beynəlxalq standartlara cavab verən təhsil şəraitinin və mühitinin yaradılmasını təmin etməkdir. Bu vəzifələrin yerinə yetirilməsi peşə təhsili pilləsinə, o cümlədən, peşə təhsili müəssisələrinin idarə etməsinə də şamil olunur.

Əmək bazarının dəyişən tələblərinə uyğun təhsil proqramlarının tətbiqi mühəndis-pedaqoji heyətin bilavasitə peşə-ixtisas səviyyəsinin yüksəldilməsindən asılıdır. Başqa cür desək bu yalnız müasir kurikulumların hazırlanmasını, təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsini təmin edən yeni sistemin yaradılması sayəsində mümkün ola bilər. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Strategiyasında qarşıya qoyulmuş hədəflərdən biri məhz budur (3).

Peşə təhsili müəssisələri təlimlərinin keçirilmə keyfiyyətini yüksəltməklə işəgötürənlərin ehtiyaclarına daha çox uyğunlaşmalı, işəgötürənlər gənclərin öz karyeraları haqqında daha əlverişli məlumatlar əldə etmələri üçün peşə təhsili müəssisələri ilə daha sıx əlaqə yaratmalıdırlar. Hər hansı peşə sahibi peşə təhsili müəssisələrində təqdimatlar keçirməklə, öz təcrübələri haqqında danışmaqla işəgötürənlərin axtardığı peşə keyfiyyətlərini və xüsusiyyətlərini canlandırmaqla təhsilalanlarda geniş təsəvvür yarada bilər. Bu cür təşəbbüs peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında partnyorluğu formalaşdırmaqla perspektivləri əlaqələndirir. Bu qəbildən olan mübadilə gənclərə öz gələcək karyeraları barədə qərar qəbul etmək üçün böyük dəstək verə bilər. Bazar iqtisadiyyatında inkişaf etmiş ölkələrin nümunəsində bir sıra qarşılıqlı faydalı olan işəgötürənlərlə partnyorluq nümunələrini qeyd etmək olar:

- Bəzi şirkətlər məktəblər üçün avadanlıq təklif edirlər.
- Bəzi şirkətlər öz müəssisələrində əsl iş şəraitində şagirdlər üçün təcrübə təşkil edilər.
- Bir çox işəgötürənlər şagirdlərə materiallar və maliyyə dəstəyi, həmçinin təhsillərini davam etdirə bilmələri üçün digər növ maliyyə vəsaitləri və təqaüd verməyi təklif edirlər.

- Müəllim heyəti öz bacarıqlarını sürətlə dəyişən iş şərtlərinə uyğunlaşdırmaq üçün təlim məşğələlərində iştirak edərlər.
- Partnyorluğun üzvləri təlim proqramlarını birgə icra etmək üçün maliyyə vəsaiti əldə etmək və ya institusional quruculuq proqramları və beynəlxalq layihələr həyata keçirmək məqsədilə birgə layihələr hazırlayırlar.
- İxtisaslı müəllimlərin sayının kifayət qədər olmaması problemi, həm məktəb, həm də şagirdlərə fayda verməklə, işəgötürənlərlə birgə həll edilə bilər.

Eyni zamanda peşə təhsili müəssisələri gənclərdə "Sahibkarlığın tədrisi"ni həyata keçirməklə onlarda sahibkarlıq bacarıqlarını formalaşdıraraq kiçik və orta sahibkarlığın inkişafına və işsizliyin aradan qaldırılmasına dəstək ola bilər. Sahibkarlıq bacarıqlarının aşılanması özündə komandada işləmək, ünsiyyət qura bilmək, problemi həll etmək, maliyyə baxımından savadlılıq, hədəf təyin etmək kimi bacarıqları aşılamalıdır.

Peşə təhsili müəssisələrinə qəbul nəticələrinin keyfiyyət göstəricilərinin artırılması peşə təhsilinə marağın artırılması və təhsilin keyfiyyətinin yüksəldilməsi ilə düz mütənasib asılıdır.

Ölkə iqtisadiyyatının tək milli əmək bazarında deyil, beynəlxalq əmək bazarında da rəqabət qabiliyyətli ixtisaslı kadrlarla təmin olunması hər şeydən əvvəl dinamik təhsil sisteminin yaradılmasından asılıdır. Bu dinamiklik, ilk növbədə, əmək bazarının tələblərini nəzərə ala bilən peşə təhsili sisteminin yaradılmasında özünü ehtiva etməlidir. İqtisadi artımın başlıca şərtlərindən biri əmək bazarının tələblərinə adekvat hazırlıqlı kadrların mövcudluğudur.

Mühəndis-pedaqoji heyətin özü peşə-ixtisas səviyyəsinin yüksəldilməsi üçün dəyişən əmək bazarının tələblərinə uyğun tədris məzmununu dərindən bilməli və tədris etməyi bacarmaları üçün mütəmadi təlimlərə cəlb edilməlidirlər. Yeni təsnifatının hazırlanması və tətbiqi məhz əmək bazarının tələblərinə cavab verməlidir.

Peşə təhsili müəssisələrini bitirən şəxslərin istiqamətləndirilməsi işlərinin görülməsi çox vacib məqamlardan biridir ki, bu isə müasir peşə mərkəzləri sayəsində mümkündür. Müasir peşə mərkəzlərində beynəlxalq əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində işlərin həyata keçirilməsi yüksək ixtisaslaşma yolu ilə həyata keçirilə bilər. Müasir peşə mərkəzləri məzunlarına veriləcək təhsil sənədlərinin beynəlxalq təşkilatlar tərəfindən tanınması daha stimullaşdırıcı xarakter daşımaqla peşə təhsili müəssisələrinə ictimai marağın artırılmasına gətirib çıxaracaqdır. Peşə təhsil müəssisələrinə ictimai marağın artırılması gənclər arasında məşğulluğun artırılmasına, işsizliyin aradan qaldırılmasına, bir sözlə insan kapitalının formalaşdırılmasına təkan verəcəkdir.

Peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əlaqələrin möhkəmləndirilməsi gənclərin işlə təmin olunmasına gətirib çıxaracaqdır. İşəgötürənlər peşə təhsili müəssisələri arasında faydalı partnyorluğun dəstəklənməsi üçün qanunvericilik baxımından hüquqi bazanın zənginləşdirilməsi çox vacibdir.

Hazırda peşə təhsili sahəsində bir sıra layihələr tətbiq edilir ki, bunlardan biri "Qəbələ, İsmayıllı və Qax rayonlarında kənd təsərrüfatı və turizm sahəsində dualabənzər peşə təhsili və təlimi pilotlarının yaradılması" EDVET layihəsidir. Layihə 2017/2020-ci illəri əhatə edir və layihənin əsas hədəflərindən biri peşə mərkəzləri ilə partnyorluq edən özəl müəssisələr, kiçik və orta sahibkarların sayını artırmaq və peşə təhsili müəssisələrinin imkan və nüfuzunu artırmaqdır (8, s. 77).

Çevik peşə təhsili sisteminin formalaşdırılması insan kapitalının əmək bazarındakı dəyişikliklərə tez adaptasiya olunmasına təkan verəcək və ixtisaslı kadrların formalaşdırılmasını şərtləndirəcəkdir. Qeyri-neft sektorunun inkişafı əmək bazarında rəqabət qabiliyyətli və ixtisaslı kadrlara tələbatı artırır. Əmək bazarındakı ixtisaslı kadrların olması, rəqabət qabiliyyətinin yüksəldilməsinə və peşə standartlarının daha da təkmilləşdirilməsinə əlverişli zəmin yaradır. Təhsilin keyfiyyətinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, məşğulluq imkanlarının artırılması peşə təhsilinin cəlbediciliyinə və ictimai marağın artırılmasına səbəbdir.

**Problemin aktuallığı.** Məqalədə vurğulanan məsələlər aktuallığı ilə diqqət çəkir, araşdırılması əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə toxunulmuş problem praktik əhəmiyyətə malik olduğu kimi elmi cəhətdən də əsaslandırılıb.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən peşə təhsili müəssisələrinin direktorları, tələbələr, magistrlər, doktorantlar, ümumiyyətlə bu problemlə maraqlanan hər kəs bəhrələnə bilər.

**Ədəbiyyat**:
1. Atakişiyev B. S. Beynəlxalq münasibətlər lüğəti. Bakı, 2009, 138 s.
2. Azərbaycanda peşə təhsili və təliminin inkişafına dair Strateji yol Xəritəsi, Bakı, 2016, 52 s.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası, Bakı: 2013, http://www.e-qanun.az/framework/27274
4. Əsgərov R.B., Qurbanov M.R. İlk peşə-ixtisas təhsili: problemlər və perspektivlər. Bakı: "Şahin-MB" MMC, 2016, 250 s.
5. Əzizov R.Z. Yeni iqtisadi şəraitdə ilk peşə-ixtisas təhsili müəssisələrində məhsuldar əməyin təşkili üzrə iş sistemi: Ped. ü.fəls. dok. ...dis. Bakı, 2010, 171 s.
6. Fərəcov Ə.S. Rəqabət qabiliyyətli kadrların hazırlanmasında əmək və peşə təhsili xidmətləri bazarlarının qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi və modelləşdirilməsi: İqt. ü.fəls. dok. ...dis. Bakı, 2008, 157 s.
7. Mehbalıyev M.S., İsgəndərov R.K. Əmtəə bazarı və əhalinin sosial müdafiəsi. Bakı: Çaşıoğlu, 2002, 543 s.
8. Məmişzadə M. N. Azərbaycanda dual peşə təhsilinin tətbiqi əhəmiyyəti // Peşə təhsili və insan kapitalı, 2019, № 3, s. 73-78
9. Orucov X.H. Peşə məktəbi və liseylərində ixtisaslı fəhlə kadrların hazırlığının pedaqoji əsasları: Ped.ц. fəls.dok ...dis. Bakı. 2005, 365 s.
10. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı: 2009, http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm
11. https://vet.edu.gov.az/az/centers/cat/1

**E-mail**: piriyeva.tarana.zakir@gmail.com

**Rəyçi**: *ped.ü. fəls.dok., prof.* **P.B. Əliyev**

**Redaksiyaya daxil olub: 21.01.2020**

## *TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ, QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

UOT378

***Gülarə Məhəmməd qızı Qocayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*baş müəllimi*
*pedaqogika üzrə fəlsəfə doktoru*

# DÜNYA TƏHSİLİNƏ İNTEQRASİYANIN PEDAQOJİ KADR HAZIRLIĞINDA KEYFİYYƏTİN İDARƏ OLUNMASINA TƏSİRİ

***Гюляра Мухаммед гызы Годжаева***
*доктор философии по педагогике, старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ВЛИЯНИЕ ИНТЕГРАЦИИ В МИРОВОЕ ОБРАЗОВАНИЕ НА УПРАВЛЕНИЕ КАЧЕСТВОМ ПРИ ПОДГОТОВКЕ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

***Gulnara Mohammad Gojayeva***
*senior lecturer*
*at Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in pedagogy*

# THE IMPACT OF INTEGRATION INTO WORLD EDUCATION ON THE QUALITY OF PEDAGOGICAL STAFF TRAINING

**Xülasə.** Elmi məqalədə dünya təhsilinə inteqrasiyanın pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunmasına təsiri istiqamətləri tədqiqata cəlb olunmuşdur. Təhsil menecmenti idarəetmə sahəsi olaraq elmi-nəzəri baxımdan araşdırılmışdır.

***Açar sözlər:*** *Bolonya, inteqrasiya, ali təhsil, konfrans, qiymətləndirmə, beynəlxalq, keyfiyyət*

**Резюме.** Научная статья посвящена влиянию интеграции в мировое образование на управление качеством подготовки педагогических кадров. Управление образованием было научно - теоретически рассмотрено как область управления.

***Ключевые слова:*** *Болонья, интеграция, высшее образование, конференция, оценивание, международная, качество*

**Summary.** The scientific article focuses on the impact of integration into world education on the quality of training in pedagogical staff training. Educational management has been scientifically-theoretically examined as a management area.

***Key words:*** *Bologna, integration, higher education, conference, evaluation, international, quality*

Bolonya prosesi genişlənib dərinləşdikcə bu dəyişikliklər ali təhsil sisteminin keyfiyyətinə diqqəti daha da artırır və müvafiq islahatların başlıca hüquqi, etik tərkib hissələrindən birinə çevrilir. Çoxlu sayda ekspertlərin fikrincə, Bolonya Bəyannaməsi Avropa təhsil sahəsində ali təhsilin keyfiyyətinin təmin olunması üzrə mövqeyini hələlik lazımi qədər dəqiqliklə müəyyən edə bilməmişdir. Qeyd etmək vacibdir ki, ali təhsil idarələrinin nazirlərinin Praqa konfransından başlayaraq təhsildə keyfiyyətin təmin edilməsinə dair çıxışları Bolonya prosesinin ən aparıcı mövzularından biridir. Bu mövzular Bolonya Bəyannaməsini imzalamış bir sıra ölkələrin təhsil nazirlərinin sentyabr 2003-cü il tarixində keçirilmiş Berlin konfransında yeni bir dinamika təzahür etdi.

Konfransda keyfiyyətin təmin olunması, ikipilləli təhsil sistemi, dərəcələrin eləcə də tədris müddətlərinin tanınma məsələləri proseslərin ən mühüm prioritetlərindən biri olaraq müəyyənləşdirildi. Prosesin iştirakçısı olan bütün dövlətlər 2005-ci il tarixinə qədər təhsilin keyfiyyətinin təmin olunması sisteminin işlənib hazırlanması məsələsini önə qoydu. Eyni zamanda, keyfiyyətli təmin etmək və üçpilləli təhsil sistemi Avropanın hər yerində özünü əks etdirdi.

Konfransda iştirak edənlər bütün mövcud mexanizmlərin 2005-ci il tarixinə qədər işə düşməsi ilə razılaşdılar. Ümumavropa səviyyəsinə gəldikdə isə, burada Berlin konfransı Avropa Universitetlər Assosiasiyasına, Avropa Tələbələr İttifaqı və eləcə də Avropanın Ali Təhsilində Keyfiyyətə Nəzarət Sistemi Şəbəkəsinə təhsilin keyfiyyətinin təmin olunması üzrə standartlar, prosedurlar, həmçinin metodik tövsiyələr toplusunu işləyib hazırlamağı, nəzarətin və akkreditasiyanın təmin olunması üzrə idarələr və agentliklər üçün xarici ekspertizaların məqbul sisteminin yaradılması imkanlarını tətbiq etməyi tapşırmışdır. Ali təhsilin keyfiyyət məsələlərinə ciddi diqqət edilməsi bir sıra səbəblərlə izah olunur. Yəni Avropanın milli təhsil sistemlərinin bir çoxunda son onillikdə təhsil proseslərinə nəzarət monitorinqi özünü göstərir. Mühüm məsələlərdən biri tədris prosesinin şəxsi hazırlıq səviyyəsinə istiqamətləndirilməsi, yəni kompetentli yanaşma olmalıdır. Bu zaman, birinci növbədə məzunlar işlə təmin edilməlidirlər ki, bu da təhsil səviyyəsinin göstərdiyi nəticələrin meyarı olacaq. Belə bir vəziyyətdə keyfiyyəti təminetmə mexanizmləri və eləcə də təhsil bu cür nəticələrə əsasən idarəetmənin mərkəzi tərkib hissəsinə çevrilmiş olur.

Avropanın ali məktəblərinin və Avropanın ali təhsilinin cəlbediciliyi bütövlükdə birbaşa Avropada keyfiyyətli təhsil almaq imkanını vurğulayır. Bu qeyd olunan məsələdə aylıq əmək haqqı lazımi dərəcədə yüksəkdir və mühüm məsələ isə dünya təhsil xidmətləri bazarında Avropanın ali məktəblərinin rəqabətqabiliyyətliliyini artırmaqdan gedir. Avropada ali təhsil sistemində keyfiyyəti təminetmə və qiymətləndirmə sisteminin inkişaf etdirilməsi ilə əlaqədar bəzi faktlara baxaq. 1980-ci ilə qədər Avropa universitetlərində keyfiyyətlə əlaqədar problem elan olunsa da, bu keyfiyyətin təmin olunması üçün ali məktəblər, eləcə də hökumətlər səviyyəsində xüsusi mexanizmlər, həmçinin vasitələr işlənib hazırlanırdı. Keyfiyyət idarəetmə sisteminin qiymətləndirmə ilə əlaqədar olmayan və universitetlərin xüsusi məsuliyyət predmeti olmayan hissləri qeyri-formal özünütənzimetmə mexanizminin bir hissəsi kimi müəyyən olur. Əksər Avropa dövlətləri keyfiyyəti idarəetmənin formal sistemlərini, o cümlədən mexanizmlərini, onlarla bağlı olan akreditasiya və xarici hesabat prosedurlarını yaratmışlar.

T. Abdullayeva yazır: "Son illərdə bütün dünyada universitetlərin müxtəlif tip proqramlarda birgə iştirak etmələri müşahidə olunur. Təhsil mədəniyyətinin inkişafı və təhsil proqramlarının keyfiyyətinin rəqabət qabiliyyətliliyinin artırılması üçün yeni imkanların yaradılması, tələbələrin eləcə də müəllimlərin akademik mobilliyinin meydana gəlməsi beynəlxalq proqramlarının daxili elementinə çevrilir. Hazırda bütün dünyada geniş yayılmış bərabər proqramları, ikili və birgə diplomlar proqramı kimi formaları qeyd etmək olar."

Bir sıra ölkələr, ilk olaraq Şərqi Avropa dövlətləri birgə proqramlarda iştiraka maraq göstərmişdir. Bununla da Avropa təhsil sistemi Bolonya prosesinin sürətlənməsini əldə etmişdir. Müştərək diplomlar sahəsində əməkdaşlıq təhsil sisteminin keyfiyyətinin artırılmasına, ümumavropa ali təhsil məkanında dərəcələrin və ixtisasların tanınmasına, mobilliyin, məzunlar üçün beynəlxalq əmək arenasında əlverişli şərait yaradılmasının və ümumi ali təhsil məkanlarının cəlbediciliyinin inkişafına rəvac verir.

**Problemin aktuallığı.** Bolonya prosesi genişlənib dərinləşdikcə bu dəyişikliklər ali təhsil sisteminin keyfiyyətinə diqqəti daha da artırır və müvafiq islahatların başlıca hüquqi, etik tərkib hissəsindən birinə çevrilir. Çoxlu sayda ekspertlərin fikrincə, Bolonya Bəyannaməsi Avropa təhsil sahəsində ali təhsilin keyfiyyətinin təmin olunması üzrə mövqeyini hələlik lazımi qədər dəqiqliklə müəyyən edə bilməmişdir. İdarəetmə - təhsil müəssisələrində gedən prosesləri tənzimləyir. Unutmaq olmaz ki, düzgün idarə olunan proses uğurlu nailiyyətin əldə olunmasına səbəb olur.

**Problemin elmi yeniliyi**. Elmi məqalədə müştərək diplomlar sahəsində əməkdaşlığın təhsil sisteminin keyfiyyətinin artırılmasına, ümumavropa ali təhsil məkanında dərəcələrin və ixtisasların tanınmasına, mobilliyin, məzunlar üçün beynəlxalq əmək arenasında əlverişli şərait yaradılmasına təsiri açıqlanmışdır.

**Problemin tətbiqi əhəmiyyəti**. Elmi məqalədə istifadə olunan ideyalardan və nəzəri fikirlərdən ali məktəblər üçün dərslik və tədris vəsaitlərinin, metodiki vəsaitlərin hazırlanmasında böyük əhəmiyyəti vardır.

**Ədəbiyyat:**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010.
2. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Bakı, 1999.

3. Ağayev Ə., Eminov A., İsayev İ. Pedaqogika. Bakı: Adiloğlu, 2006.
4. Abbasov Ə., Cavadov İ. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015.
5. Abbasov O. Təhsilin idarə olunması. Bakı: "MM-S" müəssisəsi, 2016.
6. Ağayev Ə., Hüseynli S., İbadova M., Qəribov Ş., Məmmədova İ. Təhsilin konseptual problemləri. Bakı, 2008.
7. Abutalıbov R., Məmmədov S., Quliyev S.,İsayev O., Yusifov M. İdarəetmənin əsasları. Bakı: Nurlan, 2009.
8. Ağamalıyev R. Azərbaycan təhsili XXI əsrə doğru : idarəetmə, prioritetlər, islahatlar. Bakı: Təhsil - 1998 , 376 s.
9. Abdullayeva T. Boloniya bəyannaməsinin Azərbaycan təhsilinə təsiri // ARTPİ-nin Elmi əsərləri, 2010, № 4, s.97-99
10. Əfəndi O. Ali məktəb pedaqogikası kursu üzrə mühazirələr. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 2010.
11. Rüstəmov F.A., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007.
12. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015.
13. Təhsil qanunvericiliyinə dair normativ - hüquqi sənədlər toplusu. I c., Bakı: Şərq-Qərb" nəşriyyat evi, 2012.
14. Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. II c. Bakı: Şərq-Qərb" nəşriyyat evi, 2012.

**E-mail:** kamala@328inbox.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **K.R. Quliyeva,**
*ped.ü.fəls.dok., dos.* **S. Orucova**

**Redaksiyaya daxil olub: 08.10.2019.**

UOT 373.3/.5

***Tura Əli qızı Əliyeva***
*Gəncə Dövlət Universitetinin müəllimi*

# KOLLEKTİV FƏALİYYƏT PROSESİNDƏ NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏTİN FORMALAŞDIRILMASI PROBLEMİNƏ DAİR

***Тура Али гызы Алиева***
*преподаватель*
*Гянджинского Государственного Университета*

# О ПРОБЛЕМЕ ФОРМИРОВАНИЯ КОНТРОЛЯ И САМОКОНТРОЛЯ В ПРОЦЕССЕ КОЛЛЕКТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ

***Tura Ali Aliyeva***
*lecturer of Ganja State University,*

# PROBLEM OF CONTROL AND SELF-REGULATION IN THE COLLECTIVE ACTIVITY PROCESS

**Xülasə.** Məqalədə şagirdlərin kollektiv təlim fəaliyyətlərinin təşkili zamanı nəzarət və özünənəzarət probleminin ədəbiyyatda qoyuluşu araşdırılır, problemə pedaqoq və psixoloqların münasibətləri göstərilir. Sübut olunur ki, təlim prosesində şagird özünənəzarətinə kənar şəxsin (o cümlədən, müəllimin) nəzarət etməsi vacib məsələdir və bunun həlli üçün ən münasib şərait şagirdlərin kollektiv təlim fəaliyyəti prosesidir. Bu zaman digər şagirdin nəzarəti də mümkün olur və özünənəzarətin inkişafına zəmin yaradır.
***Açar sözlər:*** *nəzarət, özünənəzarət, kollektiv iş, təlim fəaliyyəti, kollektiv təlim, təlim vasitələri*

**Резюме.** В статье исследуется проблема контроля и самоконтроля в литературе во время организации коллективной учебной деятельности школьников, а также показаны отношения педагогов и психологов к данной проблеме. Доказано, что в процессе обучения важная задача, чтобы самоконтроль ученика контролировала посторонняя личность (в том числе учитель) и наиболее подходящими условиями для его решения является процесс коллективной учебной деятельности. В то же время, также возможен контроль другого ученика, что только способствует развитию самоконтроля.
***Ключевые слова:*** *контроль, самоконтроль, коллективная работа, учебная деятельность, коллективное обучение, средства обучения*

**Summary.** Based on different literatures in article were investigated such issues as problem of control and self-regulation in the collective activity process, also the basic attitude of teachers and psychologists. Proved that, in this main education process it is so important first the control form the other person (it would be the teacher), and collective activity and training. During this process possible the control of the other pupil and it helps to development of self-regulation.
***Key words:*** *control, self-regulation, collective activity, training, collective training, teaching aids*

Şagirdlərin bu və ya digər təlim fəaliyyətini mənimsəməsi əsasən kollektiv və fərdi iş prosesində baş verir. Kollektiv iş təlim fəaliyyətinin formalaşmasında ilk addımdır, bu zaman şagird təlim fəaliyyətinin bütöv quruluşunu mənimsəyir və eyni zamanda onun tərkib hissələrinin, xüsusən nəzarət və özünənəzarət qaydalarını öyrənir. Kollektiv iş elə bir təlim prosesi hesab edilməlidir ki, burada şagird sinif yoldaşları ilə əməkdaşlıq şəraitində nəzəri və praktiki fəaliyyət göstərərkən kollektivlik meyarlarının (etalonunun) yaradılmasında həm iştirak etsin, həm də onu mənimsəsin.

Bir çox şəxsi keyfiyyətlərin inkişafı kollektiv işdən başlayır. Birgə fəaliyyət və əməkdaşlıq olmadan, bir çox insani keyfiyyətlər lazı-

mı qaydada inkişaf etmir, bunların həyata keçirilməsinə isə yalnız kollektiv iş imkan yaradır.

K.D. Uşinski qeyd edirdi ki, "psixoloji qanuna görə faktları və düşüncələri birgə mənimsəmək daha asandır, nəinki təklikdə" (7, s. 368).

M.M. Mehdizadə də şagirdlərin kollektiv və qrup işinə böyük əhəmiyyət verirdi. O yazırdı: "Komanda ilə işləmək bacarığı, həm ümumtəşkilatçılıq, həm də özünüintizam bacarığı yaradır. Bunların hər ikisi kollektiv həyatın təşkili məsələlərində böyük əhəmiyyət daşıyır" (4, s. 140).

Görkəmli pedaqoqların kollektiv işin və xüsusən də kollektiv təlimin böyük əhəmiyyəti barədə fikirləri psixoloji tədqiqatlarla da dəfələrlə təsdiqlənmişdir. Psixoloqların eksperimental tədqiqatları (2) sübut etdi ki, fəaliyyət prosesində kənar bir şəxsin fəal iştirakı və nəzarəti fərdin davranışına əsaslı təsir göstərir.

A.V. Petrovski birgə fəaliyyət prosesində insanların qarşılıqlı təsiri məsələlərini araşdırmışdır. Təcrübələrin yekununda əldə edilən məlumatlara görə, birgə fəaliyyət qrupunda işləyənlər tapşırığı özünəqapalı şəraitdə olanlardan daha yaxşı, daha səmərəli şəkildə yerinə yetirirlər (8, s. 132).

Ş.A. Amonaşvilinin eksperimental tədqiqatları belə bir nəticəyə gəlməyə imkan verir ki, başqa bir insanın iştirakı ilə həyata keçirilən təlim prosesi əvvəl öyrənilmiş, möhkəmlənmiş təlim fəaliyyətlərinin yerinə yetirilməsində səmərəli olur, lakin yeni əməliyyatları mənimsəməkdə daha çətin olur (6, s. 133). Psixoloji araşdırmalar belə bir faktı da təsdiqlədi ki, təlimin məhsuldarlığı yalnız o zaman aşağı olur ki, insanları təklikdə, özünəqapalı təlim situasiyasında işləyirlər. Lakin təlim prosesi çox vaxt təklik şəraitində deyil, əməkdaşlıq şəklində həyata keçirilir. Bu prosesdə insanlar başqasının uğur və ya uğursuzluq nümunəsindən istifadə edirlər və bunun əsasında təlim prosesi daha məhsuldar olur.

Nəzərə alsaq ki, təlim prosesi hər hansı bir kənar şəxsin (müəllimin) rəhbərliyi, rejissorluğu, aktyorluğu, baş rolu ifa etməsi və digər aparıcı fəaliyyəti ilə həyata keçirilir (1; 3), onda kollektiv təlim prosesinin fərdi təlim prosesinə nisbətən üstünlüklərinə şübhə yeri qalmır.

Əməkdaşlıq şəklində təşkil olunmuş təlim prosesinə digər insanın müsbət təsir göstərməsi faktları L.V. İjoykinanın eksperimental tədqiqatlarında göstərilmişdir (10). L.V. İjoykinaya görə, qrup daxilində fəaliyyət göstərən və artıq müəyyən təcrübəyə malik olanlar bir-birlərinə müəyyən təsir göstərirlər. Onlar öz cavablarını müəyyən edərkən başqalarının cavablarını nəzərə alırlar ki, bu da, düzgün cavabın tapılmasına müsbət təsir göstərir. Cavab üçün lazımı bilikləri yaxşı mənimsəmiş sınaqcı-şagird cavabı daha tez verir və bununla, başqalarının cavablarına müsbət təsir göstərmiş olur. Cavablarının düzgünlüyünə əmin olmayanlar isə daha sonra cavab verirlər və buna görə də qrup cavabına daha az təsir göstərir. "Bir çox eksperimental əsər təsdiqləyir ki, hər hansı bir əməliyyatı kollektiv şəkildə öyrənilməsi prosesində, əgər fərd özünəqapalı şəkildə deyil, digərlərinin biliyini nəzərə alaraq öyrənirsə, onda təlim daha məhsuldar olur" (10, s. 150).

Fərdin təlimi prosesində təqlidin də müəyyən müsbət təsirləri var. Təqlid zamanı fərdin başqasının təcrübəsindən istifadə etmək imkanı olur və buna görə də onun fəaliyyəti daha məhsuldar olur. İnsanlar "öyrənilmiş fərd"i təqlid edərkən, nəinki konkret hərəkətləri daha yaxşı yerinə yetirirlər, həm də ümumilikdə təlim fəaliyyətlərini daha uğurla həyata keçirirlər. Belə bir əməkdaşlıq mühitində, insanlar eyni işi yerinə yetirdikdə, əməkdaşlıq etməyə başlayırlar. Fərdlərin əməkdaşlıq əlaqələrinə əsaslanan qarşılıqlı təqlidi zamanı təlim fəaliyyətlərinin məhsuldarlığında artım müşahidə olunur.

Prof. O.Q. Həsənli qeyd edirdi: "Əməkdaşlıq şəraitində işin təşkili və iştirakçılar arasında rasional paylanması nəticəsində insanların fəaliyyətinin məhsuldarlığı artır, onlar arasında belə bir qarşılıqlı təsir yaranır ki, bu da praktik və təlim fəaliyyətlərinin məhsuldarlığının artmasına səbəb olur. Birgə fəaliyyət və əməkdaşlıq prosesi fərdin psixofiziki fəaliyyətinə müsbət təsir göstərir" (5, s. 160).

Psixoloji tədqiqatların göstərdiyi və təcrübənin təsdiqlədiyi kimi, kollektiv işin bir çox müsbət tərəfləri var, o cümlədən fərd yalnız kollektivdə öz gücünü hərtərəfli inkişaf etdirə bilər. Kollektiv iş şagirdlərdə bir sıra müsbət xüsusiyyətlər formalaşdırır: əməkdaşlıq, qarşılıqlı yardım, qarşılıqlı hörmət, əməyə və s. məhəbbət, diqqət, yaddaş, müşahidə, təşkilatçılıq, tənqid və özünütənqidetmə, təhlil və ümumiləşdirmə, nə-

zarət və özünənəzarət bacarıqlarını formalaşdırır və inkişaf etdirir.

Kollektiv iş prosesində şagirdlərdə tədris fəaliyyətinin qaydası, tədris materialı, onlara verilən tələblər, müəyyən bir təhsil probleminin həlli məqsədi və əhəmiyyəti barədə yığcam, konkret təsəvvür yaranır. Kollektiv iş zamanı fəaliyyətin rasional paylanması baş verir, bunun əsasında praktik fəaliyyətin və təlim işinin məhsuldarlığı artır, mürəkkəb təlim problemlərinin həll etmək imkanı yaranır. Kollektiv iş prosesinin vacib və müsbət amil hesab olunan cəhətlərindən biri odur ki, fərdi işlə müqayisədə təlim vaxtına xeyli qənaət olunur.

Qeyd edildiyi kimi, kollektiv iş prosesində müxtəlif bacarıqların formalaşması və inkişafı ilə yanaşı, şagirdlərdə idarəetmə və özünüidarəetmə qabiliyyətləri də inkişaf edir. Kollektiv iş qarşılıqlı yardım və əməkdaşlığı nəzərdə tutur, öz tərəfindən isə qarşılıqlı nəzarətə əsaslanır. Qarşılıqlı nəzarət komanda işinin xüsusiyyətlərindən biridir, onsuz bu işin gedişini təsəvvür etmək çətindir. Bir-birlərinin tədris fəaliyyətlərinə nəzarət edərək, şagirdlər onları öz fəaliyyətləri və ya fəaliyyət planı ilə uyğunlaşdırır, nəticələri müqayisə edirlər. Yoldaşının fəaliyyətinə nəzarət etmək şagirdə öz işinin müsbət və mənfi tərəflərini müəyyənləşdirmək üçün özünənəzarət imkanı verir.

Kiçikyaşlı məktəblilərdə özünənəzarətin inkişafını öyrənərkən A.V. Zaparojeç belə bir qənaətə də gəlmişdir ki, "başqalarının nəzarəti özünənəzarətin inkişafına zəmin yaradır"(9, s. 7).

Beləliklə, əgər qarşılıqlı nəzarət əsasən kollektiv iş prosesində mümkündürsə və digər tərəfdən, qarşılıqlı nəzarət özünənəzarətin inkişafı üçün əsasdırsa, deməli, kollektiv işin bu bacarıqların formalaşmasında tədris prosesinin ən vacib forması olduğu danılmazdır.

Tədris işinin bu formasının böyük əhəmiyyətini mübahisəsiz hesab edilən kollektiv işin bir çox müsbət tərəflərinə baxmayaraq, təhsil prosesində nəzərə alınmalı olan mənfi cəhətləri də var.

Kollektiv iş prosesi şagirdlər üçün müxtəlif mürəkkəb şəraitlərdə, bəzən isə olduqca mürəkkəb olan problemləri belə həll etmək imkanı yaradır. Ancaq bu, ilk baxışda kollektiv işin müsbət tərəfidir. Lakin kollektiv iş mənfi bir məqamı da özündə cəmləşdirir. Şagirdlərlə kollektiv iş nəticəsində əldə olunan uğur şagird üçün bir xəyal yarada bilər ki, sinifdəki bütün şagirdlər təlim tapşırığının öhdəsindən gəldilər. Əslində bu belə deyil.

Kollektiv iş prosesində, yeni bir təlim məsələsinin həlli və yaxud, əvvəldən mənimsənilmiş bilik və bacarıqların möhkəmlənməsi zamanı əsas, aparıcı rol müəllimə verilir. O, şagirdlərin işinə istiqamət verir, qavradıqları bilikləri məqsədyönlü şəkildə idarə edir və arzu olunan nəticəni əldə edir. Burada qeyd etmək lazımdır ki, kollektiv iş prosesində mühüm rol sinfin hərəkətverici qüvvəsi hesab olunan fəal şagirdlərə verilir.

**Problemin aktuallığı.** Öz təlim fəaliyyətinə, həyatda öz hərəkətlərinə, davranışlarına nəzarət etmək, onları idarə və ağlına tabe etmək, səhvləri vaxtında görmək və düzəltmək həyatda hər bir insana lazım olan ən zəruri keyfiyyətlərdən biridir. Bu keyfiyyətləri isə nəinki ilk məktəb günlərindən, hətta məktəbəqədər yaş dövründən başlayaraq uşaqlara aşılamaq və formalaşdırmaq lazımdır. Bu baxımdan kollektiv fəaliyyət prosesində kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarət bacarıqlarının formalaşdırılması problemini aktual hesab etmək olar.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, kollektiv fəaliyyət prosesində kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarət bacarıqlarının aşılanması və formalaşdırılmasının imkanları üzə çıxarılır və elmi-metodik cəhətdən əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın metodikasından, onun məzmunundan, alınan elmi nəticələrdən ibtidai siniflərdə təlim prosesində, uyğun dərslik və dərs vəsaitlərinin hazırlanmasında, ali pedaqoji məktəblərdə mühazirə mətnlərinin tərtibində istifadə etmək olar.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Pedaqogika. Dərs vəsaiti. Bakı: Mütərcim, 2012.
2. Əlizadə Ə.Ə. və b. Məktəblinin psixologiyası. Bakı: APİ, 1990.
3. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: OKA Ofset, 2009.
4. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.
5. Həsənli O.Q. Təhsilə müasir psixoloji yanaşmalar. Naxçıvan, 2017.
6. Амонашвили Ш.А. Обучение, оценка, отметка. М.: Знание, 1990.

7. Ушинский К.Д. Избранные педагогические сочинения. М.: Учпедгиз, 1939, т. 1. с.416.
8. Петровский А.В. Личность. Деятельность. Коллектив. М.: Политиздат, 2002.
9. Запорожец А.В. Психология действия: Избр. психологические труды. М., 2000.
10. Ижойкина Л.В. Возможности начального естественнонаучного образования в формировании самоконтроля и самооценки учебных действий у младших школьников // Естественнонаучное образование в современном мире: Материалы всероссийской научно-практической конференции с международным участием. Мурманск: МГТУ, 2012.-с. 82-85


**E-mail:** *tureeliyeva@mail.ru*

**Rəyçilər:** *ped. ü. elm. dok., prof.* **Ş.T. Tağıyev**
*ped. ü. fəls. dok., dos.* **G.R. Məmmədova**

**Redaksiyaya daxil olub: 15.01.2020.**

## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

UOT 37.0

***Allahyar Süleyman oğlu İmanov***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ŞAGİRDLƏRƏ VƏTƏNƏ MƏHƏBBƏT HİSSİNİN AŞILANMASINDA FİZİKİ TƏRBİYƏNİN İMKANLARI

***Аллахяр Сулейман оглы Иманов***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

# ВОЗМОЖНОСТИ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ В ПРИВИТИИ ДЕТЯМ ЛЮБВИ К РОДИНЕ

***Allahyar Suleiman Imanov***
*doctor of philosophy in pedagogy,*
*associate professor Azerbaijan State Pedagogical University*

# OPPORTUNITIES OF PHYSICAL EDUCATION IN VACCINATION CHILDREN OF LOVE TO THE MOTHERLAND

**Xülasə:** Məqalədə kiçikyaşlı məktəblilərə vətənə məhəbbət hissinin aşılanmasında fiziki tərbiyənin imkanlarından söhbət gedir. Müəllif qeyd edir ki, fiziki tərbiyə kiçik yaşlı uşaqların mənəvi tərbiyəsinin həm zəruri şərti, həm də nəticəsi kimi özünü göstərir. Fiziki inkişaf hər şeydən vacib olduğu üçün əvvəlcə uşaqların sağlamlığının qayğısına qalmaq, onların gümrah böyümələrini təmin etmək üçün oyunlara məqsədyönlü, planlı və elmi-pedaqoji qaydalara, tələblərə, prinsiplərə istinad edərək yanaşmaq lazımdır. Həmçinin qeyd olunur ki, məktəblilərlə aparılması nəzərdə tutulan tərbiyə işi həm uşaqların sağlamlığı, həm də mənəvi tərbiyəsi ilə bağlıdır.

***Açar sözlər:*** *əqli tərbiyə, fiziki tərbiyə, mənəviyyat, hərəkətli oyunlar, dostluq, bilik, bacarıq, ekskursiyalar, ətraf aləm*

**Резюме:** В статье рассматриваются возможности физического воспитания в привитии детям любви к Родине. Автор отмечает, что физическое воспитание является как необходимым условием, так и результатом нравственного воспитания детей младшего возраста. Поскольку физическое развитие важнее всего, важно заботиться о здоровье своих детей и следить за тем, чтобы они росли крепкими и бодрыми, к играм нужен целенаправленный, спланированный и научный подход, ссылаясь всем научно-педагогическим правилам, требованиям и принципам. Также отмечается, что воспитательная работа связана как со здоровьем, так и с нравственным воспитанием детей.

***Ключевые слова:*** *умственное воспитание, физическое воспитание, духовность, подвижные игры, дружба, знание, умение, экскурсия, окружающая среда*

**Summary:** The article discusses the possibilities of physical education in instilling love for the motherland in children. The author notes that physical education is both a necessary condition and the result of moral education of young children. Since physical development is most important, it is important to take care of the health of your children and ensure that they grow strong and alert, a focused, planned and scientific approach to games is needed, referring to all scientific and pedagogical rules, requirements and principles. It is also noted that educational the work is related both to the health and moral education of children.

***Keywords:*** *mental education, physical education, spirituality, motor games, friendship, knowledge, skill, excursion, environment.*

Ölkəmizin inkişafının indiki mərhələsində strateji məqsəd "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq ölkədə fiziki tərbiyə və idman sisteminin davamlı inkişafına nail olunması, onun köməyi ilə uşaqların, yeniyetmə və gənclərin sağlamlığının yaxşılaşdırılması, bununla bağlı cəmiyyətdə aktual olan sosial və iqtisadi problemlərin həlli və müasir dövrün tələblərinə uyğun şəraitin və fəaliyyətin təşkilidir. Bu sahədə əsas istiqamətlər fiziki tərbiyə və idman fəaliyyətinin məktəblilərin və tələbələrin şüurunda sağlam həyat tərzi kimi formalaşması, onların inkişafında və fiziki kamilliyə çatmasında zəruri olan qabiliyyətlərin təkmilləşdirilməsi yolu ilə yüksək fiziki inkişaf səviyyəsinə nail olmaq, vətənpərvər vətəndaş və şəxsiyyət yetişdirməkdir.

Fiziki tərbiyə və idman üzrə aparılan elmi-tədqiqat işlərinin məqsədi yaşından, etnik mənşəyindən, sağlamlıq vəziyyətindən asılı olmayaraq, hər kəsin idmanda fəaliyyət dairəsinin genişləndirilməsi məsələsini həll etmək, idman və gənclər təşkilatlarının, cəmiyyətlərin, həmçinin məşqçi və könüllülərin ictimai əsaslarla işləyən dinamik şəbəkəsini yaratmaq, idmanla kütləvi məşğul olmaq üçün insanların problemlərinin həlli yollarını tapmaqdır. İdmanın kütləviliyini təmin etmək müasir dövrün vacib məsələlərindən biridir və gənc nəslin mənəvi və fiziki inkişafı üçün vacibdir.

Müasir dövrdə fiziki tərbiyə və idmanın inkişafı problemi öz aktuallığını qoruyub saxlayır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi sərəncam dövlətimizin gələcəyə istiqamətlənmiş siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sərəncamda, Azərbaycan gənclərini sağlam və fəal həyat tərzinə təşviq etmək və onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədi ilə 2013–2023-cü illəri əhatə edən İnkişaf Strategiyası və 2016–2020-ci illər üçün Dövlət Proqramı, bədən tərbiyəsi və idmanın inkişafı üzrə 2012–2020-ci illəri əhatə edən Milli Strategiya və Dövlət Proqramının hazırlanaraq həyata keçirilməsi vurğulanır. Azərbaycan Respublikası Prezidentinin Fərmanında deyilir: ""Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsi ilə gerçəkləşdiriləcəkdir" [1] .

Şagirdlərin davranış fəaliyyətini, dinamik hərəkətlərini elmi-pedaqoji cəhətdən tənzimləyən fiziki mədəniyyət onların əqli, əxlaqi, əmək və mənəvi tərbiyəsinin inkişafına təkan verən ən başlıca amillərdən hesab olunur. Fiziki tərbiyə kiçik yaşlı uşaqların mənəvi tərbiyəsinin zəruri şərti, nəticəsi kimi özünü göstərir, onların planlı fəaliyyətində ən lazımlı bacarıq və vərdişlərin aşılanmasında mühüm əhəmiyyət kəsb edir.

Bəşəriyyətin bir çox işıqlı zəka sahibləri, mütəfəkkir pedaqoqlar gənc nəslin fiziki və mənəvi sağlamlığına, ahəngdar inkişafına böyük əhəmiyyət vermiş, bu barədə qiymətli fikirlər irəli sürmüşlər. Onlar təsdiq edirdilər ki, gənc nəslin əqli və mənəvi inkişafında fiziki tərbiyənin rolu çox böyükdür. Ümummilli lider H.Ə. Əliyev bədən tərbiyəsi və idmanın inkişafına çox böyük diqqət yetirmiş və bu münasibətlə demişdir: "İdmanın, bədən tərbiyəsinin inkişafı üçün görülən işlər və gələcəkdə də görəcəyimiz işlər dövlət, hökumət siyasətinin əsas üstünlüklərindən biridir" [5, s. 85].

Uşaqların mənəvi tərbiyəsinə təsir edən amillərdən biri oyundur. Biz kiçik yaşlı uşaqları oyunlar olmadan təsəvvür edə bilmirik, çünki uşaq oyun vasitəsilə başqalarını, yaxud yaşlıları təqlid etməklə həyati vərdişlərə yiyələnir. Oyunlar dostluq, yoldaşlıq, kollektivçilik, mərdlik, vətənpərvərlik, dözümlülük kimi keyfiyyətlər tərbiyə edir. Bəzən də ola bilər ki, oyunun məğzində cəmiyyətin əxlaqına yabançı ünsürlər gizlənir. Müəllimlər əvvəldən axıra kimi oyuna nəzarət etməli, onu düzgün istiqamətləndirməli və yekunlaşdırmalıdırlar.

Məqsədyönlü, planlı və mütəşəkkil təşkil olunmuş oyunlar uşaqların əxlaqının saflaşmasında xüsusi əhəmiyyət kəsb edir, çünki oyunda uşaqlar həm fiziki hərəkətləri yerinə yetirir, həm düşünür, həm də öz maraqlarına uyğun bilik və bacarıqları nümayiş etdirirlər. Uşaqların həyatının əsas fəaliyyət növü olan oyunda onlar həmişə birinci olmaq, qalib gəlmək, bir sözlə – hamıdan fərqlənmək, hamıdan irəlidə olmaq istəyirlər. Məhz bu istək kiçikyaşlı məktəblilərdə fərqlidir. Oyun prosesində onlarda qürur hissi, çəldlik, diqqətlilik, təmkinlilik, qələbə əzmi, mübarizlik, cəsarət, döyüşkənlik, mətanətli olmaq,

dönməzlik kimi mənəvi keyfiyyətlər üzə çıxır. Ona görə də istər ailədə, istərsə də məktəbdə fiziki tərbiyə ilə bağlı məşğələlərdə belə oyunları primitiv şəkildə təşkil etmək elmi-pedaqoji cəhətdən düzgün hesab olunmur. Odur ki, pedaqoji fəaliyyətdə fiziki, estetik oyunların təşkili məktəblinin fiziki inkişafına, onun mənəvi tərbiyəsinə, elmi bilikləri mənimsəməsinə, gerçək aləmi, təbiətin füsunkarlıqlarını müvəffəqiyyətlə öyrənməsinə kömək etməlidir.

Bəzən tərbiyəçilər fiziki tərbiyə məşğələləri zamanı bütün yaş qruplarından olan uşaqları bir yerə (idman zalına, həyətdəki meydançaya) yığıb, onlara sadə bədən tərbiyəsi təmrinləri etməyi tapşırır, yaxud onların hamısına birlikdə eyni idman hərəkətləri, məşqlər etmək üçün göstəriş verir, bununla da işlərini bitmiş hesab edirlər. Nəticədə uşaqlar bu sadə idman hərəkətlərini təkrar etməkdən usanır, bəzən isə onları yerinə yetirməkdən imtina edirlər. Unutmaq olmaz ki, fiziki tərbiyə ilə bağlı oyunlar uşaqların sağlamlığının rəhnidir. Oyunlarda uşaqlara mədəni davranış, ədəb-ərkan, milli qeyrət, hərbi vətənpərvərlik, əməyə münasibət, mübarizlik, gələcək qələbələr üçün özünü hazırlamaq kimi milli-mənəvi normalar aşılanmalıdır.

Fiziki tərbiyə məşğələlərinin açıq havada təşkil olunmasının müsbət xüsusiyyətləri var. Bunlar, əsasən, aşağıdakılardır:

- Açıq havada keçirilən fiziki məşğələlər kiçikyaşlı məktəblilərin sağlam həyat tərzinə yiyələnmələrinə müsbət təsir göstərir.
- Açıq havada keçirilən tədbirlərdə uşaqlar daha həvəslə iştirak edirlər.
- Açıq havada təşkil olunan tədbirlərə, yaxud idman yarışlarına tamaşa edən məktəbəqədər yaşlı uşaqlar da həvəslənir, valideynlərindən onların da həmin oyunlara qatılmaları üçün icazə vermələrini xahiş edirlər.

Ulu öndərimiz Heydər Əliyevin, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, milli qəhrəmanlardan Salatın Əsgərova, Mübariz İbrahimov, Oktay Güləliyev və başqalarının xatirəsinə həsr edilmiş qısa məsafəyə kross yarışlarının açıq havada təşkili bir tərəfdən onların sağlamlığını möhkəmləndirir, fiziki mədəniyyətini yüksəldirsə, digər tərəfdən mənəvi inkişafına təsir edir.

Azərbaycan xalqının böyük maarifpərvər oğlu, görkəmli təbiətşünas alim Həsən bəy Zərdabi insanın həyatda xoşbəxt və şən yaşaması üçün var-dövlətə deyil, möhkəm can sağlığına malik olmasını zəruri şərt hesab edərək demişdir: "Dünyada bədənin sağlığından böyük var-dövlət yoxdur" (2).

Fiziki inkişaf hər şeydən vacib olduğu üçün əvvəlcə uşaqların sağlamlığının qayğısına qalmaq, onların gümrah böyümələrini təmin etmək üçün oyunlara məqsədyönlü, planlı və bütün elmi-pedaqoji qaydalara, tələblərə, prinsiplərə istinad edərək yanaşmaq lazımdır.

Böyük mütəfəkkirlərin fikirlərinə görə, sağlam adam dedikdə, yalnız fiziki cəhətdən inkişaf etmiş, qüvvətli, çevik adam deyil, həm də şüurlu, düşüncəli, xeyirxah, xalqının, vətəninin azadlığı, inkişafı, xoşbəxtliyi naminə cəsarətlə, namusla çalışan, belə işlərdən zövq alan, nəcib əxlaqi sifətlərə malik, sağlam zövqlü, tam formalaşmış insan nəzərdə tutulur.

Kiçik yaşlı məktəblilərin sağlam tərbiyə olunmaları onların hərtərəfli inkişafı və həyata hazırlanmaları deməkdir. Aydındır ki, kiçikyaşlı uşaqların tərbiyəsində bütün bu aspektlər mühüm yer tutur. Odur ki, pedaqogika tərbiyə işində uşağın tələblərini, fərdi xüsusiyyətlərini nəzərə almağı lazım bilir. Uşaq inkişaf etməkdə olan qabiliyyətlərinə acgözlüklə "qida" axtarır, hərəkətli həyat, ciddi fəaliyyət tələb edir. Buna görə məktəbdə həmin problemlərin həlli vacibdir. Vaxtilə görkəmli şəxsiyyətlər göstərirdilər ki, uşaq sosial həyatın, təbiətin fizioloji və psixoloji qanunları əsasında inkişaf edir. Təlim fənləri – Azərbaycan dili, oxu, riyaziyyat, rəsm, nəğmə, bədən tərbiyəsi bir-birini növbə ilə əvəz edirsə, o, uşaqda fiziki və ruhi rahatlıq, bu yaşa xas olan sevinc əhval-ruhiyyəsi yaradır.

Yarışların təşkilində olduğu kimi, oyun prosesində də mənəvi tərbiyə aspektlərindən istifadə etmək lazımdır. Təcrübə göstərir ki, maraqlı təşkil edilən fiziki tərbiyə prosesi gənc nəslin ahəngdar inkişafı üçün mühüm vasitədir. Bu cəhətdən oyun tərbiyəvi əhəmiyyət kəsb edir.

Kiçik yaşlı uşaqlarda vətənə məhəbbət hissinin tərbiyəsinə təsir göstərən fiziki tərbiyə tədbirlərindən gəzinti və ekskursiyalar zamanı da geniş istifadə olunur. Ətrafda olan əşya və hadisələri diqqətlə müşahidə etmək, əhəmiyyətli olanı tapmaq, baş verən dəyişiklikləri görmək, hadisələr arasında əlaqəni müəyyənləşdirmək üçün təşkil olunan gəzinti və ekskursiyalarda təşkil olunan fiziki tərbiyə tədbirləri uşaqlarda

vətənə məhəbbət hissinin tərbiyəsi və mədəni davranışın formalaşması üçün geniş imkanlar yaradır, onların dünyagörüşünü genişləndirir, maraqlarını zənginləşdirir, həmçinin mənəvi keyfiyyətlərin formalaşması üçün zəngin material verir. Belə tədbirlər kiçik yaşlı məktəblinin dünyagörüşünə, əxlaqına müsbət təsir göstərir, onlarda ictimai həyatımız, ölkəmizdə gedən quruculuq işləri haqqında düzgün təsəvvür yaradır. Məşhur idmançıların dünya səviyyəsində əldə etdikləri nəticələr haqqında məlumatlandırılan uşaqlarda idmana, fiziki tərbiyəyə hüsn-rəğbət hissi artır, əməksevərlik, kollektivçilik, dostluq, səmimiyyət və qayğıkeşlik kimi yüksək əxlaqi keyfiyyətlər formalaşır.

Vətənpərvərlik və milli mənəvi şüurun təbliği, aşılanması probleminə xüsusilə diqqət yetirilməlidir. Torpaqlarımızın 20%-nin işğal altında olduğu bir vaxtda orta məktəblərdə milli şüur, vətənpərvərlik tərbiyəsinin aktual problem olduğunu dərk edərək, bu istiqamətdə sistemli tədbirlər həyata keçirilməlidir. İctimai səciyyə daşıyan vətənpərvərliyin tərbiyəsi şagirdlərin vətəndaş kimi formalaşmasında, öz vətənini, ləyaqətini qorumaqda böyük mənəvi təsir gücünə malikdir. Vətənpərvərlik Vətənin tarixini öyrənməklə, onun sərhədlərini qorumaqla, lazım gələrsə, onun uğrunda ölümə belə getməyə hazır olmaqla ifadə olunur.

Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunması haqqında ulu öndər Heydər Əliyev belə demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".[3]

Beləliklə, kiçik yaşlı məktəblilərə vətənə məhəbbət hissinin aşılanması yollarından danışarkən fiziki tərbiyə məşğələlərinin, oyunların necə böyük imkanlara malik olduğuna bir daha əmin oluruq.

**Ədəbiyyat:**


1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 dekabr, 2012.
2. Abbasov A. N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
3. Əlizadə H. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 2003.
4. Qasımova L. Məktəblinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004.
5. Quliyev B. Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları. Bakı: ADPU, 2009.
6. Ramazanov V. Fiziki tərbiyə və idmanın müasir həyatda rolu. "Azərbaycan müəllimi" qəz 2019, ., 03 mart
7. Talıbov Y., Sadıqov F., Quliyev S. Gənclərin mənəvi tərbiyəsi problemləri. Bakı: Ünsiyyət, 1998.
8. Качашкин В. Физическое воспитание в начальной школе. М.: Просвещение, 1977.
9. Физическая культура в школе. (методика уроков в I–III классах) / Под ред. Г.П. Богдановой. М.: Просвещение, 1971.


**E-mail:** musayevaxalide@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok.* **P.B. Əliyev,**
*ped.ü.elm.dok.* **Ş. Əliyeva**

**Redaksiyaya daxil olub: 13.03.2020**

UOT 37.0

***Hicran Ehtibar qızı Verdiyeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*

# MÜASİR QIZ ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ MÜHÜM VASİTƏSİ

***Хиджран Егтибар гызы Вердиева***
*диссертант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ВАЖНОЕ СРЕДСТВО ФОРМИРОВАНИЯ ЛИЧНОСТИ СОВРЕМЕННОЙ ДЕВУШКИ

***Hijran Ehtibar Verdiyeva***
*doctorial student in the proqramme of a Ph.D*
*Ganja State Univercity*

# IMPORTANT MEANS OF FORMING PERSONALITY OF THE MODERN GIRL

**Xülasə**. Qızları müstəqil ailə həyatına və gələcək uşaqlarının tərbiyəsinə, ailə münasibətlərinə hazırlamaq üçün erkən yaşlardan onların cinsi tərbiyəsinə diqqət yetirilməlidir. Qızların cinsi tərbiyəsi ailə həyatı üçün yararlı şəxslər yetişdirmək məqsədini daşıyır. Kiçik yaşlarından qızlar özlərini qadın cinsinin nümayəndəsi kimi başa düşməli, gələcək ailə həyatında onun üzərinə son dərəcə mühüm vəzifələr düşəcəyini anlamalı, gigiyena qaydalarına yiyələnməlidir.

Məqalədə ailə müasir qız şəxsiyyətinin formalaşdırılmasının mühüm amil kimi nəzərdən keçirilir, bu sahədə cinsi tərbiyənin roluna aydınlıq gətirilir.

***Açar sözlər:*** *ailə, müasir qız, şəxsiyyətinin formalaşdırılması, mühüm amil, mühüm vasitə, cinsi tərbiyə*

**Резюме.** Для подготовки девушек к семейным отношениям, самостоятельной семейной жизни, воспитанию будущих детей следует с раннего возраста заниматься их половым воспитанием. Половое воспитание девушек проводится с целью воспитания полезных для семейной жизни личностей. С раннего возраста девушки должны осознавать себя представительницами женского пола, понимать важность возлагаемых на них в будущей семейной жизни задач, усвоить правила гигиены. В статье рассмотрено формирование современной девушки в семье как важного фактора и прояснена роль семейного воспитания в этой области.

***Ключевые слова:*** *семья, современная девушка, формирование личности, важный, важное средство*

**Summary**. To prepare girls for family relationships, independent family life, raising future children, they should engage in their sexual education from an early age. Sexual education of girls is carried out in order to educate individuals useful for family life. From an early age, girls should be aware of the female representatives, understand the importance of the tasks assigned to them in the future family life, and learn the rules of hygiene. The article considers the formation of a modern girl in the family as an important factor and clarifies the role of family education in this area.

***Keywords**: family, modern girl, personality formation, important, important tool*

Cinsi fərqlər zahiri görünüşdə, nitqdə, geyimdə, davranış tərzində, rəftarda, özünü aparmada, bədən quruluşunda özünü göstərir.

Qızları müstəqil ailə həyatına və gələcək uşaqlarının tərbiyəsinə, ailə münasibətlərinə hazırlamaq üçün erkən yaşlardan onların cinsi tərbiyəsinə diqqət yetirilməlidir. Qızların cinsi tər-

biyəsi ailə həyatı üçün yararlı şəxslər yetişdirmək məqsədini daşıyır.

Kiçik yaşlarından qızlar özlərini qadın cinsinin nümayəndəsi kimi başa düşməli, gələcək ailə həyatında onun üzərinə son dərəcə mühüm vəzifələr düşəcəyini anlamalı, gigiyena qaydalarına yiyələnməlidir.

Qızlar əks cins nümayəndələri ilə müxtəlif yaş dövründə, yetkinlik yaşına çatdıqda və ərə gedəndən sonra neçə münasibətdə olacaqlarını aydın təsəvvür etməlidirlər.

Vaxtı ilə qadına münasibətdə yaxşı arvad və ağıllı ana. Odur ki, tarixən ailələrdə qadın tərbiyəsi yaxşı arvadların (həyat yoldaşı) yetişdirilməsi məqsədi daşımışdır. Bu nə deməkdir? Qızlar ev işlərilə (mənzili yığıb-yığışdırmaq, paltar yumaq, həyət-bacanı qaydaya salmaq, paltar yumaq, ütüləmək, mal-heyvan, toyuq-cücə saxlamaq, onlara qulluq etmək, inək sağmaq və s.) məşğul olmaq və uşaq doğmaq və s. bu kimi işlərin icrasına hazırlanırdılar. O zamanlar qadınların qarşısına uşaqların təhsili ilə məşğul olmaq vəzifəsi qoyulmurdu.

İllər keçdi. Ölkəmizdə icbari ümumi orta təhsil tətbiq olunmağa başladı. Ev işləri və arvadlıq vəzifələri ilə yanaşı qadın üzərinə öz övladlarının təhsili ilə məşğul olmaq vəzifəsi də qoyuldu.

Yaxşı arvad olmaq - sözsüz ərinin itaətində olmağı, onun dediklərini ürək döyüntüləri ilə qarşılamağı və onlara əməl etməyi, ona dəstək durmağı nəzərdə tuturdu.

Hələ SSRİ-yə daxil olduğumuz illərdə oğlanlarla qızların birgə təhsili həyata keçirilməyə başladı. Qızlar qana olacaqlar, ona görə onlar təhsillə əhatə olunmalıdırlar. Həm də onlardan (qızlardan) yaxşı müəllim ola bilərdi. Məsələ belə qoyulurdu.

Nəticədə qadınlar yaxşı təhsil almış və tərbiyə görmüş insanlar arasında seçilməyə başladılar. Qadın təhsili önəmli yer tutdu.

Vaxtilə mətbəx küncünə sıxılmış, dörd divar arasında əlləşən ərli qadınlar çox illərdir cəmiyyətin sosial həyatında yaxından iştirak edir. işləyən kişi və qadınlar ailənin təsərrüfat həyatında birgə əmək sərf edirlər.

Azərbaycan ailəsində oğlanların və qızların tərbiyəsi ciddi nəzarət altında olsa da, başqa sözlə yaxşı övladlar, cəmiyyətə yararlı insanlar böyütmək ailənin müqəddəs vəzifəsi olsa da, oğlan və qız tərbiyəsi özünün səciyyəviliyi ilə seçilir.

Qız uşaqlarının doğulub tərbiyə olunduqları ailələrdə bir qız manerasının, qadınlıq manerasının sosial stereotipi özünü göstərir. Bu, müxtəlif formalarda təzahür edir. belə ki, demək olar ki, bütün balaca qızların geyimli-keçimli gəlincikləri var. Həmin gəlinciklər qızların qadınlıqla bağlı təsəvvürlərini əks etdirən əlamət kimi diqqət mərkəzinə gəlir. Qızlar bu gəlinciklərə bənzəməyə və onlar kimi gözəl olmağa çalışırlar. Bundan başqa, evdə bir çox oyuncaqlar olur ki, onlar nümunəvi qadın obrazını təsəvvür etməkdə qızlara kömək göstərir. Hansı oyuncaqlardır onlar? Balaca tikiş maşınları, xırda ütü, vedrə, vanna, ev əşyalarına aid naborlar və s.

Azərbaycanlı qadınlar qızlarına çəhrayı və ya qırmızı donlar və krujevalı köynəklər geyindirirlər. Analar qızlarının zərif olmasını istəyirlər. Qızlar özləri də buna can atırlar. Cəmiyyət də bunu istəyir.

Qızlar yetkinlik yaşına çatdıqda, yaxud ərə gedən zaman analar qızlarının bəzək-düzəyi ilə özləri məşğul olurlar.

Qızlar geyinib-keçinməyə meylli olurlar. Onlarda yaxşı geyinmək, bəzək şeylərindən istifadə etmək arzusu tez baş qaldırır. Balaca qız anasının dikdaban ayaqqabılarını geyinir, yıxılır, durur, lakin bu maraq onda sönmür. Yıxılsa da, əzilsə də, ertəsi gün yenidən həmin ayaqqabılara sarı gedir. Bacısının, nasının paltarlarını geymək istəyir, kosmetik vasitələri götürür. Bütün bunlar qızda getdikcə qadınlara xas olan zövqü meydana gətirir.

Analar öz qızlarına məsləhət görürlər ki, onlar geyimlərinə, bəzəklərinə fikir verməklə yanaşı təsərrüfatçı olsunlar, ev işlərini bacarsınlar. Belə olan təqdirdə qızları yaxşı arvad, həyat yoldaşı olacaq, öz ərlərinə qulluq göstərəcəklər. analar məhz belə düşünürlər.

A.S. Makarenko yazırdı: "Hər bir valideyn öz qarşısına belə bir məqsəd qoymalıdır: onların tərbiyə etdikləri gələcək vətəndaş – oğlan və qız özünü yalnız ailə məhəbbəti şəraitində xoşbəxt hiss etməlidir və cinsi həyatın sevincini də yalnız bu formada axtarmalıdır (1).

Həmin sözlərdə dərin həqiqət vardır.

Kiçik məktəb yaşlı qızlar həmyaşıd oğlanlarla müqayisədə daha çox mütaliə edirlər. Onlar nağıllar, qızlar barədə hekayələr oxuyur,

məşhur qadınların həyatlarına bələd olur, bədii əsər qəhrəmanlarını təqlid etməyə can atırlar.

Respublikamızda gənc qızların texnologiya dərslərində evdarlıq işlərinə yiyələnmələri, tikmə, toxuma öyrənmələri, musiqi dərslərində pianoda ifa etməyə alışmaları və s. üçün məktəblərdə şərait yaradılmışdır. Eyni zamanda məktəblərdə fəaliyyət göstərən dərnək və klublar da evdarlıq səriştələri qazanmaqda məktəbli qızlara öz köməyini göstərir. Bu istiqamətdə sinifdənxaric işin ayrı-ayrı formaları üzrə işlərin təşkilinə fikir vermək tələb olunur. Lakin elə işlər də vardır ki, onlarla məşğul olmaq qızlara məsləhət bilinmir. Futbol, güləş, karate, qaydasız döyüşlər, boks, ağırlıq qaldırma və s. İdmanın bu növləri qızlarda zədələr, şikəstolmalar və s. yarada, gözəlliyə və sağlamlığa zərər vura bilər. Doğrudur, hazırda həmin idman növləri qızlar, qadınlar arasında da yayılmışdır, hətta dünya çempionatları həyata keçirilir.

Məktəblərdə qızlardan haqqında danışılan idman bölmələrinin təşkilatçıları, menejerləri kimi istifadə etmək olar. Qızlar həmin bölmələrə oğlanların seçilməsində öz köməklərini göstərə bilərlər.

Televiziya da gənc qızlarda evdarlıq keyfiyyətlərinin formalaşmasına, onların gələcək müstəqil ailə həyatına hazırlanmalarına imkan verir. Bu sahədə istər cizgi filmləri - məktəbəqədər yaşlı uşaqlarda, bədii və bəzi sənədli filmlər, adət və ənənələrimizə, toy mərasimlərinə həsr olunmuş televiziya verilişləri orta və böyük məktəbyaşlı qızlarda gələcək ana, gələcək valideyn, gələcəyin nümunəvi həyat yoldaşı kimi önəmli keyfiyyətlərin inkişaf etdirilməsinə şərait yaradır. Filmlərin gənc qəhrəmanları mənfiliklərlə mübarizə aparır, uşaqları və qadınları təhlükədən qoruyur, xeyrin nə, şərin nə, yaxşılığın, xeyirxahlın nə, yamanlığın, bədbəxtliyin nə olduğu barədə aydın təsəvvürə malik olur, əxlaqi saflaşdırma ilə məşğul olurlar.

Bədii filmlərdə, seriallarda qadın şəxsiyyətinə (necə olmalı, necə davranmalı, ailədə, cəmiyyətdə özünü necə aparmalıdır, cəlbedici, xeyirxah, qayğıkeş olmalıdırlar və s.) kişi münasibəti öz əksini tapır. Təbii ki, qızlar bütün bunlara etinasız qala bilməzlər. Görüb-götürürlər.

Qızlarla müxtəlif yaşlarında cinsi tərbiyə üzrə işlər ailə ilə yanaşı, məktəbdə də davam etməlidir. Onlar arasında öz şərəf və ləyaqətlərini, qızlıq ismətini və qürurunu qorumaq istiqamətində maarifləndirici işlər aparılmalı, həya, utancaqlıq hissləri inkişaf etdirilməlidir. Çalışmaq lazımdır ki, bu və ya digər qız uşağı öz mənliyini həddən artıq yüksək, qədərindən artıq qiymətləndirməsin. əks təqdirdə o, xudbin olar, başqalarına öz cinsinə və əks cinsə yuxarıdan baxan insan olar.

Yusif Vəzir Çəmənzəminli deyirdi: "Qadın nə qədər mədəni olsa, nə qədər onun elmi, təhsili mükəmməl, ağıl dairəsi geniş, əri ilə hüquq və ixtiyaratda bərabər olsa, bir o qədər həmin arvad tərbiyəli övlad bəsləməyə müqtədir olar. Belə tərbiyəli balalardan da gələcəkdə tərbiyəli və fəal adamlar çıxıb millətin xidmətində olarlar" (2)

Qızlıq isməti, həya və utancaqlıq üzrə tərbiyə işi anlayışına diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, bu istiqamətdə tərbiyə yetərincə olmadıqda, yaxud heç olmadıqda qızdan ötrü müqəddəs heç bir şey olmur, çox olduqda da gələcəkdə ailədə ixtilaflara şərait yaradır. Müasir dövrdə qadınların cəmiyyətdəki vəziyyəti, ictimai və ailə tərbiyəsinin vahidliyi (məktəblə ailənin birgə fəaliyyəti) qızların tərbiyəsinin başlıca şərtlərindən biri kimi özünü göstərir.

Ailədə qızların gigiyenik tərbiyəsi də diqqət mərkəzində dayanmalıdır. Bədənə qulluq, vaxtlı-vaxtında çimmək, dərini təmiz saxlamaq, dırnaqları vaxtlı-vaxtında tutmaq, saçlara qulluq göstərmək, alt və üst paltarlarını, yataq ağlarının vaxtlı-vaxtında yuyulub ütülənməsi və s. vacibdir.

Bütün bunlar ailədə münasibətlərin düzgünlüyünə, paklığına, həmçinin cinsi yaxınlıqda uyğunluğun olmasına imkan verir.

Qızların müstəqil ailə həyatına hazırlığı prosesində qızlıq ismətinin tərbiyəsi başlıca yer tutmalıdır. Ər evinə ismətli getmək onun ən böyük cehizi, qızın xoşbəxtliyinin mühüm göstəricilərindəndir.

İsmət tərbiyəsinin rəmzi ər evinə gəlin köçənədək təkcə qızlıq pərdəsinin qorunub saxlanılmasını yox, fikirlərin və münasibətlərin mənəvi saflıq, əxlaqi kamilləşmə çərçivəsində aparılmasını nəzərdə tutur.

Qızlar davranış və rəftarlarında, öz hərəkətlərində ehtiyatlı olmalı, özlərini elə aparmalıdırlar ki, heç kimdə - nə dost-tanışda, qohum-əqrəbada, qonşuda, həmyaşıdlarında və başqa

adamlarda onlarla intim münasibətin mümkünlüyünə ümid yeri qalmasın.

Qızların bir sıra bədbəxtliklərinin başlıca səbəbi məhz onların özlərini yüngül aparmalarıdır.

Həzrəti Əlinin belə bir kəlamı var: "Baxın, övladlarınıza kim süd verir. Çünki uşaq onun südü ilə inkişaf edəcək. Axmaq qadını dayə tutmayın, çünki süd təbiətə, xasiyyətə üstün gəlir" (3).

Tədqiqatlardan görünür ki, yaponların tərbiyə metodları xeyli fərqidir. Nəsillər arasında qeyri-adi qarşılıqlı anlaşma hökm sürür. Uşaqlar naz və şıltaqlıq olmurlar. Analar tarixən işlə uşaq tərbiyəsini üzvi surətdə əlaqələndirməyə üstünlük verirlər. Mənbələrdə bu barədə deyilir: "Körpə anasına parça ilə bağlanır və daim yanında olurdu. Ana daim uşağına səslənir və onunla danışırdı. Bu, uşağa bütün proseslərdə özünü hiss etməyə imkan verir və vaxtından tez inkişaf etməsinə şərait yaradırdı. Uşaqların addımlamağa başlamazdan əvvəl danışmağı öyrənməsi tez-tez rast gəlinən adi haldır. Ana uşağın 3 yaşı tamam olana qədər məzuniyyət götürür və evdə oturub uşağa baxır. Yalnız bundan sonra onu uşaq bağçasına verirlər. Yaponlarda körpələr evi də var, amma balaca uşağın tərbiyəsinin onlara etibar etmək müsbət qarşılanmır, eləcə də nənə və babasının himayəsinə vermək yolverilməzdir. Uşaqlara səsini ucaltmaq, öyüdnəsihət, cismani cəzalar vermək qəbul olunmayıb. Yaponlar uşaqlarını ərköyün böyütmürlər. Yaponlara görə, uşağı ərköyün etmək ondan imtina etməyə bərabərdir. Uşaqlar isə əgər valideynlərinə narahatlıq veriblərsə, peşmançılıq və günah hissi keçirirlər. Uşaqlar görəndə ki, valideynləri onların davranışını bəyənmir, onda özlərini müdafiə etmək üçün saysız-hesabsız arqumentlər sadalamaq əvəzinə, səhvlərini düzəltməyə çalışırlar" (4).

**Problemin aktuallığı.** Müasir qız şəxsiyyətinin formalaşdırılması yeni pedaqoji təfəkkür şəraitində öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Məqalədə ailə müasir qız şəxsiyyətinin formalaşdırılmasının mühüm amil kimi nəzərdən keçirilir, bu sahədə cinsi tərbiyənin roluna aydınlıq gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**

1. A.S. Makarenko. Seçilmiş pedaqoji əsərləri Bakı, 1950.
2. Y.V. Çəmənzəminli. Əsərləri. 3 cilddə. 3-cü cild. Bakı: Avrasiya Press, 2005.
3. Həzrəti Əlinin kəlamları. Bakı: Qanun, 2015.
4. Aytən. Yaponların uşaqları dahiyə çevirən tərbiyə metodları. http://publika.az/news/qadin/186421-.html

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
E-mail: E-mail: nika.2011@mail.ru

**Redaksiyaya daxil olub**: **30.01.2020**.

## *PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*

UOT 159.9

***Nurəngiz Tofiq qızı Rzayeva***
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*

***Şəlalə İltizam qızı Seyidova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM FƏALİYYƏTİNDƏ KOMPÜTER TEXNOLOGİYALARININ TƏTBİQİ ÜÇÜN MÜƏLLİMLƏRDƏN TƏLƏB OLUNAN SƏRİŞTƏLƏR

***Нурангиз Тофик гызы Рзаева***
*доктор философии по психологии, доцент*

***Шалала Илтизам гызы Сеидова***
*докторант по программе доктора философии*
*Азербайджанский Государственный Педагогический Университет*

# НАВЫКИ, НЕОБХОДИМЫЕ УЧИТЕЛЯМ ДЛЯ ПРИМЕНЕНИЯ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ В УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ МЛАДШИХ ШКОЛЬНИКОВ

***Nurangiz Tofik Rzayeva***
doctor of philosophy in psychology, associate professor

***Shalala İltizam Seyidova***
*doctorial student in the proqramme of a Ph.D*
*Azerbaijan State Pedagogical University*

# SKILLS REQUIRED BY TEACHERS FOR THE APPLICATION OF COMPUTER TECHNOLOGIES IN THE LEARNING ACTIVITIES OF JUNIOR HIGH SCHOOL STUDENTS

**Xülasə:** Məqalədə bəhs edilən məsələlər ibtidai siniflərdə dərs deyən müəllimlərin texnoloji və kommunikativ səriştələri ilə bağlıdır. Burada qeyd edilir ki, əgər biz kiçikyaşlı məktəblilərdə kompüter texnologiyaları üzrə vərdiş və bacarıqlar aşılamaq istəyiriksə, ilk növbədə müəllimlərin bu sahədəki hazırlığına diqqət yetirməliyik. Müəllif məqalədə göstərilən sahə üzrə həyata keçirdiyi layihədən, onun məqsədi, vəzifələri, gedişi və nəticələrindən bəhs edir.

***Açar sözlər:*** *kompüter texnologiyaları, informasiya sistemi, bacarıq, səriştə, texnoloji səriştə, kommunikativ səriştə, təlim prosesi, özünütəhsil, qrup fəaliyyəti*

**Резюме:** Вопросы, обсуждаемые в этой статье, связаны с технологическими и коммуникативными компетенциями учителей, преподающих в начальной школе. Дело в том, что если мы хотим развивать умения и навыки в компьютерных технологиях для младших школьников, мы должны, прежде всего, сосредоточиться на подготовке учителей в этой области. Автор рассказывает о проекте в области, упомянутой в статье, его цели, задачах, ходе и результатах.

***Ключевые слова:*** *компьютерные технологии, информационные системы, навыки, компетенция, технологическая компетентность, коммуникативная компетентность, учебный процесс, самообразование, групповая деятельность*

**Summary:** The issues discussed in this article are related to the technological and communicative competences of teachers teaching in primary school. The point is that if we want to develop habits and skills in computer technology for younger students, we must first focus on the training of teachers in this area. The author talks about the project in the area mentioned in the article, its purpose, objectives, course and outcome.

***Key words:*** *computer technologies, information systems, skills, competence, technological competence, communicative competence, educational process, self-education, group activity*

Təhsildə müasir texnologiyaların tətbiqi XX əsrin sonlarından daha da sürətlənib. Bu kontekstdə təhsil prosesində şagirdlərin psixi inkişafı daha da intensivləşib. Problem ilə bağlı hazırda idrak prosesləri və hisslərin psixopedaqoji məsələləri, əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri, müasir təlim psixologiyası, şagirdlərin intellekt səviyyələrinin inkişaf etdirilməsi üzrə tədqiqatlar genişlənir. Apardığımız təhlillərdə də aydın oldu ki, kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində kompüter texnologiyalarının tətbiqinin əhəmiyyəti psixologiya elmində artıq sübut edilib. Belə ki, kompüter texnologiyalarından istifadə zamanı şagirdlərdə idrak fəallığı yaranır, problemin həlli yollarının müxtəlifliyi haqqındakı təsəvvürlər inkişaf edir, problemə yaradıcı yanaşmaq, fərqli mövqelərdən çıxış etmək bacarığı formalaşır, qoyulan problemin hərtərəfli açılmasına maraq artır. Bundan başqa, ibtidai siniflərdə keçirilən dərslərdə kompüter texnologiyaları ilə qurulan təlim prosesində şagirdlər özünüaxtarışa yönəlir, qarşıya qoyulan vəzifələri şəxsi nöqteyi-nəzərdən izah etməyə səy göstərirlər.

Eyni zamanda ibtidai siniflərdə kompüter texnologiyalarının tətbiqi şagirdlərin kommunikativ bacarıqlarının inkişafını sürətləndirir. Onlar özünütəqdimatla yanaşı, başqalarının təqdimatlarını da müşahidə edərək yeni davranış konstruksiyalarına yiyələnirlər. Başqalarının da eşidə biləcəyi tonda danışır, onların hərəkətlərini təkrarlayır, apardıqları əməliyyatlara daha tələbkar yanaşırlar. Bu prosesdə onların şüurunda informasiyaların ümumiləşdirilməsi, təlim materialının konkretləşdirilməsi, yerinə yetirilən hərəkətlərin avtomatlaşdırılması prosesi gedir. Nəticədə obyekt və hadisələr haqqında kontekstual biliklər, idraki, ünsiyyət və psixomotor bacarıqlar formalaşır. Ancaq bütün bunların baş verməsi üçün şagirdlər öz müəllimlərindən hələ çox şeyləri öyrənməli, mənimsəməli olurlar. Hələ I sinifdən başlayaraq onlar bir tərəfdən öz sinif müəllimlərindən, digər tərəfdən isə İnformatika üzrə fənn müəllimindən kompüter texnologiyalarından necə istifadə etmək üzrə bilik və bacarıqlara yiyələnməli olurlar. Bunun üçün, əlbəttə ki, ilk növbədə müəllimlər özləri bir sıra səriştələrə malik olmalıdırlar. Ona görə də qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq, bu məqalədə tədqiqat apardığımız məktəblərdə müəllimlərin peşə səriştələri üzrə kiçik bir tədqiqat aparmağı qərara aldıq.

Bu sahənin tədqiqatçılarından, məsələn, V.N. Vvedenski (2), V.A. Demin (3), A.V. Xutorski (6) və b. şagirdlərin kompüter texnologiyaları üzrə bacarıqlara yiyələnmələrində müəllimlərin səriştə və bacarıqlarının vacibliyini önə çəkirlər. Belə ki, onların qənaətinə görə, texnologiyaların dəyişdiyi, iqtisadiyyatın liberallaşdığı, ictimai münasibətlərin dinamik inkişaf etdiyi hazırkı şəraitdə özünü müvəffəqiyyətlə reallaşdırmaqdan ötrü müəllim bir çox əsas səriştələrə malik olmalıdır. Onların apardıqları araşdırmalara əsasında biz həmin səriştələri aşağıdakı kimi qruplaşdırdıq.

1. Məsuliyyətli seçim səriştəliliyi.
2. Texnoloji səriştəlilik.
3. Davamlı təhsilə hazırlıq.
4. İnformasiya səriştəliliyi.
6. Kommunikativ səriştəlilik.

Bu səriştələrin əksəriyyətinə təhsilsiz yiyələnmək qeyri - mümkündür. Demək olar ki, bütün səriştələrə yiyələnməkdə təhsil bir vasitə kimi çox vacibdir. Yəni, müəllim bu səriştələrə sahib olmaqdan ötrü aldığı ixtisas təhsili ilə kifayətlənməməli, daim özünütəhsillə də məşğul olmalıdır.

Bu səriştələr içərisində bizi ən çox maraqlandıran müəllimlərin texnoloji və kommunikativ səriştələridir. Müəllimlərdə texnoloji səriştələr müəyyən edilərkən aşağıdakı sahələr üzrə praktik işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- kompüter texnologiyasına daxil olan avadanlıqlarla tanışlıq;

- kompüter texnologiyasından istifadə qaydaları;

- Microsoft Word proqramı ilə iş: mətn sənədi yaratmaq və redaktə etmək, mətn sənədini seçərək redaktə etmək, paraqraflar və aralıq yaratmaq, cədvəllər yaratmaq və formatlaşdırmaq, mətnə şəkil əlavə etmək, səhifələri nömrələmək;

- tamamlanmış sənədi çap etmək;

- iş vərəqlərinin hazırlanması və çap edilməsi;

- Microsoft PowerPointlə tanışlıq;

- slayd yaratmaq və təqdimat aparmaq: nümayiş zamanı slayd daxilində şəkillər və animasiyalar daxil etmək, nümayiş üçün təqdimatın qorunması;

- İnternetdə iş: E-poçtla iş, axtarışlar, məktublaşmalar;

- elektron lövhə ilə iş;

- video və audiomateriallarla iş.

Qeyd etdiyimiz kimi, digər səriştə kommunikativ səriştədir ki, müəllim özünün texnoloji bacarıqlarını məhz bu səriştənin köməyi ilə reallaşdırır.

Tədqiqatda deyilənlərin real vəziyyətini müəyyən etməkdən ötrü “Müəllimlərin texnoloji və kommunitkativ inkişafı” layihəsi hazırladıq. Layihə çərçivəsində “Müəllimlərin peşəkar inkişafı klubu” təşkil etdik.

Layihənin məqsədi - kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində kompüter texnologiyalarının fəal şəkildə həyata keçirilməsi yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi, I-IV siniflərdə dərs deyən müəllimlərin texnoloji səriştələrinin artırılması:

- təlim prosesinin kompüter resursları ilə təmin edilməsi və onların vaxtaşırı yeniləşdirilməsi;

- təlim prosesində kompüter texnologiyalarının səmərəli qaydada, yerli-yerində sınaqdan keçirilməsi;

- təlim prosesində hər bir şagirdin kompüter texnologiyalarından istifadəsinin təmin edilməsi.

Müəllimlərin texnoloji səriştələrinin artırılması sahəsində metodoloji dəstəyin təşkili üçün görülən işlər:

1) kompüter təlim proqramlarının, praktik və metodiki materiallar bankının yaradılması;

2) təlim prosesində elektronlaşdırılmış dərslərdə inteqrasiya edilmiş modellərin tətbiqi üçün müəllimlərə metodik dəstəyin göstərilməsi;

3) şagirdlərin təlim fəaliyyətinin kompüterləşdirilməsi şəraitində müəllimin peşə bacarıqlarının formalaşdırılması, dərsin gedişində yaranmış problemləri həll etmək üçün prosesin gedişini dəyişdirmək, tədris prosesində müasir kompüter texnologiyalarının tətbiqi üçün əlverişli təşkilati və pedaqoji şərait yaratmaq;

4) müəllimlərin kompüterdən istifadə bacarıqlarını inkişaf etdirmək üçün onları diaqnozlaşdıraraq qruplaşdırmaq və diferensial proqramlarla iş aparmaq:

- müşahidə, fərdi söhbət, müsahibə;

- diaqnostika (sorğuların tərtibi və keçirilməsi);

5) kompüter texnologiyalarının tətbiqi üzrə şagirdlərin fərdi istəklərinə hədəflənmiş sahələrə diqqəti artırmaq;

6) şagirdlərin kompüter texnologiyalarına yiyələndirilməsi üçün müəllimlərin çətinliklərini ayırd etmək.

Layihə 3 mərhələdə həyata keçirildi.

I mərhələ - diaqnostika.

II mərhələ - özünüinkişaf və özünütəhsil.

III mərhələ - tətbiqetmə, yekun diaqnostika.

Bundan sonra müəllimlərin informasiya texnologiyasından istifadə dərəcəsini müəyyənləşdirmək üçün sorğu (O.S. Kislisına, 7) keçirdik.

Müəllimlərin texnoloji səriştələrinin diaqnostikasının nəticələri əsasında təhlil apararkən onların kompüter bacarıqlarının səviyyəsinə, pedaqoji bacarıqların davamlı inkişafında kompüter texnologiyalarının əhəmiyyətinin müxtəlif səviyyələrdə qəbul edilməsi ilə fərqlənən müəllimləri ayırd etdik. Onları 5 qrupda diferensiallaşdırdıq. Bu texnologiyalardan təhsil prosesində istifadə etmək üçün onlarla iş apardıq.

I qrup - kompüter texnologiyaları üzrə bacarıqları çox zəifdir, onların tətbiqinə maraq göstərmir. Əgər təhsilin yüksək keyfiyyəti ənənəvi təhsil formaları ilə təmin olunursa, informasiya və kompüter texnologiyalarını əhatə edən pedaqoji problemləri həll etmək çətindir (12 nəfər - 21 %);

II qrup - kompüter texnologiyaları üzrə bacarıqları qismən yaxşıdır. Onlardan yararlanmağa çalışır. Texnologiya çox müxtəlif və dinamikdir. Onlar ənənəvi təhsil formalarına (mühazirə, seminar və s.) daha çox vaxt sərf tələb edirlər. Məsələn, belə müəllimlər elektron kitabxa-

nalarda zəruri məlumatları axtarmaqdan imtina edirlər (28 nəfər – 50 %);

III qrup - kompüter texnologiyaları üzrə bacarıqları yaxşıdır. Kompüter texnologiyaları fərdi tədris tərzinin və fərdi peşə inkişafının həyata keçirilməsinə imkan yaradır, lakin onların təhsil prosesinə daxil edilməsi üçün cəhd yoxdur (10 nəfər - 18 %);

IV qrup - kompüter texnologiyaları üzrə bacarıqları yüksəkdir. Onlardan daim istifadə edir. Pedaqoji fəaliyyətin müvəffəqiyyəti və müəllimlərin texnoloji bacarıqları arasında birbaşa əlaqə mövcuddur. Buna görə də informasiya mədəniyyətinin davamlı inkişafına tələbatları vardır və özləri bu tələbatlarını ödəyirlər (6 nəfər- 11 %).

Gəldiyimiz nəticə bundan ibarətdir ki, müasir dövrdə müəllim hazırlığı ilə əmək bazarının əlaqələndirilməsi, bir çox ölkələrdə olduğu kimi, respublikamızda da aktual məsələ kimi qarşıda durur. Ölkəmizdə mövcud olan bazar iqtisadiyyatı və onun qanunları müəllim kadrlarının hazırlığına yeni tələblər verir. Bu məsələnin müvəffəqiyyətli həlli kadr hazırlığının elə səviyyədə qurulmasını tələb edir ki, əmək bazarına birbaşa cıxış təmin olunsun. Bu baxımdan təhsilin Avropa təhsil məkanına inteqrasiyasının uğurla yerinə yetirilməsi üçün pedaqoji təmayüllü ixtisas məktəblərində müəllim hazırlığında kommunikativ və texnoloji səriştələrin formalaşdırılmasına, ciddi diqqət yetirilməli, eyni zamanda, hazırda məktəblərdə fəaliyyət göstərən müəllimlərin özünütəhsili onların qarşısında ciddi tələb kimi qoyulmalıdır. Əks halda biz kiçikyaşlı məktəblilərdə kompüter texnologiyalarından istifadə bacarıqlarının inkişafında gözlədiyimiz uğurları əldə edə bilmərik. Halbuki məktəblərin mövcud texniki təchizatı buna əsasən imkan verir.

**Problemin aktuallığı.** Təlim prosesində kompüter texnologiyalarından istifadə etmək üçün tələb olunan müəllim səriştələrinin müəyyən olunması müasir təhsil sistemində diqqət mərkəzində olan məsələlərdəndir.

**Problemin elmi yeniliyi.** Kompüter texnologiyalarının tətbiqi üçün müəllimlərdən tələb olunan səriştələrinin müəyyən edilməsi işində tətbiq olunan vasitələr və irəli sürülən müddəalar.

**Problemin praktik əhəmiyyəti.** Kompüter texnologiyalarından istifadənin müsbət psixoloji təsirləri barədə irəli sürülən müddəalar ibtidai sinif müəllimlərinin özünütəhsil və özünüinkişafına stimul verməklə yanaşı, həmçinin pedaqoji fəaliyyətinə müsbət təsir göstərəcəkdir.

**Ədəbiyyat:**


1. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı: ADPU-nun mətbəəsi, 2006, 345 s.
2. Rzayeva N., İsmayılova M. Uşaqların idrak proseslərinin inkişafına xidmət edən didaktik materiallar. Nərgiz nəşriyyatı Bakı, 2008.
3. Rzayeva N., Əmrahlı L. Uşaq psixologiyası: Dərs vəsaiti. Bakı: ADPU-nun mətbəəsi, 2012.
4. Коджаспирова Г.М. Педагогика. Учебник. М.: Гардарики, 2004, 528 с.
5. Введенский В.Н. Моделирование профессиональной компетентности педагога // Педагогика, 2003, №10, с. 51-55
6. Демин В.А. Профессиональная компетентность специалиста: понятие и виды // Стандарты и мониторинг в образовании, 2000, № 4, с. 34-42
7. Ахмедова А.М., Юнусова Г.Р. Компьютерные технологии в инновационной и педагогической деятельности. Учебно-методическое пособие. Казань: Казанский федеральный университет, 2012, 80 с.
8. Кирянова О.В. Формирования познавательной мотивации младших школьников: Дис… канд. психол. наук. Омск: Омск ГПУ, 2005, 170 с.
9. http://www eidos.ru. // Хуторской А.В. Ключевые компетенции разовательные стандарты // Интернет- журнал « Эйдос » 2002. 23 апрел.
10. https://nsportal.ru. Социальная сеть работников образования. О.С. Кислицына. Анкета для определения степени использования


**E-mail:** nurengiz.rzayeva@gmail.com

**Rəyçi:** *psix.ü.fəls.dok.***Ç.Q. Verdiyeva**

**Redaksiyaya daxil olub: 22.01.2020.**

UOT 159.9

***Gülnarə Həmzəbəyovna Əlixanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*psixologiya üzrə fəlsəfə doktoru*

# YENİYETMƏLƏRİN TƏLİM FƏALİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Гюльнара Гамзабековна Алиханова***
*доктор философии по психологии,*
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ ПОДРОСТКОВ

***Gulnara Kamzabekuly Alikhanova***
*senior lecturer of*
*Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in psychology*

# PSYCHOLOGICAL FEATURES OF EDUCATIONAL ACTIVITIES OF TEENAGERS

**Xülasə.** Təlim məqsədəyönəlmiş prosesdir. Burada yeniyetmənin öyrənməsi baş verir. Lakin hər cür öyrənməni təlim adlandırmaq olmaz. Yalnız mütəşəkkil, məqsədəuyğun və planlı öyrənmə prosesini təlim adlandırmaq olar. Təlim prosesində öyrədən müəllim və öyrənən şagird olur. Onların qarşılıqlı təsiri şəraitində şagird bilik və vərdişlər əldə edir. Müəllim isə həmin prosesi idarə edir.
***Açar sözlər:*** *yeniyetmə, təlim çətinlikləri, psixi fəallıq, dərs fəaliyyəti, mənimsəmə prosesi, özünüqiymətləndirmə*

**Резюме.** Обучение - это целенаправленный процесс. Здесь происходит обучение подростка. Однако любой вид обучения нельзя назвать обучением. Только организованный, целенаправленный и спланированный учебный процесс можно назвать обучением. В учебном процессе есть учитель и ученик. В контексте их воздействия ученик приобретает знания и навыки. Учитель же управляет этим процессом.
***Ключевые слова:*** *подросток, трудности в обучении, психическая активность, урочная деятельность, процесс усвоения, самооценивание*

**Summary.** Training is a purposeful process. Here's where your teenager learns. However, any kind of learning cannot be called training. Only an organized, purposeful and planned learning process can be called training. In the learning process there is a teacher and a learner. In the context of their impact, the student acquires knowledge and skills. The teacher is in charge of the process
***Key words****: adolescent, learning difficulties, mental activity, lessons, learning, process, self-esteem*

Təlim problemi bəşəriyyətin daima diqqət mərkəzində olan bir problemdir. Cəmiyyətin müasir inkişaf şərtləri ümumtəhsil məktəblərini uşaqların təhsil problemlərinin həlli ilə bağlı yeni inkişafetdirici mühitin yaradılması üçün yeni yanaşmalar axtarmağa sövq edir. Təhsilin əsas məqsədi təhsilin bütün pillələrində uşağın fərdi inkişafına təsir göstərəcək optimal şəraitin yaradılmasından ibarətdir. Bunsuz onun sosial mühitə inteqrasiyası mümkün deyil.

Öyrənməyi və öyrətməyi insanın ən şərəfli və daimi əməli hesab edən böyük mütəfəkkir Əli İbn Əbutalibin tövsiyəsi belə idi: "Ya söyləyən, irşad edən öyrədən ol, ya dinləyib, kamala yetən öyrənən. Üçüncü olmaqdan çəkin!" Öyrənməyi insanın daimi həyat qayəsi və fəaliyyəti

hesab edərək söyləyirdi: “Bilmirəm” deməyi yadırğayan şəxs ölümcül yara almış zavallıya bənzər”. Öyrədənlərə onların silahının – sözün mahiyyətini açması da maraqlı və orijinaldır: “Sözün bitdiyi yer könüldür, arxalandığı yer düşüncədir, onu qüvvətləndirən ağıldır, meydana çıxaran dildir, bədəni hərflərdir, canı isə anlama, bəzəyi yerli – yerində söylənməsidir, düzgünlüyü doğruluğundadır ” (2, s. 24) .

Təlimin həmişə inkişafdan qabaqda getməsi və onu öz arxasınca aparması fikrini əsas götürən L.S. Vıqotski və onun əməkdaşları təlimlə əlaqədar baş verən əqli inkişafın iki səviyyəsini və zonasını müəyyən etmişlər. Birinci səviyyənin inkişafını “fəal aktual zonası”, ikincisini isə “inkişafın yaxın zonası” adlandırırdı.

Mürəkkəb bir proses olan təlimin özünəməxsus və müxtəlif növləri, strukturu, motiv və məqsədləri, məzmun və metodları vardır. Təlimin müvəffəqiyyəti psixoloji cəhətdən bir-biri ilə bağlı olan üç əsas amildən ibarətdir: nəyi öyrədirlər, kim və necə öyrədir, kimi öyrədirlər (1, s. 98) Birincisi, təlimin xarakteri, bu sahədə müvəffəqiyyətin əldə edilməsi mənimsənilməli olan materialdan, onun məzmunu və sistemindən asılıdır. İkincisi, təlimin xarakteri bu sahədə müvəffəqiyyət əldə edilməsini öyrədən adamın – müəllimin şəxsi keyfiyyətlərindən, pedaqoji və metodiki ustalığından, hər bir halda tətbiq etdiyi konkret tədris metodundan, şagirdlərin psixologiyasını dərindən bilməsindən və s. asılıdır. Nəhayət, üçüncüsü, təlim prosesi öyrədilən şagirdin fərdi psixi inkişaf xüsusiyyətlərindən (əqli, emosional, iradi), onda təlimə qarşı münasibətin yaranmasından, meyl və maraqlarından, tələbat və öyrənməyə qabillik maraqlarından çox asılıdır. Şagirdlərin fərdi-psixoloji və yaş xüsusiyyətləri nəzərə alınmadan təlim fəaliyyətini təşkil etmək və lazımi müvəffəqiyyətə nail olmaq mümkün deyildir

Yeniyetməlik yaşı dövrü insan həyatının ən böhranlı çağlarıdır. Araşdırmalara görə, psixoloji ədəbiyyatda yaş böhranı axınının əsasən iki yolu təsvir olunub. Birincisi, daha geniş yayılmış müstəqillik - böhranın höcətçi, inadkar, tərslik, hər şeyə neqativ münasibət, özbaşınalıq, mülkiyyətə qısqanclıq simptomlarıdır. Bu tələbat yeniyetmədə onun istəyi olmadan stolunun üstündəkilərə başqalarının toxunmaması, otağına heç kəsin girməməsi, qəlbindəkilərlə maraqlanmaması istəyidir. Asılılıq böhranının simptomları isə sadaladıqlarımızın əksinədir: həddindən artıq başqalarına qulaq asmaq, yaşlılardan, güclülərdən asılılıq, köhnə maraq və əxlaq formalarına tənəzzülə aludə olmaq, həvəs göstərmək. Bu dövrdə yeniyetmələri mümkün qədər başa düşməyi bacararaq onlara vaxtında kömək göstərmək lazımdır (3, s. 104).

Təlimdə öyrənməyə qabillik problemi şagirdlərdə geridə qalma, mənimsəyə bilməmə səbəblərini aşkara çıxarmaqla əlaqədar meydana çıxan problemdir. L.S. Vıqotski haqlı olaraq göstərir ki, uşağın öyrənməyə qabil olmadığı işləri öyrətməyə çalışmaq, onun müstəqil yerinə yetirə bildiyini ona öyrətmək qədər mənasızdır. Öyrənməyə qabilliyi şagirdin əqli inkişafı ilə qarışdırmaq olmaz.

Səmərəli pedaqoji tədbirlər görülmədikdə öyrənməyə qabilliyi zəif olan bu cür şagirdlər yoldaşlarından getdikcə daha geridə qalmağa başlayırlar. Tədricən sinif kollektivində bu cür şagirdlərə qarşı müəyyən münasibət yaranır, müəllimdə stereotip fikir meydana gəlir, ən əsası isə onlar özləri özlərinə, öz güclərinə inanmırlar və özlərini həddindən artıq aşağı qiymətləndirirlər(4, s. 85).

Psixoloji ədəbiyyatda bu sahədə aparılan tədqiqatlara görə, təlimdə geridə qalan şagirdlərin üç tipi müəyyənləşdirilir:

I tip özünün öyrənməyə qabilliyinin aşağı səviyyəsi ilə, lakin təlimə qarşı müsbət münasibətləri və məktəbli mövqelərini saxlamaları ilə xarakterizə olunurlar.

II tip geridə qalan şagirdlər fikri fəaliyyətinin yüksək keyfiyyətləri və məktəbli mövqelərini qismən və ya tamamilə itirmələri ilə fərqlənirlər.

III tip şagirdlərdə öyrənməyə qabillik aşağı olmaqla onlarda təlimə qarşı mənfi münasibət və məktəbli mövqelərini qismən və ya tamamilə itirmə xüsusiyyətləri özünü göstərir.

H.İ. Muraçkovski apardığı psixoloji tədqiqatlar nəticəsində geridə qalan şagirdlərin bu tiplərinin özünəməxsus yarımtiplərini aşkara çıxarmışdır. O, hər bir tipi yarımtiplərə ayırmaq üçün aşağıdakı iki göstəriciyə istinad etmişdir:

1. Şagirdlərin təlimdəki müvəffəqiyyətsizliklərini əvəz etmələrinə imkan verən vasitələr;

2. Gələcəkdə müəyyən fəaliyyətə qarşı yönəlmənin olması və ya olmaması.

Bu göstəricilərdən asılı olaraq, birinci tip şagirdlər arasında iki yarımtip müşahidə olunur. Birincisinə təlim işlərindəki müvəffəqiyyətsizliyi hər hansı bir praktik fəaliyyətin köməyi ilə əvəz etməyə çalışan şagirdləri aid edir. Bu cür şagirdlərdə analitik təfəkkür inkişaf etmədiyinə görə təlim materialını çətinliklə mənimsədikləri, təhlili məsələ həllinin bütün gedişində tətbiq edə bilmədiklərinə görə, məsələni də axıra kimi həll edə bilmədikləri göstərilir.

Geridə qalan şagirdlərin bu yarımtipində gələcəkdə müəyyən fəaliyyət növünə qarşı yönəlişlik, arzu olunan peşəyə dair az və ya çox dərəcədə aydın təsəvvür mövcud olur. Adətən, bu cür yönəlişlik onların təlim fəaliyyətindəki müvəffəqiyyətsizliklərini əvəz edən praktik fəaliyyətinin məzmunundan asılı olur. Bununla da həmin şagirdlərdə özünüqiymətləndirmə obyektiv xarakter daşıyır.

Geridə qalan *birinci tip* şagirdlərin ikinci yarımtipinə təlim işindəki hər cür çətinlikdən qaçmağa çalışan şagirdlər aid edilir. Onlar təlimdə müvəffəqiyyət qazanmaq üçün çox vaxt qadağan olunmuş yollardan istifadə etməyə, yoldaşlarından köçürməyə, onların gizlincə dediklərinə istinad etməyə çalışırlar. *İkinci tipə* aid edilən geridə qalan şagirdlər isə adətən məktəbə yaxşı hazırlıq və oxumaq həvəsi ilə gəlsələr də evdə səbirlə oturub işləməyə alışdırılmamışlar. Onlar yalnız xoşlarına gələn işlə məşğul olmağa adət etmişlər. Diqqəti cəmləşdirmək, hafizəni gərginləşdirmək və fəal şəkildə fikirləşmək onlarda narazılıq yaradır. Bunun da nəticəsində təlimdə yaranan müvəffəqiyyətsizlik mənəvi konflikt və təlimə qarşı mənfi münasibət əmələ gətirir. Bu cür uşaqların gələcək planları təlimlə bağlı olmur (5, s. 57).

Araşdırmalardan görünür ki, geridə qalan ikinci tip şagirdlərin arasında da yarımtip müəyyənləşdirmək mümkündür. Bunlardan birinci yarımtipə özünü təlimdəki müvəffəqiyyətsizliyini, kollektivdəki uğursuz vəziyyətinin sinifdənkənar əqli fəaliyyətlə əvəz edən şagirdləri aid edilir. Bu cür şagirdlərdə təlimin geniş sosial motivləri formalaşmamış olur. Bu şagirdlərin təlimdəki müvəffəqiyyətsizlikləri onları başqaları ilə, xüsusilə məktəbdənkənar qruplarla əlaqəyə girmək üçün yollar axtarmağa yönəldir.

Aparılmış tədqiqatlardan məlum olur ki, birinci tipə mənsub olan şagirdlərlə (öyrənməyə qabillik keyfiyyəti aşağı olan) elə iş aparmaq tələb olunur ki, onların müvəffəqiyyətlə oxumalarını ləngidən, ona mane olan fikri fəaliyyət xüsusiyyətləri yenidən qurulmuş olsun (6, s. 89). Ümumiləşdirmə qabiliyyətinin zəif inkişaf etməsi, əyani - əməli təfəkkürün məntiqi təfəkkürə nisbətən üstünlüyü həmin şagirdlərlə iş apararkən müəllim elə bir şərait yaratmalıdır ki, istifadə olunan əyani vəsait şagirdlərin diqqətini əsas fikri məsələnin həllindən uzaqlaşdıran ikinci dərəcəli əlamətlərə yönəltməsin. Müəllim elə bir şərait yaratmalıdır ki, hər bir şagird orada özünü göstərə bilsin, müəllim isə şagirdləri hər bir, hətta ən kiçik müvəffəqiyyətinə görə rəğbətləndirsin. Şagirdlərə verilən tapşırıqlar içərisində elələri də olmalıdır ki, şagirdlər müstəqil şəkildə asanlıqla yerinə yetirə bilsinlər.

Bəzən yeniyetmədə şəxsi maraqlar yarandıqca asudə vaxtını həvəslə bu məşğələlərə sərf edir, gecə - gündüz sevdiyi işlə məşğul olmaqdan doymur, dərs oxumaq üçün isə bəzən vaxt tapmır. Əgər şagird dərsə yaxşı hazırlaşmırsa, müəllim diqqətlə bunun səbəblərini təhlil etməli, onun maraqlarını və qabiliyyətlərini öyrənməli, təlim prosesində bu amilləri nəzərə almalıdır.

Yeniyetmələr üçün müəllimin yüksək erudisiyaya malik olması, şagirdlərə əlavə biliklər verməsi, materialı maraqlı və anlaşıqlı tərzdə şərh etməsi, uşaqların müstəqil mühakimələrinə həssaslıqla yanaşması çox əhəmiyyətlidir. Onlar usta müəllimi qiymətləndirirlər. Pedaqoji məharət yeniyetmələrin nəzərində müəllimin ustalığını göstərən çox mühüm cəhətdir. Bütün bunlardan asılı olaraq yeniyetmələrdə nəinki müəllimlərə, həm də onların vasitəsilə ayrı-ayrı fənlərə diferensial münasibət yaranır. Bu da V – VIII siniflərdə şagirdlərin müəyyən elm sahəsində marağının təşəkkülünü şərtləndirir (7, s. 186).

Təlimdə yeniyetmələrlə öyrənilən materialın asanlaşdırılmasını təmin etmək üçün mütəmadi olaraq şagirdlərə öyrənilən mövzunun praktik əhəmiyyətinin əyani olaraq göstərilməsi; şagirdlərdə maraq doğuran mövzuların öyrənilməsinə ayrılan dərs saatlarının artırılması; fənlərarası və fəndaxili əlaqələrin gücləndirilməsi; şagirdlərin dərsdə müstəqil işlərinin yerinə yetirilməsinin yeni formalarının işlənib hazırlanması; nümayişetdirici vəsaitin müvafiq qaydalara uyğun tərtib edilməsi və uşaqlara onun məqsədyönlü şəkildə təhlilinin verilməsi və s. onların

gələcək həyata hazırlıq mərhələsi kimi böyük əhəmiyyət daşıyır.

**Problemin aktuallığı.** Yeniyetmələrin təlim çətinliklərinin psixoloji xüsusiyyətlərinin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi – nəzəri tələbləri səviyyəsində həmin problemlərin təhlilini verməkdən ibarətdir.

**Problemin elmi yeniliyi.** Yeniyetmələrin təlim çətinliklərinin psixoloji xüsusiyyətləri probleminin təhlili, yeniyetmələrin özünü dərk etməsinə, müsbət xüsusiyyətlərlə yanaşı nöqsan və çatışmazlıqlarına da yaxından bələd olmağa köməklik göstərmək yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

**Ədəbiyyat:**

1. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006. 200 s.
2. Əliyeva H.İ. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim – şagird münasibətlərinin rolu. Bakı: Elm və təhsil, 2009, 162 s.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: 2010, 172 s.
4. Məmmədov İ. Məktəbdə psixoloji xidmət. Psixoloji praktikanın elmi –metodik problemləri və yaradılması təcrübəsi. Bakı: Təhsil, 2002, 260 s.
5. Локалова Н.П. Школьная неуспеваемость: причины, психокоррекция, психопрофилактика. СПб.: Питер, 2009, 368 с.
6. Максимов В.Г. Педагогическая диагностика в школе. М.: Академия, 2002, 272 с.
7. Даниель Марселли, Гильветта де Ла Бори. Практическая психология для подростков. Екатеринбург: У- Фактория, 2008, 285 с.

**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** *psix.ü.elm.dok.* **Q.N. Qəhrəmanova**
*ped.ü.fəls. dok., dos*. **E.M. Quliyev**

**Redaksiyaya daxil olub: 12.02.2020.**

UOT 159.9

***Səlbi Ağamehdi qızı Abasova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# İDRAK PROSESLƏRİNİN NEYROPSİXOLOJİ TƏDQİQİ

***Сальби Агамехти гызы Абасова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# НЕЙРОПСИХОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ КОГНИТИВНЫХ ПРОЦЕССОВ

***Salbi Aghamehdi Abasova***
*teacher of Azerbaijan State Pedagogical University*

# NEUROPSYCHOLOGICAL STUDY OF COGNITIVE PROCESSES

**Xülasə**: Serebral iflicli uşaqlarda hərəki pozulmalar çox nadir hallarda tədric olunmuş xarakter daşıyır, bir qayda olaraq, intellektual, nitq, perseptiv və kommunikativ funksiyaların inkişaf pozulması ilə müşayiət olunur. Yaş artdıqca düzgün istiqamətlənmiş tibbi müdaxilə ilə əlaqədar ali psixi funksiyaların pozulması azalır.
***Açar sözlər***: *serebral iflic, simptomlar, idrak prosesləri, ali psixi funksiyalar, impressiv və ekspressiv nitq*

**Резюме:** Двигательные нарушения у детей с церебральным параличом очень редко носят исключительный характер и, в основном, сопровождаются расстройствами поведения, с нарушением интеллектуальных, речевых, персептивных и коммуникативных функций. С возрастом нарушения высших психических функций, при целенаправленных медицинских вмешательствах, уменьшаются.
***Ключевые слова:*** *церебральный паралич, симптомы, когнитивные процессы, высшие психические функции, импрессивная и экспрессивная речь*

**Summary:** Movement disorders in children with cerebral palsy are very rarely exceptional and are mainly accompanied by behavioral disorders, with impaired intellectual, speech, perceptive and communicative functions. With age, disorders of higher mental functions, with targeted medical interventions, decrease.
***Key words :*** *Cerebral palsy, symptoms, cognitive processes, higher mental functions, impressive and expressive speech*

Serebral iflicli uşaqlarda hərəki pozulmalar çox nadir hallarda tədric olunmuş xarakter daşıyır, bir qayda olaraq, intellektual, nitq, perseptiv və kommunikativ funksiyaların inkişaf pozulması ilə müşayiət olunur.

Rusiyanın tədqiqatçıları tərəfindən müxtəlif yaşlı uşaqlarda (südəmər dövr daxil olmaqla) psixoloji müayinə, iri və xırda motorika, ekspressiv və impressiv nitq, polimodal qavrayış, sosial və intellektual inkişaf, oyun fəaliyyətinə dinamik müşahidə üçün xüsusi formalı kartlar işlənilmişdir. Bu kartlar uşağın "psixoloji profil"ində "parsial" və ya "harmonik" çatışmazlıqları və müəyyən yaş dövründə şiddət səviyyəsini görməyə imkan verir.

N.A. Yermolenkonun, İ.A. Skvortsovun, A.F. Neretinin işlərində 3 aylıq dövrdən 3 yaş dövrünədək intervalda MSS-nin prenatal və perinatal perioda aid orta və ağır dərəcəli zədələnmələri olan uşaqların inkişaf pozulması simptomlarının formalaşmasının kompleks kliniko-psixoloji təhlili aparılmışdı.

Yaş artdıqca mövcud simptomların dərinləşməsi ilə yeni nevroloji simptomların çoxalması ətraf mühitin böyüyən orqanizmə qoyduğu tələblərlə sinir sisteminin imkanları arasında uyğunsuzluq müəyyən olunmuşdu. Ali psixi funksiyaların formalaşmasının öyrənilməsi göstərmişdi ki, tədqiq olunan bütün psixi funksiyalar

üzrə uşaqların hamısı yaş normasından nəzərə çarpacaq dərəcədə geri qalırdılar (1).

1 yaşından 15 yaşınadək olan serebral iflicli uşaqların müayinə və müalicəsində psixi inkişafsızlıq və psixi inkişaf ləngiməsi tipi üzrə ali psixi funksiyaların çatışmazlığı orta hesabla 40,7% qeyd olunmuşdu, onlardan :

- 1 yaşdan – 3 yaşadək - 53,4 %
- 3 yaşdan 6 yaşadək — 33,7%;
- 6 yaşdan 15 yaşadək — 16,7%

Spastik diplegiya diaqnozlu 3 yaşa qədər uşaqlarda intellekt və nitq pozulmaları 5,4 % hallarda; hiperkinetik formada 5,0 % hallarda; atonik-astatik formada – 9,3 % ; hemiparezlərdə 1,1 % aşkar olunmuşdu.

Yaş artdıqca düzgün istiqamətlənmiş tibbi müdaxilə ilə əlaqədar ali psixi funksiyaların pozulması azalır.

X.N. Osipenkonun tədqiqat işində serebral iflicin müxtəlif formaları olan 3 yaşdan 6 yaşadək olan uşaqların uyğunlaşdırılmış neyropsixoloji testdən istifadə etməklə müayinəsi keçirilmişdi. Müayinə nəticələrinə görə qnostiko-praksis, intellektual-nitq və mnestik funksiyaların çatışmazlığı aşkar olunmuşdu. Daha çox tezliklə kinestetik (64 %) və görmə-məkani (32 %) dispraksiya təzahür edir. Görmə-məkani dispraksiya qrafik fəaliyyətlə uyğunlaşdığından, fərz edilə bilər ki, onların mənşəyi məkani dializ və sintezin pozulmasıdır.

Hərəkətlərin tənzimlənməsinin pozulması uşaq serebral iflicinin müxtəlif formalarında (40 %) müşahidə olunur və davranış və təfəkkürün disfunksiyası üçün "risk amili" hesab olunur. Sensor funksiyaların pozulması məkani (18%) , eşitmə (12 %) və nadir hallarda görmə (3 %) disqnoziyası üzrə pozulmalar qeydə alınır. Hafizənin pozulması praksisin disfunksiyasından daha az, qavrayışın disfunksiyasından isə daha artıq tezliklə müşahidə olunur. Fikri proseslərin pozulması (9 %) əsasən daha çox qeyri-verbal tip üzrə, daha az isə verbal tip üzrə baş verir. Konstruktiv fəaliyyətin pozulması 15 % hallarda müşahidə olunur.

Beləliklə, serebral iflicli uşaqlarda "risk faktoru" olan disqrafiya (praksisin müxtəlif şəkilli pozulmaları), məkani təsəvvürlərin pozulması, disleksiya (oxu pozulmaları) təzahür edir, bu pozulmalar da gələcəkdə uşağın təhsilinə mənfi təsir edir.

Serebral iflic şəraitində perinatal dövrdə zərər çəkmiş beynin inkişafsızlığının təhlili böyük yarımkürələr qabığının bütün şöbələrinin, neyroontogenezin erkən mərhələlərində daha çox həssas olan alın-əmgək-gicgah şöbələrinin bərabər dərəcədə disfunksiyası özünü göstərir. Ənsə payının funksiyalarının çatışmazlığı az sayda uşaqlarda müşahidə olunur.

Bununla yanaşı, yarımkürələrarası birgə fəaliyyəti təmin edən beynin mərkəzi strukturlarının da zədələnmə faizi yüksək olur. Bu da yarımkürələrin normal dominantlığının inkişafına və onların vahid funksional sistem kimi fəaliyyətinə neqativ təsir edir (2).

Serebral iflicli uşaqlarda solluq qeydə alınır ki, bu da yarımkürələrarası dominantlıqda anomaliyanı bir daha təsdiq edir. 4 yaşından 7 yaşınadək olan dövrdə "gizli" və açıq solluğun nəzərə çarpan artımı hiss olunur.

İdrak proseslərinin pozulma dərəcəsinin və baş beyində zədələnmənin lokallaşma yerinin diferensial diaqnostikası üçün serebral iflicin müxtəlif formalarında neyropsixoloji tədqiqat böyük maraq doğurur.

Uşaq serebral iflicinin müxtəlif formaları ilə zədələnmiş uşaqlarda qnostik proseslərin neyropsixoloji və psixometrik metodlardan istifadə etməklə kompleks halda psixoloji müayinələrinin nəticələrinə əsaslanaraq bir sıra aspektləri qeyd etmək vacibdir.

USİ-nin **diplegiya forması** olan uşaqlarda PİL ali psixi funksiyaların həm spesifik, həm də ümumi xarakter qaşıyan pozulmalarının lokalizasiya və ağırlıq dərəcəsinə görə müxtəlifliyi ilə əlaqədardır. Yüngül ifadə olunmuş intellektual çatışmazlıq zamanı ayrl-ayrı psixi funksiyaların: diqqət, hafizə, görmə-məkani qnozis və praksisin təşkilində parsiallıq, qeyri-bərabər inkişaf təzahür edir. Daha şiddətli intellektual çatışmazlığı olan spastik diplegiyalı uşaqlarda bu təzahürlər total xarakter daşıyır və uşağın ümumi psixi inkişafsızlığında vacib yer tutur.

USİ-nin *hemiparetik formasında* qnostik və intellektual qüsurların strukturu beyin şöbələrinin lokal inkişafsızlığı ilə müəyyən olunur. Sol tərəfli hemiparezi olan (sağ yarımkürənin qüsuru) xəstələrdə qüsurun strukturunda görmə məkani təhlil və tərkibin, perseptiv ümumiləşmələrin inkişafsızlığı aparıcı olur. Sağ tərəfli hemiparezi olan (sol yarımkürə qüsuru ) xəstələrdə

verbal funksiyaların (sözlü ümumiləşdirmələr, lüğət ehtiyatı, əqli fəaliyyətin xarakteri) inkişafsızlığı müşahidə olunur. Erkən ontogenezdə sağ yarımkürənin inkişafsızlığı zamanı sol yarımkürənin qüsuru zamanına nisbətən ali qabıq funksiyalarının pozulma strukturu daha mürəkkəb və çoxşaxəli olur. Lakin USİ-nin hemiparetik forması olan uşaqlarda beyin yarımkürələrinin zədələnməsilə yetkin xəstələr üçün xarakterik olan şiddətli neyropsixoloji sindromlar aşkar edilməmişdi.

USİ-nin *hiperkinetik forması* olan xəstələrdə ali psixi funksiyaların ciddi pozulması müşahidə olunmur. Onlarda aşkar olunmuş eşitmə nitq yaddaşının həcminin azalması ekspressiv nitqin inkişafsızlığı ilə əlaqədardır. Bu göstəricilər USİ-nin hiperkinetik formasında beynin qabıqaltı strukturunun zədələnməsindən xəbər verərək neyrofizioloqların tədqiqatlarının nəticələrini təsdiq edir (3).

Serebral iflicli uşaqlarda ali psixi funksiyaların inkişafının neyropsixoloji təhlili xəstəliyin forma və ağırlığından asılı olaraq beyin şöbələrinin müxtəlif defisitarlığını göstərdi. Uşaqlarda ali psixi funksiyaların təhlilinə istiqamətlənərək A.R. Luriya tərəfindən hazırlanmış beynin inteqrativ fəaliyyətinin struktur-funksional modelinə uyğun olaraq, beynin bu və ya digər blokunun defisitarlığından asılı olaraq motor pozulmaları olan uşaqların ayrı-ayrı qruplarını ayırd etmək olar:

-USİ-nin *diplegiya forması* olan uşaqlarda beynin inteqrativ işinin müxtəlif səviyyəli pozulmaları müşahidə olunur ki, bu pozulmalar beynin dərin strukturlarının defisitarlığında (blok 1), beynin arxa şöbələrinin disfunksiyasında (blok 2) və alın şöbələrində (blok 3) təzahür edir.

- USİ-nin *hemiparetik forması* olan uşaqlarda yarımkürə defisitarlığı qeydə alınır, bu da beynin inteqrativ fəaliyyətini yüksək dərəcədə pozur. Lakin bu hal uşaqlarda böyüklərə nəzərən daha az ifadə olunur. Sağ yarımkürənin inkişafsızlığı uşaqlarda idrak proseslərinin daha dərin pozulmalarına gətirib çıxarır.

- USİ-nin *hiperkinetik forması* zamanı II və III blokun nisbi qorunması ilə yanaşı beynin qabıqaltı strukturlarının şiddətli defisitarlığı müşahidə olunur.

**Problemin elmi yeniliyi.** Beləliklə, USİ-li məktəblilərin psixi funksiyalarının formalaşmasının yaş təhlili göstərdi ki, yaş artdıqca onlarda ayrı-ayrı psixi funksiyaların intellektin ümumi strukturuna inteqrasiya olunması tendensiyası müşahidə olunur. Lakin sağlam uşaqlarla müqayisədə onların inkişaf dinamikası zəif olur. Bundan başqa intellektual funksiyaların formalaşma prosesi sağlam uşaqlardan fərqli keyfiyyət xarakteri daşıyır. Bu da ümumi intellektin inkişafında, verbal funksiyaların avtonom inkişafında, onların qeyri-verbal funksiyalarla qarşılıqlı əlaqənin çatışmazlığında, formalaşma prosesində psixi funksiyaların zəif hərəkiliyində təzahür edir. Bütün bunlar serebral iflicli uşaqların intellektinin disproporsional inkişafında özünü göstərir.

**Problemin praktik əhəmiyyəti və aktuallığı.** Ontogenezdə olduğu kimi, psixi dizontogenezdə də psixi proses və funksiyaların təşkilinin çoxsəviyyəli iyerarxik təşkilinin öyrənilməsi nəinki yaş, həm də dəqiq struktur təhlili tələb edir. Psixi dizontogenez olan sağlam şagirdlərin neyropsixoloji tədqiqi metodu beyində psixi proseslərin təşkilinin ümumi prinsipi ilə olduğu kimi, onların ontogenezdə formalaşması qanunauyğunluqları ilə əlaqədar vacib məsələlərin həllinə yaxınlaşmağa imkan verir.

**Ədəbiyyat**:

1. Детский церебральный паралич: диагностика и коррекция когнитивных нарушений Учебно-методическое пособие, РНИМ Университет им. Н.И. Пирогова, М., 2012.

2. Козявкин В.И., Шестопалова Л.Ф., Подкорытов В.С. Детские церебральные параличи Медико-психологические проблемы, Львов, 1999.

3. Никитина М.Н. Детский церебральный паралич, М.: Медицина, 1979.

**E-mail:** s-asadzade@mail.ru
**Rəyçilər:** *ped ü fəls.dok.* **N.T. Hüseynova,**
*ped ü fəls. dok.* **M. Məlikov**

**Redaksiyaya daxil olub: 03.02.2020.**

UOT 159.9:316.356.2

***Şəfiqə Şəmsəddin qızı Həsənova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Milli Elmlər Akademiyası*

## MÜASİR AZƏRBAYCAN AİLƏSİNDƏ YARANAN ZİDDİYYƏTLƏRİN SUBYEKTİVYÖNLÜ MOTİVLƏRİ

***Шафига Шамсаддин гызы Гасанова***
*докторант по программе доктора философии*
*Национальная Академия Наук Азербайджана*

## СУБЪЕКТИВНО-НАПРАВЛЕННЫЕ МОТИВЫ ВОЗНИКЩИХ ПРОТИВОРЕЧИЙ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ

***Shafiga Shamsaddin Hasanova***
*doctorial student in the proqramme of a Ph.D*
*National Academy of Sciences of Azerbaijan*

## SUBJECTIVE MOTIVES OF THE BORN CONTRADICTIONS IN THE MODERN AZERBAIJAN FAMILY

**Xülasə.** Müasir Azərbaycan ailəsi də qloballaşan dünyada yaşayan modern, multikultural, demokratik, İnformasiya Kommunikasiya Texnologiyalarının inkişaf etdiyi informasiya cəmiyyətinin tərkib hissəsidir. Müasir cəmiyyətdə gedən dəyişikliklər, şübhəsiz ki, Azərbaycan ailəsinə də öz müsbət və mənfi təsirini göstərir. Məqalədə müasir Azərbaycan ailəsində inkişafda olan cəmiyyətin gətirdiyi mənfi təsirlərdən yaranan ziddiyyətlərin subyektivyönlü motivləri təhlil edilmişdir.
***Açar sözlər:*** *ailə, cəmiyyət, müasir Azərbaycan ailəsi, ailədaxili ziddiyyətlər, motiv*

**Резюме:** Современная азербайджанская семья также является неотъемлемой частью современного многокультурного, демократического, информационно-коммуникационного общества в глобализированном мире. Изменения в современном обществе, безусловно, оказывают положительное и отрицательное влияние на азербайджанскую семью. В статье анализируются субъективно-направленные мотивы конфликта, вызванного негативным воздействием развивающегося общества на современную азербайджанскую семью.
***Ключевые слова:*** *семья, современное, общество, современная азербайджанская семья, внутренние конфликты, мотивация*

**Summary:** The modern Azerbaijani family is also an integral part of the modern multicultural, democratic, information and communication society in a globalized world. Changes in modern society, of course, have a positive and negative impact on the Azerbaijani family. The article analyzes the subjective motives of the conflict caused by the negative impact of the developing society on the modern Azerbaijani family.
***Key words:*** *family, modern, society, modern Azerbaijani family, internal conflicts, motivation*

Ailə həm bütövlükdə cəmiyyət, həm də ayrılıqda şəxsiyyət üçün əhəmiyyəti artmaqda olan ümumbəşəri dəyər, hər bir millətin milli xüsusiyyətlərinin, əxlaqi norma və qaydalarının, genotipinin daşıyıcısı və ötürücüsüdür. Ailə cəmiyyətdə yüksək əxlaqi – tərbiyə potensialına malikdir və o, həm sosial institut, həm də kiçik qrup kimi öz imkanlarını reallaşdırır. Buraya aiddir: milli – mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi, ailədaxili ünsiyyətin qurulması, ailə məsuliyyətinin, qayğılarının onun üzvləri arasında bölüşdürülməsi, qohumlarla və

ətraf sosial mühitlə münasibətlərin qurulması və s. Ailə mədəniyyəti nə qədər yüksək olarsa, cəmiyyətin mədəniyyəti də bir o qədər yüksək olar. Çünki cəmiyyət ailədən – valideyn (ata, ana) və övladdan ibarətdir.

Məlumdur ki, biz qloballaşan dünyada, demokratik, multikultural və İnformasiya Kommunikasiya Texnologiyalarının inkişaf etdiyi informasiya cəmiyyətində yaşayırıq. Müasir Azərbaycan ailəsi də bu cəmiyyətin tərkib hissəsidir. Hər bir xalqın mövcudluğu onun milli ailə dəyərlərinə, adət- ənənələrinə, ana dilinə, mədəniyyətinə bağlılığından xeyli dərəcədə asılıdır. Azərbaycan xalqının da özünəməxsus milli ailə dəyərləri, adət - ənənələri vardır ki, bunlar ənənəvi Azərbaycan ailəsində qorunub yaşadıldığı kimi, müasir Azərbaycan ailəsində də öz əhəmiyyətini itirməmişdir. Müasir Azərbaycan ailəsində ailədaxili münasibətlər cəmiyyətin tələblərinə uyğun olaraq daha da demokratikləşmişdir. Qloballaşma prosesində milli kimliyimizi müəyyən edən mədəni-mənəvi ailə dəyərlərimiz ümumbəşəri dəyərlərlə səsləşməyə cəhd edir. Çünki cəmiyyət inkişaf etdikcə onun tələbləri də dəyişir. Elm və texnologiyanın sürətlə inkişaf etdiyi müasir dünyada internet vasitələrinin, xüsusilə sosial şəbəkələrin müasir yaşam tərzini əhatə etməsi, sosial-iqtisadi, psixoloji amillər XXI əsrin ailəsinə kifayət qədər təsir göstərməkdədir. Bəs biz yaşadığımız müasir cəmiyyətin tələblərini ayrı-ayrılıqda və ailədaxili münasibətlərdə nəzərə almağı bacarırıqmı? Bu gün bu, vacib məsələlərdən biridir. Ailədaxili ziddiyyətlər dedikdə, ailə üzvlərinin (ər-arvad, valideyn – övlad) bir-biriylə olan münasibətində yaranan problemlər nəzərdə tutulur. Ailədə uzun müddət birlikdə yaşayan iki nəfərin (ər-arvad) arasında ziddiyyətlərin, anlaşılmazlıqların yaranması normal hal kimi qəbul oluna bilər. Müxtəlif səbəblərdən qaynaqlanan bu problemləri sağlam düşüncəli şəkildə həll edənlər yenidən ailə xoşbəxtliyinə nail olurlar. Lakin bir qism ailələr vardır ki, yaşadıqları problemlər getdikcə artır, qarşılıqlı anlaşılmazlıqlar yaranır ki, bu da boşanma ilə nəticələnir.

Ümumiyyətlə, ailədaxili ziddiyyətlərə, xüsusilə də boşanmalara səbəb olan motivləri üç qrupa ayırmaq olar: (5, s. 200)

- İqtisadi münasibətləri özündə cəmləşdirən motivlər;
- Psixoloji və fizioloji xüsusiyyətlərə əsaslanan motivlər;
- Sosial bioloji mənbəyi olan motivlər.

Müəllifin qeyd etdiklərini də nəzərə alaraq deyə bilərik ki, bu üç motivlər qrupu ilə yanaşı, şəxsi keyfiyyətlərə əsaslanan motivlər əsas motivlərdən biri kimi xüsusi əhəmiyyətə malikdir. Şəxsi keyfiyyətlər motivi dedikdə, insanın dünyagörüşü və mənlik potensialının bir motiv kimi ailənin formalaşmasındakı rolu başa düşülür.

İqtisadi münasibətləri özündə cəmləşdirən motivlərə aiddir: ailənin yaşayış yerinin və məişət şəraitinin olmaması, onların valideynlər və ya digər qohumlarla birgə yaşaması, ailəyə kənar müdaxilələr, maddi vəziyyətin çox aşağı səviyyədə olması – yoxsulluq, ər və ya arvadın işləməməsi, ər və ya arvadın az məvacib alması, məqsədli nikahların qurulması və s.

Psixoloji və fizioloji xüsusiyyətlərə əsaslanan motivlərə aiddir: qarşılıqlı anlaşılmazlıq, həddən artıq qısqanclıq, fiziki zorakılıq, sonsuzluq, erkən nikahlar, müxtəlif xəstəliklər və s.

Sosial bioloji mənbəyi olan motivlərə aiddir: xəyanət, sərxoşluq, alkoqolizm, narkomaniya, cinayətkarlıq, faktiki nikahdan başqa digər ailənin də olması, tərəflər arasında sevgi və hörmət hissinin itməsi, yeni məhəbbət macərası axtarmaq və s.

Müasir ailədə ənənəvi Azərbaycan ailəsindən fərqli olaraq ziddiyyətlər, boşanma hallarının artması cəmiyyətimizi narahat edən məsələlərdəndir və getdikcə artır. Çoxsaylı tədqiqatlar və müşahidələr göstərir ki, müasir Azərbaycan ailəsində yaranan ziddiyyətlərin səbəbləri müxtəlifdir:

- Ünsiyyət çatışmazlığı və qarşılıqlı anlaşılmazlıq, sevgi, hörmət və inam hissinin itməsi, xəyanət, aldatma, diqqət, qayğı əskikliyi;
- Təhsil səviyyəsi, dünyagörüşünün müxtəlif olması;
- Xasiyyətlərin uyğunsuzluğu, həddən artıq qısqanclıq;
- İqtisadi çətinliklər;
- İnternet vasitələri, xüsusilə sosial şəbəkələrdən uzun müddət istifadə və həyatını daha maraqlı keçirmək istəyi və s.;
- Ailəyə kənar müdaxilələr;
- Övladın olmaması – sonsuzluq
- İntim münasibətlərin pozulması;
- Fiziki zorakılıq və psixoloji təzyiq;

- Ər – arvad arasında yaş fərqinin çox olması (erkən nikahlar və s.)

- Alkoqolizm, narkomaniya və s.

Görkəmli sosioloq, professor İ. Rüstəmov vurğulayır ki, qarşılıqlı ər-arvad münasibətlərinin bir neçə səviyyəsi mövcuddur və bu səviyyələr çərçivəsində aşağıdakı münaqişələr mümkündür:

- Psixi-fizioloji münaqişə - seksual həyatın pozulması ilə səciyyələnir;

- Psixoloji münaqişə - ailədə qarşılıqlı münasibətlər qeyri-sağlam xarakter daşıyır: daimi küsülülüklər, qarşılıqlı iradlar, qarşılıqlı sözgüləşdirilməsi, çox vaxt uşaqların üstünə tökülən əsəbilik:

- Sosial rol münaqişəsi – ailə həyat tərzinin qeyri-sabitliyi, ailə-məişət yükünün qeyri-bərabər bölüşdürülməsi:

- Sosial-mədəni (mənəvi) münaqişələr - ər-arvadın bir-birini başa düşməməsi, partnyorla ünsiyyətə marağın olmaması və ya itməsi, onun dəyərlərinin, ideallarının qəbul edilməməsi. (4, s. 219)

Müşahidələr və statistik göstəricilərə görə son dövrlərdə ölkəmizdə ailədaxili ziddiyyətlərin ən geniş yayılmış səbəblərindən biri qarşılıqlı anlaşılmazlıqdır. İlk vaxtlar ailədə yaranan "biz" anlayışı sonradan "mən" ilə əvəz olunur. Qarşılıqlı sevgi əsasında ailə quran iki gənc qısa müddət sonra əslində bir-birini sevmədiklərini, evlilik qərarı vermələrində yanıldıqlarını və xasiyyətlərinin uyğun olmadığını "anlayırlar", nəticədə ziddiyyətlər yaranır. Bu hala, həmçinin tanışların, qohumların vasitəsilə ailə quran insanlar arasında da rast gəlinir.

Ailədaxili ziddiyyətlərin digər bir səbəbi olan qısqanclıq, demək olar ki, Azərbaycan ailəsinin xarakterik xüsusiyyətlərindən biridir. Ailə üzvləri arasında inam, etibar hissinin olması onun dayanıqlı olmasını şərtləndirən vacib amillərdən biridir. Ailədə ər-arvad arasında normal qısqanclıq hissinin olması onların bir-birinə olan sevgisindən qaynaqlanır. Lakin onun ifrat həddə çatdırılması, səbəbsiz və yersiz qısqanclıqlar ailədaxili münaqişələrə gətirib çıxarır. Bu kimi halların yaranma səbəblərindən biri ailədə xəyanətin edilməsidir. Xəyanət edən tərəf düşünür ki, qarşı tərəf də ona xəyanət edir və ya münasib şərait yarandıqda edəcək. Digər bir halda isə ailədə ər, yaxud arvad öz valideynlərinin, qohumlarının, dostlarının, tanışlarının ailəyə xəyanəti, bu haqda kinofilmlər, müxtəlif internet saytlarında, sosial şəbəkələrdə yayılan məlumatlar elə təsəvvür yarada bilər ki, bu da ifrat qısqanclığa səbəb ola bilər.

Müasir Azərbaycan ailəsində yaranan ziddiyyətlərin bir səbəbi də ünsiyyət çatışmazlığıdır. Ailə həyatında ər-arvad, valideyn-övlad arasındakı gündəlik münasibətləri ünsiyyətsiz təsəvvür etmək mümkün deyil. Ailədə ünsiyyət ailə üzvlərinin bir-birinə münasibətində və qarşılıqlı fəaliyyətində özünü göstərir. Ailə üzvlərinin xüsusilə ər və arvadın ünsiyyət məmnunluğu onların dünyagörüşündən, dəyərlərindən, təhsil səviyyəsindən xeyli dərəcədə asılıdır. Ünsiyyət zamanı ər və arvadın bir-birini başa düşməsi, güzəştə getməsi, psixoloji dəstək olması, şəxsiyyətlərinə hörmətlə yanaşması, ortaq fikirlərinin, ünsiyyət mədəniyyətinin olması və s. vacib məsələdir. Ünsiyyət mədəniyyətinin vacib komponentləri səbrlilik, qarşı tərəfin fikirlərinə hörmət edərək onu dinləmək və başa düşməkdir. Lakin təəssüf ki, müasir dövrdə ailələrdə ünsiyyət çatışmazlığı yaranıb. Ailədaxili ünsiyyət çatışmazlığı özgələşməyə gətirib çıxaran əsas səbəblərdən biridir. Buna səbəb, yuxarıda qeyd etdiyimiz kimi, ər-arvadın təhsil səviyyəsinin, dünyagörüşünün, bir çox xarakterik xüsusiyyətlərinin, dəyərlərinin fərqli olması və son dövrlərdə geniş yayılmış Kütləvi İnformasiya Vasitələri, xüsusilə internet istifadədir. Bu gün insanlar internetdən, xüsusilə sosial şəbəkələrdən müxtəlif məqsədlər üçün istifadə edir. Ailə üzvlərinin uzun müddət internet vasitələrindən istifadə etməsi ailədaxili problemlərə gətirib çıxarır. Belə ki, ailədaxili ünsiyyət (ər – arvad, valideyn – övlad) azalır, onlar bir-birinə daha az diqqət ayırır ki, bu da vərdişə çevrilir, yeni tanışlıqlara maraq artır, emosional əlaqələr zəifləyir və nəticədə ailədaxili ziddiyyətlər yaranır ki, bu da bəzən boşanma ilə nəticələnir.

Müasir Azərbaycan ailəsində ziddiyyətlərə səbəb olan mühüm amillərdən biri də erkən nikahlardır. Çoxsaylı araşdırmaların nəticələri göstərir ki, Azərbaycanda erkən nikahların bağlanmasının əsas səbəbləri gender bərabərsizliyi, təhsil problemləri, mədəni stereotiplər, yoxsulluq və s. kimi hallardır. Gender bərabərsizliyi özünü ailədə qızlar və oğlanlar arasında edilən cinsə görə ayrı-seçkilikdə göstərir. Qızlarını erkən evliliyə vadar edən valideynlər çox vaxt özləri də erkən nikaha daxil olan, düşüncələrin-

də bu stereotipi formalaşdıran insanlar olur. Şübhəsiz ki, erkən nikaha daxil olmağa vadar edilən qızların təhsil almaq imkanı məhdudlaşdırılır. Cənub rayonlarında (Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad, Masallı) 9-cu sinif şagirdlərinin 47,73%-ni qızlar təşkil edibsə, 11-ci sinif şagirdləri arasında bu göstərici 39,04% -ə bərabər olub. 11-ci sinifdə şagirdlərin sayında qızların payı kəskin şəkildə azalıb. Buna səbəb isə erkən evlilik məsələsidir (3, s. 110).

Ailə - ev mühitində sıxışdırılan bu cür qadınlar erkən nikah, məişət zorakılığı kimi hüquq pozuntularına məruz qalırlar. Müşahidələr göstərir ki, erkən nikahlar daha çox yoxsul və çoxuşaqlı ailələrdə rast gəlinir. Onların maddi imkanları uşaqlarına təhsil verəcək və normal həyat şəraiti yaradacaq durumda olmadığından qızlarını erkən nikaha məcbur edirlər. Baxmayaraq ki, müstəqil Azərbaycan Respublikası artıq dünya birliyinə inteqrasiya edən və inkişaf etməkdə olan bir ölkədir, bir çox bölgələrimizdə erkən nikahlar xüsusilə cənub rayonlarında ənənəyə çevrilib. Özündən 10-15 yaş böyük bir şəxslə evləndirilən yeniyetmə qızların ailələrində ziddiyyətlərin yaranması şübhəsizdir. Yaş fərqləri çox olduğundan, belə nikahlarda çox hallarda qadınlar ailədə qərarların qəbul edilməsində iştirak etmirlər, çünki qızlar savadsız və dünyagörüşü az biri kimi qəbul edilir. Erkən nikahlarda ərlərin həyat yoldaşlarına nəzarəti və sanki onu "əsarətdə" saxlaması halları daha çox müşahidə olunur, qadınların istəkləri, demək olar ki, nəzərə alınmır. Erkən evləndirilən qızlar özləri də psixofizioloji baxımdan evliliyə hazır olmurlar və yeni yaranmış mühitə uyğunlaşmaqda çətinlik çəkirlər. Bu zaman yaranan ailədaxili ziddiyyətlər zorakılıqlara səbəb olur. Fiziki zorakılıq, hədə-qorxu mexanizmi, psixoloji təzyiqlər erkən nikahların qorunub saxlanılmasına xidmət edir.

Ailədə ziddiyyətlərə səbəb olan başqa bir amil ilk övladın doğulması ola bilər.

Belə ki, gənc ailədə ilk uşağın doğulmasından sonra ər-arvadın birgə həyatının xüsusi bir dövrü başlayır. Belə ki, bu hadisə ailənin həyat tərzinin, ər-arvadın hər ikisində formalaşan maraq və vərdişlərin dəyişməsinə səbəb olur, ana və ata sosial rollarını çətinliklə mənimsəyirlər. İlk uşağın doğulması ilə cütlüyün yuxu rejimi və adət etdiyi həyat tərzi baxımından fiziki və emosional stress halı kəskin şəkildə artır, narahatlıqlar, maddi xərclər, vəzifə bölgüsü, yeni həyat tərzinə uyğunlaşma ilə əlaqədar gərginlik və münaqişələr yaranmağa başlayır. Ana və ata öz azadlıqlarının məhdudlaşdığını hiss edirlər. Bəzən yeni ailə üzvünün doğuluşu ər-arvad arasındakı münasibəti və ünsiyyəti zəiflədir, valideynlərin diqqət mərkəzində artıq yeni doğulmuş körpə olur. İlk uşağın doğulması təkcə cütlüyün tələbatlarının sosial strukturuna dəyişiklik yaratmır, həm də peşəkar ehtiyaclarının yenilənməsi baş verir. İşləyən bir qadın üçün peşəsinə olan tələbat ikinci plana keçir, analığa olan tələbat ön plana keçir. Uşağın doğulması ilə müəyyən keyfiyyət dəyişiklikləri atanın peşəkar tələbatlarının strukturunda da müşahidə olunur. İlk növbədə bu, peşəkar ehtiyaclara aiddir: status - əmək haqqının artırılması amili olaraq iş bacarıqlarının artırılması ehtiyacı yenilənir. Uşağın doğulması da gənc bir atanın peşə planlarını dəyişdirmək üçün dolayı səbəb kimi göstərilə bilər. Bundan başqa, ailədə ər-arvadın birgə keçirdikləri vaxt azalır. Əgər əvvəllər cütlük asudə vaxtını ümumiyyətlə birgə keçirirdilərsə, indi bunu çox vaxt tək edirlər, belə ki valideynlərdən biri uşaqla qalır, xüsusilə müvəqqəti digərini əvəz edə biləcək valideynlər və ya qohumlar olmadıqda bu hallar daha çox müşahidə olunur. Həmçinin cinsi münasibətdə də konfliktlər yaşana bilər.

Beləliklə, bir uşağın doğulmasının həqiqətən də ailə həyatında ciddi dəyişikliklərə səbəb olduğu qənaətinə gələ bilərik. Ər-arvadın onlar üçün yeni sosial rollarını – ana və ata hissini mənimsəmələri və yeni yaranmış ailə mühitinə uyğunlaşmaları üçün müəyyən zaman lazımdır.

Ailədaxili ziddiyyətlərin qarşısını almaq məqsədilə, ilk növbədə, cəmiyyətdə erkən nikahların, ailə konfliktlərinin, boşanmaların mənfi nəticələri ilə bağlı genişmiqyaslı təbliğat, maarifləndirmə işlərinin aparılması, layihələrin həyata keçirilməsi zəruridir. Bu məqsədlə Kütləvi İnformasiya Vasitələri ilə müxtəlif maarifləndirici, nümunəvi proqramların hazırlanması və yayımlanması vacibdir. Nikaha daxil olan şəxslərin buna hazır olub-olmamasına sağlam düşüncə ilə sərbəst qərar verməyi bacarması vacibdir. Ailədə ər-arvad arasındakı qarşılıqlı münasibətlər, ailənin sosial-psixoloji iqlimi uşaqların tərbiyəsində mühüm rol oynayır. Belə ki, bö-

yüyən gənc nəsli məhz valideynlər yetişdirir, tərbiyə edir, onlara böyüklərə hörmət etməyi, ətraf mühiti, təbiəti və insanları sevməyi, milli-mənəvi dəyərləri aşılayır. Uşaqlar valideynlərindən nümunə götürərək ilkin ailə təcrübəsini qazanırlar və gələcəkdə öz ailələrində bundan istifadə edirlər. Ona görə də ailələrin demokratik prinsiplər, qarşılıqlı sevgi, hörmət, anlayış üzərində qurulması, tərəflərin dünyagörüşü, təhsil, mədəni səviyyələrinin uyğunluğu ailənin xoşbəxt və uzunömürlü olmasında mühüm rol oynayır.

Təhsil sistemində bir sıra fənlərin tədrisində - ədəbiyyat, tarix, biologiya və s. "şəxsiyyət və müasirlik" tipli mövzuların proqrama daxil edilməsi nəzərə alınmalıdır. Həmçinin uşaqları erkən yaşda məktəbdən uzaqlaşdıran valideynlər haqqında sərt tədbirlər görülməlidir (cərimə, hüquqi baxımdan məsuliyyətə cəlb etmək, ictimai qınaq və s.).

**Problemin aktuallığı.** Davamlı və sürətlə inkişaf edən cəmiyyətin tərkib hissəsi olan müasir Azərbaycan ailəsində yarana ziddiyyətlərin motivlərini araşdırmaq və bu problemin qarşısını almaq günümüzün aktual məsələlərindəndir.

**Problemin elmi yeniliyi.** Müasir Azərbaycan ailəsində yaranan ziddiyyətlərin öyrənilməsi onların aradan qaldırılması yollarını müəyyənləşdirməkdə mühüm rol oynayır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə psixoloqlar, pedaqoqlar, gənc tədqiqatçılar, doktorant və dissertantlar, həmçinin evlənməyə hazırlaşan şəxslər və gənc ailələrin maarifləndirilməsi üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: Elm, 2005, 346 s.
2. Məmmədov F.T. Kulturologiya və insan inkişafı. Bakı: "OL" NPTK, 2019, 344 s.
3. Məmmədov R.T. Erkən evlilik probleminin araşdırılması və ondan çıxış yolları. Bakı: "Serviz AZ" MMC-nin mətbəəsi, 2018,150 s.
4. Rüstəmov İ.Ə. Ümumi sosiologiya / Prof. Z.T. Qolenkovanın red. ilə. Bakı: ADPU-nun mətbəəsi, 2014, 492 s.
5. Altay toplulukları. Aile ve aile değerleri. İstanbul: Türk Dünyası Belediyeler Birliği (TDBB) Yayınları, No:27, 2019, 946 s.
6. Bayer A. Ailede yaşanan anlaşmazlıklar və çözüm önerileri. Antakiyat/Hatay Mustafa Kemal Üniversitesi İlahiyat Fakültesi Dergisi. Cilt/Volume: 1 Sayı/Number :2. Sayfa/Page: 215 – 234.
7. Антонов А.И., Медков В.М. Социология семьи. М.: Изд-во МГУ: Изд-во Международного университета бизнеса и управления ("Братья kарич"), 304с.
8. Андреева Т.В. Семейная психология. СПб.:Речь, 2004, 244с
9. Бабосов Е.М. Общая социология: Учеб. пособие для студентов вузов. Мн.: «Тетра Системс», 2004, 640с.
10. Посысоев Н.Н. Основы психологии семьи и семейного консультирования: М.: ВЛАДОС-ПРЕСС, 2004, 328 с.
11. Zajdel K., Truhlarova Z., Prokosz M., Mitlöhner M., Levicka J., Borecka – Biernat D. Social Problems of the Contemporary Families. Wroclaw 2014.

**E-mail:** shafigahasanova89@gmail.com

**Rəyçilər:** *fil.ü.elm.dok.,prof.* **R. Əzimova,**
*ped.ü. fəls.dok.* **S. Əliyeva**

**Redaksiyaya daxil olub: 28.02.2020.**

## *MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL*

UOT 373.2

***Səməngül Tacəddin qızı Abdullayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının müəllimi*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN BƏDİİ-ESTETİK TƏRBİYƏSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

***Самангюль Таджаддин гызы Абдуллаева***
*преподаватель Шамахинского филиала Азербайджанского Государственного Педагогического Университета*

# НЕКОТОРЫЕ ВОПРОСЫ ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Samangul Tacaddin Abdullayeva***
*teacher of Shamakhi branch of Azerbaijan State Pedagogical University*

# SOME FEATURES OF ART-ASTETICAL EDUCATION OF PRE-SCHOOL CHILDREN

**Xülasə.** Məqalədə məktəbəqədər təhsil müəssisələrində uşaqların bədii-estetik tərbiyəsinin bəzi məsələləri araşdırılır. Eyni zamanda kiçik, orta və böyük yaş qruplarında bu istiqamətdə işin təşkili məsələsi də məqalədə araşdırılır. Təlim zamanı müxtəlif metodlardan istifadənin əhəmiyyəti vurğulanır.
***Açar sözlər**: bədii-estetik, yaradıcılıq, böyük məktəbəqədər yaş, qavrayış, gözəllik, məşğələ*

**Резюме.** В статье исследуются некоторые вопросы художественно-эстетического воспитания детей в дошкольном учебном заведении. Одновременно рассматриваются вопросы организации работы в этом направлении в младших, средних и старших группах. Особое внимание уделяется использованию различных методов обучения.
***Ключевые слова:** художественно-эстетический, творчество, старший дошкольный возраст, восприятие, красота, занятие*

**Summary.** The article examines some of the issues of artistic and aesthetic education of children in preschools. The issue of organizing work in this area in junior, middle and senior age groups is also explored.
***Key words** : artistic aesthetics, creativity - great preschool age, perception - beauty – occupation*

Ölkəmizin indiki inkişaf mərhələsində təhsil prosesinin məqsədi uşağın hərtərəfli inkişafıdır. Son zamanlar bədii və estetik inkişaf nəzəriyyəsi və təcrübəsi problemlərinə, reallığa münasibət formalaşdırmağın ən vacib vasitəsi, mənəvi və əqli tərbiyə vasitəsi, yəni hərtərəfli inkişaf etmiş, mənəvi baxımdan zəngin bir insanı formalaşdırmaq üçün bir vasitə kimi diqqət artırıldı. Uşaq bağçası öz fəaliyyətini məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafını həyata keçirmək istiqamətində qurur. Fiziki, əqli və mənəvi inkişafla yanaşı, bədii və estetik inkişaf uşaq bağçasının işində əhəmiyyətli yer tutur. Məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri estetik inkişafın müxtəlif tərəflərinə - binaların və məşğələ otaqlarının dizaynına, uşaqların və böyüklərin görünüşünə, rəsm əsərlərinin istifadəsinə böyük diqqət yetirirlər. Uşaqlarla keçirilən dərslər arasında uşaqların rəsm çəkdiyi, heykəltəraşlıq etdiyi, bədii ədəbiyyat dinlədiyi, şer parçalarını ifadəli oxuduğu, mahnı oxumağı və musiqiyə rəqs etməyi öyrəndiyi dərslər bö-

yük üstünlük təşkil edir. Estetik inkişaf gerçəkliyin (təbiət, həyat, iş və ictimai həyat) və sənətin (musiqi, ədəbiyyat, teatr, sənət əsərləri və dekorativ yaradıcılıq) təsiri altında həyata keçirilir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların estetik fəaliyyətinin təşkili formaları müxtəlifdir. Bunlar oyunlar, dərslər, ekskursiyalar, tətil, əyləncə və s. ibarətdir. Tərbiyəçinin bu istiqamətdəki işinin elmi əsaslara söykənməsi və incəsənətin müxtəlif növlərinin hazırkı inkişaf səviyyəsini nəzərə alaraq, pillələlik prinsipini, tələblərin ardıcıl olaraq çətinləşməsini, müxtəlif yaşda olan uşaqların bilik və bacarıqlarına fərqli yanaşmanın vacib olduğunu nəzərə alan xüsusi bir proqrama əsasən həyata keçirilməsi çox vacibdir. Son illərdə getdikcə estetik hisslərə çevrilən, gerçəkliyə estetik münasibətin formalaşmasına kömək edən estetik və emosional qavrayışın inkişafına daha çox diqqət yetirilir. Uşağın bədii və estetik inkişafında müxtəlif sənət növlərindən istifadə fərdi inkişaf üçün fürsət verir, yaradıcılıq prosesini aktivləşdirir, duyğuları dərinləşdirir, hissləri və uşağın zəkasını inkişaf etdirir.

Məktəbəqədər yaşlı uşaqların bədii-estetik cəhətdən inkişaf etdirmək məqsədilə pedaqoji prosesdə xalq tətbiqi sənətinin əlaqələri məsələlərinə daha çox diqqət yetirilməlidir. Bu zaman elmi yenilik və nəzəri əhəmiyyət, əl yaradıcılığına dair material üzərində bədii və estetik inkişaf yollarının müəyyənləşdirilməsində, bədii və estetik inkişafın uğuru üçün pedaqoji şərtlər diqqətlə və düzgün müəyyənləşdirilməlidir.

Bir şəxsin estetik keyfiyyətləri fitri deyil, çox erkən yaşlarından ictimai mühit və fəal pedaqoji rəhbərlik şəraitində inkişaf etməyə başlayır. Estetik inkişaf prosesində uşaqlar tədricən estetik mədəniyyətə yiyələnirlər, estetik qavrayış, habelə fikir, konsepsiya, mülahizə, maraq, ehtiyac, hiss, bədii fəaliyyət və yaradıcılıq qabiliyyəti formalaşır.

Erkən yaşlı uşaqların inkişafı ətraf aləmin dərk edilməsinə estetik hazırlıq mərhələsi hesab edilməlidir. Bu, bütün sensor aparatların fərqli həssaslığının inkişafı və cisimlərin (obyekt və hadisələrin) ən təəccüblü xüsusiyyətləri və keyfiyyətlərinin qavranılmasına emosional reaksiya ilə başlayır. Uşaq yalnız ən diqqətəlayiq keyfiyyətlərə sevinclə reaksiya göstərir: ritmik hərəkətlərə, musiqili səslərə, təmiz parlaq rəng tonlarına, ananın üzünə, təbəssümünə, mehriban nitqinə. Onun üçün xoş olan fərdi hadisələrin fraqmentlərinə emosional reaksiya körpədə ya ağladıqdan sonra sakitləşməkdə, ya da şiddətli motor həyəcanında, qarşılıqlı təbəssümdə, şən bir gülüşdə özünü göstərir. Həyatın bütün ilk ili uşaqların emosional həssaslığının aktiv şəkildə inkişaf etdiyi bir dövr hesab edilməlidir. Tədricən, həyatın ikinci ilindən başlayaraq uşaqların qavrayışları inkişaf edir: uşaq bəzi sənət əsərlərində təkcə reallığın xüsusiyyətlərini deyil, həm də fərdi estetik ifadəlilik vasitələrini də dərk edir. Onlar incəsənət əsərlərində təzadlı ifadəli vasitələrə adekvat reaksiyalar göstərmək qabiliyyətinə malik olurlar: şən və kədərli, yüksək səsli və sakit, səs-küysüz, həzin melodiya, sürətli və yavaş temp və s.

Ən sadə bədii və oyun fəaliyyətlərində təqlid inkişaf edir, məmnuniyyət hissi yalnız fəaliyyət prosesindən deyil, müəyyən bir nəticəyə nail olmaqdan da görünür. Nitqin inkişafı getdikcə daha çox sayda istinadların adlarının assimilyasiyasına, estetik keyfiyyətlərin müqayisə prosesində aparılmasına səbəb olur: gözəl - çirkin, təmiz - çirkli, böyük - kiçik, qırmızı, yaşıl və s. Eyni zamanda, uşaqlar müəyyən bədii fəaliyyət növləri ilə də məşğul olurlar( musiqi, vizual və s.).

Kiçik məktəbəqədər yaşda uşağın estetik inkişafında növbəti dəyişikliklər baş verməkdə davam edir. Bu zaman onların müxtəlif sənət əsərlərinə, bu və ya digər sənət nümunəsinin elementlərinə (məs. ritmə, qafiyə, rəngə) həssaslığı artır. Uşaqlarda bütövlükdə əsərin məzmununa reaksiyalar da müxtəlif olur. Uşaq sənət əsərlərindən tanıdığı əşyaları gördükdə sevinir. Kiçik qrupun uşaqları əşya və hadisələrin yalnız ayrı-ayrı əlamətlərini görür, çox qısa ifadələr, bəzən çox spesifik qiymətləndirmələrdən istifadə edirlər. Ən sadə sənət növlərində və oyun fəaliyyətində uşaqlarda təqlidçilik inkişaf edir və onlarda yeni ehtiyac və maraqlar formalaşır. Vizual fəaliyyət zamanı uşaqlar qələm və gil ilə yerinə yetirilən sadə hərəkətlərdən tanıma, adlandırma kimi fəaliyyətlərə, alınan formaların qavranılmasına keçirlər. Öyrənmə fəaliyyətinin təsiri altında kiçikyaşlı uşaqlarda rəng, ləkələr, xətlər, forma ilə ortaya çıxan assosiativ obrazlar düşünülmüş təsvir xarakteri ifadə etməyə başlayır. Qeyd olunmalıdır ki, uşaqlar nəinki vizual, həm də musiqi fəaliyyətində ilkin yaradıcılıq

fəaliyyəti təzahürlərində, əşya və hadisələrin təsvirində müstəqilliyə, ifadəliliyə nail olmağa imkan verən ən sadə bacarıqlara malik olurlar. Bütün bunlar uşaqların bədii fəaliyyətində estetik xarakterin mövcudluğunu göstərir.

Orta məktəbəqədər yaşda uşaqların qavrayışı, onun dəqiqliyi və fərdiliyi sahəsində inkişaf baş verir. Bununla yanaşı, estetik qavrayış fraqment xarakteri daşımaqda davam edir, çünki o, uşağın şəxsi təcrübəsi, onun şəxsi maraqları ilə sıx surətdə bağlı olur. Uşaqlar tədricən bədii obrazın elementar qiymətləndirilməsini, müəyyən estetik vasitələrin həyata keçirilməsini, təsvir olunanların daxili mahiyyətinə varmağı bacarırlar. Uşaqlar əsərin məzmunu ilə onun ifadəli və vizual vasitələri arasındakı əlaqəni hiss edirlər. Onlarda konkret əsərlərə və müəyyən janrlara üstünlük vermək qabiliyyəti formalaşmağa başlayır. Həmin dövrdə uşaqlar bədii əsər nümunələrini müqayisə edir, indicə dinlədikləri musiqi nümunəsini tanış musiqi ilə tutuşdururlar. Onlar nəsr əsərini nəzmdən asanlıqla ayırır, hekayəni nağıldan, oyun havasını layladan fərqləndirə bilir, eyni zamanda, təsviri sənət nümunəsini heyranlıqla seyr edirlər.

Uşaqlarda yaradıcılığa, teatrlaşdırılma, musiqi, təsviri sənət sahəsində verilmiş tapşırığın yerinə yetirilməsi zamanı müstəqil fəaliyyət göstərməyə, qərar qəbul etməyə can atmaq meylləri oyanmağa başlayır. Onlarda rəqs edərkən, nəğmə oxuyarkən, dramlaşdırmada obrazın ifadəliliyinə nail olmaq meylləri özünü büruzə verir.

Böyük məktəbəqədər yaş dövrünün sonuna yaxın uşaqlar daha diqqətlə musiqi və bədii əsər nümunələrini dinləyə, təsviri sənət nümunələrini seyr edə, eyni zamanda, onları daha dərindən dərk edə bilir, xeyirxah, müsbət obrazlara hüsn-rəğbət bəsləyərək mənfi obrazları qınayırlar. Uşağın poetik və musiqi duyumu inkişaf edir. O, yalnız müxtəlif bədii sənət nümunələrində təsvir vasitələrini fərqləndirmək qabiliyyəti nümayiş etdirmir, eyni zamanda, həmin təsvir vasitələrinin bu nümunədə nə üçün vacib olduğunu izah etməyi də bacarır. Uşaqlarda bədii, musiqi və təsviri sənət janrlarının müəyyən nümunələrinə sabit maraq və üstünlük vermək xüsusiyyətləri aydın hiss olunmağa başlayır. Bu zaman onlarda bədii yaradıcılıq qabiliyyətləri fəal şəkildə inkişaf edir, onlar özləri tapmacalar fikirləşir, şer, nağıl, hekayə, mahnı qoşur, rəqs edir, aplikasiya düzəldir, rəsm çəkir, gil və plastilindən müxtəlif fiqurlar yapırlar. Onlar həm yaşıdlarının, həm də öz şəxsi bədii yaradıcılıq nümunələrinə qiymətverici münasibət göstərirlər. Təlimin müsbət təsiri sayəsində tədricən kiçikyaşlı uşaqlarda müxtəlif bədii ifadə vasitələrinə, sadə bədii obrazlara emosional həssas münasibətin də yaranması müşahidə olunmağa başlayır. Uşaqlar incəsənət əsərlərində ilkin estetik keyfiyyətləri nəinki görməyə, həm də dərk etməyə başlayırlar. Onlar incə fərqləri yalnız görməklə kifayətlənmir, daha incə müqayisələr etməyi, fikirlərini çatdırmaq üçün ifadəli sözlər tapmağı da bacarırlar. Uşaqlar müxtəlif bədii əsərlərdən poetik obrazları yadda saxlayır, nitqlərində onların sözlərindən istifadə edirlər. Onlarda ətraf aləmdə və incəsənət əsərlərində rastlaşdıqları gözəlliyə, bədii və oyun fəaliyyətinin müxtəlif növlərinə maraq formalaşır. Uşaqlar ədəbi qəhrəmanın davranışının gizli motivlərini tam dərk etməsələr də, ona və onun hərəkətlərinə emosional yanaşırlar.

Gözəllik hansı formada olur-olsun, uşağın hər zaman diqqətini çəkir, çünki uşağın estetik həyatı öz universallığı ilə böyüklərin estetik həyatından fərqlənir. Uşaq həm musiqini, həm də nağılı, rəsm əsərlərini, rəqsi, səhnə tamaşalarını, yapmanı xoşlayır. Ona böyüklərin əksəriyyətində tez-tez rast gəlinən incəsənətin bir, ya iki növünə diqqət kəsilmək xüsusiyyəti yaddır - o, incəsənətin bütün növlərini sevir və dəyərləndirir. Onlar bütün gözəllikləri sevir və uşağın bu estetik maraq universallığı onun universal estetik fəallığında öz ifadəsini tapır. O, gözəl olan heç bir şeyə biganə qalmır. Uşağın estetik həyatının başqa bir spesifik xüsusiyyəti isə onun yaradıcı xarakterə malik olmasından ibarətdir. Bu da onunla izah olunur ki, uşaq heç vaxt estetik qavrayışla kifayətlənmir, əksinə, o daim yaradıcılığa can atır və bu zaman məqsədinə nail olmaq üçün əldə edə bildiyi bütün vasitələrdən istifadə edir. Məktəbəqədər yaşlı uşağın bədii-estetik şüurunu formalaşdırmaq üçün tərbiyəçi, yeri gəldikdə, müxtəlif təlim metodları və vasitələrindən istifadə etməyi, lazım gələrsə, uşaqları bədii-estetik fəaliyyətə təhrik etməyi, onu istiqamətləndirməyi bacarmalıdır. Hər hansı bir problem yaranarsa, tərbiyəçi problemli-axtarıcı metoddan istifadə edərək uşağa şərait yaratmalıdır

ki, o, özü işin öhdəsindən gəlsin. Bundan əlavə, tərbiyəçi bu və ya digər uşağın yaş və anlaq xüsusiyyətlərini nəzərə almalı, tapşırıqların yerinə yetirilməsində işini bu prinsipin tələblərinə uyğun qurmalıdır.

**Problemin aktuallığı.** Hal-hazırda Respublikamızın həyatının bütün sahələrində olduğu kimi, təhsilin bütün pillə və səviyyələrində inkişaf özünü göstərməkdədir. Məktəbəqədər təhsil təməl təhsil olduğu üçün kiçikyaşlı uşaqların bədii-estetik tərbiyəsinə xüsusi diqqət ayrılmalıdır.

**Problemin elmi yeniliyi.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların bədii-estetik zövq və qabiliyyətlərinin inkişaf etdirilməsi müasir dövrün tələblərinə uyğun qurularsa, təlimin nəticəsi də yüksək olar.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə kiçikyaşlı uşaqların bədii-estetik yaradıcılığa cəlb edilməsi, onların bu sahədə fəaliyyətlərinin istiqamətləndirilməsi imkanlarına nəzər salınmışdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramının (2007-2010-cu illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı". Azərbaycan müəllimi, 13 aprel 2007-ci il

2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: İttifaq ədəbiyyatı, 2009.

3. Məktəbəqədər pedaqogika. Bakı, 1964.

4. Məmmədov M. Estetika haqqında söhbətlər. Bakı, 1968.

5. Cəfər M. Estetik tərbiyə, ailə və məktəb. Bakı: Maarif, 1967.

6. Xəlilov V. Ümumtəhsil məktəblərdə estetik tərbiyənin inkişaf yolları. Bakı: Maarif, 1991.

7. Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı, 2015.

**E-mail :** semengul.abdullayeva@gmail.com

**Rəyçi:** *ped.ü.fəls.dok*. **S.M. Sadıqova**

**Redaksiyaya daxil olub: 28.02.2020.**

UOT 373.2

**_Yeganə Xanoğlan qızı Məmmədova_**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏTRAF ALƏMLƏ TANIŞ EDİLMƏSİ ÜZRƏ İŞİN İSTİQAMƏTLƏRİ

**_Егяна Ханоглан гызы Мамедова_**
*преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# НАПРАВЛЕНИЯ РАБОТЫ ПО ОЗНАКОМЛЕНИЮ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА С ОКРУЖАЮЩЕЙ СРЕДОЙ

**_Yegana Khanoghlan Mammadova_**
*teacher of Azerbaijan State Pedagogical University*

# DIRECTIONS OF WORK ON PRESCHOOL CHILDREN FAMILIARITY WITH THE ENVIRONMENT

**Xülasə.** Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsinin vəzifələrindən biri onlarda ətraf aləm - təbiət və cəmiyyət haqqında düzgün təsəvvürlər formalaşdırmaqdan ibarətdir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların ətraf aləm haqqında təsəvvürlərini möhkəmləndirmək üçün müşahidələr və ekskursiyalar təşkil etmək, şəkillərə baxmaq və onların məzmununa aid müsahibələr aparmaqla onlarda düzgün nitqin inkişafına nail olmaq olar. Təbiət üzərində təşkil edilmiş müşahidələr uşaqlara təbiət hadisələrində baş verən dəyişiklikləri görmək, onların səbəbini müəyyənləşdirmək və nəticə çıxarmaq kimi bacarıqları aşılayır.
**_Açar sözlər:_** *məktəbəqədər yaşlı uşaqlar, ətraf aləmlə tanışlıq, müşahidə, ekskursiyalar*

**Резюме**: Одна из основных задач воспитания дошкольников - помочь им выработать правильные представления об окружающей среде - природе и обществе. В дошкольных учреждениях учителя могут развивать правильное речевое развитие учащихся, организуя наблюдения и экскурсии, просматривая с ними фотографии и опрашивая их по содержанию, чтобы укрепить восприятие детьми окружающего мира. Наблюдения за природой учат детей способности видеть изменения в природе, выявлять их причины и делать соответствующие выводы.
**_Ключевые слова:_** *дети дошкольного возраста, знакомство с окружающей средой, наблюдения, экскурсии*

**Summary:** One of the main tasks of educating preschoolers is to help them develop the right ideas about the environment - nature and society. In preschool institutions, children can develop proper speech development by organizing observations and excursions, viewing photographs and interrogating their contents in order to strengthen children's perception of the world around them. Observations of nature teach children the ability to see changes in nature, identify their causes and draw conclusions.
**_Key words:_** *preschool children, acquaintance with the environment, observations, excursions*

Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsinin vəzifələrindən biri onlarda ətraf aləm - təbiət və cəmiyyət haqqında düzgün təsəvvürlər formalaşdırmaqdan ibarətdir. Bilik ehtiyatına yiyələnmə, əqli fəallıq və müstəqilliyin inkişafı, intellektual bacarıq və vərdişlərin qazanılması məktəbdə müvəffəqiyyətli təlimə zəmin yaradır. Ona görə də tərbiyəçi uşaqlarda biliklərə maraq, düşünmək, arzu və tələbatını, tapşırığın həllini axtarıb tapmaq, ondan sevinc hissi keçirmək, əqli fəaliyyətdən məmnunluq hissi formalaşdırmaq üçün səy göstərir. Uşaqlar ətraf aləmin əlamətləri, fakt və hadisələri ilə maraqlanır, bu əlamət, fakt və hadisələri ifadə edən sözləri öyrən-

məklə özlərinin nitqini inkişaf etdirirlər. Deməli, uşaqlar üçün maraqlı və naməlum olan ətraf mühit həm də onlar üçün söz bazasıdır.

Ətraf aləm uşaqların nitqinin inkişafında əsas amillərdəndir. Prof. Y.R. Talıbov yazırdı ki, təbiətə, onun gözəlliklərinə sadəcə baxmaq həyəcan, heyranlıq hissi doğurmadığı halda, bunları görmək heyrətlənməyə, təəccüblənməyə, hadisələri sirrini bilməyə böyük maraq oyadır, uşaqları düşünməyə, səbəb–nəticələr arasındakı əlaqələri öyrənməyə təhrik edir. Uşaqlar erkən yaşlarından təbiət adlı müəllimin öz səsi, öz nəğməsi, öz dərsliyi, öz dəsti-xətti ilə tanış olurlar (1, s. 101). Ətraf aləm anlayışının dairəsi çox geniş olmaqla, uşağın daim təmasda olduğu xarici mühiti, təbiəti və cəmiyyəti əhatə edir.

Təbiətin ayrılmaz bir hissəsi olan uşaq gözlərini açdığı vaxtdan təbiət və cəmiyyətə, onların qanunauyğunluqlarına diqqət yetirir, hər gün nə isə öyrənir, nədənsə danışır. Təbiətin qoynunda bitkilər və canlılar əhatəsində uşaq onlarla ünsiyyət üçün mövzu tapır. Gah quşlar, həşəratlar əhatəsində olur, gah da cansız əşyalarla danışır. Bu prosesdə onların müşahidəçilik qabiliyyəti, nəticə etibarilə təfəkkürü və nitqi inkişaf edir. Dos. L. Cəfərova yazır: "Ətraf aləmlə tanışlıq bir tərəfdən təbiəti, doğma diyarın flora və faunasını, təbiətdə baş verən hadisələri, həmin hadisələr haqqında qanunauyğunluqları, digər tərəfdən cəmiyyəti, insanları, onların əməyini, aralarındakı ünsiyyət qaydalarını, cəmiyyətin idarə olunmasını, cəmiyyətdə baş verən hadisələri əhatə edir" (5, 3). Bu dövrdə uşaqların ətraf aləmlə tanışlığı üzrə işin əsas məqsədi uşaqlarda onları əhatə edən gerçəklik (təbiət və cəmiyyət) haqqında real təsəvvürləri, elmi dünyagörüşünü formalaşdırmaq, bütün varlığa məsuliyyətli münasibət tərbiyə etmək, uşağın ümumi inkişafının nəticə etibarilə məktəbə hazırlığını təmin etməkdən ibarətdir. Bu zaman uşaqlara yeni söz və ifadələrin, cümlələrin öyrədilməsi onların nitqlərinin inkişafında müsbət rol oynayır. Buna görə də, haqlı olaraq, ətraf mühitlə tanışlığa aid kiçik qrupdan başlayaraq proqramda ayrıca bölmə verilmişdir. Proqram tələbinə uyğun olaraq həftə ərzində iki məşğələ keçirilir. Bundan əlavə, 1-2 dəfə ətraf aləmin uşaqların nitqinə göstərdiyi təsir üzrə kombinə edilmiş (qruplaşdırılmış) məşğələlərin keçirilməsi də uşaqların nitqlərinin formalaşmasına müsbət təsir göstərir.

Ətraf aləmlə tanışlıq prosesində uşaqların nitqinin inkişafı, hər şeydən əvvəl, əşyalar barədə bilik və təsəvvürlərinin keyfiyyət və xassələrinin, habelə təbiət və ictimai həyat hadisələrinin qavranılması və dərk olunması başa düşülür. Təbiət obyektləri, təbiət hadisələri ilə tanış edərkən onlarda təbiətə maraq, məhəbbət hissi yaratmaqdan əlavə, həm də nitqləri inkişaf etmiş olur. Təbiət uşağın təfəkkürünü fəaliyyətə gətirir. Cisim və hadisələrin mahiyyətini, onlar arasındakı mühüm əlaqə və münasibətləri əks etdirən, varlığın insan beynində ümumiləşmiş inikası olan təfəkkür prosesində uşaqlar qavranılmış cisimlərin ümumi və mühüm cəhətlərini ayırır və onları sözlərlə ifadə edirlər. Bu barədə R.Ə. Əsgərova yazır: "Şagirdlərin gözü qabağında duran və ya onun hafizəsində möhkəm yer edən əşya başqalarının sözünün köməyi olmadan özözlüyündə uşaqda fikir oyadır, əgər uşağın fikri səhvdirsə, onu təshih edir, əgər natamamdırsa, onu tamamlayır, əgər o, qeyri-məntiqi şəkildə qurulubsa, onu təbii, əyani düzgün sistemə salır. Əşya özü uşağa suallar verir. Onun cavablarını təshih edir, onu nizama salır və uşaq da müəllimin dilindən və ya kitabın səhifələrindən hazır cümlələr mənimsənilir, fikirləşir, danışır"(1, s. 102). Müşahidələr prosesində uşaqları canlı və cansız təbiətlə tanış edərkən onlar müxtəlif analizatorların köməyi ilə təbiətin əlamət və hadisələrini görür, hiss edir, həm də necə adlandığını öyrənirlər.

Kiçik və orta qrupdan fərqli olaraq, böyük qrupda uşaqların təbiətə marağı davamlı olur. Uşaqlar təbiətdəki fəslin ardıcıllığını, onlar arasındakı səbəb əlaqələrini, asılılığı tuta bilməlidirlər. Bu dövrdə uşaqların marağı şəxsi təcrübənin sərhədini aşır. Buna görə də tərbiyəçi onların görüş dairəsini genişləndirmək, dəqiqləşdirmək və təbiətə qayğıkeş münasibət tərbiyə etmək üzrə ardıcıl iş aparmalıdır. Bu dövrdə müqayisələrə imkan verən əşya və hadisələr üzərində uşaqların müşahidə aparmaları onların nitqinin, təfəkkürünün inkişafında mühüm rol oynayır. Hələ vaxtı ilə müqayisənin böyük əhəmiyyətindən bəhs edən K.D. Uşinski yazırdı: "Müqayisə hər cür anlamanın, hər cür təfəkkürün əsasıdır"(3, s. 371). Hər fəslin özünəməxsus əlamətlərini öyrənmə prosesində fikri fəallıq pri-

yomundan, müqayisə, təhlil-tərkib, ümumiləşdirmənin köməyilə konkret anlayışları ümumiləşdirir, fərqli əlamətləri aşkar edə bilirlər. Belə müqayisə, təhlil-tərkib və ümumiləşdirmə sayəsində uşaqlarda müəyyən anlayışlar formalaşır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların ətraf aləm haqqında təsəvvürlərini möhkəmləndirmək üçün müşahidələr və ekskursiyalar təşkil etmək, şəkillərə baxmaq və onların məzmununa aid müsahibələr aparmaqla onlarda düzgün nitqin inkişafına nail olmaq olar. Müşahidə ətraf mühitdə cisim və hadisələri məqsədyönlü və planlı, uzunmüddətli qavrama prosesidir. Onun məqsədi cisim və hadisələri sadəcə göstərmək deyil, ətraf mühitdə baş verən dəyişiklikləri uşaqlara müşahidə etdirməkdir. Müşahidə planına uyğun iş aparmaq onlarda müstəqil olaraq mühüm cəhətləri ikinci dərəcələrdən fərqləndirmək keyfiyyətini formalaşdırır. Müşahidə edərkən uşaq obyekti ona bənzər digər obyektlə tutuşdurur, müqayisə edir, başlıca əlamətləri, xassələri haqqında mühakimə yürüdürlər. Məqsədyönlü qavrayış, düşünülmüş bir proses olan müşahidə varlığı dərindən dərk etməyə imkan verir.

Təbiət üzərində təşkil edilmiş müşahidələr uşaqlara təbiət hadisələrində baş verən dəyişiklikləri görmək, onların səbəbini müəyyənləşdirmək və nəticə çıxarmaq kimi bacarıqları aşılayır. Müşahidə prosesində uşaqları canlı və cansız təbiətlə tanış edərkən onlar müxtəlif analizatorların köməyi ilə təbiətin əlamət və hadisələrini görür, hiss edir, həm də necə adlandırıldığını öyrənirlər. Təbiətdə təşkil edilmiş müşahidələr canlı keçirilməli, uşaq bu prosesin fəal iştirakçısına çevrilməlidir. Əgər uşaq sakit dayanıb qeyri-fəal olarsa, tərbiyəçi qarşısına qoyduğu məqsədə nail ola bilməz. Yalnız ünsiyyət prosesində uşaq əyani şəkildə gördüyü, qavradığı əlamət və hadisənin ifadə olunduğu sözü yadında saxlaya bilər. Ona görə tərbiyəçi elə şərait yaratmalıdır ki, uşaq öz yaşıdları ilə müşahidə apardığı əşya və hadisələr barədə dialoqa girsin. K.D.Uşinski qeyd edirdi ki, qoy uşaq həyatı müşahidə etsin, başa düşsün və nitqini bu yolla zənginləşdirsin. Onda məzmunla forma birlikdə inkişaf edir (7, s. 34).

Uşaqların adi gəzintiləri, özbaşına seyirçi fəaliyyəti tərbiyəçinin istiqamətləndirici rəhbərliyi altında təşkil olunmuş ekskursiyalarla, müşahidələrlə əvəz edilməlidir. Belə müşahidələr prosesində tərbiyəçi uşaqlara suallar verməklə onların diqqətini ətraf aləmdəki əşya və hadisələrə yönəldir. Məsələn, əgər uşaqlar nəqliyyatın çox olduğu yerə ekskursiyalara getməlidirsə, tərbiyəçi qabaqcadan müsahibə metodundan istifadə edərək, onlara küçə hərəkəti qaydalarından nəyə daha çox diqqət yetirmələrini öyrətməlidir. Bu zaman tərbiyəçi aşağıdakı suallarla uşaqlara müraciət edir: "Küçəni tənzim edən polis işçisinin vəzifəsi nədən ibarətdir?", "İşıqforun müxtəlif rəngli işıqları hansı ardıcıllıqla yanır?" Bundan sonra tərbiyəçi 5-6 dəqiqə vaxt verir ki, ətrafda baş verən hadisələri uşaqlar müşahidə etsinlər, sonra onlara gördükləri haqqında məlumat versin. Tərbiyəçi bu zaman bəzi səhv və yarımçıq cavablara düzəliş verərək, müşahidə prosesində öyrəndiklərinə aid suallar verir və bu məqsədlə müşahidə prosesində onların daha diqqətli olmasına köməklik edir.

Müşahidə zamanı tərbiyəçi söhbət vasitəsi ilə uşaqların obyekt haqqında biliyini daha da zənginləşdirir. Müşahidə qısamüddətli (heyvanların, quşların həyatı, hava, ilin fəsilləri və s.) və uzunmüddətli (bitkilərin inkişafı, fəsillərdə baş verən dəyişikliklər və s.) keçirilə bilər. Məşğələnin məzmunu müşahidə metodunun tətbiqi ilə tədricən mürəkkəbləşdirilir. Müşahidə üçün daha çətin obyektlər seçilir, onun planı dəyişdirilir, cisim və hadisələrdə öyrənilmiş yeni sahələr müşahidə edilir, öyrənilmiş əlamətlər arasındakı əlaqə dürüstləşdirilir.

Müşahidənin səmərəliliyi onun öyrədici, inkişafetdirici və tərbiyələndirici xarakterini təmin etmək üçün aşağıdakı tələblərə əməl edilməlidir:

- Müşahidəni keçirmək üçün uşaqlar qarşısında aydın və konkret məqsəd qoyulmalı, məqsəd möhkəmləndirilməlidir;
- Planlaşdırma müşahidənin məzmununu əks etdirməlidir. Müşahidənin xarakteri qarşıya qoyulmuş məqsəddən asılı olaraq, müşahidə edilən obyektin görünüşündən, uşaqların yaşından, obyektlə tanışlıq səviyyəsindən asılıdır;
- Uşaqların yaş xüsusiyyətlərindən asılı olaraq, müşahidə edilən obyektin məzmunu uşaqların əvvəlki təsəvvürləri ilə də bağlı olmalıdır. Obyekt çox da böyük olmamalı, uşaqların yaş və anlaq səviyyəsinə uyğun gəlməlidir;
- Müşahidə dəqiq və konkret sözlərlə müşahidə edilməli, obyekti düzgün qavramağa, uşaqda tam təsəvvür yaratmağa və söz ehtiyatının artmasına müsbət təsir göstərməlidir.

Məktəbəqədər dövrdə uşaqların müşahidəçilik qabiliyyətinin inkişafına xüsusi əhəmiyyət verilməlidir. Uşaqların adi gəzintiləri, özbaşına seyirçi fəaliyyəti tərbiyəçinin rəhbərliyi altında təşkil olunmuş ekskursiya, müşahidə ilə əvəz edilməlidir. Kollektiv müşahidələr prosesində tərbiyəçi uşaqlara sual verməklə onların diqqətini ətraf aləmdəki əşya və hadisələrə yönəltməlidir. Tərbiyəçi təhsilləndirici müşahidəyə geniş yer verməli, söhbət payızdan gedirsə, ağacın gövdəsi, yarpağı, qozası üzərində aparılan müşahidələr zamanı uşaqlara bu dəyişikliklərin payız fəslində olduğu aydın olmalıdır. Belə təhlillər uşaqları müstəqil müşahidəyə hazırlayır, onların ətraf aləm haqqında biliklərini daha da zənginləşdirir.

**Problemin aktuallığı.** Məktəbəqədər dövrdə uşaqlar ətraf aləm haqqında ilkin təsəvvürlərə yiyələnirlər. İnsan həyatının qızıl dövrü adlanan bu mərhələdən səmərəli istifadə olunmadıqda uşaqlarda formalaşmış yanlış təsəvvürlərin sonralar düzəldilməsi ciddi çətinliklə qarşılanır. Bütün bu prosesləri nəzərə alaraq məktəbəqədər yaş dövründə uşaqların ətraf aləmlə tanış edilməsi üzrə işin istiqamətləri bu və ya digər şəkildə tədqiq edilsə də, bu sahədə vərdişlərin inkişaf etdirilməsi üzrə işlərin təşkili öyrənilməmiş, ümumiyyətlə açıq qalmışdır. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Bu məqalədə, ilk dəfə olaraq, məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsi üzrə işin əsas istiqamətləri araşdırılmış, məktəbəqədər təhsil müəssisələrində aparılan ətraf aləmlə tanışlıq məşğələsinin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr, məktəbəqədər yaş dövründə ətraf aləmlə tanışlıq məşğələsinin müvəffəqiyyətlə həyata keçirilməsini təşkil etmək və uşaqların inkişafında nəzərə alınmasına köməklik göstərməkdir. Bu məlumatlar vasitəsilə istər tərbiyəçilər, istərsə də valideynlər uşaqların ətraf aləmlə tanış edilməsi üzrə işin təşkilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil edə bilər.

**Ədəbiyyat**

1. Əsgərova R.Ə. Məktəbəqədər yaşlı uşaqların rabitəli nitqinin inkişafı. Bakı: Hərbi, 2006, 160 s.
2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: 2002, 144 s.
3. Müasir uşaq bağçalarında təlimin təşkili. Bakı: Apostrof, 2011, 96 s.
4. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Nurlan, 2003, 408 s.
5. Sadıqova T. B. Məktəbəhazırlıq qrupunda ərtaf aləmlə tanışlıq üzrə məşğələlər. Bakı: Nərgiz, 2008, 140 s.
6. Uşaq bağçasında gəzintilərin təşkili. Bakı: Apostrof, 2011, 80 s.
7. Ушинский К.Д. Избранные педагогические сочинения. М.: Педагогика, 1974, 584 с.

**E-mail:** yeganememmedova.doc@gmail.com
**Rəyçi:** *ped. ü.fəls. dok.,dos.* ***Z.İ.Vəliyeva***

**Redaksiyaya daxil olub: 06.03.2020.**

UOT 373.2

***Xalidə Aydın qızı Həmidova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# MÜASİR ŞƏRAİTDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİ RƏHBƏRİNİN NƏTİCƏYÖNLÜ İDARƏETMƏ STRATEGİYASI

***Халида Айдын гызы Гамидова***
*преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# НАПРАВЛЕННАЯ НА РЕЗУЛЬТАТ СТРАТЕГИЯ УПРАВЛЕНИЯ РУКОВОДИТЕЛЯ ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

***Khalida Aydin Hamidova***
*teacher of*
*Azerbaijan State Pedagogical University*

# EFFECTIVE MANAGEMENT STRATEGIES IN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS BY THE LEADER IN MODERN CONDITIONS

**Xülasə.** Məqalədə nəticəyönümlü idarəetmədə aktiv təsiretmə, məktəbəqədər təhsil müəssisələrində qarşıya qoyulmuş məqsədlərə daha tez çatmaq və planlaşdırılmış məqsədlərin reallaşması üçün əsas meyarlardan asılı olduğundan bəhs edilir. Səmərəlilik, nəticəyönlülüyün göstəricisi kimi, fəaliyyətin nəticə ilə uyğunluğunu əhatə etdiyini və iqtisadi konsepsiya kimi nəticə bu təfsirdən daha geniş olduğu və bunun tətbiq edilmə strategiyalarından danışılır. İdarəetmənin səmərəliliyi, bir qayda olaraq, müəssisədə ofis işinin təşkili ilə müəyyənləşdirildiyi, bu da şərti olaraq kadr və inzibati hissələrə bölünməsindən məlumat verilir. Rəhbərin düşüncə tərzindən və iş bölgülərindən danışılır.

Məktəbəqədər təhsil müəssisəsi rəhbərliyinin modernləşdirilməsi bütün inzibati aparatdan oxşar idarəetmə biliklərindən və liderin özü müvəffəqiyyətli inzibati aparatın necə və nə qədər sürətli, düzgün işlədiyindən bəhs edir.

***Aşar sözlər:*** *məktəbəqədər təhsil, idarəetmə, nəticəyönümlülük, səmərəlilik, rəhbər*

**Резюме:** В статье рассматривается, что влияние эффективного управления зависит от основных критериев достижения запланированных целей, установленных в дошкольных учреждениях и их стратегии реализации. Эффективность управления обычно определяется организацией делопроизводства на предприятии, которое условно делится на кадровые и административные единицы. Это говорит о образе мышления руководителя и бизнес-подразделений.

Модернизация управления дошкольными образовательными учреждениями говорит о схожих административных знаниях от всего административного персонала и о том, насколько быстро и правильно работает успешный административный аппарат самого руководителя.

***Ключевые слова:*** *дошкольное образование, управление, эффективность, результативность, лидер*

**Summary:** The article considers that the influence of effective management depends on the main criteria for achieving the planned goals established in preschool institutions and their implementation strategies. Management efficiency is usually determined by the organization of paperwork at the enterprise, which is conditionally divided into personnel and administrative units. This indicates the way of thinking of the manager and business units.

Modernization of the management of preschool educational institutions speaks of similar administrative knowledge from all administrative personnel and how quickly and correctly the successful administrative apparatus of the head himself works.

***Keywords***: *Preschool education, management, efficiency, productivity, leader*

Cəmiyyət öz inkişaf yolunda bir çox tarixi dövrlərdən keçmişdir. Dövründən asılı olmayaraq sivilizasiyanın inkişaf yolunda əsasən, sistemin inkişafında "insan-insan", "insan-təbiət" böyük rol oynayırdı. Buna görə də dayanıqlı inkişaf modelləri olmalıdır, hansılar ki, sosial və təbii mühitdə və zaman arasında olan harmoniyanı təmin etsin. Dayanıqlı inkişaf haqqında hələ 70-ci illərdə danışılırdı. Bu termin müəyyən müddətdə sosial aspektdən yanaşılırdı və yalnız insan cəmiyyəti üçün istifadə edilirdi. Dayanıqlı cəmiyyət yalnız öz insanları arasında kompromisə gedə bilən cəmiyyət adlandırılırdı. Bazar şəraiti idarəetmə effektivliyinin qiymətləndirilməsi üçün müvafiq göstəricilərin və meyarların hazırlanmasını tələb edir. Məktəbəqədər təhsil müəssisəsində əsas göstəricilərinə görə bir neçə meyarın tətbiq edilməsinə ehtiyac var. Bu meyarların əsasında idarəetmə sisteminin səmərəliliyi qiymətləndirilir. İdarəetmə səviyyələri və funksional alt sistemlər tərəfindən effektivliyin qiymətləndirilməsi tələb olunur.

Bütün danışıqlarımızdan ən önəmli yeri təhsilin tutduğunu nəzərə alsaq, qeyd etməliyik ki, təhsilin idarə edilməsi əsas şərtlərdəndir. "İdarəetmə" ingilis sözü olub, "manangment", rus dilində "upravleniye" kimi tərcümə olunur. (R.R. Abutalıbov, İdarəetmənin əsasları).

İdarəetmə - müəssisəyə təyin olunmuş rəhbərin vəzifəsinə daxil olan, kollektivin humansitləşdirilməsi və demokratiklşdirilməsinə yönəldilmiş fəaliyyətinin əsas məqsədidir. Rəhbərin öz idarəetmə funksiyasını dərk etməsi prisipinə məsələdir. İdarəetmə haqqında vaxtı keçmiş, köhnəlmiş, lakin hələ də təfəkkürlərdə qalmış hansısa güc, qüvvə tətbiq etməklə idarəetmə təsəvvürləri mane olur.

Belə idarəetmədə streotip mühüm rol oynayır: idarəedən – diktatordur ("sən rəissən, mən axmaq"). Həmkarlarına direktiv təsirlərdən yaranan idarəetmənin avtoritar forması, onların davranışına nəzarət, hansısa hərəkətə, yaxud qərarlara məcbur etmək nəinki populyardır, nəticədə o kəskin etiraz yaradır, münaqişəyə aparıb çıxarır. Belə idarəetməyə açıq meyletmə, ya "intihar" kompleksi, ya da sağlam düşüncədən uzaq olan insanlar üçün xasdır.

İmperativ idarəetmə (qəti tələb, qeyd-şərtsiz) - monoloji idarəetmə fomasıdır.

Manipulyativ idarəetmə də monoloji mövqeyin təzahürüdür. Bu zaman rəhbər hadisələri yalnız özü idarə etməyə cəhd göstərir. Bu, insan üzərində güc yolu ilə psixoloji təsirdir. Fərqi onun gizli xarakterindədir. Fərqi onun gizli xarakterindədir. Manipulyasiya rəhbərə bir sıra gizli səlahiyyətlər verir. Manipilyativ idarəetmə avtoritar idarə üslubunun elə formasıdır ki, partnyorda qərarların qəbulunda müstəqillik illüziyası yaradılaraq hər şey rəhbər tərəfindən tənzimlənir. Məktəbəqədər təhsil müəssisələrin uğurlu, səmərəli uğurunun inkişafının əsas səbəbkarı onun idarəedənidir. Məktəbəqədər təhsil müəssisələrində idarəetmə prosesi müəssisənin müdiri, tərbiyəçisi və metodistlərin üzərinə düşür.

Nəticəyönlü idarəetmənin mahiyyəti kompleks xarakterə malikdir. Bu proses məktəbəqədər təhsil müəssisələrinin səmərəli fəaliyyətinin təmin olunmasında həlledici rol oynayır. Nəticəyönlü idarəetmənin əsas mahiyyəti qarşıya qoyulan nəticələrin bir sıra tələblərə cavab verməsidir. Bunlar dövlətin aparıcı siyasətinə uyğun idarəetmə sisteminin qurulması, məqsədlərin uzlaşması, vəhdətdə olması, planlaşdırılmış işlərin bir-birinə zidd olmaması, yerinə yetirilməsinin mümkün olması qarşıya qoyulan tələblərin icraçılar üçün əl çatan olması daxildir.

Nəticəyönlü idarəetmə - əvvəlcədən məktəbəqədər təhsil müəssisələrinin iqtisadi nəticələrinin, keyfiyyət və kəmiyyət göstəricilərinin, məqsəd və strategiyalarının səviyyələrinin göstəriciləridir.

Nəticəyönlülük – aktivlik, təsir, əlverişlilik, effektivlik, keyfiyyət, icraçılıq (yüksək), innovasiyaları qəbul etmə, keyfiyyətli idarəetmə kimi kateqoriyaları özündə birləşdirir.

Nəticəyönlü idarəetmədə aktivlik təsiretmə, məktəbəqədər təhsil müəssisələrində qarşıya qoyulmuş məqsədlərə daha tez çatmaq və planlaşdırılmış məqsədlərin reallaşması üçün əsas meyarlardan sayılır. Nəticəyə çatmaq üçün ən əlverişli resurslardan istifadə işinin təşkilinə

təsir edir və effektivliyi ön plana çəkir. Keyfiyyət isə burada verilən təhsil və pedaqoji heyətin icraçılığı nəzərdə tutulur. Bütün bu sadalananlara yeni texnologiyaları, innovasiyaları əlavə etsək, daha keyfiyyətli idarəetmə prosesinə çatarıq, hansı ki, hər bir mərhələdə daha uğurlu nəticələrin əldə edilməsinə yol açır. Müasir təhsil sisteminin xüsusiyyətlərindən biri isə dövlətin idarəetmə sistemindən dövlət ictimai idarəetmə sisteminə keçiddir. İdarəetmədə nəticəyönlülük məktəbəqədər təhsil müəssisələrinin (bundan sonra MTM) sosial-iqtisadi inkişafının təmin olunmasının səmərəliliyini əks etdirir. Bu, uşaq bağçasının bütün fəaliyyət mərhələlərinin göstəricilərində əks olunur.

Səmərəlilik, nəticəyönlülüyün göstəricisi kimi, fəaliyyətin nəticə ilə uyğunluğunu əhatə edir. Ancaq iqtisadi konsepsiya kimi nəticə bu təfsirdən daha genişdir. Nəticənin çox təzahürü var.

Sink "Səmərəliliyin idarəedilməsi", eləcə də V.M. Zubova "ABŞ-da səmərəlilik necə ölçülür" və başqa əsərlərdə idarə olunma, planlaşdırma, ölçmə, qiymətləndirmə, monitorinq və səmərəliliyin artırılması probleminə çoxsəviyyəli bir yanaşmalarını təsvir edilmişdir D.S. Sink təkcə yaşayış əməyinin məhsuldarlığını ölçmək problemini deyil, həm də bütün istehsal sisteminin səmərəliliyi, gəlirliliyi, keyfiyyəti, rentabelliyi, məhsuldarlığı, iş həyatının keyfiyyəti, yeniliklərin tətbiqi kimi meyarları vurğulayaraq müəssisə səviyyəsində nəticəyönlülüyü nəzərə alır. Əlbəttə ki, meyarlar məktəbəqədər təhsil müəssisəsinin bir sıra amillərindən və ilk növbədə onun vəziyyətindən asılı olacaq: texniki, maliyyə, texnologiya, xidmətlər və təhsil xidmətlərinin bazarındakı mövqeyi (satış bazarı), kadr təminatı və s. MTM rəhbərinin vəzifəsi fəaliyyətinin və inkişafının səmərəliliyinin artırılmasına yönəlmiş ən təsirli tədbirlərin seçilməsindən ibarətdir.

MTM idarəçiliyinin effektivliyinə yalnız daxili amillərin təsiri baxımından yox eyni zamanda xarici amillərin təsirini də nəzərdən keçirmək olar. (Bu baxımdan, MTM-nin idarəetmə sisteminin elm və təhsil, mədəniyyət və idman, tibb müəssisələri, habelə ictimai təşkilatlar və digər qurumlar - kadr və xammal tədarükçüləri, eləcə də cəmiyyət - xidmətlərin istehlakçısı ilə qarşılıqlı təsirini nəzərə almaq lazımdır. Təhsil sistemində nəticəyönlülük- liderin səmərəli idarəetməsi müəyyənləşdirir.

Görkəmli Fin mütəxəssisi Timo Santalainenin "Nəticələr üzrə İdarəetmə" kitabında təhsil müəssisəsi rəhbərinin performansı - onun şəxsi keyfiyyətlərindən, lider kimi təcrübəsindən, təhsildə sahəsində idarəetmə, lider kimi işləmək istəyi kimi amillərlə müəyyən edildiyini qeyd edirdi. İdarəetmə nəticəsi struktur və aktivləşdirici amillərdən ibarətdir. Öz növbəsində struktur amilləri planlaşdırma, maliyyələşdirmə (qurumun növündən asılı olaraq: dövlət, bələdiyyə, özəl), qərar qəbul etmə, tərbiyə, nəzarət ibarətdir. Aktivləşdirmə idarəetmə amilləri (yaradıcı yanaşma) - motivasiya, məlumatlandırma, təşkilatı təkmilləşdirmə, əməkdaşlıq, situasiyaya görə idarəetməyə ayrılır. Struktur idarəetmə amillərinə rasional yanaşma, ardıcıllıq, obyektivlik və sistemlilik tələb olunur. Aktivləşdirən amillərə sahib olmaq isə yaradıcı bir yanaşma, insanlarla davranış sahəsində biliklər, vəziyyət və problem hissi ilə ifadə olunur. Nəticəyönlü idarəetmə yalnız rəhbərin situasiyaya görə idarəetməni təşkil etdikdə mümkündür, buna görə struktur və aktivləşdirici amillərin istifadəsində balans əldə edilməlidir. Nəticəyönlü idarəetmə qısa müddət ərzində effektiv işi təmin edən struktura malik olur. Təcrübə göstərir ki, müasir liderlər struktur amillərdən olduqca tez-tez və uğurla istifadə edirlər, eyni zamanda aktivləşdirici amillərdən istifadə etmək istəkləri çox aşağıdır.




**Şəkil 1.**

Bu, çox güman ki, aktivləşdirən amillərin insanları idarə etmək, struktur amilər isə texniki bacarıq sahəsinə aid olması ilə əlaqədardır. İdarəetmənin təşkilati səviyyəsi artdıqca, texniki bacarıqların azalması səbəbindən aktivləşdirici amillərin nisbəti arta bilər.

Beləliklə, məktəbəqədər təhsil müəssisəsinə rəhbərlik edən müasir liderin səmərəliliyinin əsasını idarəetmə, marketinq və təhsilin iqtisadiyyatı sahəsindəki biliklər təşkil edir. MTM-nin rəhbəri bilməlidir:

- Təhsil sisteminin hazırkı vəziyyəti və inkişaf perspektivlərinin səciyyələri;
- Klassik və müasir idarəetmə nəzəriyyəsinə əsaslanan təhsili idarəetmə nəzəriyyəsi və təcrübəsi;
- Təhsil marketinqinin metodologiyası və idarəetmə üsulları;
- Təhsil müəssisəsinin iqtisadiyyatının əsasları nəzəriyyəsi və təcrübəsi.

MTM-nin effektivliyini, onun imicini yalnız lider deyil, həm də bütün komanda müəyyənləşdirir. Buna görə, lider fərdi özünü inkişaf etdirməklə yanaşı, hər bir komanda üzvünün səriştəliliyinin artırılmasına diqqət yetirməli və bunun üçün lazımi şərait yaratmalıdır. Komandanın bütün üzvlərinin inkişaf etdirilməsi idarəetmə fəaliyyətinin səmərəliliyinin əsas elementidir.

Eyni zamanda, məktəbəqədər təhsil müəssisəsinin səmərəliliyi kollektivin bütün üzvlərinin psixoloji vəziyyəti və əməkdaşlığından də asılıdır. Burada da aparıcı rol onun rəhbərinə aiddir. Rəhbər olaraq, nəzarətçi müəssisədəki bütün iqlim səviyyəsini müəyyənləşdirir. Onun idarəetmə tərzi açıqlıq, işgüzar əməkdaşlıq və komandaya inam atmosferi yaratmağa kömək etməlidir.

Komandanın inkişafyönlü çalışması vacibdir. Bunun üçün zəruri şərtlər MTM-nin təcrübi fəaliyyətlərdə mütləq iştirakı, yeni pedaqoji texnologiyaların tətbiqi, tədris prosesinin davamlı təkmilləşdirilməsi, tədris proqramlarının və inkişaf proqramlarının daim yenilənməsi, onların həyata keçirilməsinin effektivliyinin monitorinqi, cəmiyyətlə işləmə formalarının və metodlarının dəyişdirilməsi, təhsil xidmətləri bazarında yerinin olmasıdır. Nəticəyönlü idarəetmə üçün lider problemləri həll etməyi bacarmalıdır. Lider problemlərin həllinə sistemli bir yanaşma, müxtəlif növ problemlərin həlli üçün metodların seçilməsi və istifadəsi, bir problemin həllində kömək edə biləcək insanları və mənbələri cəlb etmək bacarığına malik olmalı.

Problemləri mərhələlərlə həll etmək mümkündür. Problemin həllinin hər mərhələsini düşünülmüş ardıcıllıqla həll etmək mümkündür: təyin etmə - hədəflər - uğur meyarı - məlumat – planlaşdırma - fəaliyyət – fəaliyyətin təhlili, hər dəfə nəticələrin toplanması və sonrakı hərəkətlərin tənzimlənməsi.

İdarəetmənin səmərəliliyi, bir qayda olaraq, müəssisədə ofis işinin təşkili ilə müəyyənləşdirilir ki, bu da şərti olaraq kadr və indiki inzibati hissələrə bölünə bilər.

Rəhbər açıqca düşünməlidir və ofis işləri aparmaq səlahiyyətini müavinlərinə həvalə etməlidir.

Məktəbəqədər təhsil müəssisəsi rəhbərliyinin modernləşdirilməsi bütün inzibati aparatdan oxşar idarəetmə biliklərini tələb edir. Liderin özü müvəffəqiyyətli inzibati aparatın necə və nə qədər sürətli, düzgün işlədiyindən asılıdır.

Nəticədə məktəbəqədər təhsil islahatlarının bir hissəsi olaraq, əsas istiqamət təhsil və intizamdan tərbiyəçi-müəllimlərin uşaqlarla şəxsiyyətyönlü qarşılıqlı əlaqəsinə keçiddir.

MTM-nin hazırkı lideri bacarmalıdır:

- MTM-nin fəaliyyətini düzgün planlaşdırmaq;
- MTM-nin rəhbərinin tələb etdiyi idarəetmə funksiyalarını yerinə yetirə bilmək;
- Tərbiyəçi- müəllim və ümumi heyət işlərini əlaqələndirmək;
- MTM-nin fəaliyyətinin inkişafı və təkmilləşdirilməsi üçün proqramlar hazırlamaq;
- MTM-nin rəhbərliyinin idarəetmə və praktik fəaliyyətinin həyata keçirilməsi.

MTM-nin rəhbəri komanda ilə müvəffəqiyyətlə əlaqə qurarsa, nəticədə işçilərin öz fəaliyyətlərini idarə etmək qabiliyyətlərinin inkişafı təkmilləşəcək. İşçilərə bir sıra səlahiyyətlərin verilməsi və onların işlərinə məsuliyyətli yanaşma, davamlı inkişaf edən bir qurumda rəhbərin əsas funksiyasını həyata keçirməyə imkan verir - MTM-nin fəaliyyətinin vəzifələrini həll etmək üçün yaradıcı prosesdə stimullaşdırıcı bir başlanğıc ola bilər.

Məktəbəqədər təhsil müəssisəsinin müasir lideri pedaqoji prosesi yeniləmək və səmərəli idarəetmə yollarını seçməklə cəmiyyətdəki sosial dəyişikliklərin meyllərini, valideynlərin ehtiyaclarını, uşaqların maraqlarını və müəllimlərin peşə imkanlarını nəzərə almağa çalışır.

Məktəbəqədər təhsil müəssisəsini idarə etməyin səmərəliliyi liderin özündən və şəxsi məqsədlərindən xəbərdar olmağı, vaxtdan düzgün istifadə etməyi, stressdən azad olmağını və s. qabiliyyətlərindən birbaşa asılıdır. Bütün bunlardan sonra, lider tez-tez ayrılan maraqları uyğunlaşdırmaqla həm dövlətin, cəmiyyətin, bölgənin maraqlarını, həm də pedaqoji və uşaq kollektivinin maraqlarını təmsil edir.

**Problemin aktuallığı:** Məktəbəqədər təhsil müəssisəsinin lideri, bir qayda olaraq, idarəetmənin demokratikləşdirilməsi, optimallaşdırılması və modernləşdirilməsi ideyalarını uğurla həyata keçirməyə qadir və istəkli bir şəxs olmalıdır.

**Problemin elmi yeniliyi:** Məktəbəqədər təhsilin pedaqoji prosesinin təşkili üçün tədbirlər sisteminin uğurlu (və ya gecikmiş, səhv, uğursuz) tətbiqi onun idarəetmə qabiliyyətindən və peşəkarlığından asılıdır.

**Problemin praktik əhəmiyyəti:** Rəhbər idarəetmə sistemində liderdir, buna görə məktəbəqədər təhsil müəssisəsində müxtəlif proseslərin idarə olunması onun şəxsi keyfiyyətlərindən və peşə bacarıqlarından həlledici dərəcədə asılıdır.

**Ədəbiyyat:**

1. Abutalıbov R.R. İdarəetmənin əsasları. Bakı: Qafqaz Universiteti, 2014, 211 s.
2. Məktəbəqədər müəssisə rəhbərinin stolüstü kitabı. Bakı: TP, 2015, 352 s.
3. Петрова С.Н., Преснякова Е.Б. Современный руководитель ДОУ: основы управления, Центр дополнительного образования «Восхождение», 2010.
4. Fayol F.H. Administration industrielle et générale. Paris: Dunod et Pinat,1917, 174 p.

**E-mail:** musayevaxalide@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok.* **P.B. Əliyev,**
*ped.ü.elm.dok.* **Ş. Əliyeva**

**Redaksiyaya daxil olub: 12.03.2020**

## *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*

UOT 373.3/.5

***Sevinc Tofiq qızı Vəliyeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Naxçıvan Dövlət Universiteti*

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN ƏTRAF MÜHİTƏ HƏSSAS VƏ QAYĞIKEŞ MÜNASİBƏTİN FORMALAŞDIRILMASI YOLLARI

***Севиндж Тофиг гызы Велиева***
*диссертант по программе доктора философии*
*Нахичеванский Государственный Университет*

# СПОСОБЫ ФОРМИРОВАНИЯ ЧУТКОГО И ЗАБОТЛИВОГО ОТНОШЕНИЯ К ОКРУЖАЮЩЕЙ СРЕДЕ У УЧАЩИХСЯ МЛАДШИХ КЛАССОВ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

***Sevinj Tofig Valiyeva***
*doctorial student in the proqramme of a Ph.D*
*Nakhchivan State University*

# METHODS FOR FORMING A FEATURED AND CAREFUL ATTITUDE ON THE ENVIRONMENT IN PUPILS OF YOUNGER CLASSES IN THE LESSONS OF THE AZERBAIJANI LANGUAGE

**Xülasə.** Məqalə orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində Azərbaycan dili fənninin tədrisi prosesində kiçik məktəbyaşlı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibətlərin formalaşdırılması probleminə həsr olunmuşdur. Məqalədə Azərbaycan dili dərslərində ayrı-ayrı mövzuların tədrisi prosesində şagirdlərə ətraf mühitə həssas və qayğıkeş münasibət aşılamağın yolları öz əksini tapır. Məqalədə həmçinin ibtidai sinif müəllimlərinə metodik istiqamətlər vermək məqsədilə dərs nümunələri də təqdim olunmuşdur.
***Açar sözlər:*** *Azərbaycan dili dərsləri, tədris prosesi, kiçikyaşlı məktəblilər, ətraf mühit, təbiət hadisələri, həssas münasibətlər, qayğıkeş münasibətlər, əqli hücum, problem-situasiya*

**Резюме.** Статья посвящена проблеме формирования заботливого и чуткого отношения к природе у учащихся младших классов в процессе обучения азербайджанскому языку в начальных классах средних общеобразовательных школ. В статье отражены пути привития учащимся чуткого отношения к окружающей среде в процессе преподавания отдельных тем на уроках азербайджанского языка. В статье также представлены образцы уроков, с целью методического руководства учителям начальных классов.
***Ключевые слова:*** *уроки азербайджанского языка, учебный процесс, младшие школьники, окружающая среда, природные явления, чуткое отношение, заботливое отношение, штурмовая атака, проблемная ситуация*

**Summary.** The article is devoted to the problem of the formation of a caring and sensitive attitude to nature among elementary school students in the process of teaching the Azerbaijani language in the elementary grades of secondary schools. The article reflects the ways of instilling in students a sensitive attitude to the environment in the process of teaching certain topics in the lessons of the Azerbaijani language. The article also presents sample lessons for the purpose of methodological guidance to primary school teachers.
***Key words:*** *Azerbaijani language lessons, educational process, primary school students, environment, natural phenomena, sensitive attitude, caring attitude, assault attack, problem situation*

Ətraf mühitin təmiz saxlanması, mühafizə edilməsi, və onun ehtiyatlarından səmərəli istifadə olunması hazırda kəskin vəzifə kimi qarşımızda durur.

Təbiətə, ətraf mühitə qayğı göstərmək haqqında uşaqlara ailədə, bağçalarda, ən başlıcası isə ümumtəhsil məktəblərində məlumat verilir, bu iş onların dünyagörüşünün tərkib hissəsi kimi formalaşdırılır.

İbtidai sinifdən başlayaraq, şagirdlərdə doğma təbiətin gözəlliyini və zənginliyini düzgün başa düşmək və qiymətləndirmək bacarığı formalaşdırılmalıdır. Məlum olduğu üzrə, şagirdlər ekoloji anlayışlara və bacarıqlara təlim prosesində yiyələnirlər. Bu cəhətdən təlim prosesi müstəsna əhəmiyyətə malikdir. Dərsin səmərəliliyi biliyin şüurlu, dərin və möhkəm verilməsi və tərbiyəvi keyfiyyətləri aşılamaq səviyyəsi ilə müəyyən edilir. Doğma yurdun təbiətini, onun bitkilərini, heyvanlarını qorumaq, dağlarından, çay və göllərindən vəcdə gəlmək, təbiətin zənginləşdirilməsində öz qüvvəsinə müvafiq əmək sərf etmək, yaşıllıq yaratmaq, gül-çiçək, ağac əkmək, onları becərmək, quşlara xidmət etmək kimi vərdişlər uşaqlara kiçik yaşlarından aşılanmalıdır.

Bu baxımdan ibtidai siniflərdə tədris olunan bütün fənlər kiçik məktəbyaşlı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətmək imkanlarına malikdir. Bu fənlər içərisində Azərbaycan dili fənninin şagirdlərə həssas və qayğıkeş münasibətlər aşılamaq baxımından daha geniş imkanları vardır. Bundan başqa, Azərbaycan dili fənnini tədris edən ibtidai sinif müəllimlərinin də kiçik məktəbyaşlı şagirdlərə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətmək üçün bir sıra səmərəli yollardan istifadə etməyə borcludurlar. Çünki bu baxımdan onların imkanları genişdir. Həmin imkanlardan səmərəli şəkildə istifadə etməklə ibtidai siniflərdə şagirdlərin təbiətə həssas və qayğıkeş münasibətlərinin formalaşdırılmasına nail olmaq mümkündür. Məhz ona görə orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində Azərbaycan dili fənninin tədrisi prosesində müəllimlər şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırmağın bir sıra imkanlarından məqsədyönlü şəkildə istifadə edə bilərlər. Hansı ki, həmin imkanlardan birini və ən vacibini Azərbaycan dili dərsliklərində öz əksini tapan təbiətə, təbiət hadisələrinə həsr edilən mövzuları hesab etmək olar. Belə mövzuların tədrisində üç cəhətə fikir vermək lazımdır:

1. Ekoloji mühitə dair mövzuların şagirdlərə şüurlu və dərin öyrədilməsinə;

2. Təbiət hadisələrinə dair hər hansı bir mövzunun tərbiyəvi mahiyyətini şagirdlərə çatdırmaqla onlarda təbiətə həssas və qayğıkeş münasibətləri özündə ehtiva edən əxlaqi keyfiyyətlərin aşılanmasına;

3. Öyrəndikləri mövzuya müvafiq şagirdlərin yaş və anlama səviyyələrinə, habelə güclərinə müvafiq praktik fəaliyyətə cəlb edilməsinə.

Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində çalışan müəllimlərə elmi, pedaqoji, metodik cəhətdən köməklik göstərmək məqsədilə Azərbaycan dili dərsliyində təbiətə, təbiət hadisələrinə dair öz əksini tapan mövzular əsasında kiçik məktəbyaşlı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi bacarmağın bir sıra imkanları ilə bağlı ən zəruri elmi ideyaları irəli sürməyi, bir sıra tövsiyələri, məsləhətləri verməyi və bəzi elmi ümumiləşdirmələr aparmağı məqsədəmüvafiq hesab edirik.

Təcrübə və müşahidələr göstərir ki, birinci siniflər üçün tərtib olunmuş Azərbaycan dili dərslərində (6) "Ailə", "Zooparkda", "Turp", "Ağaclar", "Meşədə", "Göbələk", Arılar", "İstirahət günü", "Yardım", "Dənizdə", "Quşların dostları", "Cabir babanın bağında" kimi mövzuların tədrisində kiçik məktəbyaşlı şagirdlərə təbiətə həssas və qayğıkeş münasibət bəsləmək üçün geniş imkanlar olsa da, ibtidai sinif müəllimləri bu imkanlardan istifadə edə bilmirlər. Əsas səbəb isə dərs ilinin birinci yarısında ibtidai sinif müəllimlərinin birincilərin savad təlimi ilə məşğul olmalarıdır. Savad təlimi işlərinin aparılması ilə kifayətlənən müəllimlər şagirdlərə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi nəzərdə tutmurlar. İbtidai sinif müəllimləri savad təlimi dövründə əsasən didaktik yanaşmalara üstünlük verir, əsas məqsədlərini hərfləri və səsləri öyrətməyə yönəldir, tərbiyəvi işlər aparmağa isə vaxt ayırmırlar. Unutmaq olmaz ki, təlim prosesinin əsas məqsədlərindən biri biliklərin əsaslarını öyrətməkdirsə, digəri şagirdlərin bir şəxsiyyət kimi formalaşdırılmasıdır.

Yeri gəlmişkən, demək lazımdır ki, "Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda birinci əsas istiqamət səriştəyə

əsaslanan şəxsiyyətyönlü təhsilin məzmununun yaradılması kimi müəyyənləşdirilmişdir. Bu istiqamətə görə təhsilin, eləcə də ibtidai təhsilin şəxsiyyətyönlülük əsasında qurulması vacib sayılır. Yəni təhsil strategiyasının ilk istiqamətinə görə şagirdlərə biliklərin əsaslarının öyrədilməsi prosesində onların bir şəxsiyyət kimi formalaşmasına da məqsədyönlü şəkildə yanaşılması vacibdir. Belə olduğu halda ibtidai sinif müəllimlərinin savad təlimi dövründə tərbiyə işlərinə, o cümlədən ekoloji tərbiyə məsələlərinə yanaşmamaları ilə razılaşmaq olmaz. Ona görə ki, hər bir dərsdə şagirdlərə ətraf mühitə həssas və qayğıkeş münasibət bəsləməklə bağlı informasiyalar, məlumatlar, öyüdlər, nəsihətlər və tövsiyələr vermək çox faydalıdır. Xüsusilə savad təlimi dövründə şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırmaq üçün həm vaxt məhdudiyyəti yoxdur, həm də dərsin ayrı-ayrı mərhələlərində belə məlumatlar vermək üçün imkanlar çoxdur.

Həmin imkanlardan istifadə etməklə birinci sinif şagirdlərinin savad təlimi dövründə ekoloji tərbiyə ilə bağlı xatırlatmalara da yer ayırmaq faydalıdır. Bunun üçün şifahi xalq ədəbiyyatı nümunələrində, yəni etnopedaqoji materiallarda birinci sinif şagirdlərinin ekoloji tərbiyəsi üçün yararlı, onlar üçün faydalı sayılan atalar sözləri, zərb-məsəllər, tapmacalar, bayatılar seçib təqdim etmək daha məqsədəuyğundur. Birinci sinif şagirdlərinə təbiətə, təbiət hadisələrinə, o cümlədən, heyvanlara, həşəratlara, quşlara, ağaclara, bitkilərə, balıqlara dair folklor nümunələrini seçib şərh edilməsi, onların ekoloji tərbiyəsinin inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Bunun üçün dərsin ayrı-ayrı mərhələlərində ekoloji tərbiyəyə dair atalar sözləri və məsəllərdən istifadə etməyin əhəmiyyəti böyükdür. Əlbəttə ki, belə nümunələri seçərkən kiçik məktəbyaşlı şagirdlərin yaş və qavrama xüsusiyyətlərini nəzərə almaq faydalı hesab olunur. Belə ki, heyvanlara, quşlara, həşəratlara, balıqlara, bitkilərə, ağaclara və bir sıra təbiət hadisələrinə dair atalar sözləri və məsəlləri səsləndirərkən onları ekoloji mühitin saflaşdırılmasındakı rolunu, insanların sağlamlığına göstərdikləri təsirin faydasını şərh etməklə şagirdlərin təbiətə həssas və qayğıkeş münasibətlərini formalaşdırmaq mümkündür. Belə atalar sözləri və məsəllər içərisində "Azərbaycan dili" dərslərində ibtidai sinif şagirdlərinə təbiətə həssas və qayğıkeş münasibətləri aşılamağa kömək edən "At muraddır", "Ata minənin xəstəliyi olmaz", "Övladda nəvə, dövlətdə dəvə", "Ev heyvanları saxlamaq savabdır", "Maralın üzü, ceyranın gözü gözəldir", "Ceyranın göbəyindən müşkü azad edənlər ona həyat, özlərinə sərvət bəxş edərlər", "Bülbülün nəğməsi xəstələrə dərman olar", "Bülbüllərin cəh-cəhi meşələrin yaraşığıdır", "Qaranquşlar baharın müjdəçisidirlər", "Qartal zivənin yaraşığıdır", "Xurma ağacını kəsəndə o, ağlayar", "Əncir ağacının kölgəsindən yox, meyvəsindən faydalan", "Arı balı cana faydalıdır", "Arı südü, dağ çiçəyi min-bir dərdin dərmanıdır", "Arılar olmasa çəmənzar olmaz", "Arılar şirələri gül-çiçəkdən toplayarlar", "Dəmirağacı bəsləyənin ömrü uzun olar", "Bar verən ağacı kəsməzlər", "Su həyatdır, deyiblər", "Axar su təmiz olar", "Ay işığında iş görənin canı sağlam olar", "Günəş girməyən evə həkim girər" kimi atalar sözləri və məsəllər səsləndirərkən onların ekoloji mühitdəki dəyərini elə izah etmək lazımdır ki, həmin izahlar uşaqların təbiətə olan həssas münasibətlərini formalaşdırsın, qayğıkeş yanaşa bilmə hisslərini, duyğularını coşdursun. Məsələn, arılara və meşələrə, ağaclara, bitkilərə, yaşıllıqlara dair atalar sözləri və məsəllərə dair etnopedaqoji materiallardan ekoloji tərbiyəyə dair nümunələr gətirən müəllimin aşağıdakı faktları uşaqların diqqətinə çatdırması bu baxımdan çox faydalıdır.

*Müəllim:* - Uşaqlar, bildiyiniz kimi, arılar ekoloji mühitin saflaşması üçün nə qədər dəyərlidirsə, meşələrdəki ağaclar və bitkilər də bir o qədər qiymətlidir. Canlıların təbii birliklərində yaşayan növlərindən birini tələf etdikdə, başqa növlərin də həyatı pozulur. Məsələn, çəmənlikdə torpaq arılarının yuvasını dağıtdıqda həmin arılar ilə tozlanan bitkilər toxum yeyə bilmir və tədricən azalır. Bitkinin hesabına yaşayan cücülər yoxa çıxır, nəticədə, cücüyeyən quşlar da azalır. Belə çəmənlikdə ot seyrəlir və qurumağa başlayır, torpaqda soxulcan azalır, çəmənlik tamam kasıblaşır, onun yerini bir neçə tikanlı koldan ibarət bitkilər tutur. Təəssüf ki, XXI əsrin ən dəhşətli ekoloji bəlalarından biri təbiətdə arıların azalması, ikincisi isə yer üzündə meşələrin qırılmasıdır. Təbiətdə arıların azalması əgər bir tərəfdən qida azlığına, çox nadir müali-

cəvi dərman növlərinin (Arının topladığı çiçək tozundan mədə və qan azlığı xəstəliklərinin müalicəsi və pəhriz qida məhsulları, arı zəhərindən isə oynaq, yel, dəri və həmçinin sinir sistemi xəstəliklərində istifadə olunur (10, s. 10).

Arıların azalması həmin nadir çiçəklərin hazırlanmasına mane olursa, digər tərəfdən bir çox faydalı bitkilərin, o cümlədən qeyri-adi güllərin, çiçəklərin (Arı hər uçuşu zamanı 100-150 çiçəkdən nektar toplayır. Gün ərzində güclü arı ailələrinin arıları 50-60 milyon çiçəyə qonur (11. s. 10) təbiətdən silinməsinə səbəb olur. Çünki həmin bitkilər, güllər və çiçəklər yalnız arılar tərəfindən tozlandırılmaqla artır və çoxalırlar. Arının topladığı çiçək tozcuğu ətraf aləmin çirkliliyinin müəyyən edilməsi üçün indikator rolunu da oynayır. Çünki arıların topladığı çiçək tozu vasitəsilə çirkləndirici maddələrin miqdarına görə ətraf aləmin bioekoloji vəziyyətini qiymətləndirmək mümkündür. XXI əsrin ən dəhşətli ekoloji bəlalarından biri də, qeyd etdiyimiz kimi, dünyada meşələrin qırılması hesab olunur. Bu günə qədər təxminən Böyük Britaniyanın ərazisi qədər meşələrin qırılması əsil ekoloji faciə hesab olunur.

Belə atalar sözləri və məsəllərdən, ekoloji bəlaları özündə əks etdirən faktlardan yeri gəldikcə istifadə edən zaman müəllim onların izahı zamanı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırmağın imkanlarını və yollarını düzgün müəyyənləşdirməlidir. Çünki elə atalar sözləri və ya məsəllər var ki, onlar ekologiya, ekoloji tərbiyə, təbiət hadisələrilə birbaşa bağlı deyil. Ona görə həmin atalar sözlərini, məsəlləri söyləyən zaman müəllimlər həmin etnopedaqoji materialların motivindəki ekoloji duyumları, təbiətə qayğıkeş münasibəti geniş şəkildə aydınlaşdırmaqla şagirdlərdə həm təbiət hadisələrinə, həm də ki, təbiətdəki heyvanlara, quşlara, bütövlükdə bütün canlılara məhəbbət hissi alovlandırmalıdırlar. Hansı ki, həmin məhəbbət hissi şagirdlərdə təbiətə, təbiət hadisələrinə, təbiətdəki canlılara, bütövlükdə ekoloji mühitə həssas və qayğıkeş münasibət formalaşdıra bilsin.

Heyvanlara aid atalar sözləri səslənən zaman müəllim heyvanların təbiətdəki yeri, rolu, əhəmiyyəti barədə şərhlər verməklə onların ekoloji tərbiyə baxımından əhəmiyyətini izah etməlidir. Eləcə də quşlar, balıqlar haqqında atalar sözlərini, məsəlləri səsləndirərkən onların ekoloji tərbiyə baxımından əhəmiyyətini aşağıdakı şəkildə şərh etmələri çox faydalıdır.

*Müəllim:* -Təbiətin, o cümlədən heyvanların qorunmasında məktəblilərin üzərinə böyük vəzifələr və görülәsi işlər düşür. Məktəblinin təbiətə münasibəti başqalarına nümunə olmalıdır. Azərbaycan kimi isti diyarda çox ehtiyatlı olmaq lazımdır. Təbiətdə yanğın çox zərərli hadisədir. Təbiətdə gəzərkən qışqırmaq və ya musiqi alətlərindən istifadə etmək səs-küy əmələ gətirib heyvanları qorxudur, onların normal yaşayışını pozur. Təbiətin öz səsi ən yaxşı musiqidir. Gəzintiyə çıxarkən təmizliyə əməl edilməsi vacib sayılır. Sahəyə atılan şüşə sınıqları heyvanların ayağını kəsir. Məktəbin həyətində və cavan bağlarda quş evcikləri asmaq və quşları qışda yemləmək üçün yem təknəcikləri qoymaq məktəblinin müqəddəs borcudur. Təbiət hamıya məxsusdur, hamımızın birgə evimizdir, onu hamımız qorumalıyıq

İkinci sinifin Azərbaycan dili dərsliyində şagirdlərə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətmək üçün xeyli mövzular vardır. Dərsliyin, demək olar ki, bütün bölmələrində şagirdlərin ekoloji tərbiyəsini formalaşdırmağa xidmət edən kifayət qədər müxtəlif mövzular öz əksini tapmışdır. İstər “Dəyərlərimiz” adlanan birinci bölmədə ("Üç rəngli bayraq;" "Əbədi məşəl"; "Vətən"; "Novruz bayramı" və s.), istər “Ailə” adlı ikinci bölmədə ("İki alma"; "Şam"; "Parkda hadisə"; "Yaşıl fincan"; "Bağban və oğulları"), istər “Heyvanlar və quşlar” adlanan dördüncü bölmədə ("Ayı və şir"; "Heyvanlar necə qorunurlar"; "Şir və siçan"; "Dəvələr"; "Quşlar"; "Qayğıkeş valideynlər"; "Qazlar"; "Siçanla qurbağanın dostluğu"; "Qurbağalar"; "Quyruq nəyə gərəkdir"; "Fillər"; "Xilaskar it"; "Papaqçı və meymunlar"; "Dovşanın adı"), istərsə də digər bölmələrdə şagirdlərə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətmək üçün maraqlı mövzular öz əksini tapmışdır. Lakin dərsliyin 6-cı bölməsində sırf təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrədən mövzular öz əksini tapır. Bu mövzular içərisində “Ana təbiətin uşaqlara məktubu”, “Günəbaxan. Ayabaxan”, “İpəkqurdu”, “Hörümçəklər”, “Qızıl nədir”, “Qarışqalar”, “Günəş və Bulud”, “Arı”, “Bal arısının ailəsi”, “Kəpənəklər”, “Qaranquşlar”, “Güllərdən göyçək Çiçək”, “Cırcırama”,

"Əqrəb və qurbağa", "Torpağın nağılı", "Odunçunun səhvi" kimi mövzular şagirdlərin ekoloji tərbiyəsinin inkişaf etdirilməsi, onlarda təbiətə həssas və qayğıkeş münasibət formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin təcrübə göstərir ki, ibtidai sinif müəllimləri sadalanan mövzuların tədrisi zamanı şagirdlərə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi formalaşdırmaq işində çətinlik çəkirlər. Bunları nəzərə alaraq ibtidai sinif müəllimlərinə elmi-pedaqoji cəhətdən istiqamət vermək məqsədi ilə həmin mövzuların tədrisi zamanı kiçik məktəbyaşlı şagirdlərin ekoloji tərbiyəsinin inkişaf etdirilməsi və onlarda təbiətə həssas və qayğıkeş münasibətin formalaşdırılması ilə bağlı praktik nümunələri təqdim edirik.

*Birinci nümunə:* Əhməd Cəmilin "Vətən" şeirinin tədrisində şagirdlərin ekoloji tərbiyəsinin inkişaf etdirilməsi və onlara təbiətə həssas münasibət bəsləməyi öyrətmək üçün aşağıdakı zəruri işlərin həyata keçirilməsi vacib sayılır:

*Dərsin gedişi.* Birinci fəallaşdırma mərhələsində müəllim sinfə girir, uşaqlarla salamlaşır, sonra dünya şöhrətli, görkəmli müğənnimiz, Azərbaycan Respublikasının Xalq Artisti Rəşid Behbudovun ifasında "Vətən" nəğməsi səslənir, nəğmə səslənə-səslənə monitorda vətənimiz Azərbaycanın təbiət təsvirləri nümayiş olunur. Xəzərin sahilləri, Göygölün görünüşü, Maralgölün meşə və gül-çiçəklərlə əhatə olunması, yaşıl bağlar, göy çəmənlər, sitrus meyvələri, Azərbaycanın qoruqlarından görüntülər, nadir quşların, heyvanların görüntüləri öz əksini tapır. Mahnı sona çatır və dərsin ikinci mərhələsi başlanır.

*İkinci* "Əqli hücum" mərhələsində şagirdlər bir qədər də fəallaşdırılır. Uşaqlar Vətənlə bağlı bildikləri atalar sözlərini, məsəlləri, bayatıları, uşaq şeirlərini əzbərdən söyləyirlər. Uşaqlardan hansı vətənin ekoloji mühiti, florası, faunası, atmosferi, biosferi, hidrosferi, quşlar aləmi, heyvanlar mühiti, qoruqları, balıqları haqqında dolğun məlumatlar verirsə, onlar mükafatlandırılır və təqdir olunurlar. Müəllim qalib şagirdin mükafatlandırılması haqqında sinfə məlumat verir.

*Üçüncü* müzakirə mərhələsində müəllim, ilk növbədə, Əhməd Cəmilin "Vətən" şeiri haqqında məlumat verir, şeirin nümunəvi oxusunu təşkil edir. Sonra şeirin müzakirəsi başlanır. Əvvəlcə müəllim şeirdəki bəzi misraları şərh edir, misralardakı məzmun çalarları haqqında məlumat verir. Müəllim əsas məqsədini şagirdlərin ekoloji tərbiyəsinin inkişafına və onlara təbiətə həssas və qayğıkeş münasibət bəsləməyin yollarını axtarmaqdan ibarət olur.

*Müəllim:* "Ey Vətən, ana Vətən; Heyranam sana, Vətən!, Dupduru göllərin var; Yamyaşıl çöllərin var, - deyən şair ana vətənimizin zəngin göllərini, yamyaşıl çöllərini diqqətə çəkir. Demək istəyir ki, Azərbaycanımızın, yəni doğma vətənimizin Göygöl, Maralgöl kimi göllərində nadir balıqlarla yanaşı, çox zəngin canlılar fəsiləsi yaşayır. Bu məlumatlardan sonra müəllim uşaqlara aşağıdakı sualla müraciət edir:

- Kim deyər Göygöl haradadır?

*Birinci şagird:* Göygöl vətənimizin qədim şəhərlərindən biri olan Gəncədədir.

*Müəllim:* Doğrudur. Bəs Maralgöl haradadır?

*İkinci şagird:* Maralgöl də vətənimizin ən qədim bölgələrindən biri olan görkəmli şairimiz Nizami Gəncəvinin vətəni Gəncə bölgəsində yerləşir.

*Müəllim:* Bəs bu göllərdən savayı digər göllərimiz haqqında kim məlumat verər?

Müəllim bu sualı cavablandırmaqda şagirdlərin çətinlik çəkdiyini görərsə, sualı özü cavablandırır.

*Müəllim:* Siz bilirsiniz ki, Azərbaycanın qədim bölgələrindən biri kimi Gəncə necə zəngin ekoloji mühitə malikdirsə, Vətənimizin ən qədim bölgələrindən biri olan və hazırda ermənilərin işğalı altında olan və görkəmli aşığımız, şairimiz Aşıq Ələsgərin doğulduğu İrəvan bölgəsinin Göycə mahalının Göycə gölü də belə zənginliyə malikdir. Göygöldə, Maralgöldə olduğu kimi, Göycə gölündə də nadir balıqlar və zəngin canlılar mühiti vardır. Bu göllərimizin həndəvərində meşəliklər, həmin meşəliklərdə nadir heyvanlar, quşlar yaşayırlar. Onlar bizim təbiətimizin nadir inciləri hesab olunur. Göllərimiz, meşəliklərimiz Azərbaycanın təbiətini, xüsusilə onun havasını təmizləməyə xidmət edir. Bu göllərdən başqa vətənimizin Ağgöl, Qaragöl, Qobustan gölü, Hacınohur gölü, Ceyrançay gölü, Masazır gölü, Qanlıgöl, Böyükşor gölü, Kürdəxanı gölü belələrindəndir. Şeirdə dağlarımız, düzlərimiz, dərələrimiz, yaylaqlarımız haqqında da poetik fikirlər vardır. Gəlin bu misrala-

rı birlikdə oxuyaq. Şagirdlər həmin misraları oxuyurlar:

"Dağların baş-başadır,
Düzlərin tamaşadır,
Dərələrin dərindir,
Yaylaqların sərindir,
Nə gözəldir qucağın,
Doğma odun-ocağın".

*Müəllim:* - bu misralar haqqında kim öz fikirlərini söyləyər?

*Üçüncü şagird:* - şair bu misralar vasitəsilə bizim Dəli dağı, Şahdağı, Əlincə dağını, Talış dağlarını nəzərdə tutur. Bu dağlarımız bizim vüqarımızdır. Bu dağlarımızda meşəliklər, meşəliklərdə nadir ağaclar vardır. Həmin dağlardakı meşəliklərdə Dəmirağac kimi nadir ağaclarımız var.

*Dördüncü şagird:* - şair düzlərimiz deyəndə Cıdır düzünü də nəzərdə tutur. Qədim diyarımız olan Şuşamızdakı Cıdır düzündə nadir atlarımız yarışıblar. Qarabağ atları, Şirvan atları, Bədoy atları dünyada məşhur olan cins at növlərimiz olmuşdur.

*Beşinci şagird:* - Vətənimizin dərələri, düzləri, yaylaqları da sərin bulaqları ilə, təmiz havası ilə, nadir gülləri ilə, ətirli çiçəkləri ilə dünyada məşhur olmuşdur.

*Altıncı şagird:* - bizim göllərimizin sahillərində həmişə nadir heyvanlar, o cümlədən maral, ceyran, cüyür gəzmiş, otlamış, onların saf suyundan içmişlər. Ona görə xalqımız saf suyu olan, gömgöy rəngə boyanan sularını bəyənmiş, gölün adını Göygöl qoymuşlar. Ətrafında maral, ceyran gəzən göllərimizi isə Maralgöl, Ceyranbatan adlandırmışlar. Bizim göllərimizdə nadir canlı növləri yaşadığı kimi, göllərimizin ətrafında da nadir heyvanlar yaşamışlar. Bunlar bizim ekologiyamızı zənginləşdirən canlılardır. Biz onları qorumaqla ekologiyamızı qorumuş oluruq.

*Müəllim:* - bu gün yaylaqlarımıza dünyanın bir çox ölkələrindən insanlar gəzməyə gəlirlər. Çünki həmin yaylaqlarımızın saf suyu, yaşıllıqları, çəmənlikləri, gülləri, çiçəkləri, ağacları, nadir quşları onların marağına səbəb olur. Belə sağlam təbiətimizi onlar sağlam həyat kimi qəbul edirlər.

Dərsin belə qurulması ikinci sinif şagirdlərində, eləcə də III-IV sinif şagirdlərində təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətmək üçün geniş imkanlar yaradır. Dərsin belə mərhələlər üzrə təşkili şagirdləri təbiətə qarşı həssas olmağa, güllərə, çiçəklərə, quşlara, heyvanlara, göllərə, saf sulara qayğıkeş münasibət bəsləməyə istiqamətləndirir. Dərsin ayrı-ayrı mərhələlərində ölkəmizin ekoloji mühitinin saflaşdırılması, yaşıllıqların qorunması, təbiətdəki canlıların mühafizə edilməsi ilə informasiyalar kiçik məktəbyaşlı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırmağa xidmət edir.

Mövzularda vətənimizin gözəlliyindən, zənginliyindən söhbət getsə də, şəhərlərdə havaya buraxılan zəhərli tozlardan, Xəzər dənizinə, Araz çayına axıdılan sənaye müəssisələrinin çirkab suları, məişət tullantıları ətraf mühiti, yəni havanı, suyu, torpağı çirkləndirib yararsız etməsindən, kənd təsərrüfatı və meşə bitkilərinin ziyanvericilərinə qarşı zəhərli kimyəvi maddələrlə mübarizə aparılmasının heyvanlar aləminə güclü təsirindən söhbət açılır. Mövzuların tədrisində ekoloji mühitin pozulması və onların zərərlərindən də söhbət açmaq və şagirdlərdə nöqsanlara tənqidi yanaşmaq vərdişi də yaratmaq lazımdır.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan dili fənninin tədrisi prosesində müəllim kiçik məktəbyaşlı şagirdlərin yaş və anlama səviyyəsini nəzərə almalı, mövzuların məzmununu şagirdlərə aydın çatdırmalı, onu müasir həyatla əlaqələndirməyi bacarmalı və ətraf mühitə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətməlidir. Müəllim bu mühüm problemlə əlaqədar ailənin də diqqətini şagirdlərin ekoloji tərbiyəsinə yönəltməli, əlavə ədəbiyyatların oxunmasını, televiziya verilişlərindən istifadə olunmasını və təbiətlə bağlı videoçarxlardan istifadə olunmasını məsləhət görməlidir. Belə bir təqdirdə ibtidai sinif müəllimləri şagirdlərdə mövcud olan ekoloji bəlalara qarşı mübarizə etməklə bağlı hissləri, duyğuları aşılamaqla yanaşı təbiətə, təbiət hadisələrinə həssas və qayğıkeş münasibətlər bəsləməyi formalaşdırmış olarlar.

**Problemin aktuallığı.** İbtidai sinifdən başlayaraq, şagirdlərdə doğma təbiətin gözəlliyini və zənginliyini düzgün başa düşmək və qiymətləndirmək bacarığı formalaşdırılmalıdır. Bu baxımdan ibtidai siniflərdə tədris olunan bütün fənlər kiçik məktəbyaşlı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrətmək imkanlarına malikdir.

**Problemin elmi yeniliyi.** Məqalədə orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində çalışan müəllimlərə elmi, pedaqoji, metodik cəhətdən köməklik göstərmək məqsədilə Azərbaycan dili dərsliyində təbiətə, təbiət hadisələrinə dair öz əksini tapan mövzular əsasında kiçik məktəbyaşlı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi bacarmağın bir sıra imkanları ilə bağlı ən zəruri elmi ideyaları irəli sürməyi, bir sıra tövsiyələri, məsləhətləri verməyi və bəzi elmi ümumiləşdirmələr aparılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində çalışan müəllimlərə elmi, pedaqoji, metodik cəhətdən köməklik göstərmək məqsədilə Azərbaycan dili dərsliyində təbiətə, təbiət hadisələrinə dair öz əksini tapan mövzular əsasında kiçik məktəbyaşlı şagirdlərdə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi bacarmağın bir sıra imkanları ilə bağlı ən zəruri elmi ideyaları irəli sürməyi, bir sıra tövsiyələri, məsləhətləri verməyi və bəzi elmi ümumiləşdirmələr aparmağı məqsədəmüvafiq hesab edirik. Məqalədən ibtidai sinif müəllimləri yararlana bilərlər.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.
2. Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası. Bakı: Çaşıoğlu, 2004.
3. Əliyev F., Bədəlov A., Hüseynov E., Əliyev F. Ekologiya (Ali məktəblər üçün dərslik). Bakı: Elm, 2012.
4. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. (Ali məktəblər üçün dərslik). Bakı: Ünsiyyət, 2000.
5. İsmayılov R., Abdullayeva S., Orucova G., Cəfərova D. Azərbaycan dili (1-ci siniflər üçün dərslik), Bakı: Altun Kitab, 2018.
6. İsmayılov R., Abdullayeva S., Orucova G., Cəfərova D. Azərbaycan dili (1-ci siniflər üçün dərslik), Bakı: Arpoliqraf, 2016.
7. İsmayılov R., Abdullayeva S., Orucova G., Cəfərova D. Azərbaycan dili (2-ci siniflər üçün dərslik), Bakı: Altun Kitab, 2018.
8. Mehrabov A.O. Azərbaycan Təhsilinin müasir problemləri Bakı, Mütərcim, 2010.
9. Sadıqov F.B, Əliyeva G.Q, Abbasov M.Ə. Ekoloji tərbiyənin etnopedaqoji əsasları, Bakı: Nurlan, 2007.
10. Sadıqov F.B. Pedaqogika. Dərs vəsaiti. Bakı: Adiloğlu, 2012.
11. Sultanov, R., Əsədov E. Azərbaycanda bal arısının bioekoloji xüsusiyyətləri, arı vərəmumunun toplanması və fiziki – biokimyəvi xassələri. Bakı: Elm, 2007.

**Rəyçilər:** *ped.ü.elm.dok., prof*. **S. Mirzəyev**
*ped. ü. fəls.dok., dos*. **Ş. Tahirova**

**Redaksiyaya daxil olub: 19.02.2020.**

## *RİYAZİYYATIN TƏDRİSİ METODİKASI*

UOT 372.851

***Zaman Zahid oğlu Məmmədov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT TƏLİMİNDƏ ƏDƏD ANLAYIŞININ GENİŞLƏNDİRİLMƏSİNƏ DAİR

***Заман Захид оглы Мамедов***
*преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# О РАСШИРЕНИИ КОНЦЕПЦИИ ЧИСЕЛ В ОБУЧЕНИИ МАТЕМАТИКЕ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Zaman Zahid Mammadov***
*teacher of Azerbaijan State Pedagogical University*

# ON THE EXTENSION OF THE CONCEPT OF NUMBERS TEACHING MATHEMATICS IN INITIAL CLASSES

**Xülasə.** İbtidai məktəbin riyaziyyat təliminin ən məsuliyyətli və çətin mərhələlərindən biri - ədəd anlayışının genişləndirilməsi mərhələsidir. Ədəd haqqında ilkin təsəvvürlərin formalaşdırılmasında natural ədədlər tamamilə kifayət edir. Lakin uzunluq, sahə, həcm (tutum) kimi həndəsi kəmiyyətlərin, sürət kimi fiziki kəmiyyətlərin ölçülməsi və onların qiymətlərinin ifadə edilməsi üçün natural ədədlər kifayət etmir. Natural ədəd anlayışı diskret kəmiyyətlə əlaqələndirilir. Lakin praktik şəkildə kəmiyyətlərin ölçülməsi şagirdlərdə yeni ədədə tələbat, ehtiyac yaradır. Yeni ədədin yaranması isə "kəsr ədəd" anlayışı ilə bağlıdır.

Beləliklə, məqalədə təlim prosesində ədəd haqqında ilkin təsəvvürlərin formalaşmasından, kəmiyyətlərin ölçülməsi nəticəsinin ədədlə ifadəsindən, diskret və kəsilməz kəmiyyətlər anlayışlarının izahından, diskret və kəsilməz kəmiyyətlərin ölçülməsi üçün yeni ədədlərin – kəsr ədədlərin yaranması zərurətindən, ədəd anlayışının genişləndirilməsinin məhz bu mərhələdən başlanmasından bəhs olunur.

***Açar sözlər:*** *ədəd, kəmiyyət, hissə, kəsr, ölçmə, diskret, kəsilməz kəmiyyət, sadə ədəd, mürəkkəb ədəd, sinif, məsələ, varislik.*

**Резюме.** Одним из наиболее сложных этапов изучения математики в начальной школе является расширение концепции единиц. Натуральных чисел достаточно, чтобы сформировать первоначальные представления о числах. Однако натуральных чисел недостаточно для измерения геометрических величин, таких как длина, площадь, объем, емкость и выражение их значений. Понятие натуральных чисел связано с дискретными величинами. Однако количественные измерения на практике создают новый спрос на студентов. Появление новых чисел связано с понятием «Дробные единицы».

Таким образом, в статье рассказывается о формировании первых представлений о числах, численном выражении количественных результатов, необходимости создания новых единиц измерения дискретных и непрерывных величин, расширении понятия чисел.

***Ключевые слова:*** *числа, количества, части, дроби, измерения, дискретные, интегральные величины, простые числа, составные числа, класс, материя, наследование.*

**Summary.** One of the most difficult and complex stages of mathematics in elementary school is the expansion of the concept of units. Natural numbers are enough to form the initial idea of numbers. However, natural numbers are not enough to measure geometric quantities, such as length, area, volume, capacity and expression of their values. The concept of natural numbers is associated with discrete quantities. However,

quantitative measurements in practice create a new demand for students. The emergence of new numbers is associated with the concept of "fractional units."

Thus, the article describes the formation of first impressions of numbers, the quantitative expression of quantitative results, the need to create new units of measurement of discrete and continuous quantities, and the expansion of the concept of numbers.

***Keywords:*** *numbers, quantities, parts, fractions, measurements, discrete, integral quantities, primes, compound numbers, class, matter, inheritance.*

Riyaziyyatın ibtidai kursunun əsas anlayışları - ədəd anlayışı və kəmiyyət anlayışıdır. Ədəd anlayışı riyaziyyatın ən mücərrəd anlayışı olmaqla məktəbdə riyaziyyat təliminin ilk və mühüm anlayışıdır. Bu anlayışın şagirdlərə öyrədilməsi hətta bağça yaşlarından başlayır. 3-4 yaşlı uşaqdan yaşını soruşduqda o, müvafiq sayda barmaqlarını göstərir. Əlbəttə uşaq özü də dərk etmir ki, həmin barmaqların sayı müəyyən ədədi göstərir. O, yalnız böyüklərin ona öyrətdiyini əyani şəkildə göstərir. Beləliklə, ədəd haqqında induktiv təsəvvürlər yaranmağa başlayır. Həmin təsəvvürlər məktəbin I sinfindən başlayaraq formalaşdırılır və inkişaf etdirilir.

Şagirdlər ibtidai məktəbdə riyaziyyatın inteqrativ kursunu öyrənirlər. Bu kursa hesab materialı, kəmiyyətlər, cəbr və həndəsə elementləri daxildir. Qiymətcə ancaq tam ədədlə ifadə olunan kəmiyyətlər bilavasitə sayma ilə əlaqədardır və şagirdlərin öyrəndikləri natural ədədlər tamamilə kifayət edir. Lakin uzunluq, sahə, həcm (tutum) kimi həndəsi kəmiyyətlərin, vaxt kimi astronomik kəmiyyətin, sürət kimi fiziki kəmiyyətin ölçülməsi və onların qiymətlərinin ifadə edilməsi üçün natural ədədlər kifayət etmir.

İbtidai siniflərdə ədəd anlayışının formalaşdırılması bilavasitə kəmiyyətlərlə bağlıdır. Kəmiyyətlərin ölçülməsi nəticəsi ədədlə ifadə olunur. Hər bir ədəd müəyyən bir kəmiyyətin qiymətini ifadə edir.

İnsan öz praktik fəaliyyətində iki növ kəmiyyətlə rastlaşa bilər:

**1. Diskret kəmiyyətlər.**

**2. Kəsilməz kəmiyyətlər.**

**<u>1. Diskret (kəsilən) kəmiyyətlər.</u>** Bunlara əşyaların sayının müəyyən edilməsilə bağlı olan kəmiyyətlər daxildir. (məsələn, bir küçədəki evlərin sayı, məktəbdəki şagirdlərin sayı ilə və s.) Deməli, diskret kəmiyyətlərin qiymətləri natural ədədlərlə nömrələnə bilər. Əşyaların sayma prosesinin nəticəsi natural ədədlə ifadə olunur və ölçü vahidi 1 (bir) ədədi olunur. Məsələn, hər hansı əşyaların miqdarını (sayını) bilmək istəyiriksə, onda onları sayırıq və ya onların hər birini natural ədədlə qeyd edirik. Sonuncu əşyaya uyğun qoyduğumuz ədəd saydığımız bütün əşyaların sayını göstərir və həmin ədədin sonunda ölçü vahidi yazılır. Əgər saydığımız əşyalar dəftərlədirsə, onda aldığımız sonuncu ədədin yanında "dəftər" sözü yazırıq.

*"İstənilən iki elementin aralıq elementi olmayan çoxluğa <u>diskret çoxluq</u> deyilir".*

**<u>2. Kəsilməz kəmiyyətlər.</u>** *Hər hansı nizamlanmış çoxluq verilmişdirsə və istənilən iki element üçün ən azı bir aralıq elementi göstərmək mümkündürsə, onda belə çoxluğa <u>özündə sıx çoxluq</u> deyilir.* Məsələn, 1 və 2 ədədləri arasında istənilən sayda həqiqi ədədlər: 1,1; 1,2; 1,3; .....; 1,99; 1,999 və s. yerləşdirmək mümkündür. Kəsilməz kəmiyyətlər uzunluq, sahə, kütlə, həcm və s. misal ola bilər. Bu kəmiyyətlərin qabaqcadan məlum olan ölçü vahidi vardır.

Diskret kəmiyyətlərdən fərqli olaraq kəsilməz kəmiyyətlərin ölçmə prosesi mürəkkəbdir. Onların ölçmə üsulları da müxtəlifdir. Yəni hər bir kəmiyyətin özünəməxsus ölçmə üsulları var.

Kəsilməz kəmiyyətlərin ölçülməsi zamanı bir, iki və daha çox ölçü vahidləri tətbiq olunur. Məsələn, məsafəni təkcə metrlə deyil, desimetrlə, santimetrlə, millimetrlə ölçülməsi məcburiyyətində qalırıq. Beləliklə eyni bir ölçmənin nəticəsini ifa edən adlı ədəddə iki, üç ölçü vahidi iştirak edir. Məsələn, 6m, 4dm, 7sm. İbtidai siniflərdə şagirdlər adlı ədədlərin xırdalanması, çevrilməsi və onlar üzərində əməllər ilə tanış olur və kifayət qədər bacarıq və vərdişlər qazanırlar. V və sonrakı siniflərdə həmin mürəkkəb ədədlər adlı ədədlər, sadə adlı ədədlərlə ifadə olunur. Lakin bu imkan yeni ədədlər – kəsr ədədlər hesabına yaranır. Məsələn, 5m 4dm=5,4m və ya 6kq 300q=6.3kq və s. kimi yazılır. Kəsr ədədlər istənilən kəmiyyətin qiymətini ifadə etməyə imkan verir. Deməli, kəmiyyətin qiyməti ya mürəkkəb adlı ədədlə ifadə olunur, ya da onluq kəsr şəklində sadə ədədlə ifadə olunur.

Şagirdlər hələ II sinifdən mürəkkəb adlı ədədlərlə tanış olurlar. Deməli, onlar qeyri-aşkar şəkildə onluq kəsrlə tanış olurlar. Lakin kəmiyyətlərin ölçmə nəticəsində alınan qiymətlərinin ifadə edilməsi üçün ədəd anlayışını genişləndirmək zərurəti yaranır və buna hazırlıq III sinifdən başlanır. Metrik sistemə aid olan kəmiyyətlərin ölçü vahidləri arasındakı münasibətlər onluq say sisteminə əsaslanır.

Məsələn, uzunluq vahidi kimi metrin $\frac{1}{10}$ hissəsi desimetrdir, desimetrin $\frac{1}{10}$ hissəsi santimetrdir, santimetrin $\frac{1}{10}$ hissəsi millimetrdir və s. Əsas məsələ həmin $\frac{1}{10}$ –lərin necə alınması, necə işarə olunması və necə ifadə (tələffüz) olunmasından ibarətdir.

Ədəd anlayışının genişləndirilməsi məhz bu mərhələdən başlanır. Yeni ədədin yaranması “kəsr ədəd” anlayışı ilə bağlıdır. Natural ədəd anlayışı diskret kəmiyyətlərlə əlaqələndirilir. Lakin praktik şəkildə kəmiyyətlərin ölçülməsi şagirdlərdə yeni ədədə tələbat, ehtiyac yaradır. Bu tələbatı ödəmək üçün elə məsələlər və praktik işlər seçilir ki, şagird ölçü lentindən, saat modelindən, kvadrat vahidlərindən istifadə edərək, ölçmə nəticəsini ifadə edə bilsin.

III sinifdə “hissə” anlayışının, IV sinifdə isə “kəsr” anlayışlarının daxil edilməsi şagirdlərdə ədəd haqqında bilik dairəsini genişləndirir.

“Hissələr” mövzusu tədris olunarkən aşağıdakı vəzifələr qarşıya qoyulur.

1) kəmiyyətin hissələri haqqında şagirdlərdə təsəvvürlərin yaradılması;

2) əyanilik əsasında eyni bir kəmiyyətin hissələrini müqayisə etmək bacarıqlarının yaradılması;

3) ədədin hissələrini tapmağa aid və verilmiş hissəsinə görə ədədin tapılmasına aid məsələ həllinin öyrədilməsi.

Qeyd etmək lazımdır ki, “kəsr” anlayışı IV sinifdə verilir və şagirdlər “kəsrin surəti”, “kəsrin məxrəci” terminləri ilə bu sinifdə tanış olurlar. III sinifdə “hissə” anlayışının daxil edilməsi zərurəti – şagirdlərin ədəd haqqında bilik dairəsini genişləndirməkdən ibarətdir. Bərabər hissələrin alınması praktik işlə müşayiət olunur. Şagirdlər bütöv əşyaları sayma işindən hər hansı əşyanın bərabər hissələrini sayma işinə keçirlər.

Lakin hər bir hissənin ölçüsü və ya qiyməti haqqında təsəvvür əldə etmək

üçün bütöv əşyanın neçə bərabər hissəyə bölündüyünü bildirmək lazımdır. Deməli, yeni nəticəni ifadə etmək üçün iki ədəddən və “kəsr xətti” deyilən bir parçadan istifadə olunur.

“Hissə” və “kəsr” anlayışlarını fərqləndirmək lazımdır. Kəsrdə iki və daha

çox hissə ola bilər. Məsələn, $\frac{3}{5}$ kəsirdir, $\frac{1}{5}$ hissəsidir. $\frac{3}{5}$ kəsrində 3 dənə $\frac{1}{5}$ hissə var.

**<u>Tərif.</u>**

*Vahidin bir və ya bir neçə bərabər hissələrinin məcmusuna <u>kəsr</u> və ya <u>kəsr ədəd</u> deyilir.*

Tərifdən aşkardır ki, $\frac{3}{5}$ və $\frac{1}{5}$ kəsr ədədlərdir. Kəsr ədədlərin alınması

ölçmənin nəticəsində ola bilər. Çünki bir natural ədədi digər natural ədədə böldükdə də kəsr ədəd alına bilər. Məsələn, 8:5=1(qal.3) və ya $\frac{8}{5} = 1 + \frac{3}{5}$

Deməli, verilmiş tam ədədi müəyyən sayda bərabər hissələrə bölmək üçün həmin ədədi kəsrin surətində, hissələrin sayını göstərən ədədi isə kəsrin məxrəcində yazmaq kifayətdir.

Buradan aydın olur ki, kəsr ədəd dedikdə bir natural ədədi o biri natural ədədə bölünmə nisbəti nəzərdə tutulur, bu şərtlə ki, surət məxrəcə tam bölünmür. Eyni bir kəsr ədədi müxtəlif şəkildə ifadə etmək olar. Məsələn, $\frac{2}{3}$ kəsrini 2 dənə $\frac{1}{3}$ kimi və ya 2 vahidin bir dənə $\frac{1}{3}$ hissəsi kimi ifadə etmək olar. Kəsrin surəti sıfır ola bildiyi halda kəsrin məxrəci hökmən sıfırdan fərqli olmalıdır.

III-IV siniflərdə “hissə” və “kəsr” anlayışlarının daxil edilməsi şagirdlərin

ədəd haqqında təsəvvürlərini genişləndirir. (məsələn, $\frac{1}{2}$ saat, $\frac{1}{4}$ km və s.) Əslində şagirdlər “kəsr ədəd” ideyası ilə I-II siniflərdə qeyri-aşkar şəkildə tanış olurlar. (Məsələn, 1 dm 3 sm, 2 kq. 300q. və s.) Bu ədədlər onluq say sistemində 1,3 dm və 2,3 kq ədədlərdir.

Təcrübədən sübut olunmuşdur ki, ibtidai məktəbdə riyaziyyat təliminin ən məsuliyyətli və çətin mərhələlərindən biri - ədəd anlayışının genişləndirilməsi üçün “Hissə” və “Kəsrlər” mövzularının tədrisi prosesidir. Bu mövzular əyani vasitələrin və didaktik materialların tətbiqi

ilə tədris olunmalıdır. Ona görə də bu anlayışların tədrisi prosesində də dərketməni sürətləndirmək üçün müvafiq əyani vasitələri elə seçmək lazımdır ki, şagirdlərin görmə, eşitmə, hissetmə analizatorları eyni zamanda iştirak etsin, bununla yanaşı şagirdlərin müvafiq yaddaşlarına da istinad edilsin kəsrlərin təlimi ilə əlaqədar iki növdə vasitələr tətbiq edilir:

1. Əyani vasitələri bərabər hissələrə böldükdə forma dəyişmir, lakin alınan obyektlərin sayı dəyişir. Məsələn, düz xətt parçasının, düzbucaqlı zolağın kvadratın bərabər hissələrə bölünməsi nəticəsində alınan fiqurlar elə əvvəlki fiqura oxşayır və bu da şagirdi “hissə” və ya “kəsr” anlayışını dərk etməyə kömək edir.



2. Əyani vasitələri bərabər hissələrə böldükdə alınan yeni hissələr formaca bölünən yeni əşyaya oxşamır. Alınan hissə həm ölçüsünə həm də formasına görə verilmiş əşyadan fərqlənir. Bu məqsədlə dairədən, düzgün altıbucaqlıdan istifadə etmək daha yaxşı olar.

Əyani obrazlar, əşyalar miqdari xüsusiyyətlər kəsb etməklə, mücərrədləşir və yeni məzmunlu, yeni formalı ədədlər şəklində ifadə olunur.

3. İndiyə qədər şagirdlər kəsr ədədlər və onlar üzərində əməllərlə qeyri-aşkar şəkildə tanış olmuşlar. Məsələn, mürəkkəb adlı ədədlərin toplanması, çıxılması, natural ədədə vurulması və bölünməsi mövzularına baxaq.

2 m 3 dm + 3 m 2 dm = 5 m 5 dm

Bu yazılışı V sinifdə belə yazırlar:

2,3 m + 3,5 m = 5,5 m və s.

4. Eyni qayda ilə vaxt ölçülərinə, sahə və tutum ölçülərinə aid çalışmaları da nümunə göstərə bilərik. Yuxarıdakı misallarda kəmiyyətin qiymətləri onluq say sistemində verilmişdir:

2 m 3 dm + $\frac{3}{10}$ m = 2,3 m

Əslində hissə və kəsr anlayışları ədəd anlayışının müxtəlif ifadələri olmaqla, kəmiyyətlərin qiymətlərini ifadə edir.

Hissə və kəsr anlayışları haqqında ilkin təsəvvürlərin verilməsi V-XI siniflərdə ədəd anlayışının genişləndirilməsinə və dərinləşdirilməsinə kömək edir. III-IV siniflərdə praktik olaraq ölçmə işlərinin müntəzəm olaraq aparılması nəticələrinin ədədlərlə ifadə edilməsi, məsələ həllinə geniş yer verilməsi şagirdlərin riyazi hazırlığına müsbət təsir göstərir.

**Problemin elmi yeniliyi.** İbtidai siniflərin riyaziyyat kursunda yeni anlayışların daxil edilməsi, ədəd anlayışının genişləndirilməsi elmi əsaslar üzərində qurulmaqla varislik prinsipinə əsaslanır.

Məqalədə təlim prosesində riyaziyyatın ən mücərrəd anlayışı olan ədəd anlayışı və onun genişləndirilməsinin şagirdlərin riyazi məntiqi təfəkkürlərinin inkişaf etdirilməsinin əhəmiyyəti və rolu praktik və elmi cəhətdən əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Şagirdlərin dərsdə və sinifdənxaric məşğələlər zamanı ədəd anlayışının genişləndirilməsində sayma, hesablama və ölçmə işlərinin aparılmasının nəzəri və praktik xüsusiyyətlərinin əsaslandırılmasından, riyazi və məntiqi təfəkkürlərinin inkişafının praktik tətbiqlərini göstərməkdən ibarətdir.

**Ədəbiyyat:**

1. S.S. Həmidov. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı, ADPU, 2012.
2. S.S. Həmidov, A.Ə. Məcidova. İbtidai siniflərin riyaziyyat təlimi prosesində ədəd anlayışının formalaşdırılması və inkişaf etdirilməsi. Bakı, ADPU, 2006.
3. Z.Z. Məmmədov, Riyaziyyatdan ibtidai sinif müəllimlərinə kömək. Bakı, ADPU, 2019.
4. Z.Z. Məmmədov. Kəmiyyətlər və onların öyrədilməsi təcrübəsindən // Kurikulum, 2012, № 3
5. Z.Z. Məmmədov. Kəmiyyət və onların öyrədilməsi təcrübəsindən // Kurikulum, 2012, № 3
6. S. Tağıyeva, Z. Məmmədov. Məktəb riyaziyyat kursunda kəmiyyət anlayışı ilə bağlı mövzuların tədrisi // Kurikulum, 2018, № 4, s. 38-43

**E-mail:** zamanmammadov1944@gmail.com

**Rəyçilər:** *ped.ü. fəls. dok., dos.* **C.S. Tağıyeva,**
*riyaz.ü.fəls.dok., dos.* **Q.Q. Balaşov**

**Redaksiyaya daxil olub: 12.03.2020**

UOT 372.851

***Növrəstə Sidqəli qızı Bayramova***
*Sumqayıt Dövlət Universitetinin dosenti*

***Məftun Nizami qızı Heydərova***
*Sumqayıt Dövlət Universitetinin dosenti*

# ELMLƏRİN RİYAZİLƏŞMƏSİNİN MÜASİR ELM VƏ TEXNİKANIN İNKİŞAFINDA ROLU

***Новраста Сидгали гызы Байрамова***
*доцент Сумгаитского Государственного Университета*

***Мафтун Низами гызы Гейдарова***
*доцент Сумгаитского Государственного Университета*

# РОЛЬ МАТЕМАТИЗАЦИИ НАУК В РАЗВИТИИ СОВРЕМЕННОЙ НАУКИ И ТЕХНИКИ

***Bayramova Novrasta Sidgali***
*associate professor of Sumgait State University*

***Heydarova Maftun Nizami***
*associate professor of Sumgait State University*

# ROLE OF MATHEMATIZATION OF SCIENCES IN THE DEVELOPMENT OF MODERN SCIENCE AND TECHNOLOGY

**Xülasə:** Elmlərin riyaziləşməsi onların inkişafının təsirli vasitəsi olub, müasir elm və texnikanın səciyyəvi xüsusiyyətidir. Dəqiq riyazi metodların tətbiqi olmadan texnikanın yeni sahələrinin inkişafından söhbət ola bilməz. Müasir elmi-texniki tərəqqi riyazi biliklərin inkişafı üçün stimuldur.
***Açar sözlər:*** *riyazi metodlar, tətbiqi riyaziyyat, elmlərarası əlaqə, biliklərin riyaziləşməsi, riyazi tədqiqatlar*

**Резюме:** Характерной чертой математизации наук является то, что она является эффективным средством в развитии современной науки и техники. Без применения точных математических расчётов не может быть и речи о развитии новых отраслей техники. Прогресс в современной науке и технике является мощным стимулом для усовершенствования математических знаний.
***Ключевые слова***: *математические методы, прикладная математика, межнаучная связь, математизация знаний, математические исследования*

**Summary:** A characteristic feature of the mathematization of sciences is that it is an effective tool in the development of modern science and technology.

Without the use of accurate mathematical calculations, there can be no talk of the development of new branches of technology. Progress in modern science and technology is a powerful incentive for improving mathematical knowledge.
***Key words:*** *Mathematical methods, applied mat, inter-scientific communication, mathematization of knowledge, mathematical research*

Müasir elmi-texniki tərəqqi təbiət, texniki, sosial və humanitar elmlərin ən müxtəlif sahələrinə riyazi metodların geniş tətbiq edilməsinə güclü təsir göstərir. Riyaziyyatın tətbiqinin ən-

ənəvi sahələri olan astronomiya, mexanika, fizika və kimya ilə yanaşı riyazi metodlar indi elə sahələrə (biologiya, iqtisadiyyat, sosiologiya, linqvistika, psixologiya və s.) tətbiq edilməyə başlamışdır ki, səciyyəvi xüsusiyyətləri və mürəkkəbliyi ilə əlaqədar əvvəllər onların riyaziləşməsi qeyri-mümkün hesab edilmişdir. Riyaziyyatın digər idrak sahələrinə nüfuz etməsi hələ antik dövrdən başlamış, indiyə qədər dayanmamışdır. Belə yanaşma, birincisi, nəzəri və tətbiqi riyaziyyat arasındakı qarşılıqlı əlaqəni və fərqi daha yaxşı anlamağa, ikincisi, riyaziyyatın inkişafının müxtəlif mərhələlərində onların qarşılıqlı təsirini izləməyə imkan verir.

Elmlərarası əlaqələrin həyata keçirilməsi və elmlərin riyaziləşməsi sıx surətdə qarşılıqlı əlaqədədir. Elmin riyaziləşməsi, əsasən, cari prosesin riyazi dildə təsviri ilə həyata keçir. Riyazi dilin digər elmlərin dilindən fərqli səviyyəsi ondan ibarətdir ki, o, özündə heç olmasa iki dili (cəbri düsturların simvolik dili və həndəsi fiqurlar, qrafiklər, diaqramlar və s. dili) özündə birləşdirir. Riyazi simvollar, həndəsi fiqurlar, qrafiklər, diaqramlar və s. dilləri, həmçinin elmi terminlər sistemi kimi təbii dilin elementləri ilə birlikdə riyazi dili əmələ gətirir. Qeyri-Evklid həndəsənin kəşfindən sonra aksiomatik metodun geniş tətbiqi və keçən əsrin sonunda mücərrəd çoxluqlar nəzəriyyəsinin yaranmasından sonra müasir riyaziyyata və onun əsasını təşkil edən mücərrəd strukturlar konsepsiyasına keçid hazırlanmışdır.

Mücərrəd çoxluqlar nəzəriyyəsində bütün riyazi fənlərin öyrənmə obyekti vahid baxımdan nəzərdən keçirilir. Çoxluqlar nəzəriyyəsi anlayışlarının mücərrəd və universal xarakteri onun ideya və metodlarının riyaziyyatın ən müxtəlif bölmələrinə tətbiq edilməsinə imkan vermişdir. Məhz buna görə o, klassik riyaziyyatın əsasını təşkil etmişdir. Nəzəri çoxluq ideyaları və aksiomatik metodun sintezi mücərrəd riyazi strukturlar konsepsiyasının və riyazi tədqiqatların mövzusuna müasir baxışların yaranmasına gətirmişdir. Qeyd etmək lazımdır ki, mücərrəd riyazi strukturlar konsepsiyası ilk dəfə N. Burbaki məktəbi tərəfindən dəqiq ifadə olunmuşdur və riyaziyyatın qurulması üçün tətbiq olunmuşdur.

Son onilliklərdə riyaziyyatçılar yavaş (sakit, tədricən) miqdar dəyişmələrindən keyfiyyət dəyişmələrinə (R. Tomun qəza nəzəriyyəsi, sinergetiklərin riyazi modeli və ya özünütəşkil nəzəriyyəsi və s.) keçən prosesləri təsvir edən modellərin qurulması və tədqiqinə başlamışlar. Bu, onu göstərir ki, real prosesdə elmi tədqiqatın miqdar və keyfiyyət metodları dialektik qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə özünü göstərir. Bununla yanaşı, tətbiqi riyaziyyatın mövzusu, məntiqi və yanaşma xüsusiyyətlərinin təhlili göstərmişdir ki, hesablama baxımından tətbiqi riyaziyyat birtərəfli istiqamətdə inkişaf edir. Ona görə də tətbiqi riyaziyyatı riyaziyyatdan xaricdə baş verən riyazi məsələlərin optimal, praktik qəbuledilən həlli metodları haqqında elm kimi qəbul edirlər. Şübhəsiz, riyaziyyat bütün zamanlarda mədəni və praktik bilik sayılmış, elmi, texniki və iqtisadi inkişafda mühüm rol oynamışdır. Doğrudan da, nəzəri riyaziyyatçılar ümumi konsepsiya yaradır, daha ümumi şəkildə riyazi qanunauyğunluqlar axtarır, bu və ya digər nəticələrin tətbiqi sərhədlərini müəyyən edir, yeni təsəvvürlər və anlayışları inkişaf etdirirlər. Son vaxtlar elmi və praktik axtarışlar əsasən üç istiqamətin güclü təsirinə məruz qalmışdır: atom nüvəsinin hərtərəfli tədqiqi, kosmik fəzanın öyrənilməsi, elektron hesablama maşınlarının yaradılması və istifadə olunması.

Bu istiqamətlərin hər biri elmi baxımdan geniş surətdə riyazi metodlardan istifadə etmişlər. Bir çox mühüm effektlər eksperimental üsulla deyil, məhz hesablamalar yolu ilə aşkar edilmişdir. Riyaziyyatın müasir həyatda mövqeyinə EHM güclü təsir göstərmişdir. Bu, əvvəllər qeyri-riyazi bilik sahələri hesab edilən sahələrə riyazi metodların tətbiq edilməsi istəyindən irəli gəlmişdir. Əvvəllər tədqiqatın riyazi metodları yalnız astronomiya, fizika və mühəndis işinin bir sıra sahələrində geniş tətbiq edilirdisə, hazırda hesablama və proqnozlaşdırmanın dərk edilməsinin zəruri alətinə çevrilmişdir. Qeyd etmək lazımdır ki, eksperiment və sınaqların aparılması eksperimentin optimal planlaşdırılmasının yaradılmasını zəruri etmişdir.

Biliklərin riyaziləşməsi prosesi təbiət elmlərində daha çox diqqəti cəlb edir. Q. Qalileyin fikrincə təbiət riyazi dildə yazılmışdır, yalnız riyaziyyatı yaxşı mənimsəyənlər təbiəti daha ətraflı öyrənər, onun qanunlarını dərk edə bilər. O, cismin sərbəst düşməsi qanununu müəyyən etmiş və ətalət hərəkəti prinsipini ifadə etmişdir. Lakin bunun üçün onun istifadə etdiyi riyazi

aparat təkmil olmamışdır. Bu aparat yalnız ayrı-ayrı qanunlarda miqdar asılılıqlarını ifadə etmişdir. Qaliley, Kepler və Hügensin tədqiqatlarının nəticələrinə əsaslanaraq Nyuton nəzəri sistem kimi mexanikanı yaratmışdır. İndi hər bir məktəbliyə məlum olan onun yaratdığı mexanikanın üç əsas qanunundan ondan əvvəl eksperimental müəyyən edilmiş qanunlar bir nəticə kimi alınmışdır. Lakin bu qanunları çıxarmaq və mexanikanın əsas anlayışları və prinsiplərini ifadə etmək üçün diferensial hesabının özəyini təşkil edən sonsuz kiçilənlər analizi adlanan tamamilə yeni riyazi metod işləyib hazırlamaq lazım gəlmişdir. İstehsalat və texnikanın tələbləri nəticəsində tamamilə effektiv riyazi tədqiqat metodunun kəşfi söylədiklərimizə əyani misaldır.

Hazırda dəqiq riyazi metodların tətbiqi olmadan texnikanın yeni sahələrinin inkişafından söhbət ola bilməz. Ona görə də, müasir elmi-texniki tərəqqini riyazi biliklərin inkişafı üçün stimul adlandırmağımız yerinə düşər. Riyazi metodların geniş tətbiq edilməsi tədqiqatın mövzusunu təyin etmək üçün müəyyən çətinliklər yaradır. Elmlərin riyaziləşməsində bu və ya digər hadisələr sinfinin keyfiyyətcə birtərəfliyini aşkar etmək və bununla yanaşı onların miqdarca müqayisə edilə bildiyini göstərmək ən böyük çətinlik törədir. Riyazi metodların geniş tətbiq edilməsi tədqiqatın mövzusunu təyin etmək üçün müəyyən çətinliklər yaradır. Elmlərin riyaziləşməsində bu və ya digər hadisələr sinfinin keyfiyyətcə birtərəfliyini aşkar etmək və bununla yanaşı onların miqdarca müqayisə edilə bildiyini göstərmək ən böyük çətinlik törədir. Riyazi metodların kimyada öyrənilən qanunauyğunluqları tədqiq etmək üçün istifadə olunması kifayət qədər çətindir. Məlumdur ki, kimyəvi elementlərin xassələri bir-birindən əhəmiyyətli dərəcədə fərqləndiyinə baxmayaraq, onların hamısı çox mühüm xassə ilə səciyyələnir. Bu xassə onların müəyyən atom çəkisinə malik olmasıdır. Kimyəvi elementlərin bu əlamətə görə müqayisə edilməsi D.İ. Mendeleyevə dövrü qanunu kəşf etməyə imkan vermişdir.

Kimyəvi maddələrin və birləşmələrin ümumi xassələrinin ayrılması, prinsipcə, riyazi metodların kimyada tətbiqinə əsaslanır. Bioloji sosial-iqtisadi və humanitar elementlərin riyaziləşməsi müəyyən qədər çətindir. Lakin bu çətinliklər riyazi metodların həmin elmlərdə tətbiqini inkar etmir. Beləliklə, elmlərin riyaziləşməsi onda effektli olar ki, riyaziləşən elm kifayət qədər kamil, yetkin olsun. Yəni, onda keyfiyyətcə ən mühüm anlayışlar, hipotezlər, ümumiləşmələr və qanunauyğunluqlar olsun. Elmi tədqiqatların müxtəlif mərhələlərində riyazi metodların əhəmiyyətinin artması göstərir ki, elmlərin riyaziləşməsi mümkündür. Həmçinin elmlərin inkişafının zəruri elementidir. Bütün elmlər bu və ya digər dərəcədə riyaziləşməyə uğrayır. Həmin proses vaxtından əvvəl süni deyil, bu elmlərin inkişafının təbii nəticəsi olması çox faydalıdır. Elmi idrakın inkişafında riyaziləşmə qanunauyğun hadisədir. Belə ki, təbiət, texniki və ictimai elmlərin inkişafı, onların daha yeni tədqiqat səviyyəsinə yüksəlməsi, hadisələrin mahiyyətinə daha dərindən yiyələnməsi ilə əlaqədar təsdiq etmək olar ki, elmlərin inkişafını bunsuz təsəvvür etmək qeyri-mümkündür.

Riyaziləşmənin müvəffəqiyyəti və effekti riyaziyyatın özünün inkişaf səviyyəsi ilə müəyyən edilir. Bu proses riyaziyyatın inkişafının daxili məntiqi ilə əlaqədardır. Bu xüsusiyyət klassik riyaziyyatın metodlarının istifadəsindən müasir riyaziyyatın daha mükəmməl metodlarının tətbiq edilməsinə keçidlə səviyyələnir. Riyazi metodlara bu münasibətlə akademik B.V. Qnedenko haqlı olaraq qeyd edir ki, riyaziyyata yeni anlayışlar, ideyalar, metodlar, tədqiqat obyektləri daxil etməklə onun məzmunu daim dəyişir, riyaziyyat bir yerdə durmur, inkişaf edir. Buna görə də onun tətbiqi imkanları genişlənir.

İndi artıq aydın olmuşdur ki, prinsipcə qeyri-riyazi fənn yoxdur. Bir çox humanitar elmlər – linqvistika, tarix, psixologiya, sosiologiya, ictimai elmlər bu və ya digər dərəcədə riyazi metodlardan istifadə edirlər. Ona görə də riyaziyyat humanitar və təbiət elmlərini birləşdirən körpü rolunu oynayır. O, humanitar fənlərin müxtəlif problemlərini həll etməyə imkan verən, ancaq alət deyil, həmçinin, insanlığın təbiət elmlərində yaratdığı bir sıra ideyalar və yanaşmaların humanitar təfəkkür sahəsində istifadə edilən dildir. Elmi-texniki inqilab yalnız ümumtəhsil və istehsal hazırlığına tələbi dəyişməyib, təhsili və texniki ustalığı təkmilləşdirmək üçün yeni texniki vasitələr də yaratmışdır. Müxtəlif elmlərin riyaziləşməsi prosesinin sürətləndirilməsi və riyazi metodların istehsalat sahələrinə tətbiqi üçün elektron hesablama maşınları və

mikroprosessor texnikasının geniş miqyasda tətbiqi və inkişafının həlledici əhəmiyyəti vardır. Ona görə riyaziləşmə prosesinin həyata keçirilməsinin mühüm hissəsi təlimin kompüterləşməsidir. Ümumtəhsil məktəblərində prosessorların daxil edilməsi də məhz bununla əlaqədardır. Universal, mücərrəd və simvolik riyaziyyatın köməyilə fiziklər və bioloqlar materiyanın dərinliyinə nüfuz edə bilirlər. Riyaziyyat alimlərin eksperimental yolla müəyyən edə bilmədikləri obyektlərin görmə vasitəsidir. Riyaziyyat fiziklər üçün təbiətdə yeni hadisələri izah etmək və sonradan eksperimental yolla yoxlamaq üçün bir növ «riyazi qələmdir». Buna fizikada pozitron, neytron və başqa hissəciklərin kəşfini misal göstərmək olar. 30-cu illərdə Dirakın tərtib etdiyi riyazi tənliyə görə yalnız fiziki hissəciklər – pozitronlar mövcud idi. Bundan sonra tezliklə eksperimental yolla Anderson pozitronu kəşf etmişdir. Pozitronun eksperimental yolla kəşfindən qabaq riyazi hesablamalarla onun mövcudluğu sübut olunmuşdur. Əlbəttə, belə hesablamalar sürətli elektron hesablama maşınlarının köməyilə aparılmışdır.

Təbiətşünaslığın və texnikanın inkişafında riyaziyyat elminin xüsusi əhəmiyyəti olmuşdur. Təbiət elmlərinin nümayəndələri belə qənaətə gəlmişlər ki, onlara yalnız hesablamalar üçün deyil, həmçinin öyrənilən qanunauyğunluqların mahiyyətinə nüfuz etmək üçün riyazi metodlar bir alət kimi zəruridir.

Riyaziyyatın tətbiq sahələri o qədər artmışdır ki, onlar müstəqil fənlər əmələ gətirmişdir. XII əsrin birinci yarısında formalaşan riyazi fizika, riyazi biologiya, riyazi iqtisad, riyazi linqvistika və bir çoxları qoşulmuşlar. Riyazi metodların tətbiqi nəticəsində elmi və elmi-praktik məsələlərin həlli imkanları hədsiz artmışdır. Bununla bərabər, riyaziyyatın özünə də tələblər artmışdır. İnsanların elmi idrak fəaliyyətində riyaziyyatın tətbiqi sahələrinin genişlənməsi inkişafın ümumi qanunauyğunluğudur. Bu qanunauyğunluq insanlıq mədəniyyətinin bütün tarixi boyu olmuş və özünü göstərmişdir. Qədim zamanlardan biologiya və təbiətin müxtəlif bölmələrinin ayrı-ayrı məsələlərinin tədqiqində riyaziyyatdan istifadə olunmuş, yalnız indi bütün bu birlik sahəsinə inteqrasiya olunmuş riyazi yanaşma mümkün olmuşdur. Tətbiqi riyaziyyat və riyazi statistikanın, həmçinin hesablama metodlarının biologiya və təbiətlə bağlı məsələləri riyazi biologiya ümumi ad altında nəzərdən keçirilir. Bu fənnin məqsədi riyazi fizikanın fizika üçün etdiyini biologiya və təbabət üçün həyata keçirməkdir.

**Məqalənin aktuallığı.** Müasir dövrdə riyaziyyatın tətbiq sahələri o qədər artmışdır ki, onlar müstəqil fənlər əmələ gətirmişdir. Riyazi metodlar yalnız hesablamalar üçün deyil, həmçinin bir alət kimi öyrənilən qanunauyğunluqların mahiyyətinə nüfuz etmək üçün zəruridir.

**Məqalənin elmi yeniliyi.** Elmlərin riyaziləşməsi mümkündür və onların inkişafının zəruri elementidir. Bütün elmlərin riyaziləşməsi prosesi vaxtından əvvəl süni deyil, bu elmlərin inkişafının təbii nəticəsi olması çox faydalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Elmi idrakın inkişafında riyaziləşmə qanunauyğun hadisədir. Riyaziyyatın əhəmiyyəti və onun istifadə olunması dairəsi genişləndikcə onu öyrənmək istəyənlərin sayı da artar. Həmçinin, öz işində riyazi metodlardan istifadə edən mühəndis, kimyaçı, fizik, elm və texnikanın bütün bölmələrindən olan işçilərin sayı da artmışdır.

**Ədəbiyyat:**

1. A.S. Adıgözəlov, T.M. Əliyeva. Riyaziyyatın tədrisi prosesində fənlərarası əlaqələrin tətbiqi. Metodik vəsait. Bakı: Maarif, 1993, 166 s.

2. А.Г. Цыпкин. Справочник по математике для средних учебных заведений. Москва: Наука,1984.

**E-mail:** abdullayev_ayxan@list.ru

**Rəyçilər:** *dos.* **X.S. Həsənova,**
*dos.* **İ.S. Səfərli**

**Redaksiyaya daxil olub: 21.01.2020.**

UOT 372.851

***Xəyalə Yusif qızı Çəltikova***
*Bakı şəhəri Eldar Əliyev adına 93 nömrəli məktəbin riyaziyyat müəllimi*

# RİYAZİYYAT TƏLİMİNDƏ YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Хаяла Юсиф гызы Чалтикова***
*учитель математики школы № 93 им. Эльдара Алиева гор. Баку*

# ОСНОВНЫЕ ЧЕРТЫ НОВЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ МАТЕМАТИКЕ

***Khayala Yusif Chaltikova***
*Mathematics teacher at School №93 named after Eldar Aliyev of Baku city*

# BASIC FEATURES OF NEW INFORMATION TECHNOLOGIES IN MATHEMATICS TRAINING

**Xülasə.** Kurikulum islahatlarında əsas prinsiplər tələbyönümlülükdən, nəticəyönümlülükdən, şagirdyönümlülükdən, inkişafetdiricilikdən ibarətdir, riyaziyyat fənnində yeni təlim texnologiyalarının məqsədi fəal təlimin, habelə, yeni təlim kurikulumunun (proqramının) prinsiplərini həyata keçirməkdən ibarətdir. Başqa sözlə desək, müəllim və şagirdlərin fəaliyyətinə aid edilən müasir təlim metodları riyaziyyat fənni üzrə təhsil standartlarının reallaşdırılması, təlim nəticələrinin həyata keçirilməsi, təlimə verilən əsas tələblərin yerinə yetirilməsi və s. bu kimi vacib psixoloji, metodiki faktorları özündə ehtiva edən Milli kurikulmun tələblərinə cavab verməyə əsaslanır
***Açar sözlər:*** *Kurikulum, riyaziyyat, təhsil standartları, şagirdyönümlülük, tələləblər*

**Резюме:** Основными принципами реформирования учебного плана являются спрос, эффективность, ориентация на учащихся, развитие, а целью новых технологий обучения математике является внедрение принципов активного обучения, а также нового учебного плана. Другими словами, современные методы обучения, связанные с деятельностью учителей и учеников, включают внедрение образовательных стандартов по математике, реализацию результатов обучения, выполнение базовых требований к обучению и так далее для удовлетворения потребностей Национальной учебной программы, которая включает в себя важные психологические и методологические факторы.
***Ключевые слова:*** *курикулум, математика, образовательные стандарты, направленность на учащихся, требования*

**Summary:** The main principles in curriculum reform are demand, efficiency, student orientation, development, and the aim of new learning technologies in math is to implement the principles of active learning, as well as the new curriculum. In other words, modern teaching methods related to the activities of teachers and pupils include the implementation of educational standards in mathematics, the implementation of learning outcomes, the fulfillment of basic training requirements, and so on. to meet the needs of the National Curriculum, which includes such important psychological and methodological factors.
***Key words:*** *curriculum, mathematics, educational standards, focus on students, requirements*

Hazırda informasiya texnologiyalarından geniş istifadə edilməsi cəmiyyətin hər bir üzvü tərəfindən bu elmin öyrənilməsini zəruri etmişdir. Həmin işə məktəbdən başlanılması məqsədəuyğundur. Bunu nəzərə alaraq Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları tərəfindən “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya üzrə Milli Strategiyanın (2003-2012-ci illər) təsdiq edilməsi haqqında” sərancam verilmiş və

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı" təsdiq edilmişdir. Bu proqram ölkəmizdə yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən, dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid informasiya mühiti yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyır. Proqram çərçivəsində kompüter texnologiyaları əsasında qurulan yeni informasiya texnologiyalarının mənimsənilməsi və onun bütün imkanlarından istifadə etməklə, ölkənin təhsil sistemini səmərəli təşkil etmək və beynəlxalq informasiya şəbəkəsi vasitəsilə dünya ölkələrinin təhsil müəssisələri ilə mütəşəkkil əlaqələrin yaradılması nəzərdə tutulur. Bu sərəncam həm ümumtəhsil məktəblərində, həm də ali məktəblərdə informasiya texnologiyalarının tətbiqi ilə tədrisin keyfiyyətinin yüksəldilməsinə dövlət səviyyəsində mühüm əhəmiyyət verildiyini bir daha sübut edir.

İnformasiya texnologiyalarından istifadə edilməsi tədrisin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi bütün fənlərin, o cümlədən, ali texniki məktəblərdə riyaziyyat kursunun tədrisi prosesinə onun tətbiqini zəruri edir.

Təhsilin informasiyalaşdırılması problemləri öz əksini perspektiv tədris proqramlarında, fasiləsiz təhsilin bütün pillələrinin kompüterləşdirilməsi sahəsindəki elmi tədqiqatlarda tapmalıdır.

Sivilizasiyalı cəmiyyət öz inkişafının elmi-texniki tərəqqinin yüksək tempi ilə müşayiət olunan müasir mərhələsində aktiv olaraq informasiyalaşdırılması ilə sınağa çəkilir və ictimai həyatın bütün sferalarında informasiyanın qiymətliliyi və informasiya xidmətlərinin xüsusi çəkisi kəskin surətdə artmağa başlayır.

İnformasiya-saxlama, emal və ötürmə obyekti olan faktiki verilənlər və onlar arasındakı asılılıqlar haqqında biliklər toplusudur. Cəmiyyət üçün informasiya onun özünü tam dərk etməsi və fəaliyyət göstərməsi üçün bir vasitədir.

İnformasiyaya qoyulan zəruri tələblər (onun alınması, başa düşülməsi və mənimsənilməsi imkanları planında) - etibarlı və əlyetən olmasıdır. Cəmiyyət informasiyalaşdırılma mərhələsində informasiyadan ictimai məhsul kimi istifadə edir. Bununla da, insanın bütün ictimai fəaliyyət növlərinin yüksək təşkil olunmuş informasiya mühitindən asılılığı formalaşdırılır. İnformasiya mühiti dedikdə, informasiya obyektləri çoxluğu və onlar arasındakı əlaqələr, informasiyanın yığılması, toplanması, ötürülməsi, emalı, yayılması texnologiyaları və vasitələri, həmçinin informasiya proseslərinin təşkilati və hüquqi strukturu başa düşülür. Cəmiyyətin informasiya mühitinin təkmilləşdirilməsi cəmiyyətin bütün üzvlərinin onun bütün sferalarında fəaliyyətlərinin intellektuallaşdırılması prosesində, təhsil sferası da daxil olmaqla, qarşılıqlı əlaqələrin və münasibətlərin strukturunun dəyişilməsində istehsaledici gücün inkişafına proqressiv tendensiyaların formalaşdırılmasına stimul yaradır.

Cəmiyyətin informasiyalaşdırılması dedikdə isə, iqtisadiyyatın intensivləş-dirilməsi, elmi-texniki tərəqqinin sürətləndirilməsi, cəmiyyətin intellektuallaşdırılması prosesini təmin edən istehsalın qlobal sosial prosesi və informasiyanın hər yerdə ictimai resurs kimi qəbul olunması başa düşülür.

Cəmiyyətin informasiyalaşdırılması insan həyatının bütün sahələrində fəaliyyətin intellektual növlərinin rolunun artması və təsiri dərəcəsindən asılı olan obyektiv sosial prosesdir. Bu proses insanın yaradıcı fəaliyyətinin bütün sahələrində etibarlı, mükəmməl və vaxtında tətbiq olunmuş bilik əsasında cəmiyyət həyatının yenidən qurulmasıdır. Bu zaman əməyin ictimai bölgüsünün ağırlıq mərkəzi maddi istehsal sferasından informasiyanın alınması, emalı, ötürülməsi, saxlanması, təsviri və təqdim olunması sahəsinə keçir.

Cəmiyyətin informasiyalaşdırılması təlim formalarının məzmununun, metodlarının və təşkilinin dəyişməsinə stimul yaradır. Cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas açarı və prioritet istiqaməti təhsilin informasiyalaşdırılmasıdır, yəni informasiyanın müasir vasitələrlə alınma və ötürülməsi metodologiyasının hazırlanması və bu metodologiyanın tətbiqi üçün resurslarla təmin olunması təhsil sferasının informasiya mühitinin yenidən qurulmasına yönəldilmiş təkamül prosesidir. İnformasiyalaşdırılma zamanı təhsil sistemi yeni informasiya texnologiyalarından istifadə edir.

Cəmiyyət müstəqil düşünən, kamil, rəqabətəqabil yaradıcı şəxsiyyət yetişdirməyi təhsil müəssisələrinin qarşısında çox mühüm vəzifə

kimi qoymuşdur. Bu vəzifələri həyata keçirmək, biz öyrədənlərin üzərinə düşür. Odur ki, müasir təlim texnologiyalarından, təklif etdiyim üsullardan səmərəli istifadə etməklə təlim prosesinin səmərəliliyini, keyfiyyətini yüksəltmək olar.

**Problemin aktuallığı.** Riyaziyyat fənninin tədrisində yeni təlim texnologiyaların tətbiqinin məqsədi fəal təlimin, habelə, kurikulumun prinsiplərini həyata keçirməkdən ibarətdir. Başqa sözlə desək, müəllim və şagirdlərin fəaliyyətinə aid edilən müasir təlim metodları riyaziyyat fənni üzrə təhsil standartların reallaşdırılması, təlim nəticələrinin həyata keçirilməsi, təlimə verilən əsas tələblərin yerinə yetirilməsi və s. bu kimi vacib psixoloji, metodiki faktorları özündə ehtiva edən Milli kurikulmun tələblərinə cavab verməyə əsaslanır.

**Problemin elmi yeniliyi.** Cəmiyyətin qanuni və harmonik inkişafını təmin etmək üçün həmin cəmiyyətdə, pul, güc diktaturasını deyil, informasiya diktaturasını yaratmaq lazımdır. Pulun informasiya kredit kartları, pul banklarının – informasiya bankları ilə əvəz edilməsi cəmiyyətdə oğurluğun və neqativ halların qarşısını tamamilə alar. Bir çox ölkələrdə söz azadlığının, demokratiyanın, özünüidarəetmənin inkişafına təkan vermiş və kosmik informasiya sivilizasiyasına keçidin əsasını qoymuşdur. İnformasiyalaşdırma elmin bütün sahələrinin – astronomiyanın, kimyanın, biologiyanın, tibbin, sosiologiyanın, texnikanın, kosmosun, hüquqi sahələrin inkişafına böyük təsir göstərmiş və cəmiyyətin inkişafında əsas qüvvə rolunu oynamaqla onun təhlükəsizliyində də böyük əhəmiyyətə malikdir.

**Problemin praktik əhəmiyyəti.** İnformasiyaların surətli artımı şəraitində təhsilin məzmunu və təşkilinə verilən tələblər də dəyişir. Bu günün təhsili şagirdlərə daha çox informasiya yadda saxlamaq yox, tənqidi və məhsuldar düşünməyi öyrənməyi, problem xarakterli məsələləri sərbəst həll etməyi öyrətməlidir. Bu baxımdan tədris prosesində şagirdlərin idrak fəallığının yüksəldilməsi problemlərinin elmi metodik tədqiqi bu gün daha aktualdır. Riyaziyyat fənnini spesifik xüsusiyyətləri tədris prosesində həm informasiya kommunikasiya texnologiyalarının geniş tətbiqini, həm də təlimdə idrak fəaliyyətini artıran metod və vasitələrdən sistematik istifadəni diqqətdə saxlamağı tələb edir.

**Ədəbiyyat:**

1. Ümumtəhsil məktəbləri üçün riyaziyyat fənn proqramı (kurikulum). Bakı, 2013.
2. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Bakı, 2012.
3. Fərqanə Əliyeva, Ümhani Məmmədova. Müasir təlim texnologiyaları 2014.
4. metodiktovsiyye.blogspot.com

**E-mail:** xayala93@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok* . **A. Bəkirova**
*ped.ü.fəls.dok.* **Ə. Gərayev**

**Redaksiyaya daxil olub:** 13.02.2020.

## *KİMYANIN TƏDRİSİ METODİKASI*

UOT 372.854

***Kamil Nəsir oğlu Haqverdiyev***
*kimya üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*

***Mədinə Fəxrəddin qızı Nəbili***
*Bakı Dövlət Universiteti*

# DOYMAMIŞ KARBOHİDROGENLƏRİN AKMEOLOJİ KOQNİTİV TƏDRİSİ

***Камиль Насир оглу Ахвердиев***
*доктор философии по химии, доцент*
*Бакинский Государственный Университет*

***Мадина Фехреддин гызы Небили***
*Бакинский Государственный Университет*

# АКМЕО-КОГНИТИВНОЕ ПРЕПОДАВАНИЕ НЕНАСЫЩЁННЫХ УГЛЕВОДОРОДОВ

***Kamil Nasir Hagverdiyev***
*doctor of philosophy in chemistry , associate professor*
*Baku State University*

***Medina Faxraddin Nebili***
*Baku State University*

# TEACHING OF UNSATURATED HYDROCARBONS WITH ACMEOLOGICAL COQNITIV METOD

**Xülasə**: Şagirdlərə tətbiqi bacarıqlar öyrətmək, şəxsiyyətin imkan və potensialını söyləmək, müsbət tərəflərini izah etmək, psixoloji texnikaların (nitq, səs, jest, natiqlik məharəti) köməyi ilə şagirdlərə təsir göstərmək, psixoloji biliklərlə məlumatlandırmaq, materialları aydın, məntiqi, ifadəli, obrazlı çatdırmaq nəzərdə tutulur.
***Açar sözlər:*** *akmeologiya, koqnitivlik, pedaqogika , koqnitiv-bacarıq*

**Резюме**: В статье подчеркивается важность обучения учащихся прикладным навыкам, способности выражать свой потенциал и возможности, объяснять положительные стороны, Излагается как воздействовать на учащихся с помощью психологических техник (речь, голос, жест, ораторские способности), снабжать их психологическими знаниями, передать материал образно, четко, логично и выразительно.
***Ключевые слова:*** *когнитивная акмеолóгия, педагогическая акмеолóгия, когнитивная способность, когнитивное обучение*

**Summary**: Training students in applied methods for determining individual and educational opportunities, explaining positive aspects. Information and communication of material to students is logically figurative.Psychological and technical methods (speech, voice, gesture, oratory)
***Key words**: cognitive acmeology, pedagogical acmeology, cognitive ability, cognitive learning*

İnsanın təbiətə münasibətinin rəngarəng formaları sistemində mühüm yeri idrak, yaxud insanı əhatə edən aləm haqqında biliklər, onun təbiəti və strukturu, inkişaf qanunauyğunluqları, həmçinin insanın özü və bəşər cəmiyyəti haqqında bilgi tutur. İdrak insanın yeni bilik əldə etməsi prosesi, əvvəllər məlum olmayanın kəşfi deməkdir. İdrakın mühüm nailiyyətləri insanın həmin prosesdə fəal rolu ilə əldə edilir. Əslinə qalanda elə fəlsəfi təhlili də maraqlandıran həmin məsələdir. Başqa sözlə desək, söhbət həqiqətə çatmaq yolları, anlayışları və metodlarından gedir.

Ümumiyyətlə, XX əsrdə elm cəmiyyətin həyatını dəyişə bilən qüdrətli amillərdən birinə çevrilmişdir. Bu zamandan başlayaraq elm özünü tədqiqat obyektinə çevirmiş və onu tədqiq etməyə başlamışlar. Bununla yanaşı, cəmiyyətin və insanın idraki fəaliyyəti mərkəzi tədqiqat obyektinə çevrilmişdir. Elmi yaradıcılığın psixologiyası, elmin məntiqi, elmin sosiologiyası, elmin tarixi, nəhayət, elmşünaslıq – bütün bunlar elmi idrakın müxtəlif forma və sahələrini öyrənən xüsusi fənlərin qısa siyahısıdır. Lakin fəlsəfə də kənarda qalmamışdır. Bu sahədə yaranan elm fəlsəfəsi (konkret sahələrə gəldikdə isə, biologiyanın fəlsəfəsi, fizikanın fəlsəfəsi, riyaziyyatın fəlsəfəsi və s.) geniş fəaliyyətə başlamışdır.

İdrak obyektiv aləmin, onun qanun və qanunauyğunluqlarının insan beynində müəyyən məqsədə yönələn fəal inikasıdır. İdrakın mənbəyi insanı əhatə edən xarici aləmdir. Xarici aləm insana təsir göstərir və onda müvafiq duyğular, təsəvvürlər, anlayışlar doğurur. İnsan idrakının fəallığı, müəyyən məqsədə yönəlməsi məhz praktikada, insanların maddi istehsal fəaliyyətində meydana çıxır. Praktika prosesində insan dünyaya təklikdə deyil, başqa adamlarla, bütövlükdə cəmiyyətlə qarşılıqlı əlaqədə fəal təsir göstərir. Bu isə o deməkdir ki, əgər idrakın obyekti, onun mənbəyi maddi aləmdirsə, idrakın subyekti, onun daşıyıcısı bəşər cəmiyyətidir. İdrakın ictimai təbiətini qəbul etmək dialektik idrak nəzəriyyəsinin mühüm fərqləndirici cəhətidir. Dialektik fəlsəfəyə görə, idrak təfəkkürün dərk edilən predmetə yaxınlaşmasından, fikrin biliksizlikdən, biliyə doğru, yarımçıq və mükəmməl olmayan bilikdən daha tam, mükəmməl biliyə doğru hərəkətindən ibarət sonsuz bir prosesdir.

Təhsil sistemində fəaliyyət göstərən pedaqoq və psixoloqun, ilk növbədə, öyrətmə prosesi üçün vacib olan informasiyaların axtarılması, seçilməsi və tətbiqi üzrə qnostik bacarıqları olmalıdır. Növbədə isə öz fəaliyyətini nizamlamaq, məqsəd qoymaq və planlaşdırmaq üçün layihələşdirmə bacarıqları durur. Fəaliyyət vasitələrinin, texnologiyaların seçilməsinə kömək edən konstruktiv bacarıqlar da pedaqoqun fəaliyyəti üçün önəmlidir. Təşkilati bacarıqlar diaqnostika, konsultasiya və korreksiya işi üçün şərait yaratmaq, stimullaşdırmaq, həyata keçirmək baxımından vacibdir. Şagirdin hərəkətlərini təhlil etmək, qavramaq, dəyərləndirmək üçün pedaqoq qiymətləndirmə bacarığından istifadə edir. Özünün şəxsiyyətini, ünsiyyət və fəaliyyətini təhlil etmək lazım gəldikdə refleksivlik bacarığından yararlanır. Bu bacarıqların bir-biri ilə qarşılıqlı əlaqədə olması psixoloji xidmətin keyfiyyətli qurulmasına çox kömək edir.

Koqnitivlik (*lat.cognitio, "başa düşmək, dərk etmək, öyrənmək")* — dərketmə və xarici informasiyaları mənimsəmək qabiliyyətini təsvir edir. Bir-birindən fərqlənən müxtəlif kontekstlərdə işlənir. Tədris prosesində bu anlayış şagirdin məntiqi təhliletmə, əsaslandırma bacarığı, müqayisə, ümumiləşdirmə, fərqləndirmə, əqli bilikləri praktik fəaliyyətə yaradıcı tətbiqetmə - refleksiya bacarığı, ünsiyyətə girmək, kommunikativ əlaqə qurmaq, özünütəqdimetmə və özünüqəbuletdirmə bacarığı və əsasən informasiya emalında psixoloji vəziyyəti araşdırmaq üçün tətbiq edilir. Bu anlayış həm də tez-tez "kontekst bilikləri"n (abstraksiyalaşdırma, konkretləşdimə), bilik, bacarıq, qavrama kimi keyfiyyətlərin araşdırılmasında işlədilir.

Koqnitiv bacarıqlar aşağıdakılardır: İKT-dən istifadə etməklə səmərəli fəaliyyət göstərmək, müasir məlumat vasitələrinə, telekommunikasiya texnologiyalarından peşə fəaliyyətində məqsədəuyğun istifadə, zəruri məlumatların axtarışı, təhlili və seçimi, yeni informasiyanı yaradıcı şəkildə təhlil etmək, öz işində məlumatların qorunmasını təmin etmək, informasiyaların işlənməsi, ümumiləşdirilməsi, saxlanılması, ötürülməsi və yüksək səviyyədə nəticə əldə etmək bacarığı.

Dərsin məqsədi şagirddə koqnitiv bacarıq formalaşdırmaqdır. "Bacarıq" pedaqoji elmlər sistemində ən geniş yayılmış anlayışlardandır.

Onun quruluşu psixoloji məzmun kəsb etməklə, özündə bir sıra poseslərin nəticələrini birləşdirir. Bacarıq dedikdə - insanın (subyektin – şagirdin, müəllimin) hərəki və ya əqli imkanlara yiyələnməsi üçün icra etdiyi hərəkətləri müvafiq qaydada yerinə yetirməsi başa düşülür. Bu zaman yeni bacarıqlarla yanaşı yeni biliklər və vərdişlər də yaranır. Bacarıqlar təlim prosesində yerinə yetirilən mümarisələr: çalışma, tapşırıq, oyun, təmrin, test, layihə və s. vasitəsi ilə formalaşır.

Bacarığın daha bir izahı hərəkətlərin fəaliyyətin məqsədinə və şəraitinə uyğun əlverişli vasitələrlə yerinə yetirilməsidir. Bacarıqların mənimsənilməsi və icrası hərəkətlərin səhvsiz, düzgün və ardıcıl yerinə yetirilməsindən asılı olur. Bacarıqlar daim yenilənir. Mənimsənilmiş bacarıqlar əsasında yeniləri formalaşır. Hər bir yaşda müvafiq bacarıqları formalaşdırıldıqda o, yeni bacarıqlar üçün özülə çevrilir.

Bütün hallarda bacarıq bilik və hərəkət baxımından bacarılanlardır. Əgər bacarıq varsa, o, həmişə və hər yerdə bacarıqdır. Bu fikir onu ifadə edir ki, insan artıq bacarığa çevrilmiş hərəkətləri müxtəlif situasiyalarda tətbiq edə bilməlidir.

Bacarığın tətbiq edilməsi vasitələri müxtəlif ola bilər, lakin onun nəticələri gözlənildiyi kimi olmalıdır. Bacarığın başlıca əlaməti – insanın konkret situasiyada özünün bilik və vərdişlərini tətbiq edə bilməsidir. Buna "icraetmə bacarığı” və ya "tətbiqetmə bacarığı” da deyilir. Bacarıqlı insan müvafiq bacarıqlar sistemindəki hərəkətləri dəqiq mənimsəmiş, onu müxtəlif vaxtda, müxtəlif situasiyada tətbiq etməyi bacaran insandır.

Bacarıqların əsas qruplaşmasına bunlar daxildir:

- dərketmə (koqnitiv) bacarıqları;
- ümumi təlim və ya əmək bacarıqları;
- konstruktiv bacarıqlar;
- təşkilati bacarıqlar;
- texnoloji bacarıqlar;
- kommunikativ bacarıqlar.

"Koqnitiv bacarıq” (dərketmə) bacarığın bir növüdür. Burada söhbət bilavasitə insanın dərketmə sahəsinə aid olan bacarıqlarından gedir. Ona görə də koqnitiv bacarıqlara daha çox əqli keyfiyyətlərə şamil olan bilik, bacarıq və vərdişlər sistemi kimi yanaşmaq daha düzgündür.

Koqnitiv bacarıqların formalaşmasında iştirak edən ən mühüm proseslər koqnitiv proseslərdir. Koqnitiv proseslər dedikdə - qıcıqlayıcının peseptorlara təsir etdiyi andan başlayaraq bilik formasındakı cavab reaksiyalarının hazırlanması və sensor informasiyanın işlənməsini təmin edən proseslər” (idrak, emosional və iradi proseslər, fərdiyyətin, şəxsiyyətin, tipik, dəyişməyən komponentləri və s.) nəzərdə tutulur. Bir sözlə, koqnitiv proses - insanın dünya haqqında aldığı informasiyanı təsəvvür etməsi, hafizədə saxlayaraq biliyə çevirməsi, bu biliklərin koqnitiv bacarıqlar sayəsində fəaliyyətə tətbiq etməsi prosesidir.

Beləliklə, biz koqnitiv bacarıqlar haqqında müəyyən ümumiləşdirmə apara bilərik. "Koqnitiv bacarıq” - dərketmə fəaliyyətində subyektin sensor siqnalları dəqiqliklə qəbul edərək onları qavraması, əvvəllər mənimsədiyi bilik, bacarıq və vərdişlər üzərində əməliyyatlar aparması, yeni əqli nəticəyə gəlməsi və bu biliklərə uyğun olaraq yerinə yetirilməli olan hərəkətləri icra etmək bacarığının mənimsənilməsidir.

Koqnitiv bacarıqlar koqnitiv (təlim) fəaliyyətdə formalaşır. "Koqnitiv fəaliyyət” - (cognitive activity) psixologiyada "anlamaq, qavramaq, dərhal başa düşmək” mənasında işlədilir. Koqnitiv fəaliyyət anlayışı özünəməxsus koqnitiv proseslərlə tənzimlənən informativ quruluşdur. O, insanın bu və digər həll yolu ilə biliklər əldə etdiyi, nəticə olaraq nəyi isə anladığı, təqdim etməyə (interpretasiyaya) nail olduğu fikri fəaliyyətidir.

Koqnitiv fəaliyyət, həm də "dərketmə”, yaxud "idrak” fəaliyyətinə sinonim kimi işlədilir. Əslində bu anlayışların fərqləndirilməsində məqsəd onların psixoloji quruluna görə fərqli olmasıdır. Koqnitiv fəaliyyətin quruluşu daha mürəkkəbdir, çünki burada idrak proseslərindən əlavə digər proseslər: emosiya, psixi hal, xassə, fərdi xüsusiyyətlər daha fəal iştirak edir.

Digər tərəfdən, koqnitiv fəaliyyət – subyektin konkret həll yoluna gələrək, yaxud biliklər əldə edərək nəyisə anlamağa aparan əqli fəaliyyətidir. Koqnitiv fəaliyyətdə informasiyaların işlənməsinin müxtəlif sistemləri iştirak etdiyindən, onun səmərəliliyi informasiyanın hansı kanallarla daxil olmasından da asılıdır.

Təhsil sistemində şagirdlərin koqnitiv fəaliyyətində onlarda formalaşdırılmalı olan koqnitiv bacarıqların bir neçə təsnifatlaşdırılması apa-

rılmışdır. Ümumilikdə onlara aşağıdakılar aid edilir:

- təlim məqsədini anlayaraq hərəkətləri tapşırıqlar və müstəqil işlər əsasında ona doğru istiqamətləndirmək;
- yerinə yetiriləcək hərəkətlərin quruluşunu, qaydalarını, istiqamətlərini bilmək və əməl etmək;
- hərəkətlərə məzmun və texniki baxımdan yaxşı bələd olmaq, onun strategiyasını, planını qurmaq, modelləşdirmək və sxemləşdirmək;
- hərəkətləri texniki baxımdan düzgün icra edərək səmərəli nəticəyə gəlmək;
- nümunə əsasında hərəkətlərin qoyulmuş vaxtda keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etmək;
- fəallıq göstərmək;
- qoyulmuş fərziyyənin doğruluğunu sınaqdan keçirərkən gözlənilən nəticələrin vasitələrlə icrasına səy göstərmək;
- hərəkətlərinin icrası zamanı özündə yeni koqnitiv quruluşların formalaşmasına yaradıcı yanaşmaq;
- tapşırığın həlli üsullarının seçilməsinə kreativ yanaşmaq;
- dəkredilmiş əqli nəticəyə gəlmək;
- özünün bacarıqlarını obyektiv qiymətləndirmək.

Şagirdlərin peşəyönümündə tələb olunan koqnitiv bacarıqların əhatə dairəsi isə daha genişdir:

– İKT-dən istifadə edərək daha səmərəli fəaliyyət göstərmək;

– müasir informasiya vasitələrinə bələd olmaq və onlardan səmərəli qaydada istifadə etmək;

– kommunikasiya texnologiyalarından istifadə edərək zəruri məlumatlar axtarmaq, onları təhlil etmək və lazım olanları seçmək;

– yeni informasiyanı yaradıcı şəkildə təhlil etmək;

– maraqlandığı sahə ilə bağlı lazım gələn məlumatları toplayaraq sistemləşdirmək, onların qorunmasını təmin etmək,

– informasiyaların işlənməsi, ümumiləşdirilməsi, saxlanılması, ötürülməsi və yüksək səviyyədə nəticə əldə etmək bacarığına sahib olmaq.

*Sosial-əmək bacarıqları:* konkret sosial hadisə və proseslər, peşə sahəsindəki hüquq və vəzifələrini öyrənmək; əmək bazarındakı situasiyalar üzrə araşdırma aparmaq; şəxsi və ictimai maraqdan çıxış edə bilmək, əmək və vətəndaşlıq münasibətlərində etik normaları rəhbər tutmaq bacarığını mənimsəmək.

*Özünütəkmilləşdirmə bacarığı:* fiziki, mənəvi, intellektual özünüinkişaf, emosional özünütənzimləmə və özünüidarə, özünün maraqları və imkanları çərçivəsində fəaliyyət üsullarını mənimsəmək, özünüdərketmə, müasir insan üçün zəruri olan şəxsi keyfiyyətlərin inkişafına nail olmaq, psixoloji savadlılığı artırmaq, davranış və düşünmə mədəniyyətini mənimsəmək, şəxsi gigiyena qaydalarına əməl etmə, sağlamlığın qayğısına qalma, ekoloji mədəniyyətə malik olmaq.

*Özününizamlama bacarığı:* hər hansı situasiyada öz emosiyalarını əhval-ruhiyyəsini idarə etməyi bacarmaq, nizamlamaq, özünə qarşı tələbkar olmaq, tənqidə qarşı səbirli olmaq, nəticə çıxarmağı bacarmaq, gərgin əsəb-psixi yüklənməyə qarşı dözümlü olmaq, yaranmış psixoloji gərginliyi aradan qaldırmağı bacarmaq.

*Pedaqoji bacarıqlar:* insanlara kömək etmək və tətbiqi bacarıqları mənimsətmək, şəxsiyyətin imkan və potensialını anlamaq, müsbət tərəflərini göstərmək, özünəyardımın təşkili yollarını, sosial həyati bacarıqları mənimsətmək, psixoloji texnikaların (nitq, səs, jest, natiqlik məharəti) köməyi ilə fərd və qrupları təsir altına almaq, psixoloji biliklər haqda məlumat vermək, materialları aydın, məntiqi, ifadəli, obrazlı şəkildə çatdırmaq.

İndi isə "Doymamış karbohidrogenlərin akmeoloji koqnitiv tədrisi" mövzusunu koqnitiv bacarığın formalaşması istiqamətində izah edək.

Standartlar:

1. Karbohidrogenlər haqqında sadə biliklər nümayiş etdirilməsi.
2. Doymamış karbohidrogenlər haqqında ilkin anlayış və məlumatlar.
3. Əlavə mənbələrdən doymamış karbohidrogenlər haqqında təqdimatlar hazırlanması.

İnteqrasiya:

Doymuş karbohidrogenlərlə doymamış karbohidrogenlərin müqayisə, oxşar və fərqli cəhətlərinin izahı.

Texnologiya:

2-3 detaldan ibarət məmulat hazırlayarkən tərtibat bacarıqları nümayiş etdirilməsi.

Məqsəd:

1. Doymamış karbohidrogenlər haqqında biliklərini nümayiş etdirilməsi.

2. Onların ümumi və fərqli fiziki-kimyəvi xassələrini müəyyənləşdirilməsi.

3. Doymamış karbohidrogenlərin alınmasının fərqli və ortaq tərəflərinin təqdim edilməsi.

4. Qrupla birgə şarlarla doymamış karbohidrogenlərin hibridləşməsini nümayiş etdirmək.

Meyarlar üzrə (koqnitiv) bacarıqlar:

- Biliklərin nümayiş etdirilməsi.
- Şagirdlərin aktivliyinin müəyyənləşdirilməsi.

Təqdimat edilməsi:

- Tərtibat bacarıqları nümayiş etdirilməsi.
- Əməkdaşlıq edilməsi.

Şagirdlərin bu bacarıqlara yiyələnmələri üçün onlar dərsin mərhələləri üzrə nəzərdə tutulmuş prosedurları keçməlidir. Bunun üçün dərs prosesində onlar üçün yaradıcı mühit olmalıdır:

- Doymamış karbohidrogenlərin daxil olduğu reaksiyaların mexanizmləri(məntiqi təhliletmə, əsaslandırma bacarığı);
- Molekulyar quruluşdakı dəyişikliyin kimyəvi xassələrə təsiri (müqayisə, ümumiləşdirmə, fərqləndirmə, nəticəyəgəlmə bacarığı);
- Molekulların fəza quruluşlarının maketini hazırlamaq, məişətdə və sənayedə tətbiq sahələri haqqında məlumat toplamaq (əqli bilikləri praktik fəaliyyətə yaradıcı tətbiqetmə - refleksiya bacarığı);
- birgəfəaliyyət prosesində müəllim və qrup yoldaşları ilə yaxından əməkdaşlıq etmək, onlarla məsləhətləşmək, fikirlərini nəzərə almaq, öz fikirlərini təqdim etmək və s. (ünsiyyətə girmək, kommunikativ əlaqə qurmaq, özünütəqdimetmə və özünüqəbuletdirmə - bacarığı).

**Problemin elmi aktuallığı.** Koqnitiv fəaliyyət - subyektin konkret həll yoluna gələrək, yaxud biliklər əldə edərək nəyisə anlamağa aparan əqli fəaliyyətidir. Koqnitiv fəaliyyətdə informasiyaların işlənməsinin müxtəlif sistemləri iştirak etdiyindən onun səmərəliliyi informasiyanın hansı kanallarla daxil olmasından da asılıdır.

**Problemin elmi yeniliyi** koqnitiv bacrıqlardan istifadə etməklə səmərəli fəaliyyət göstərmək, müasir məlumat vasitələrinə, telekommunikasiya texnologiyalarından peşə fəaliyyətində məqsədəuyğun istifadə, zəruri məlumatların axtarışı, təhlili və seçimi, yeni informasiyanı yaradıcı şəkildə təhlil etmək, öz işində məlumatların qorunmasını təmin etmək, informasiyaların işlənməsi, ümumiləşdirilməsi, saxlanılması, ötürülməsi və yüksək səviyyədə nəticə əldə etmək bacarığıdır.

**Problemin praktik əhəmiyyəti.** Koqnitiv bacarıqlar bilavasitə müasir dövrdə şagirdlərin təlim fəaliyyətində onlardan tələb olunan bacarıqlardır. Bu bacarıqlara ayrı-ayrı idrak prosesləri kontekstindən deyil, kompleks yanaşılır. Hər bir bacarığın quruluşunda bütün idrak prosesləri və onların aralıq mərhələləri, o cümlədən emosiya, iradə, davranış, fəaliyyət və kommunikasiya vardır.

**Ədəiyyat:**


1. Брунер Дж. Процесс обучения. М., 1962.
2. Брунер Дж. Психология познания. За пределами непосредственной информации. М., 1977
3. L. Əmrahlı. Koqnitiv bacarıqlar. 2016
4. J. Zhang. Basic neural units of the brain: Neurons, synapses and action potential, 2019.


**E-mail:** medine_kk023a@mail.ru
**Rəyçi:** *kim.ü.fəls.dok., prof.* **Ə.T. Əzizov**

**Redaksiyaya daxil olub: 03.02.2020.**

UOT 372.854

***Mətanət Sərxan qızı Nuriyeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ KİMYƏVİ KİNETİKAYA AİD MÖVZULARIN TƏDRİSİ PROSESİNDƏ ALQORİTMLƏŞDİRMƏNİN ROLU

***Матанат Сархан гызы Нуриева***
*диссертант по программе доктора философии*
*Азербайджансий Государственный Педагогический Университет*

# РОЛЬ АЛГОРИТМИЗАЦИИ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ТЕМ ПО ХИМИЧЕСКОЙ КИНЕТИКЕ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Matanat Sarkhan Nuriyeva***
*doctorial student in the proqramme of a Ph.D*
*Azerbaijan State Pedagogical University*

# THE ROLE OF ALGORITHM IN THE PROCESS OF ADJUSTMENT IN THEM OF CHEMICAL KINETICS GENERAL SCHOOLS

**Xülasə:** Qeyd etməliyik ki, ümumtəhsil məktəblərində kimya fənninin öyrədilməsi prosesində şagirdlərin ən çox çətinlik çəkdiyi mövzulardan biri də kimyəvi kinetikadır. Hər bir kimya müəllimi kimyəvi kinetikaya aid mövzuların tədrisi prosesində çalışmalıdır ki, şagirdlər kimya fənninə müəyyən elmin əsasları ilə tanışlıq kimi yanaşmasınlar. Şagirdlər kimyanın tədrisi prosesində öyrədilən mövzuların onların müşahidəçilik qabiliyyətlərinin, tənqidi təfəkkürlərinin, öz biliklərinin analiz etmək, əldə etdikləri biliklərdən nəticə çıxarmaq bacarıqlarının inkişaf etdirilməsində, eləcə də, əldə etdikləri biliyin öz həyatlarını formalaşdırmaqda əhəmiyyətini görməlidirlər.
***Açar sözlər:*** *kimyəvi reaksiyanın sürəti, kimyəvi tarazlıq, homogen reaksiyalar, heterogen reaksiyalar, alqoritm*

**Резюме:** Химическая кинетика является одной из самых сложных тем, с которыми сталкиваются учащиеся при преподавании химии в общеобразовательных школах. Каждый учитель химии должен работать в процессе преподавания тем химической кинетики, чтобы ученики не рассматривали химию как введение в конкретную науку. Учащиеся должны осознать важность тем при преподавании химии, так как они развивают критическое мышление, способность анализировать собственные знания и получать знания из того, что они приобрели.
***Ключевые слова:*** *скорость химической реакции, химическое равновесие, гомогенные реакции, гетерогенные реакции, алгоритм*

***Summary.*** Chemical kinetics is one of the most difficult topics that students face in teaching chemistry in general education schools. Every chemistry teacher should work on the teaching of chemical kinetics, so that students do not approach chemistry as an introduction to a particular science. Pupils should see the importance of the topics taught in chemistry teaching as they develop their abilities, their critical thinking, ability to analyze their own knowledge, and to derive knowledge from what they have acquired.
***Key words:*** *chemical reaction rate, chemical equilibrium, homogenous reactions, heterogeneous reactions, algorithm*

Müasir təhsildə kimyanın tədrisi prosesində təlimin təşkilinə verilən ən mühüm tələblərdən biri də şagirdlərdə abstarkt təsəvvürlərin inkişaf etdirilməsidir. Qeyd etməliyik ki, müasir

təhsilin tələblərinə uyğun olaraq kimyəvi kinetikaya aid mövzuların tədrisi prosesində şagirdlərdə alqoritmləşmə əsasında ümumiləşdirmə bacarığının formalaşdırılmasına daha çox diqqət ayrılmalıdır. Burada əsas məsələ şagirdlərin mövzu ilə bağlı hazır alqoritmlərdən istifadə etmələri deyil, həmin alqoritmləri özlərinin müstəqil şəkildə tərtib etmələridir.

Hər bir kimya müəlliminin şagirdlərdə kimya fənninin öyrədilməsi prosesində alqoritmik fəaliyyətin formalaşdırılmasında aşağıdakı prinsiplərdən istifadə etməsini vacib hesab edirik:

- Dərs hazır alqoritmlər əsasında yeni alqoritmləri formalaşdırmaq bacarıqlarının inkişaf etdirilməsi istiqamətində qurulmalıdır.
- Kimyəvi reaksiyaların sürəti, sürətə təsir edən amillər, kimyəvi tarazlıq, tarazlığa təsir edən amillərin alqoritmik xarakteristikalarını açan simvol və qrafiklərdən istifadə etməklə cədvəllər tərtib edilməli və bu istiqamətdə müəllim şagirdlərin müstəqil işləmələri üçün test tapşırıqları tərtib etməlidir.
- Layihələr metodu ilə təlim texnologiyaları əsasında şagirdlər tərəfindən aparılan tədqiqatın nəticəsi müzakirəyə əsaslanmaqla kimyəvi simvol və qrafiklər formasında ifadə olunmalıdır.

Ümumtəhsil məktəblərində kimyəvi kinetikaya aid mövzuların öyrədilməsi prosesində alqoritmləşdirmə metodundan istifadənin üstünlüklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- ➢ Alqoritm - müasir təhsilin tələblərinə uyğun olaraq müəllim və şagirdlər arasında ümumi dialoqun yaranmasına şərait yaradır;
- ➢ Alqoritm - şagirdlərin mövzunu mənimsəmələri üçün onlarda biliyin yadda saxlanmasına, ümumiləşdirilməsinə müsbət təsir göstərən qrafikləşdirmək, cədvəlləşdirmək, sistemləşdirmək vərdişlərinin yaradılmasına maksimum şərait yaradır.
- ➢ Alqoritmin - müəllim və şagirdlərin birgə fəaliyyəti nəticəsində tərtib edilməsi, şagirdlərdə yeni mövzuları keçərkən sxem, qrafik və cədvəllər üzərində müstəqil işləmək bacarıqlarını formalaşdırır.

*VIII sinif kimya kursunda "Kimyəvi reaksiyanın sürətinə təsir edən amillər"ə aid mövzunun tədrisi prosesində alqoritmləşdirmə metodundan istifadə imkanları.*

Kimyəvi reaksiyanın sürətinə təsir edən amillərə aid mövzu tədris edilərkən, ilk öncə, toqquşma nəzəriyyəsinin mahiyyəti şagirdlərə izah edilməlidir. Bunun üçün aşağıdakı sxemdən istifadə etmək məqsədəuyğundur:




Hər bir kimya müəllimi kimyəvi reaksiyaların sürətini müəyyən edən faktorları toqquşma nəzəriyyəsi əsasında aşağıdakı qruplar üzrə izah etməlidir:

*Qatılığın dəyişməsinin (və ya qazların təzyiqinin dəyişməsinin) reaksiya sürətinə təsiri* – Homogen sistemlərdə reaksiyanın sürəti reaksiyaya daxil olan maddələrin qatılığından düz mütənasib asılıdır, yəni onların qatılığı artdıqca reaksiyanın sürəti artır. Beləliklə, qatılığın dəyişməsi həm müəyyən həcmdə hissəciklərin sayının dəyişməsinə, həm də müvafiq olaraq vahid zamanda, vahid həcmdə hissəciklərin toqquşmalarının sayının dəyişməsinə səbəb olur. Beləliklə də, reaksiyanın getməsi üçün molekulların toqquşmasının vacibliyini nəzərə alaraq deyə bilərik ki, qatılıq, yəni vahid həcmdə olan maddə miqdarı artdıqca molekulların toqquşma ehtimalı artır. Ona görə də reaksiyanın sürəti artır. Artıq şagirdlərə kimyəvi kinetikanın əsas qanunu olan "Kütlələrin təsiri qanunu" haqqında məlumat verilir. Bu qanuna görə: "Kimyəvi reaksiyaların sürəti reaksiyaya girən maddələrin qatılıqları hasili ilə düz mütənasibdir".

$aA_{(q)} + bB_{(q)} \rightarrow dD_{(q)}$ reaksiyanın sürət düsturu $\vartheta = k \cdot C_A^a \cdot C_B^b$

Burada $C_A$ və $C_B$, A və B maddələrinin molyar qatılığıdır, k- isə reaksiyanın sürət sabiti olub, maddələrin təbiətindən və temperaturdan asılıdır.

Toqquşma nəzəriyyəsinə əsasən şagirdlərə izah edilməlidir ki, heterogen reaksiyalarda qarşılıqlı təsirdə olan maddələrin səthinin sahəsinin dəyişməsi maye və qazların bərk maddənin səthi ilə toqquşmaların sayının artmasına səbəb olur və belə reaksiyaların sürəti $\vartheta = \frac{\Delta v}{S \cdot \Delta \tau}$ düsturu ilə hesablanır. Şagirdlərə aydın olur ki, heterogen sistemlərdə reaksiyanın sürəti reaksiyaya girən maddələrin toxunma səthindən asılıdır, yəni toxunma səthinin sahəsi artdıqca reaksiyanın sürəti artır. Müəllim qeyd etməlidir ki, heterogen sistemlərdə reaksiyanın sürətini artırmaq üçün bərk maddələri xırdalamaqla toxunma səthini artırmaq lazımdır. Deyilən qaydanın şagirdlər tərəfindən daha aydın başa düşülməsi və müstəqil şəkildə, izahlı yerinə yetirilməsi üçün belə bir test tapşırığı verilir:

*Tapşırıq 1.* Kütləcə eyni miqdarda götürülmüş dəmir qırıntısı (a), dəmir yonqarının (b) və toz halında olan dəmirin(c) eyni temperaturda xlorid turşusunda həllolma sürətinin zamandan asılılıq qrafiki hansı halda düzgün verilmişdir?




*Həlli:* Qeyd edilir ki, bərk maddənin səthinin sahəsi nə qədər çox olarsa, reaksiya bir o qədər sürətlə gedər. Şagirdlər müstəqil şəkildə qeyd edirlər ki, narın xırdalanmış, tozşəkilli dəmirin (c) səthinin sahəsi, eyni kütlədə götürülmüş dəmir qırıntısının (b) səthinin sahəsindən çoxdur. Eləcə də, dəmir qırıntısının (b)səthinin sahəsi, dəmir parçasının (a) səthinin sahəsindən çox olduğu üçün, həllolma sürəti c,b,a istiqamətində azalmış olacaq.

Qatılığın reaksiya sürətinə təsirini aşağıdakı tapşırıq əsasında şagirdlərə izah edirik:

*Tapşırıq 2.* Reaksiya gedən qabın həcmini 50% azaltdıqda, sürəti 16 dəfə artan reaksiyanın tənliyini göstərin.

A) $A_{2(qaz)} + 2B_{2(qaz)} \rightarrow 2AB_{2(qaz)}$
B) $2AB_{3(qaz)} \rightarrow A_{2(qaz)} + 3B_{2(qaz)}$
C) $2AB_{2(qaz)} \rightarrow A_{2(qaz)} + 2B_{2(qaz)}$
D) $A_{2(qaz)} + B_{2(qaz)} \rightarrow 2AB_{(qaz)}$
E) $A_{2(qaz)} + 3B_{2(qaz)} \rightarrow 2AB_{3(qaz)}$

*Həlli:* Şagirdlərin də iştirakı ilə birlikdə test tapşırığına aydınlıq gətiririk. Beləliklə, reaksiya qabının həcmini 50% azaltdıqda reaksiyaya girən maddələrin qatılıqları 2 dəfə artır. Aşağıda qeyd olunan qaydada hər bir reaksiyanın əvvəlki və qatılığını 2 dəfə artırdıqdan sonrakı sürət düsturlarını yazırıq. Beləliklə də sürəti 16 dəfə artan reaksiya tənliyini tapmış oluruq.

| Qatılıq artmamışdan əvvəl | Qatılıq 2 dəfə artdıqdan sonra |
|---|---|

**A)** $\vartheta = k \cdot [A_2]\cdot[B_2]^2$ $\vartheta = k \cdot [2A_2]\cdot[2B_2]^2 = 8\,k \cdot [A_2]\cdot[B_2]^2$

**B)** $\vartheta = k \cdot [AB_3]^2$ $\vartheta = k \cdot [2AB_3]^2 = 4\,k \cdot [AB_3]^2$

**C)** $\vartheta = k \cdot [AB_2]^2$ $\vartheta = k \cdot [2AB_2]^2 = 4\,k \cdot [AB_2]^2$

**D)** $\vartheta = k \cdot [A_2]\cdot[B_2]$ $\vartheta = k \cdot [2A_2]\cdot[2B_2] = 4\,k \cdot [A_2]\cdot[B_2]$

**E)** $\vartheta = k \cdot [A_2]\cdot[B_2]^3$ $\vartheta = k \cdot [2A_2]\cdot[2B_2]^3 = 16\,k \cdot [A_2]\cdot[B_2]^3$

İzahlı test tapşırığına əsasən şagirdlərə aydın oldu ki, A bəndində sürət 8 dəfə, B, C, D bəndlərində sürət 4 dəfə, E bəndində isə sürət 16 dəfə artmış olur. Deməli, düzgün variant E-dir.

• *Reaksiyanın sürətinə temperaturun təsiri* - Qeyd edilməlidir ki, temperaturun dəyişməsi hissəciklərin kinetik enerjisinin dəyişməsinə səbəb olur. Hissəciklər müvafiq enerjiyə malik olmalıdır ki, mövcud rabitələr qırıla bilsin. Artıq burada şagirdlərə aktivləşmə enerjisi haqqında məlumat verilməlidir. *Aktivləşmə enerjisi* - hər hansı bir kimyəvi reaksiyanın başlanması üçün lazım olan minimum enerjidir.

"Nə üçün reaksiyanın sürəti temperaturdan düz mütənasib asılıdır?" - sualını isə aşağıdakı sxemdən istifadə etməklə cavablandırmaq olar.




Deməli, şagirdlərə aydın olur ki, hər toqquşan hissəciklər və ya molekullar arasında kimyəvi reaksiya baş vermir. Reaksiyanın getməsi üçün molekullar toqquşma anında müəyyən enerjiyə malik olmalıdırlar və molekullar bu enerjini temperatur artdıqda alırlar.

• Reaksiyanın sürətinə katalizatorun təsiri - İlk öncə şagirdlərə məlumat verilməlidir ki, reaksiyaya daxil olan maddələrin aktivləşməsi üçün enerji miqdarı az olduqda reaksiya sürətlə, çox olduqda isə yavaş gedir. Məhz sistemə daxil olan katalizator lazım olan aktivləşmə enerjisini azaldır, nəticədə hissəciklərin əksəriyyəti məhsul əmələ gəlməsi ilə qarşılıqlı təsirdə olur.

*Katalizator* - reaksiyanın sürətini dəyişdirən, lakin prosesin sonunda özü kimyəvi cəhətdən dəyişməz qalan maddəyə deyilir.

Beləliklə, müəllim katalizatorun aktivləşmə enerjisini minimuma endirməklə reaksiyanı sürətləndirilməsi səbəblərini aşağıdakı cədvəl əsasında şagirdlərə izah edir.




**Problemin aktuallığı.** Son 25 ildə Azərbaycan Respublikasında Dövlət İmtahan Mərkəzinin keçirdiyi Ali məktəblərə I və IV ixtisas qrupları üzrə keçirilmiş imtahan nəticələrinin təhlili göstərir ki, kimyəvi reaksiyaların sürəti, kimyəvi tarazlıq, elektroliz, oksidləşmə-reduksiya reaksiyaları mövzuları-

na aid suallara şagirdlər çox pis cavab verirlər. Bu da ümumtəhsil məktəblərində həmin mövzuların düzgün tədris olunmadığını təsdiq edir.

**Problemin elmi yeniliyi** kimyəvi reaksiyaların sürəti və ona təsir edən amillərə aid mövzuların mahiyyətnin öyrənilməsi, müasir təhsilin tələblərinə uyğun şagirdlərin formalaşdırılmasında onlardan istifadə metodikasının hazırlanması, tövsiyələrin verilməsidir.

**Problemin praktik əhəmiyyəti.** Kimyəvi reaksiyaların sürətinin öyrədilməsi ilə bağlı verilən məlumatlardan, mövzuya uyğun dərslərin təşkili və keçirilməsi metodikasından, verilən tövsiyələrdən metodika sahəsində tədqiqat aparanlar faydalana bilərlər.

**Ədəbiyyat:**


1. M.M. Abbasov, V.M. Abbasov və b. VIII siniflər üçün kimya dərsliyi. Bakı: Azpoliqraf, 2018, 200 s.
2. Veysova Z. Fəal/ interaktiv təlim. Bakı, 2007, 568 s.


**E-mail:** metanet.nuriyeva91@gmail.com

**Rəyçilər:** *kimya.ü.fəls.dok.,dos.* **R.M. Ağayeva,**
*ped.ü.elm.dok.* **A.M. Tağıyeva**

**Redaksiyaya daxil olub:27.02.2020.**

## *BİOLOGİYANIN TƏDRİSİ METODİKASI*

UOT 372.857

***Səbinə Ataməli qızı İsmayılova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*

# BİOLOGİYANIN TƏDRİSİNDƏ İNFORMASİYA – KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN ZƏRURİLİYİ

***Сабина Атамалы гызы Исмаилова***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# НЕОБХОДИМОСТЬ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ ПРИ ОБУЧЕНИИ БИОЛОГИИ

***Sabina Atamali Ismayilova***
*doctoral student in the proqram of a Ph.D*
*Institute of Education of the Republic of Azerbaijan*

# THE NEED FOR INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN TEACHING BIOLOGY

**Xülasə.** Müasir dövrümüzdə biologiyanın tədrisində İKT avadanlıqlarından istifadə təlim prosesini daha da səmərəli edir. Çünki XXI əsrdə pedaqoji prosesin əsas tələblərinə şagirdlərə düşünməyi öyrətmək, bioloji prosesləri araşdırmaqla onların intellektual, yaradıcı qabiliyyətlərini və fəallıqlarını artırmaq, real idrak motivasiyasını inkişaf etdirmək daxildir. Bu məqalədə biologiyanın tədrisinin informasiya texnologiyalarının tətbiqi ilə tədrisi araşdırılır. İKT-nin təlim prosesinə tətbiqinin zəruriliyi şagirdlərin bilik və bacarıqlarının formalaşdırılmasında əvəzsiz rolu ön plana çəkilir.
***Açar sözlər:*** *informasiya kommunikasiya texnologiyaları, təlim prosesi, biologiya, kreativlik, idrak motivasiyası, bioloji bilik, bacarıq*

**Резюме.** Использование ИКТ в преподавании биологии в современном мире делает процесс обучения более эффективным. Потому что основные требования педагогического процесса XXI века - научить учащихся мыслить, повысить их интеллектуальные, творческие способности и активность путем изучения биологических процессов и развить настоящую познавательную мотивацию. В данной статье рассматривается преподавание биологии с использованием информационных технологий. Важность использования ИКТ в учебном процессе и его неоценимая роль в формировании знаний и навыков учащихся находятся на переднем крае.
***Ключевые слова:*** *информационно-коммуникационные технологии, учебный процесс, биология, креативность, когнитивная мотивация, биологические знания, умения*

**Summary.** The use of ICT in teaching biology in our modern age makes the learning process more efficient. Because the basic requirements of the 21st century pedagogical process are to teach students to think, to enhance their intellectual, creative abilities and activity by studying biological processes, and to develop real cognitive motivation. This article explores the teaching of biology using information technology. The importance of the use of ICT in the learning process, and its invaluable role in shaping the knowledge and skills of students, is at the forefront.
***Key words:*** *information communication technologies, learning process, biology, creativity, cognitive motivation, biological knowledge, skills*

XXI əsrdə hər bir ölkənin intellektual və elmi potensialı bilavasitə informasiya – kommunikasiya texnologiyalarının inkişafı ilə bağlıdır. Çünki hər bir ölkənin iqtisadi inkişafı məhz onun elm və təhsil sektorlarının inkişafından, təhsilin səviyyəsindən asılıdır. Müasir dövrümüzdə informasiya cəmiyyətinin formalaşması, informasiya texnologiyalarının geniş vüsət almış tətbiqi elm və təhsil sahələrinin inkişafını və keyfiyyətini yüksəltməyə xidmət edir. İnformasiya–kommunikasiya texnologiyalarının sürətli inkişafı və geniş tətbiqi nəticəsində cəmiyyətin bütün sferalarında köklü dəyişikliklər baş verir, ənənəvi fəaliyyət sahələri transformasiyaya uğramaqla cəmiyyətdə yeni münasibət və dəyərləri formalaşdırır. Müstəqillik əldə etdikdən sonra Respublikamızda əksər sahələrdə baş verən dəyişikliklər, yeniliklər və sürətli inkişaf təhsil sektorundan da yan keçməmişdir. Bəşəriyyət tarix boyu təhsil vasitəsilə inkişaf edib və müasir dövrümüzün inkişafı da məhz təhsilin məzmunundan asılıdır. Dövlətimizin gələcəyi və müstəqilliyimizin əbədiliyi üçün mükəmməl təhsil sisteminə malik olmaq zəruri şərtlərdəndir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətlərinə “Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması” ilə yanaşı, “təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması” məsələsi də daxildir.

Biz irəliyə doğru can atan, daim yenilənən, informasiyalarla zəngin olan bir cəmiyyətdə yaşayırıq. İnformasiya-kommunikasiya texnologiyalarının təsiri nəticəsində bilik və informasiyanın insan fəaliyyətinin bütün sahələrində əsas rol oynadığı cəmiyyəti informasiya cəmiyyəti adlandırırlar. Başqa sözlə desək, informasiya cəmiyyəti - informasiya və biliklərin əsas maddi sərvətə çevrildiyi bir cəmiyyətdir. Bu cəmiyyət sivilizasiyanın inkişafının hazırkı mərhələsi hesab olunur. BMT Baş Assambleyasının 27 mart 2006-cı il tarixli qərarı ilə hər il may ayının 17 –nin Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü kimi qeyd edilməsi İKT vasitələrinin dünya ölkələrində mühim rola malik olduğunu bir daha sübut edir.

XXI əsr həm intellekt, həm də informasiya - kommunikasiya texnologiyaları əsridir. Sabahımız, gələcəyimiz olan şagirdlərimizin XXI əsrin standartlarına cavab verməsi üçün ümumtəhsil müəssisələrində dərslər yeni təlim texnologiyalarının tətbiqi ilə təşkil olunmalıdır. Fənn kurikulumlarının, pedaqoji texnologiyaların – elektron dərsliklərin, multimediya texnologiyalarının, İKT-nin tətbiqi, innovativ metodların genişləndirilməsi günümüzün əsas tələblərindəndir. Müasir dövrümüzdə biologiya elminin məzmununu şagirdlərə dərindən öyrətmək, canlı təbiətdə cərəyan edən hadisə, proses və qanunauyğunluqların mahiyyətini onlara daha yaxşı başa salmaq, eləcə də bu fənnin tərbiyəedici və inkişafetdirici rolunu düzgün aşılamaq və yeni elmi dünyagörüşü formalaşdırmaq baxımından interaktiv təlim metodlarına keçid etmək daha məqsədyönlüdür.

İnformasiya cəmiyyətində təhsilin çeviklik, modulluq, paralellik, əhatəlilik, qənaətcillik, texnolojilik, sosial bərabərlik, beynəlmiləlçilik kimi xarakterik xüsusiyyətləri vardır. İnformasiya - kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar olaraq informasiya cəmiyyətində mövcud biliklər sürətlə köhnəlir və yeniləri ilə əvəz olunur. Bu cəmiyyətdə müəllimlərin bilik inhisarçılığına son qoyulur və kompüter, internet onların daşıdıqları ənənəvi funksiyaların bir hissəsini öz üzərinə götürür. Müəllim isə daha çox, koordinator, nəzarətçi rolunda çıxış etməyə başlayır. Buna görə də istər biz müəllimlər, istərsə də şagirdlər müstəqil şəkildə daim öz biliklərimizi artırmağı, yenilikləri çevik şəkildə mənimsəməyi, özümüzü təkmilləşdirməyi bacarmalıyıq. İnformasiya cəmiyyətinin əsas xüsusiyyətləri dedikdə aşağıdakı əlamətlər nəzərdə tutulur.




Müasir dövrümüzün tələblərindən biri məhz ümumtəhsil məktəblərində dərslərin təlimin texniki vasitələrindən olan İKT avadanlıqlarının tətbiqi ilə təşkil olunmasıdır. İKT avadanlıqlarının xüsusilə, biologiya dərslərində tətbiqi əyaniliyi və təlim prosesində rəngarəngliliyi, canlılığı, dinamikliliyi artırır, mənimsəməni yüksəldir, şagirdlərin bilik qazanmasını asanlaşdırır. Ümumtəhsil məktəblərində biologiya dərslərinin informasiya texnologiyalarının tətbiqi ilə tədrisi müəllim və şagird fəaliyyətini sürətləndirir, fənnin tədrisinin keyfiyyətini yüksəldir, bioloji obyektlərin əsas cəhətlərini nümayiş etdirərək ön plana çəkir, eyni zamanda məktəblilərin psixi fəaliyyətini gücləndirir. Biologiya dərslərində informasiya texnologiyalarından istifadə etmək eyni zamanda zehnin inkişafına kömək edir, məntiqi, yaradıcı təfəkkürün formalaşmasında, mühakimə və dərketmə qabiliyyətinin yüksəldilməsində mühüm rol oynayır. Müasir dövrümüzü elmi – texniki tərəqqinin son nailiyyəti hesab edilən İKT-siz təsəvvür etmək qeyri – mümkündür. Cəmiyyətin bir çox sahələri kimi təhsil sistemi qarşısında yeni sosial məsələlər durduğu müasir şəraitdə biologiyanın tədrisi sosial – iqtisadi və elmi – texniki tərəqqinin tələblərinə cavab verməlidir. Təlim prosesinin səmərəliləşdirilməsi, onun məhsuldarlığının yüksəldilməsi, optimal həcminin təmin olunması və pedaqoji idarəetmənin keyfiyyətinin artırılması yolu ilə elmi informasiyanın mənimsənilməsi imkanlarını genişləndirir. [1]

İnternet resurslarından tədris prosesinin maraqlı və əyləncəli istiqamətlənməsində istifadə etmək olar. Məsələn, biologiyadan müxtəlif mövzuların tədrisində həmin mövzu ilə bağlı, lakin dərslikdə olmayan, eləcə də şagirdlərin böyük marağına səbəb olan kiçik mətnlərdən istifadə olunması dərsin daha da ahəngdar olmasını təmin edir. Eləcə də dərslikdəki mövzuların sənaye və tibbdə əhəmiyyətini ön plana çəkən suallar tərtib etməklə şagirdlərdə həm mövzuya maraq oyatmaq, həm də həyati bacarıqları formalaşdırmaq olar. Müasir pedaqoji texnologiyaların tətbiq olunduğu biologiya dərsləri şagirdlərin diqqətini daha çox çəkir və onları təlimə həvəsləndirir. Təlim prosesində İKT-dən istifadə zamanı biologiya müəllimi fasilitator qismində çıxış edərək bir növ şagirdlərlə daha çox əməkdaşlıq etməklə müvafiq bioloji məlumatların şagirdlər tərəfindən müstəqil əldə edilməsinə şərait yaratmış olur.

Bu baxımdan son illərdə Azərbaycan Respublikasında İnformasiya Kommunikasiya Texnologiyalarının inkişafı sahəsində uğurlu addımlar atılır. Təsadüfi deyildir ki, 2003-cü ildə əbədi liderimiz Heydər Əliyev tərəfindən imzalanmış “Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya“ (2003-2012-ci illər) yaxın 10 il üçün İKT üzrə dövlət siyasətinin təməl prinsiplərini müəyyən etmiş və hazırda Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab prezidentimiz İlham Əliyevin qərarı ilə orta ümumtəhsil məktəbləri üçün, digər fənlər kimi, biologiya fənninin bütün kursları üzrə elektron dərsliklər hazırlanmış və istifadəyə verilmişdir. Respublikanın məktəblərində kompüter zallarının yaradılması və internet şəbəkəsi-

nin olması biologiya fənninin tədrisinin keyfiyyətini nəzərə çarpacaq dərəcədə yüksəltmişdir.

Ümumtəhsil məktəblərinin VIII-IX siniflərində biologiyanın tədrisində İKT-dən istifadə son dərəcə müasir, həm də aktual bir problemdir. B.V.Tayler "Kurikulum və təlimin əsas prinsipləri" əsərində təhsilin müxtəlif mərhələlərinə müvafiq olaraq təlim nəticələrinin müəyyən edilməsi, onların əsasında təlimin təşkili yolları və əldə edilmiş nəticələrin qiymətləndirilmə sistemini yaratmışdır. Nəzəriyyəçi alim təlim nəticələrinin aşağıdakı 4 əsas xüsusiyyətini vermişdir:

1) İdrak fəallığını inkişaf etdirən təlim nəticələri

2) Tədqiqatçılıq bacarığını inkişaf etdirən təlim nəticələri

3) Sosial vərdişləri inkişaf etdirən təlim nəticələri

4) Şagird marağını düzgün inkişaf etdirən təlim nəticələri

Təlim nəticələrini göstərən bu 4 xüsusiyyət İKT-nin biologiya dərslərində tətbiqi zamanı müəllim qarşısında duran əsas təlim məqsədləri kimi qəbul edilə bilər. İKT-nin biologiyanın tədrisində istifadəsi Blum taksonomiyasının bilik, anlama, tətbiq, təhlil, sintez, dəyərləndirmə kimi mərhələləri üzrə işin təşkilinə imkan verir. İKT bu kimi bacarıqların şagird fəaliyyətləri şəklində sinifə gətirilməsi üçün ən uyğun vasitədir.

İKT-nin geniş imkanları sayəsində idrak fəaliyyətinin hər üç – induktiv, deduktiv və məntiqi düşünmə mərhələlərində şagirdlər üçün problemin həll edilməsi daha da asanlaşır. Şagirdlər İKT vasitəsilə sinif otağında birbaşa məlumat mənbəyinə qoşularaq ən son bioloji informasiyaları əldə etmək imkanı qazanırlar. İKT müxtəlif bioloji informasiyaların toplanmasında ən yararlı vasitə və müvafiq problemin həllinin təşkili üçün çoxsaylı proqramlar mənbəyi olmaqla idrak prosesində çox mühim rola malikdir. İKT-dən istifadə bir növ şagirdlər arasında əməkdaşlığın yaranmasına və istifadə nəticəsində əldə edilmiş məlumatların müxtəlif fikir və fərziyyələrin, ideyaların irəli sürülməsinə də müsbət təsir göstərir. Ümumiyyətlə, biologiya dərslərinə məhz İKT-nin tətbiqi idrak prosesinin hər 3 mərhələsində şagirdlər üçün problemin həll edilməsini daha da asanlaşdırır, şagird fəaliyyətinin daha da məhsuldar şəkildə ifadə olunmasına təkan verir.

İnteraktiv təlimlə həyata keçirilən biologiya dərslərində əsas öhdəlik müəllimin üzərinə düşür. Müəllim hər şeydən əvvəl öz kreativliyi ilə seçilməlidir. Xalqımızın xoşbəxt gələcəyini təmin edən, ən əsası da, XXI əsrin standartlarına cavab verən, layiqli şəxsiyyətlərin yetişdirilməsi üçün yaradıcı, XXI əsrin tələblərinə uyğun pedaqoji kadrların olması zəruri şərtlərdən biridir. Çünki müasir təlimin düzgün və səmərəli təşkili nəticəsində şagirdlərdə özünü inkişaf qabiliyyətləri formalaşır.

**Problemin aktuallığı.** Ümumtəhsil məktəblərində biologiyanın tədrisinin interaktiv iş texnikalarının tətbiqi ilə tədrisi təlim prosesinin səmərəliliyini artırmaqla, onu hər bir şagird üçün daha əhəmiyyətli fəaliyyət sahəsinə çevirir. İnformasiya kommunikasiya texnologiyalarının tətbiqi zamanı şagirdlərdə psixi xüsusiyyətlər, yəni duyğu, qavrama qabiliyyəti, xarakter, eləcə də onların tədris prosesinə meyl və maraqları inkişaf edir.

**Problemin elmi yeniliyi.** Məqalədə ümumtəhsil məktəblərində biologiyanın tədrisində İKT vasitələrindən istifadə probleminə həsr olunmuşdur. Biologiyanın tədrisində tətbiq edilən informasiya kommunikasiya texnologiyalarının geniş imkanları hesabına idraki fəaliyyətin hər üç mərhələsində şagirdlər üçün problemin həll edilməsi daha da asanlaşır. İKT-nin Microsoft Word, Power Point, Microsoft Office Publisher, İnternet Eksplorer və digər proqramlarının imkanları idraki fəaliyyətlərin təşkil edilməsində, məqsədəuyğun tapşırıqların yerinə yetirilməsində əhəmiyyətli hesab edilir. Problemin həll edilməsində idraki bacarıqların formalaşmasını təmin edən mənbələrin olması təlimin təşkilində mühüm amil kimi dəyərləndirilir.

**Problemin praktik əhəmiyyəti.** Məhz İKT – nin biologiya dərslərinə tətbiqi nəticəsində təhsilalan şəxslər qısa müddət ərzində daha çox informasiya mənimsəməklə öz intellektual səviyyələrini dəfələrlə artırmış olurlar. Biologiya fənninin tədrisində İKT – nin tətbiqi sayəsində şagirdlərdə bioloji informasiyaları müstəqil əldə etməklə yanaşı, eyni zamanda onları analiz etmək, ötürmək kimi qabiliyyətlər də formalaşır. Bu isə millətimizin sabahı adlandırdığımız gənc nəslimizin gələcəkdə informasiya cəmiyyətinin qiymətli üzvlərinə çevrilməsinə imkan yaradacaqdır.

**Ədəbiyyat:**

1. Əhmədov A., Abbasov Ə., Kurikulumların hazırlanması və tətbiqi məsələləri Bakı: Kövsər", 2008, 224 s.
2. Gülşən Nadir qızı Hacıyeva. Biologiyanın tədrisi metodikasından mühazirələr: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2016, 304 s.
3. Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı: Çaşıoğlu, 2014, 212 s.
4. Kərimov Y.Ş. Təlim metodları: Bakı, 2009, 279 s.

**E-mail**: ismayilova08@gmail.com

**Rəyçilər:** *biol.ü.elm.dok., prof*. **R.L. Sultanov,**
*aqr.ü.fəls.dok., dos.* **X.H. Sultanlı**

**Redaksiyaya daxil olub: 26.02.2020.**

UOT 372.857

***Gülnarə Xuduş qızı Quliyeva***
*Bakı şəhəri, Nəsimi rayonu*
*240 nömrəli məktəbin biologiya müəllimi*

# BİOLOGİYANIN TƏDRİSİNDƏ KARUSEL ÜSULUNDAN İSTİFADƏ

***Гюльнара Худуш гызы Гулиева***
*учитель биологии, школы № 240*
*Насиминского района города Баку*

# ИСПОЛЬЗОВАНИЕ МЕТОДА КАРУСЕЛИ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

***Gulnara Khudush Guliyeva***
*the teacher of biology at school № 240*
*of Nasimi district of Baku city*

# USING THE CAROUSEL METHOD IN TEACHING OF BIOLOGY

**Xülasə.** Məqalə ümumtəhsil məktəblərində biologiyanın tədrisində Karusel üsulunun tətbiqinə həsr olunub. Göstərilmişdir ki, üsulun tətbiqi şagirdlərin passivliyinin aradan qaldırılmasında, təfəkkürün inkişafında, təlimin keyfiyyətinin yüksəldilməsində böyük rolu vardır. Dərs prosesi zamanı bu metodun səmərəli istifadənin yolları, üsulları verilmiş və nəticələr təqdim olunmuşdur.

***Açar sözlər:*** *karusel üsulu, idraki fəaliyyət, biologiya, fəal dərs, flipçart, qrup, rəngli qələm*

**Резюме.** Статья была посвящена методу Карусели в процессе преподавания биологии в общеобразовательных школах. Было указано, что применение данного метода играет большую роль в снятии пассивности, развитии мышления, повышении качества обучения учащихся. Во время процесса урока были указаны пути, методы эффективного использования этого метода и представлены результаты.

***Ключевые слова:*** *метод карусели, интеллектуальная деятельность, биология, активный урок, флипчарт, группа, цветная ручка*

**Summary**: The article deals with application of the Carousel method in teaching of biology in general education schools. It has been shown that, application of this method plays a major role in eliminating passivity of students, developing their thinking and improving the quality of education. Effective ways, techniques of use of this method were shown and results were presented during the lesson process.

***Key words***: *carousel method, cognitive activity, biology, active lesson, flipchart, group, colored pencil*

Hazırkı dövrdə təlim prosesi aktiv və ya interaktiv təlim metodlarından istifadə edilməsini tələb edir. İnteraktiv təlimin şagirdlərin intellektual, mənəvi cəhətdən inkişaf etdirilməsində xüsusi yeri vardır. Aktiv təlim metodları "müəllim – şagird - şagird" qarşılıqlı əlaqə sxeminə əsaslanır. Adından aydın olur ki, bunlar müəllim və şagirdlərin tədris prosesində bərabər iştirakını şərtləndirən metodlardır. Yəni, uşaqlar dərsin bərabər iştirakçıları və yaradıcıları kimi çıxış edirlər. Qarşılıqlı əlaqə birbaşa şəxsiyyətlərarası əlaqə, ünsiyyət kimi başa düşülür. Qarşılıqlı əlaqənin ən vacib xüsusiyyəti, insanın digərinin rolunu qəbul etməsi və anlaması, rabitə ortağının və ya qrupun bunu necə qəbul etdiyini düşünən və buna görə öz hərəkətlərini planlaşdıran olmasıdır.

İnteraktiv metodları aktuallaşdıran bir sıra tələblər var:

1. İnsanların bazar iqtisadiyyatı cəmiyyətində yaşaması və hər kəsin özünün bu cəmiyyətdə yaşaya bilməsi üçün hazırlanması zərurəti;

2. Uşaqların 20-30 il əvvəlki zamana görə dünyagörüşünün, sosial, texniki məlumatlılıq səviyyəsinin yüksək olması;

3. Deməli, çevik, düşündürücü idrak fəallığını doğurmayan metodlar uşaqların marağını təmin etmir, onları canlandırmır, fəaliyyətə qoşmur. (1)

Yaradıcı müəllim yalnız mövzu ilə bağlı biliklərə sahib olmamalı, eyni zamanda interaktiv təlim metodları ilə işləmək üçün iş formalarını müəyyən edilməsini, fəal dərsin mərhələlərini, fəal dərsin strukturunu nəzərə almalıdır. Müəllim dərsin hansı mərhələsində hansı üsuldan istifadə edəcəyini bilməlidir.

Təcrübəmdə müxtəlif interaktiv metodlardan istifadə edirəm: “Akvarium”, “Ziqzaq”, “Qərarlar ağacı”, “Karusel” və s. Şagirdlər bu cür dərslərə maraq göstərirlər. Biologiya dərslərində xüsusən də Karusel üsulunun tətbiqi şagirdlərin bilik və bacarıqların formalaşması üçün çox faydalıdır. Bu üsulun tətbiqi dərsin tədqiqatın aparılması mərhələsinin təşkili üçün əlverişli üsullardan biridir. Bütün dərsi əhatə edir.

Karusel başqaları ilə işləmək, düşünmək, qərar qəbul etmək kimi özündə cəmləşdirən ortaq bir öyrənmə strategiyasıdır. Üsuldan istifadə qaydası aşağıda ətraflı qeyd olunmuşdur:

1. Mövzuya dair 4 və s. açıq sual və ya tapşırıq seçilir.
2. Şagirdlər kiçik qruplara bölünür. Qrupların sayı qədər sual yazılmış flipçart hazırlanır.
3. Hər qrupa bir flipçart və ya A3 ölçülü bir kağızda fərqli suallar yazılır.
4. Hər bir qrupa bir suala cavab yazmaq tapşırığı verilir.
5. Hər bir qrupun cavabını asanlıqla fərqləndirmək üçün müxtəlif rəngli qələm verilir.
6. Tapşırıq üçün vaxt təyin edilir (5 dəqiqə).
7. Vaxt bitdikdən sonra hər qrup öz flipçartını yanındakı (saat əqrəbi istiqamətində) qrupa ötürür.
8. Hər qrup öz flipçartında olan yazıları nəzərdən keçirir və öz əlavələrini edir.
9. Bu proses bütün qrupların bütün variantlara baxması ilə bitir. Sonda kağızlar öz qrupuna qayıdır.
10. Flipçartlar yazı lövhəsinə yapışdırılır və onların müzakirəsi başlanır. Cavablar ümumiləşdirilir.



**Şək. Karusel üsulu.**

Karusel üsulu müəllim – şagird - şagird əməkdaşlığını reallaşdırır, onları konstruktiv qarşılıqlı hərəkətə cəlb edir, dərsdə xoş ab-hava yaradır. Hər bir fəal müəllim mövzunun praktikliyini, inteqrasiyanı, hər bir şagirdin marağını, bilik və bacarıq səviyyəsini, psixoloji xüsusiyyətləri nəzərə almalı, prosesin təşkilinə yaradıcı yanaşmalıdır. Qeyd edək ki, vaxt çatışmazlığı, mövzu ilə bağlı məlumat çoxluğu və ya azlığı, sualların aydın olmaması, şagirdlərin fərdi keyfiyyətləri, zəif təşkilatçılıq üsulun tətbiqi zamanı yarana biləcək problemlərdir.

Karusel üsulunun tətbiqi zamanı vacib məsələlərdən biri: suallar və ya tapşırıqlar mövzunu əhatəli tədrisinə imkan verməlidir.

Biologiya 6-cı sinif dərsliyində “Gövdənin daxili quruluşu” mövzusunun tədrisində aşağıdakı sualları nümunə olaraq göstərmək olar:(2)

- Gövdənin daxili quruluşunu sxem şəklində göstərin.
- Qabıq hansı hissələrdən təşkil olunmuşdur?
- Dəricik və mantarı müqayisə edin.
- İllik halqalar harada və necə yaranır?
- Gövdənin əsas hissəsini nə təşkil edir?
- Özəyin gövdənin mərkəzi hissəyə aid edilməsinin səbəblərini izah edin.

“Balıqlar” mövzusu öyrənilərkən aşağıdakı suallara istinad etmək olar: (3)

- Balıqların soyuqqanlı olmaları nə ilə izah oluna bilər?
- Balığın yaşını necə təyin etmək olar?

- Balıqların birinin cüt üzgəcləri, digərinin tək üzgəcləri zədələnərsə, onların həyat fəaliyyətində hansı dəyişiklikləri müşahidə etmək olar?

- Üzvə qovuğu olmasa nə baş verər?

- Balıqların skeleti hansı sümüklərdən ibarətdir?

- Balığın qan-damar sisteminin quruluşu necədir?

- Qəlsəmə hansı hissələrdən təşkil olunub?

- Balıqlar necə qidalanır?

- Balıqların beyin şöbələri hər biri ayrılıqda zədələnsə nə baş verər?

"Bədənimizin dirəkləri" mövzusunun tədrisində aşağıdakı suallar tətbiq oluna bilər:(4)

- Sümük toxumasının quruluşunu ətraflı təsvir edin.

- Sümüyün tərkibində mineral maddələr çatışmasa nə baş verə bilər?

- Siz hansı sümük növlərini bilirsiniz?

- Hansı səbəblərə görə sümüklər uzununa və eninə böyüyür?

- İnsan skeleti hansı şöbələrdən təşkil olunmuşdur?

- Kəllə skeleti hansı şöbələrdən ibarətdir?

- Gövdənin skeleti hansı sümüklərdən ibarətdir?

- Ətrafların skeleti hansı sümüklərdən ibarətdir?

"Yaşamaq uğrunda mübarizə" mövzusunun tədrisinə dair aşağıdakı suallardan istifadə etmək olar:(5)

- Yaşamaq uğrunda mübarizə nə zaman meydana çıxır?

- Növdaxili mübarizə daha kəskin şəkildə gedir. Bu nə üçün belədir?

- Növlərarası mübarizə nə zaman kəskinləşə bilər?

- Mühitin əlverişsiz təsirinə qarşı bitki və heyvanlarda hansı uyğunlaşmalar yaranır?

- Növdaxili mübarizə ilə növlərarası mübarizənin hansı oxşar və fərqli cəhətləri var?

"Təkamülün istiqamətləri və yolları" mövzusunun tədrisində aşağıdakı sualları qoymaq olar:(6)

- Təkamülün bioloji tərəqqiyə aparan hansı yolları vardır?

- Aramarfoz nədir? Misallar əsasında izah edin.

- İdioadaptasiyalar olmasaydı nə baş verərdi?

- Degenerasiyaya parazit həyat tərzi keçirən orqanizmlərdə daha çox rast gəlmə səbəblərini izah edin.

- Canlıların təkamülündə təkamülə aparan yollardan hansına daha çox rast gəlinir?

"Seleksiyanın metodları" mövzusunun tədrisində aşağıdakı suallar tətbiq oluna bilər:(7)

- Hansı hallarda kütləvi və fərdi seçmə tətbiq edilir?

- Poliploidlik nədir və ondan hansı məqsədlə istifadə edilir?

- Seçmə nə zaman effektli olar?

- Qohum olmayan çarpazlaşdırma zamanı hansı hallarda döllü, hansında dölsüz nəsillər alınır?

- Qohum və qohum olmayan çarpazlaşdırma tipləri bir-birindən nə ilə fərqlənir?

- Seleksiyada məhsuldarlığın artırılması üçün hansı üsullardan istifadə edilir?

Biologiyanın tədrisində Karusel üsulunun tətbiqi imkan verir ki, şagirdlər:

– Biliyi qavrama prosesini daha anlaşıqlı etsinlər;

– Öz fikrini formalaşdırmağı, onu düzgün ifadə etməyi, öz nöqteyi-nəzəri əsaslandırmağı, müzakirələşdirməyi və sübut etməyi öyrənirlər;

– Digərini eşitməyi, dinləməyi, alternativ fikrə hörmət etməyi öyrənirlər;

– Müxtəlif sosial vəziyyətləri modelləşdirməyi, müxtəlif həyatı vəziyyətlərə qoşulmaqla və bu həyatı duymaqla öz sosial təcrübələrini zənginləşdirirlər;

– Qrupda konstruktiv münasibətlər qurmağı, burada öz yerini müəyyənləşdirməyi, konfliktlərdən qaçmağı, onları həll etməyi, kompromis axtarmağı, dialoqa səy etməyi öyrənirlər;

– Təlim materiallarını təhlil edir, onlara yaradıcı yanaşırlar;

– Problemin ümumi həllini tapırlar;

–Birgə iş fəaliyyətinə, müstəqil işləməyə, yaradıcı işlər görməyə alışırlar və s. (1, s.36 )

Beləliklə, biologiya dərslərində Karusel üsulunun tətbiqi şagirdlərin passivliyinin aradan qaldırılmasına, təfəkkürün inkişafına, təlimin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır. Lakin, davamlı olaraq eyni interaktiv təlim metodlarından istifadə etmək onun təsirini azalda bilər. Hər bir müəllim qarşıya qoyulmuş məqsəd və şəraitindən asılı olaraq fəal təlim üsullarından düzgün istifadə etdikdə nəticələr uğurlu alınır.

**Problemin aktuallığı.** Fəal təlim prosesində dərsin maraqlı təşkili, qrupda konstruktiv münasibətlər qurmağı, qavrama prosesini daha anlaşıqlı etmək məqsədilə Karusel üsulundan istifadə edilməsinə böyük tələbat vardır.

**Problemin elmi yeniliyi.** Məqalədə tam orta məktəb biologiya kursunda Karusel üsulunun tətbiqi araşdırılır və təklif olunan metodikanın səmərəli vasitəsi olduğu göstərilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə təklif olunan metodika tam orta məktəblərdə biologiya kursunu tədris edən müəllimlər üçün faydalı praktik material ola bilər.

**Ədəbiyyat:**


1. Nəzərov A. Müasir təlim texnologiyaları. Bakı, 2012.
2. Seyidli Y.M., Əhmədbəyli X.E., Əliyeva N.J. Biologiya: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2013.
3. Seyidli Y.M., Əhmədbəyli X.E., Əliyeva N.J. Biologiya: Ümumtəhsil məktəblərinin 7-cı sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2014.
4. Məmmədova N.Ə., Həsənova B.S., Fətəliyeva L.F. Biologiya: Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2015.
5. Seyidli Y.M., Əhmədbəyli X.E., Əliyeva N.J. Biologiya: Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2016.
6. Məmmədova N.Ə., Həsənova B.S., Mahmudova K.F., Fətəliyeva L.F. Biologiya: Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2017.
7. Məmmədova N.Ə., Həsənova B.S., Mahmudova K.F., Fətəliyeva L.F. Biologiya: Ümumtəhsil məktəblərinin 11-cu sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2018.
8. Bayramova L. Kurikulum və pedaqogika. Bakı, 2019
9. https://shelleygrayteaching.com/carousel/
10. https://www.youtube.com/watch?v=zZxaS7v1-jo
11. https://www.readingquest.org/carousel.html


**E-mail:** glnar.quliyeva@inbox.ru

**Rəyçilər:** *dos.* **S.A. Ələkbərova**
*dos.* **G.N. Hacıyeva**

**Redaksiyaya daxil olub: 16.01.2020.**

# *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*

UOT 372.881.111.1

***Fəridə Şahlar qızı Şükürova***
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*

## İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ OYUNLAR VƏ ONLARIN TƏSNİFATI

***Фарида Шахлар гызы Шукюрова***
*старший преподаватель Азербайджанского Университета Языков*

## ИГРЫ И ИХ КЛАССИФИКАЦИЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ АНГЛИЙСКОМУ ЯЗЫКУ

***Farida Shahlar Shukurova***
*senior teacher at Azerbaijan University of Languages*

## GAMES AND THEIR CLASSIFICATION IN ENGLISH LANGUAGE TEACHING

**Xülasə.** Məqalədə oyunların faydası, ingilis dilinin tədrisi zamanı tələbələrə, gələcəyin müəllimlərinə oyun - tapşırıqlar vasitəsilə tədrisin həyata keçirilməsi nümunələri və oyun tapşırıqların təsnifatı verilir, oynayaraq öyrənmək yorucu deyil, bir zövqdür, təlimin asanlaşdırılmasıdır, fikri vurğulanır. Tələbələrdə kommunikativ bacarıqların yaradılması, formalaşdırılması və inkişaf etdirilməsinin çevik vasitələrlə həyata keçirilməli olduğuna diqqət çəkilir. Bu məqsədlə tələbələrlə iş prosesində oyun-tapşırıqların xüsusi rolu qeyd olunur. Oyun - tapşırıqların tətbiqi sayəsində auditoriyada passiv tələbə qalmır, hamı həvəslənir, fəal iştirakçıya çevrilir, oynayaraq öyrənmək mexanizminə, müəllimlik fəaliyyəti zamanı öyrənciləri ilə işləyə bilmək bacarıqlarına yiyələnirlər.

***Açar sözlər:*** *oyun - tapşırıq, öyrənmək, oynamaq, əylənmək, zövq, təsnifat*

**Резюме.** В статье подчеркивается польза игр в процессе обучения студентов, будущих педагогов, английскому языку. Приводятся примеры реализации и классификации игр, а также указывается на то, что процесс обучения посредством игр является совсем не скучным, а наоборот, интересным. Привлекает внимание мысль о том, что создание и развитие коммуникативных навыков у студентов должно быть активизировано посредством разнообразных действий. С этой целью подчеркивается роль игровых заданий в процессе работы со студентами. Благодаря игровым заданиям, все студенты являются активными участниками, вдохновлены, приобретая механизм обучения посредством игр и навык роботы со своими учениками в процессе обучения.

***Ключевые слова:*** *задание-игра, изучать, играть, развлекаться, удовольствие, классификация*

**Summary.** The article emphasises benefits of games in the process of teaching English to students, future teachers and provides examples of implementation, and classifications of games, and also shows that learning by playing is not boring, but a pleasure. Attention is drawn to the thought that creation, formation, and development of communicative skills of students should be done by means of flexible activities. The role of fun activities in the process of working with the students is highlighted for this purpose. Thanks to the use of game-tasks, there are no passive students in the classroom, all are encouraged, become active participants, acquire the mechanism of learning by playing, and skills of working with their learners in teaching process.

***Key words:*** *games, learn, play, having fun, pleasure, classification*

Xarici dillərin mükəmməl tədrisi günün tələbidir. Zaman və şərait müxtəlif dillərdə danışan, müxtəlif səviyyələrdə öz sözünü deyə bilən gənclərin formalaşmasının vacibliyini ön plana çəkir. Bunun üçün tələbələrdə kommunikativ bacarıqların yaradılması, formalaşdırılması, in-

kişaf etdirilməsi çevik vasitələrlə həyata keçirilməlidir.

Məlumdur ki, fəal təlim metodları, interaktiv təlim tələbələrin müstəqil, yaradıcı işləməyini, təşəbbüskar olmağını, liderlik qabiliyyətlərinin formalaşdırılmasını, müxalif fikrə hörmətlə yanaşmasını, ünsiyyətə girmə bacarıqlarını formalaşdırmağı qarşıya məqsəd kimi qoyur.

Bu məqsədlə tələbələrlə iş prosesində oyun-tapşırıqların xüsusi rolu var. Oyun – müəyyən olunmuş qaydalarla təşkil olunan uğur və ya uğursuzluq, qazanma və ya məğlub olma ilə müəyyən olunan fəaliyyətdir. İngilis dilində oyun üçün iki termin "game" və "play" istifadə olunur. Collins lüğətinə görə, "play" əyləncəni ifadə edir, "game" qaydalar əsasında təşkil olunmuş oyuna, funksiya və strategiyaya xidmət edir (3, s. 550) .

Jerom Brunerə görə, "oyun"/"game" :

- kəşf vasitəsidir;
- məmnunluq mənbəyidir;
- kəşflər üçün əlverişli sahədir;
- ideya və layihə məkanıdır (2, s. 24)

Vıqotskiyə görə, simvolik oyun koqnitiv, affektiv və sosial inkişafı yaxşılaşdırır. Bu oyun 3 komponentdən ibarətdir:

- oyunçular tərəfindən yaradılan xəyali situasiya;
- rolların qəbul edilməsi və interpretasiyası (ifa edilməsi);
- bu konkret rollara uyğun gələn qaydaların tətbiqi.

Simvolik oyun zamanı inkişaf uğurları, çəldlik, diqqət, simvollaşdırma, problemlərin həlli və s. məsələlər öz əksini tapır.

Piajenin fikrinə görə isə, oynamaq xarici aləmdən nümunələri götürmək və onları daxili aləm üçün istifadə etməkdir. Bu həm də, daxili dünyasını xarici aləmdə konkretləşdirmənin ifadəsidir.

Oyunların iştirakçısına çevrilən öyrənci öz dünyasını yaratmağa nail olur. Onun yaratmaq hissi var. O, dünyanı yaratmağa inanır, kəşf edir, onu proqressiv şəkildə reallığa qaytarmaq lazımdır. Oyun öyrənci fəaliyyətinin ayrılmaz tərkib hissəsi hesab olunur.

Jil Brujerə görə, oyunun 5 səciyyəvi xüsusiyyəti var:

Birinci xüsusiyyət bənzətmə ilə bağlıdır. Bənzətmə isə həmişə reallığın bir hissəsidir. Oyun bənzətmə, qeyri-ciddi bir əsas üzərində qurulur, lakin oyunçu bu hissəyə reallıqda olduğu qədər ciddi yanaşır.

İkinci xüsusiyyət oyunda iştiraketmə qərarıdır. Bu xüsusiyyət sərbəstlik fikri ilə bağlıdır və oyunda iştirak etmə qərarı sərbəstdir. Oyunda iştiraketmə sərbəstliyi öyrəncinin maraq dairəsindən, inamından, motivasiyasından, istiqamətləndirilməsindən çox asılıdır və dərsin məzmununa uyğun təşkil olunaraq onun səmərəli və tez mənimsənilməsinə zəmin yaradır.

Üçüncü səciyyəvi cəhət qaydadır. Bütün oyunlar qaydalarla idarə olunur və qərarlara təsir göstərir.

Dördüncü səciyyəvi cəhət sərbəstlikdir. Oyun əyləncə xarakteri daşıyır. Oyun sanki yeni təcrübələrə çağırışdır.

Beşinci cəhət isə, qeyri-müəyyənlikdir. Bu, oyunun sanki mühərrikidir. Oyun heç vaxt iki dəfə eyni nəticəni vermir. Oyunun necə keçəcəyini və nəticəsini əvvəlcədən müəyyən etmək olmur. (1, s. 122)

Hayde Silva oyunun 4 komponentini göstərir: oyun materialı, oyun strukturu, oyun konteksti, oyun mövqeyi. (5, s. 14-18)

Dil dərslərində dil bacarıqlarının və kommunikasiyanın inkişafı üçün hər şey vəsait kimi istifadə oluna bilər. Məsələn, mətnlər, şəkillər, audio və video materiallar, xəritələr, gündəlik əşyalar və s.

Oyun strukturu 4 qayda ilə şərtlənir:

1. Konstitutiv qaydalar - oyunun qurulması, yəni hər oyunun öz quruluşu;
2. Normativ qaydalar - qaydalara riayət etməyən, oyundan kənarlaşdırıla bilər;
3. Oyunçuların şəxsi istəklərinə uyğunlaşdırılmış qaydalar;
4. Ümumi, tarixi və mədəni qaydalar.

Oyun kontekstinə oyun materialları, oyunçular arasında münasibətlər, ümumi təhsil mühiti və s. daxildir. Oyun zamanı müəllim əlverişli əməkdaşlıq mühiti yaratmağı bacarmalıdır.

Materiallar, strukturlar və kontekst üzərində iş oyun mövqeyini yaradır. Oyun mövqeyi oyunçuların, əhval-ruhiyyəsi, özünə inamı ilə əlaqədardır. Bunu proqramlaşdırmaq və ya məcburi şəkildə yaratmaq mümkün deyil. Müəllim oyun mövqeyi və tələbələrə oyunda iştirak üçün motivasiya yaradılmasına çalışmalıdır.

Fransua Veis "Oynamaq, ünsiyyət qurmaq, öyrənmək" adlı əsərində oyun –tapşırıqların 9 növünü vermişdir:

1) Uyğunlaşdırma tapşırıqları - Bu oyun-tapşırıqlar sanki auditoriyada buzları əritməyə xidmət edir. Dil tədrisində başlanğıc mərhələdə psixoloji cəhətdən münasib mühit yaratmaq üçün istifadə olunan oyun-tapşırıqlardır. Yəni dostluq, tolerantlıq, qarşılıqlı hörmət mühiti yaratmaq, öyrənənlərin özlərini sərbəst hiss etmələrini təmin etməkdir. Nümunə olaraq tanış olmaq, özünü və ya kimi isə təqdim etmək, zövqlərdən, lehinə, əleyhinə olmaq, xoşlayıb-xoşlamamaqdan və s. bəhs edən oyun-tapşırıqları göstərmək olar.

THE FOUR CORNERS

TYPE OF GAME: in class

MATERIAL: large images

PLAYERS: the whole class

OBJECTIVE: To learn vocabulary / sentences

To improve listening and speaking skills

GAME :

The teacher places an image in each corner of the classroom. The children are in the middle. "It" (counter) counts to 10 while the children choose one of the 4 corners and go there. Then he draws from a pile of cards a small card corresponding to one of the pictures (the same picture or the corresponding word / phrase). Then the children ask him: "What do you want to eat?" and he answers what is on the map: I would like cereals, please. (or "nothing, thank you" if the card represents something to drink, in which case the children ask: What do you want to drink?). Children in the corner where there is the correct card are eliminated and have to sit down. We give a pledge to the children who remain standing, then continue the game. The winner is the one who remains standing last.

INSTRUCTIONS: We will play at the four corners. I will put an image in every corner of the classroom. Here I put "I would like a hot chocolate, please. "

Here, I put ... (Etc). Come in the middle. I count to ten and you choose a corner. I draw a card and you ask me, "What do you want to eat? And I say what's on the map. If it's a drink, then I say "nothing, thank you" and then you ask me "What do you want to drink? And I say what's on the map. Children in the corner of the image are eliminated and will sit down. The others have a pledge. Then we continue the game. The winner is the one who stays last.

Language used during the game: Come to the middle. Choose a corner. Ask a question. You are eliminated. Go and sit down. The others, you have a pledge. Well done you won. (5, 24)

2) Kommunikasiya situasiyaları. Bu oyun - tapşırıqların məqsədi kommunikativ səriştəliliyi təmin etməkdir. Bunun üçün tələbələr kommunikasiya situasiyalarını, şərtlərini, şəxsləri, mövzunu, yeri, zamanı və s. təhlil etməyi bacarmalıdırlar. Məsələn, Kim? Nə? Nə vaxt? Harada? Nə üçün?

3) Hərflər və sözlər. Bu oyunların məqsədi dil öyrənməyə marağı, məmnunluğu artırmaqdır. Orfoqrafiya, morfologiya və sözlərlə təşkil olunan oyunlar bu qəbildəndir. Əlifba və lüğət oyunları, yad ünsürləri seçmə və tapmacalar buna misaldır.

NEW APARTMENT

TYPE OF GAME: in class

PLAYERS: groups of 3 or 5

MATERIAL: drawing / cards / parts

OBJECTİF: use of vocabulary related to the apartment

language

GAME:

The teacher explains:

- Each group will draw a drawing / map of the pieces. And according to this map / drawing you will describe a piece ...

The winner is the group that has to furnish their room.

Vocabulary: the front door, an intercom, concierge / caretaker's lodge, the lift is down / not working, living room, the bedroom, the dining room, hallway, the bathroom, the kitchen, a sofa, armchairs, a table with six chairs, a leather chair, a large library, the electric radiator, a mattress, coverage, a top-of-bed, a pillow, the television, the radio, the trunk.

4)Suallar vermək. Bu oyun-tapşırığa problem həll etməyə, mətnlərin qurulmasına xidmət edən sualları cavablandırmağa təhrik edən suallar nəzərdə tutulur.

DESCRIBE IT

TYPES OF PLAY: in class

PLAYERS: the whole class

MATERIAL: slide projector

OBJECTIVE: to make students talk, description

GAME :

We show a picture / a painting / a portrait / an image

1. What can you say about this?
2. Who is this girl? Give description!
3. Where is the action?
4. What does this girl do after class?
5. Are there other characters? Give description!
6. Who are they?
7. What are they doing together?
8. Are they in a good mood?
9. Who is she talking about?
10. In which country does the action take place?
11. Give a title to this image.

NOTES: According to this example we can choose the subject (theme) we want.

5) Mimika, jest, dramatikləşmə və rollu oyunlar. Bu oyun - tapşırıqlar mümkün qədər təbii və spontan ünsiyyəti nəzərdə tutur. Bu oyun-tapşırıq vasitəsilə sadədən mürəkkəbə prinsipi ilə mövzulara müvafiq iş aparmaq tövsiyə olunur. Mimika, rollu oyunlar, konflikt yaradan situasiyalar, debatlar, spontan reaksiyalar və s. buna misaldır.

For ex, I am for the uniform and you?

6) Yaradıcılıq oyunları. Öyrənilmiş materialların yeni kontekstdə, tələbələrin təsəvvürlərinə uyğun işlədilməsi bu oyun-tapşırığı şərtləndirən cəhətlərdəndir. Hekayə qurmaq, sərbəst assosiasiyalar, kollektiv hekayə yaratmaq buna misal ola bilər.

Model: To spend the summer holidays our class will go to London.

Continue ...

7) Dincəlmə oyunları. Dincəlmək öyrənməyə mane olmur, bu oyunun devizi belədir. Tələbə oynadığından həzz alaraq, sevinərək oynayırsa, bu inkişafı təmin edən ən başlıca şərtlərdəndir.

GAME OF QUARTET

TYPE OF GAME: in class

PLAYERS: small groups of 2 to 5 students

MATERIAL: game cards

OBJECTİF: Reusing the structures of lessons

Answer the questions correctly.

GAME :

Complete the maximum of word families. Shuffle the cards. Distribute 8 cards to each player. Arrange the rest of the cards in front of the players. This will be the pickaxe. We draw lots to determine who will start. The first player asks for the card he wants to get from the player of his choice.

For ex: Where are you going?

2 possibilities :

1. If the opponent has a card from this family, he reads the underlined answer and gives him the card. The player can continue.
2. If the opponent does not have the card, the player can take from the heap.

Pickaxe:

- If the card drawn is the right one, he keeps it in his game.
- if the card drawn is not the good one, it keeps it in its

Game.

It is then up to the adversary, whom he questioned, to continue.

And so on …

Whoever at the end of the game has shot the most families is the

winner.

The 10 families each comprising 4 sentences including one

is underlined. The families can be :

- Where are you going ?
- Where do we meet ?
- What are they doing ?
- What shall we do now ?
- It is far from here ?
- What are you doing in Paris?
- What are you doing now ?
- What time is it ?
- What time do we meet ?

NOTES: We do not have to use the 10 families, we can use 5 or 6 families.

8) Yazılı tapşırıq oyunları. Ünsiyyət təkcə şifahi nitqdən ibarət deyil, oxumaq, yazmaq və dinləyib-anlamaq da kommunikasiyaya xidmət edir. Anons, afişa, dəvət, məktub, esse yazmaq və. s yazılı tapşırıq oyunlarına misaldır.

Write a postcard to your friend. Tell him about your holidays.

Write an e-mail to your friend about your school shopping.

Describe a philosophy: Every man for himself.

Project: Write an Essay on the topic "Is Friendship Important?

Work in a group. You want to go on a train trip. Make a project for the departure. To guide you use the following elements:

- Leave by plane, train, TGV, coach, bus, car.
- Have leaflets.
- Take information.
- Go to the station, to the airport, .
- Look for the ticket office.
- Take tickets

Yeni təlim texnologiyaları cütlər, böyük və kiçik qruplarla iş, rollu oyunlar, debatlar, işgüzar səs-küy və s. bu kimi variantları məqbul hesab edir.

Keçdiyi mövzuya uyğun hər hansı bir oyun-tapşırıqdan istifadə etmək üçün müəllim əvvəlcədən bu oyun-tapşırığa hazırlaşmalı, lazım olan materialları (kartları, şəkilləri və s.) əl qabiliyyəti olan tələbələrin köməyi ilə hazırlamalı və yaxud əvvəlcədən onların özlərinin hazırlaşmalarını tövsiyə etməlidir. (məs: "Siz hansı anqlofon ölkələri tanıyırsınız?", "Böyük dövlətlərin bayraqlarını, rəmzlərini bilirsinizmi?", "Dünya korifeylərindən, məşhur şəxsiyyətlərdən kimləri tanıyırsınız?" və s.)

Bu cür oyun-tapşırıqlar tələbələrin ingilis dilinə olan marağını artırır, ünsiyyətə girməyə, fikirlərini sərbəst ifadə edə bilməyə zəmin yaradır, onlarda tərəddüd hissini, hazırcavablıqla, cəldlik, çeviklik ilə əvəz edir və onlar yorulmadan, zövq alaraq, məmnunluq duyğusu ilə, asanlıqla ingilis dilini ünsiyyət dilinə çevirirlər.

Oyun-tapşırıqların üstünlüyü ondadır ki, bu zaman auditoriyada passiv tələbə qalmır, hamı həvəslənir, fəal iştirakçıya çevrilir, oynayaraq öyrənmək mexanizminə, müəllimlik fəaliyyəti zamanı öyrənciləri ilə işləyə bilmək bacarıqlarına yiyələnirlər.

**Problemin aktuallığı** onunla izah olunur ki, müasir dövrdə oyun tapşırıqların istifadəsi ingilis dili bacarıqlarının daha tez formalaşmasına xidmət edir.

**Problemin elmi yeniliyi** ingilis dilinin tədrisində oyun tapşırıqların səmərəli istifadəsinin araşdırılması ilə şərtlənir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, oyun tapşırıqlardan istifadə edərək ingilis dilində düzgün tələffüzü, kommunikasiya bacarıqlarını təkmilləşdirmək mümkün olacaq.

**Ədəbiyyat:**

1 **.** Bruner J. How children learn to speak, Paris: Retz, 1987, p 24
2. Brougère G, Playing Learn, Paris: Economica, Anthropos, 2005, p 122
3. French-English Dictionary, English-French, Glasgow, Collins, 2002, p550
4. Gulbeniz Mazahim kizi, Learn French through games-activities, Baku, 2005, p 24 (164p)
5. Silva H, The game in language class, CLE International, 2008, pp14-18

**E-mail:** shukurferide@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.* **G.X. Şirəliyeva,**
*filol.ü.fəls.dok.,* **G.S. Həsənova**

**Redaksiyaya daxil olub: 12.02.2020.**

# *HƏYAT BİLGİSİNİN TƏDRİSİ METODİKASI*

UOT 373.3/.5

***Qənirə Qəni qızı Nurullayeva***
*Bakı şəhəri İ. Əfəndiyev adına "Elitar" gimnaziyanın ibtidai sinif müəllimi*

## ŞAGİRDLƏRDƏ HƏYATİ BACARIQLARIN FORMALAŞDIRILMASINDA HƏYAT BİLGİSİ FƏNNİNİN ROLU

***Ганира Гани гызы Нуруллаева***
*учитель начальных классов «Элитарной» гимназии им. И. Эфендиева гор. Баку*

## РОЛЬ ПРЕДМЕТА ПОЗНАНИЕ МИРА В ФОРМИРОВАНИИ У УЧАЩИХСЯ ЖИЗНЕННЫХ НАВЫКОВ

***Ganira Gani Nurullayeva***
*teacher of primary school of Elitar" gymnasium named after I. Afandiyev" of Baku city*

## LIFE SCIENCE DISCIPLINES FORM VITAL SKILLS IN STUDENTS

**Xülasə:** Şagirdlərin hərtərəfli, sərbəst və yaradıcı inkişafı şəxsiyyətyönlü təlimdə əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Müəllim şagirdlərə müəyyən biliklər verməsi ilə bərabər həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığını aşılamalıdır. Müəllim və şagird təlim prosesində bərabərhüquqlu üzvlərdir və müəllim bələdçi rolu ilə şagirdlərdən fərqlənir. Sinifdə hər bir şagird özünü bərabərhüquqlu şəxsiyyət kimi dərk edir, yoldaşlarını şəxsiyyət kimi görür və özünə, onlara hörmət etməyə başlayır. Bu cür təlimdə şagirdlər qarşılıqlı hörmət, əməkdaşlıq mühitində fəaliyyət göstərirlər.
***Açar sözlər:*** *həyat bilgisi, bacarıq, mənəviyyat, yol hərəkəti qaydaları, ünsiyyət, əməkdaşlıq, inteqrativ fənn*

**Резюме:** Всестороннее, свободное и творческое развитие учащихся является основной целью личностно-ориентированного обучения. Учитель, наряду с предоставлением учащимся определенных знаний, должен научить их обучать и использовать полученную информацию. Учитель и ученик являются равноправными участниками в учебном процессе, а учитель отличается от ученика ролью наставника. В классе каждый ученик осознает себя равноправной личностью, видит и уважает товарищей как личность. В таком виде обучения учащиеся проявляют деятельность в атмосфере взаимного уважения и сотрудничества.
***Ключевые слова:*** *познание мира, умения, духовность, правила дорожного движения, общение, сотрудничество, интегрированный предмет*

**Summary:** Comprehensive, free, and creative development of students has been identified as the main goal of personalized learning. In addition to providing students with certain knowledge, a teacher should be able to teach them how to learn and use the information they receive. The teacher and the student are equal members in the learning process, and the teacher is different from the students in the role of mentor. In the classroom, every student recognizes himself as an equal person, sees his friends as individuals, and begins to respect himself and himself. In this kind of training, students work in an environment of mutual respect and cooperation.
***Key words:*** *Life Science, skills, spirituality, traffic Rules, communication, collaboration, integrated subjects*

Sürətli sosial-iqtisadi və elmi-texniki inkişaf bu gün təkcə ayrı-ayrı regionların simasını deyil, həm də xalqların əsrlər boyu formalaşmış ənənəvi həyat tərzini dəyişdirməkdədir. Coşqun

inkişaf dövrünə qədəm qoyan bir ölkə və özünəməxsus tarixi ənənələri olan bir xalq kimi bu prosesləri indi biz də yaşamaqdayıq. Qloballaşma, ölkələrarası iqtisadi rəqabət və daim yeniləşməkdə olan texnologiyalar get-gedə həyatımızın bütün sahələrinə daha geniş miqyasda təsir göstərir. Bu gün insanın həyatını normal səviyyədə təmin edə biləcək istənilən müasir peşə müxtəlif bilik, qabiliyyət və dəyərlərin inteqrasiyasını tələb edir.

Bir çox insan məktəbin son zəngdən sonra bitdiyini düşünür, amma əslində heç vaxt bitmir, çünki həyatın təməlini qoyur. Məktəbdə oxuyarkən baş verən hər şey, bir insanın öyrəndiyi hər şey uzun müddət onun yanında qalır. Məktəbin əslində nə öyrətdiyini öyrənməyi təklif edirik.

Zaman uşaqların gələcəyə - get-gedə mürəkkəbləşən cəmiyyətə hazırlığı ilə bağlı məsələlərə, xüsusən təhsil konsepsiyasına yeni nəzərlə baxmağı tələb edir. O da aydındır ki, ailənin, cəmiyyətin və dövlətin gələcəyə yönəlmiş bu sifarişini illər boyu formalaşmış ənənəvi fənyönlü təlim sistemi ilə yerinə yetirmək qeyri-mümkündür. İndi məktəbin əsas məqsədi şagirdlərin yaş və fərdi xüsusiyyətlərini, meyl və maraqlarını nəzərə almaqla əqli, əxlaqi, estetik və fiziki inkişafına kömək göstərmək və gündəlik həyatda rastlaşdıqları problemləri həll etmək üçün zəruri bacarıqlar formalaşdırmaqdır. Çünki yaşadığımız yüksək texnologiyalar əsrində biliklər sürətlə köhnəlir, bacarıqlar isə əhəmiyyətini itirmir.

İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, adi ünsiyyət yaratmaqdan tutmuş, kiçik iqtisadi layihələr qurub reallaşdırmağa qədər ən müxtəlif qabiliyyətləri özündə əks etdirən bu bacarıqlar mükəmməl bir sistemin tərkib hissələri olmalıdır. Belə sistemləri isə şagirdi sinifdə təlimin obyekti kimi yox, subyekti kimi qəbul edən şagirdyönlü təlim metodları və inteqrativ fənlərin köməyi ilə yaratmaq mümkündür. Ona görə də yerli və beynəlxalq təcrübələr nəzərə alınmaqla, "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nda bu vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayacaq yeni fənn – "Həyat bilgisi" fənni daxil edilmişdir. "Həyat bilgisi" fərdin özünü bioloji, psixoloji, sosial və mənəvi tərəfləri ilə bütöv bir varlıq kimi dərk etməsi və reallaşdırması üçün lazım olan bilik, bacarıq və dəyərlər sistemi formalaşdırmağa və onu təkmilləşdirməyə kömək edən inteqrativ fəndir.

Bu cür geniş əhatə dairəsinə malik olan fənn şagirdlərin həyati əhəmiyyət kəsb edən bilik, bacarıq və vərdişlər qazanması üçün onları ən zəruri praktik işlərin həyata keçirilməsinə istiqamətləndirir, milli və bəşəri dəyərlərə yiyələnmələrinə, şəxsiyyət kimi formalaşmalarına kömək edir. "Həyat bilgisi" fənninin şagirdlərdə ünsiyyət qurma və birlikdə çalışma kimi mənəvi dəyərlərin formalaşdırılmasında, onlarda mühakimə yürütmək, öz nöqteyi-nəzərlərini sərbəst ifadə etmək, onu arqumentləşdirmək, öz hüquqlarını qorumaq və başqalarının hüquqlarını müdafiə etmək vərdişlərinin yaranmasında mühüm rolu vardır.

Müəyyən olunmuş məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazı yaradılır. Onlar özlərini bu aləmin bir hissəsi kimi dərk edir, təbiətdə və cəmiyyətdə müşahidə etdikləri hadisələrdən, dəyişikliklərdən və bunlar arasındakı əlaqələrdən nəticələr çıxarır, araşdırmaq, təhlil etmək, proqnoz vermək, fikir və istəklərini başqalarına düzgün çatdırmaq bacarıqlarına yiyələnirlər.

İstehsal, istehlak, vergi, sığorta, ailə və dövlət büdcəsi haqqında bilgilərin sistemli şəkildə mənimsənilməsi nəticəsində şagirdlərin iqtisadi təfəkkürü formalaşır. Onlar resurslara qənaətlə yanaşmaq, kiçik iqtisadi layihələr qurub reallaşdırmaq, şəxsi və ailə büdcələrini idarə etmək bacarıqlarına yiyələnirlər.

Mənəviyyat, sağlamlıq *(fiziki, psixi və reproduktiv),* həyat fəaliyyətinin təhlükəsizliyi, fövqəladə hallarda mühafizə, vətəndaşlıq, insan hüquqları və azadlıqları, ekoloji tərbiyə məsələləri üzrə bilik və bacarıqlar isə şagirdlərdə ilk dəfə sistemli şəkildə formalaşdırılır.

Fənnin təlimində şagirdlərin təhsili, tərbiyəsi və inkişafı məsələləri üzvi surətdə əlaqələndirilir. Onlar "Həyat bilgisi"nin köməyi ilə əxlaqi yetkinlik, saflıq, düzlük, əqidəlilik, ədalətlilik, dözümlülük, tolerantlıq, izzəti-nəfs, özünə və başqalarına hörmət kimi yüksək mənəvi dəyərlərə yiyələnirlər.

Həyat bilgisi fənnindən bir dərs nümunəsi ilə fikirlərimi yekunlaşdırmaq istərdim:

*Standart: 2.1.2. Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.*

*Mövzu: Dövlət vahid siyasi təşkilatdır.*

*Məqsəd: Dövlət orqanlarını nümunələrlə izah edir.*

*Dövlət orqanlarının cəmiyyətin həyatını tənzimləməsini şərh edir.*

*İş forması: kollektiv, kiçik qruplarla iş.*

*İş üsulu: Müzakirə, Beyin həmləsi, Anlayışın çıxarılması.*

*Resurslar: Dərslik, iş vərəqləri, marker, yapışqanlı lent.*

*Dərsin gedişi:*

*Motivasiya:* Müəllim SÖS assosiasiyasından istifadə edərək şagirdlərdən gördükləri sözlərlə bağlı fərziyyələrini soruşur.




Şagirdlərin fərziyyələri dinlənilir. Müəllim yönəldici suallardan istifadə edərək fikirləri dövlət, dövlətçiliyimiz, dövlətin idarəedici orqanları anlayışlarında cəmləndirir.

*Tədqiqat sualı:* Dövlət cəmiyyətin - bizim həyatımızı necə tənzimləyir?

*Tədqiqatın aparılması:* Şagirdlər 4 qrupa ayrılır. Onlara iş vərəqləri paylanır.

*I qrupun iş vərəqi:* 3 dövlət orqanı müəyyənləşdirin. Onların funksiyalarını yazın:

| Dövlət orqanı | Yerinə yetirdiyi fəaliyyət |
|---|---|
| | |
| | |
| | |

*II qrupun iş vərəqi:* Öz yeni dövlətinizi yaradın. Onu adlandırın. Dövlətinizin qaydalarını tərtib edin.

| | |
|---|---|
| Dövlətin adı | |
| Dövlətin idarəetmə forması | |
| Dövlətin simvolu | |
| Dövlətin gerbi | |
| Dövlətin bayrağı | |
| Dövlətin qayda-qanunları | |

*III qrupun iş vərəqi:* Verilmiş dövlət orqanlarının obyektlərini, vəzifələrini müəyyənləşdirin. Bu dövlət orqanlarının nazirlərinin adını yazın.

| | | |
|---|---|---|
| Təhsil Nazirliyi | | |
| Fövqəladə Hallar Nazirliyi | | |
| Daxili İşlər Nazirliyi | | |

*IV qrupun iş vərəqi:* Azərbaycan Respublikasının qanunverici orqanını və onun funksiyalarını müəyyənləşdirin:

| Orqanın adı | Funksiyası |
|---|---|
| | |

*Məlumatın mübadiləsi və müzakirəsi:*

1. Dövlət orqanları nəyə lazımdır?
2. Dövlət orqanları olmasa nələr baş verər?
3. Dövlət cəmiyyətin həyatını idarə edir ya tənzimləyir?

*Nəticələrin çıxarılması və ümumiləşdirmə:* Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dövlət cəmiyyəti həm idarə edir, həm tənzimləyir. Dövlət cəmiyyəti idarə edən bir sistemdir .

*Ev tapşırığı:* Bir respublika, bir monarxiya, bir diktatura idarəetmə formalarına uyğun dövlət müəyyənləşdirin. Onları fərqləndirin.

**Problemin aktuallığı.** Fənnin təlimində şagirdlərin təhsili, tərbiyəsi və inkişafı məsələləri üzvi surətdə əlaqələndirilir. Onlar əxlaqi yetkinlik, saflıq, düzlük, əqidəlilik, ədalətlilik, dözümlülük, tolerantlıq, izzəti-nəfs, özünə və başqalarına hörmət kimi yüksək mənəvi dəyərlərə yiyələnirlər.

**Problemin elmi yeniliyi.** Başqa fənlərdən fərqli olaraq "Həyat bilgisi" fənni konkret bir elmin əsaslarını öyrətmir. Bu fənn ümumtəhsil məktəblərində tədris olunan təbiət və sosial fənn sahələrinə aid müəyyən elementləri əhatə edir.

**Problemin praktik əhəmiyyəti.** Mənəviyyat, sağlamlıq (fiziki, psixi və reproduktiv), həyat fəaliyyətinin təhlükəsizliyi, fövqəladə hallarda mühafizə, vətəndaşlıq, insan hüquqları və azadlıqları, ekoloji tərbiyə məsələləri üzrə bilik və bacarıqlar isə şagirdlərdə ilk dəfə sistemli şəkildə formalaşdırılır.

**Ədəbiyyat:**

1. Ümumi Təhsilin fənn standartları ( I-XI siniflər) Bakı: Mütərcim, 2012, 402 s.
2. Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014.
3. Veyisova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu, 2007, 156 s.
4. Abbasov Ə. Kurikulum islahatının əsas istiqamətləri // Azərbaycan məktəbi, 2011, № 4
5. Əhmədov A. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru // Kurikulum, 2008, № 1
6. Kərimov F., Əhmədova M., Varella G. və b. İnteqrativ kurikulum: mahiyyət və nümunələr. Bakı, 2006.

**E-mail:** nurullayeva@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.*, dos. **A.X. Hacıyev,**
*ped.ü.fəls.dok.* **Ə.Ə. Gərayev**

**Redaksiyaya daxil olub: 12.02.2020.**

## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 371

***İntiqam Hilal oğlu Cəbrayılov***
*pedaqogika üzrə elmlər doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri*

# NƏRİMAN NƏRİMANOV İRSİNİN TARİXİ-PEDAQOJİ DƏYƏR KİMİ BƏZİ ASPEKTLƏRİ

***Интигам Хилал оглу Джабраилов***
*доктор наук по педагогике*
*Заведующий отделом Теории и истории образования*
*Института Образования Азербайджанской Республики*

# НЕКОТОРЫЕ АСПЕКТЫ НАСЛЕДИЯ НАРИМАН НАРИМАНОВА КАК ИСТОРИКО-ПЕДАГОГИЧЕСКИЕ ЦЕННОСТИ

***Intigam Hilal Jabrayilov***
*doctor of sciences in pedagogy,*
*head of the department of theory and history of education*
*of the Institute of Education of the Republic of Azerbaijan*

# SOME ASPECTS OF THE HERITAGE OF NARIMAN NARIMANOV AS HISTORICAL AND PEDAGOGICAL VALUES

**Xülasə.** Məqalədə Nəriman Nərimanovun ictimai-siyasi xadim kimi tarixi xidmətlərindən bəhs edilir. Onun yaratdığı irs tarixi-pedaqoji dəyər kimi qiymətləndirilir. Qeyd olunur ki, N. Nərimanovun əsərlərində irəli sürülən ideyalar həm tarixi, həm də pedaqoji baxımdan mühüm əhəmiyyət kəsb edir. O, millətin həyatında milli özünüdərkin, milli dəyərlərin, dilin, məktəbin, ədəbiyyatın nə qədər vacib olduğunu əsaslandırmışdır. Təcrübə göstərir ki, bu ideyalar təhsilalanlarda vətəndaşlıq mövqeyinin, milli dəyərlərə, müstəqil Azərbaycan dövlətçiliyinə məhəbbət, vətənpərvərlik hissinin formalaşmasında mühüm rol oynayır.

Məqalədə göstərilir ki, N. Nərimanov irsinin elmi-pedaqoji baxımdan yeni yanaşmalar əsasında tədqiqi vacibdir.

***Açar sözlər:*** *Nəriman Nərimanov, şəxsiyyət, irs, tarixi-pedaqoji dəyər, cəmiyyət, millət, dövlət, təhsil, tərbiyə, fəaliyyət, din, Azərbaycan*

**Резюме.** В статье говорится об исторических заслугах Нариман Нариманова как общественно – политического деятеля. Наследие, созданное им, оценивается как историко-педагогическая ценность. Отмечается, что идеи, выдвинутые Н. Наримановым в его произведениях, представляют большую значимость с точки зрения истории и педагогики. Он обосновал важность национального самосознания, национальных ценностей, языка, школы, литературы в жизни народа. Практика показывает, что эти идеи играют важную роль в формировании позиции гражданства, любви национальным ценностям, Независимому Азербайджанскому Государству и чувства патриотизма.

В статье отмечается необходимость исследования наследия Н. Нариманова с позиции новых научно-педагогических подходов.

***Ключевые слова:*** *Нариман Нариманов, личность, наследие, историко-педагогическая ценность, общество, национальность, государство, образование, воспитание, деятельность, религия, Азербайджан*

**Summary.** The article discusses the historical services of Nariman Narimanov as a political and public figure. His heritage is evaluated as a historical and pedagogical value. It is noted that the ideas put

forward in N. Narimanov's works are of great historical and pedagogical importance. He substantiated the importance of national self-determination, national values, language, school, literature in the life of the nation. Experience shows that these ideas play an important role in the formation of students' civic position, love for national values, independent Azerbaijan statehood and patriotism.

The article notes that it is important to investigate N. Narimanov's legacy from a scientific and pedagogical perspective based on new approaches..

***Key words:*** *Nariman Narimanov, personality, heritage, historical and pedagogical value, society, nation, state, education, nurture, activity, religion, Azerbaijan.*

Hər bir xalqın tarixi keçmişi onun övladlarının həyat və fəaliyyətinin yadda qalan, silinməz izləri ilə, vətənə, millətə verdikləri töhfələrlə, işıqlı, nurlu əməllərilə müəyyən olunur. Məhz bu xidmətlər, bu əməllər nəticəsində xalq dəyərlər yaradır, dövlətçilik şüuru inkişaf edir, millət kimi formalaşır və beləliklə, nəsillər arasında milli varislik ənənələrinin qorunması ilə gələcəyin təməlləri də möhkəmlənir, milli mentalitetin cəmiyyətə təsir gücü getdikcə artmağa başlayır. Tarixi təcrübədən və elmi araşdırmalardan da aydındır ki, cəmiyyətin inkişafında onu təmsil edən hər bir sağlam düşüncəli insanın fəaliyyətindən bəhs etmək olar. Lakin elə insanlar, elə şəxsiyyətlər var ki, onların cəmiyyətdə, millətin həyatındakı rolu xüsusilə seçilir və belə şəxsiyyətlərin özü ilə bərabər onların yaratdıqları irs də tarixi, pedaqoji-mənəvi dəyər kimi tarixləşir, nəsildən-nəsilə ötürülür, əbədi olaraq yaddaşlarda qalır.

Belə şəxsiyyətlərdən biri də görkəmli ictimai-siyasi xadim, yazıçı, publisist, müəllim, həkim, filosof, rejissor, aktyor kim tarixdə iz qoyan Nəriman Nəcəf oğlu Nərimanovdur.

Nəriman Nərimanovun (1870-1925) həyat və fəaliyyətində ən başlıca amil xalqın milli şüurunun inkişafı, milli azadlıq ruhunun təntənəsi, Azərbaycan xalqının müstəqil dövlətçilik ənənələrinin yaşadılması, xalqımızın milli mədəniyyətinin inkişafı olmuşdur.

N. Nərimanovun irsinin öyrənilməsi həm tarixi, həm də pedaqoji baxımdan mühüm əhəmiyyət kəsb edir. Onun əsərlərində , o cümlədən "Ucqarlarda inqilabımızın tarixinə dair", "Hacı Zeynalabdin Tağıyevin 50 illiyi, məişətdə və cəmaətə xidmətləri" əsərləri, V.İ. Leninə (1870-1924), oğlu Nəcəfə (1919-1943) məktublarında əksini tapmış məsələlər ilk növbədə onun şəxsi keyfiyyətlərinin bir daha təsdiqlənməsi və dövrün mənzərəsinin müəyyənləşdirilməsi üçün üçün zəngin material verir. Onun əsərlərində XIX yüzilliyin sonu, XX əsrin əvvəllərində Rusiyada, Yaxın Şərqdə, Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər, Azərbaycan xalqının mədəni həyatının xüsusiyyətləri, maarifçilik məsələləri aydın görünür(1;2;3;4;5).

1920-ci əsrin birinci rübündə Azərbaycanda və regionda cərəyan edən hadisələr, bəzi qonşu dövlətlərin anti-Azərbaycan siyasəti, sosializm quruculuğu adı ilə Azərbaycanı simasızlaşdırmağa çalışan İ.V. Stalin, A. Mikoyan, Sərkis, Mirzoyan və başqalarının məkrli fəaliyyəti barədə N. Nərimanovun irsindən geniş məlumat əldə etmək mümkündür.

Məlumdur ki, "Ucqarlarda inqilabımızın tarixinə dair" əsəri N. Nərimanovun Mərkəzi Komitəyə, İ.V. Stalinə (surəti isə L.D. Trotskiyə və K.B. Radekə) ünvanlandığı tarixi sənəd - məktubdur. 1923-1924-cü illərdə (iyun 1923-may 1924-cü il) yazılmış bu əsərdə Şərq məsələsi, Sovet Rusiyasının Şərq siyasəti təhlil olunur və Azərbaycandakı mürəkkəb vəziyyət faktlarla izah edilir (1).

Nəriman Nərimanov yaxşı bilirdi ki, milli münasibətləri tənzimləmək ən həssas məsələlərdən biridir. Bu sahədə azacıq da olsa yanlış qərar vermək, yanlış addım atmaq olmaz. Ona görə də o, Sovet Rusiyasının Şərq siyasətinə tənqidi yanaşır, müsəlman xalqlarına hörmət etməyi, onlara "yuxarıdan aşağı" baxmamağı tövsiyə edirdi.

Tarixi mənbələr təsdiq edir ki, Azərbaycanın sovetləşdirildiyi ilk günlərdən ölkənin hər yerində qarətçilik, soyğunçuluq baş alıb gedir, xalq kütlələrinə divan tutulurdu. Real hakimiyyət əslində hər şeyi idarə edən Pankratovun (XI Qırmızı Ordu Siyasi İdarəsinin xüsusi şöbəsinin rəisi) əlində idi. 1920-ci ilin aprel hadisələri zamanı N. Nərimanov Azərbaycanda deyildi. 1920-ci il aprel və may ayında Azərbaycanda siyasi vəziyyət həqiqətən çox ağır, mürəkkəb olmuşdur.

N. Nərimanovun Azərbaycana gəlişini xalq kütləri sevinclə qarşılamış və ondan yaranmış özbaşınalığa son qoyulmasına kömək istəmişdilər. Azərbaycandakı vəziyyətin nə qədər

ağır, mürəkkəb olduğunu həmin dövrdə N. Nərimanovun aşağıdakı sözləri bir daha təsdiqləyir. Bəzi yoldaşlar məni bu sözlərlə qarşıladılar: "Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər" (1, s.23 ).

N. Nərimanov Azərbaycana gələndən sonra müvafiq idarələrə xüsusi tapşırıqlar vermiş, İnqilab Komitəsinin sanksiyası olmadan heç kəsin güllələnməsinə icazə verilməməsini tələb etmişdir. Bu sahədə müəyyən qədər qayda-qanun yaratmaq üçün tədbirlər görülməyə başlandı. Lakin bir müddət sonra N. Nərimanov Mikoyan, Mirzoyan və digər qeyri-azərbaycanlılarla elə əhatə olundu ki, vaxtilə bolşeviklərin verdikləri vədlər kağız üzərində qaldı. N. Nərimanov haqqında A. Mikoyanın dediklərinə diqqət edək: "Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o, çox da öz nüfuzundan istifadə edə bilməsin (1,s.23)". Bu fikir N. Nərimanovun nə qədər ağır şəraitdə işlədiyini, əhatəsində olduğu insanların daxili simasının eybəcərliklərini aydın şəkildə göstərir. Nəriman Nərimanov yazırdı ki, hakimiyyətdə təmsil olunanlar hər cür riyakarlığa əl atır, cilddən-cildə girir, yalnız öz hakimiyyətlərini düşünürdülər.

N. Nərimanov Azərbaycan Respublikasının tam müstəqilliyinin tərəfdarı olmuş və həmişə öz mövqeyini qoruyub saxlamışdır.

Lakin Q.K. Orconikidze və onunla bərabər bəziləri Azərbaycanın müstəqil sovet respublikası olmasına baxmayaraq bu müstəqilliyin əleyhinə çıxmış, Mərkəzi Komitədə bu məsələni qaldırmış, məqsədinə nail olmaq üçün bəzi yerli kommunistləri (Ə. Qarayev, M.D. Hüseynov) də bu mövqeni müdafiə etməyə çağırmışlar.

1920-ci illərdə N. Nərimanov Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Bakı Komitəsinin (AK(b)P BK) ermənipərəst mövqeyini kəskin tənqid etməkdən çəkinməmiş, onun fəaliyyətinin Azərbaycan xalqına qarşı yönəldiyini faktlarla əsaslandırmışdır.

Tarixi mənbələr göstərir ki, o zaman Bakı Komitəsi (BEKA) anti-Azərbaycan siyasəti yeritməklə xalqımızın milli dəyərlər sisteminə, milli mədəniyyətinə böyük zərbələr vurmuşdur. N. Nərimanov Bakı Komitəsinin (BEKA) fəaliyyətindən bəhs edərkən bu hakimiyyət orqanının əslində ermənilərin əlində olduğunu və müsəlmanlara, Azərbaycan xalqına yaxşı heç nə vermədiyini konkret dəlillərlə izah edir. N. Nərimanov yazır: "Mikoyanın ən qatı düşməni mən idim, lakin onu mənim iştrakım olmadan çıxardılar.

Mikoyandan sonra BEKA-nın (AK(b)P BK-Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Bakı Komitəsi-İ.C.) katibi Sərkis olur, Sərkisdən sonra isə Mirzoyan. Çox güman ki, Mirzoyandan sonra Kasparov olacaq və i.a.

Mən bildirirəm ki, bu, düşünülmüş, dönədönə götür qoy edilmiş və düzgün hesablanmış bütöv bir plandır" (2, s.33). ......lap əvvəldən bu günə kimi, BEKA elə bil qəsdən, Mikoyan, Sərkis və Mirzoyan tərəfindən tutulur". (2, s.36).

N. Nərimanov Mərkəzin yeritdiyi ayrıseçkilik siyasətini, müsəlmanlara, azərbaycanlılara laqeydliyini cəsarətlə tənqid edir, fikirlərini açıq şəkildə Mərkəzi Komitəyə, Stalinə bildirirdi: "Mərkəzin yerli işçilərə inanmaması yerlilərin Mərkəzə inanmamasına gətirib çıxarır" fikrini faktlarla əsaslandırır, xalq kütlələrinə yalan danışmağın acı nəticələri olacağını qeyd edirdi.

N. Nərimanov xalqlar arasında dostluğa həmişə önəm vermiş, bu istiqamətdə mənəvi dəyərləri qorumağı vacib sayırdı. Bununla bərabər doğma Azərbaycanı, Azərbaycan dilini, türk xalqlarını böyük məhəbbətlə sevir, milli dəyərlərimizin qorunması üçün mübarizə aparırdı. O, saflıq, səmimilik, mehribanlıq, mərdlik və comərdliyi Azərbaycan xalqının tarixi, xarakterik xüsusiyyətləri kimi təqdir edir və tarixi keçmişimizlə fəxr duyduğunu dilə gətirirdi .

N. Nərimanov yazırdı: "Sovet Respublikasında başda kral Serebrovski olmaqla "monarxiya" yaratmaq nəyə lazım idi", o indiyə qədər elə bilir ki, azərbaycanlıları aypara və ulduzla aldadır. Yox, hər bir fəhlə və kəndliyə neftin sovet Rusiyası üçün nə demək olduğu izah edilmişdir.

Azərbaycan birinci il nəinki neft verir, hətta öz dövlət kassasından fəhlələrin məvacibini də ödəyirdi.

Bundan da artıq beynəlmiləl ola bilər? "(1,s.27).

Ona görə də o, həmişə doğma dilimizə - Azərbaycan dilinə, Azərbaycan mədəniyyətinə, tarixinə yüksək dəyər verirdi. N. Nərimanov haqlı olaraq deyirdi ki, bir millət özünü tanımayınca, özünü dərk etməyincə hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat olmalıdır. Bunla-

rın da yaranması və inkişafı azadlıq uğrunda mübarizə, xalqın müstəqilliyilə bağlıdır.

1920-ci ildə Azərbaycanın Sovet Respublikası kimi müstəqilliyi elan edilsə də məktəblərdə türk dilinin tədrisinə ayrılan saatların tədricən azaldılması və bu saatların rus dilinə ayrılaraq onun tədrisinin genişləndirilməsi cəhdləri olmuşdu.

Məktəblərdə rus dili dərslərinin sayının türk dili dərslərinin azaldılması hesabına artırmaq haqqında mətbuat səhifələrindəki çıxışları N. Nərimanov rahat qarşılaya bilməzdi. O, bu milli məsələlərdən bəhs edərkən aparılan siyasətdə yanlışlığa yol verilməməsi üçün diqqətli olmağı, ayrıseçkilik etməməyi vacib sayır, " Yolumuz hayanadır?" sualı ilə rəhbərliyə müraciət edir. Bu, əslində hamıya ünvanlanmış müraciət idi.

Məlumdur ki, Sovet dövlətinin siyasətində əsas istiqamətlərdən biri dinə qarşı mübarizə idi. 1920-ci illərdə Azərbaycanda Sovet hökumətinin dinə qarşı mübarizəsində də çox yanlışlıqlara yol verilmişdir. Lakin N. Nərimanov dini dəyərlərə həmişə hörmət etmiş, din xadimlərinə, dini mərasimləri icra edən, burada iştirak edən insanlara həssas yanaşmışdır. "Ucqarlarda inqilabımızın tarixinə dair" məruzəsində göstərilən faktlar, Məhəmməd Peyğəmbərin ən sevimli nəvəsi imam Hüseynin işgəncəli ölümü ilə bağlı fikirləri N. Nərimanovun xalqa bağlılığını, millətsevər olduğunu bir daha təsdiqləyir. O, Bakı kəndlərində əsgərlərlə dini mərasimləri icra edən insanlar arasında silahlı toqquşmanı pisləyərək xalqın mövqeyində dayanmışdı. N. Nərimanov yazırdı ki, fəhlələr imam Hüseyni qorxaq adlandıran hökumət adamlarını məzəmmət etmişdilər. N. Nərimanovun qeydlərindən məlum olur ki, o, fəhlələri müdafiə etmiş və imam Hüseynin mövqeyinə haqq qazandırmışdır. N. Nərimanovun bu baxımdan fikirləri həqiqətən, aydın, doğru və ibrətamizdir: "Qorxaq o deyil ki, 70 nəfər pis silahlanmış adamla on dəfə artıq qüvvətli olan düşmənlə döyüşür, odur ki, sol qrupdan qorxub işin əsl vəziyyətini bildirmir və bununla da partiya üzvlərini aldadır, onları fəhlə-kəndli respublikasında qızıl əsgər güllələrindən qanı tökülən fəhlələrə qarşı silahlandırır" (3,s.71 ).

N. Nərimanovun bu fikri o dövrdə Azərbaycanın siyasi həyatında baş verən prosesləri dərk etmək üçün böyük əhəmiyyət kəsb edir. O, yuxarıda qeyd etdiyimiz fikirlərini davam etdirərək həm də insanın şəxsiyyət kimi bütövlüyünün, tamlığının vacib mənəvi keyfiyyət olduğunu diqqətə çatdırmaq üçün imam Hüseynin Yezidlə bağlı mövqeyinə mərdanə hərəkət kimi haqq qazandırır. N. Nərimanov yazır: "Qorxaq odur ki, vəzifəsindən ötrü alçaqcasına yalan danışır, lakin imam Hüseyn tabe olsun və öz vicdanını qızıla satsın deyə Yezid bütöv bir vilayəti idarə etməyi təklif edirdi. O bunu etmədi, həlak oldu" ( 3,s.71 ).

Qeyd etdiyimiz bir fikirdə N. Nərimanovun dinə, din xadimlərinə, dini dəyərlərimizə münasibəti açıq-aşkar görünür. Məhz bu mövqeyinə, bu düşüncələrinə və konkret əməli fəaliyyətində xalqın, sadə adamların istək və arzularını reallaşdırmağa çalışdığına görə N. Nərimanovun xalq arasında böyük nüfuzu vardı. Onun ətrafında olan partiya və hökumət adamları məhz belə nüfuz sahibi olduğuna görə N. Nərimanovdan çəkinir, ehtiyat edir, ona arxadan zərbə vurmağa çalışırdılar.

N. Nərimanov hakimiyyətdə olduğu dövrdə həmişə Azərbaycan xalqının dini və ənənəvi bayramlarına xüsusi diqqət yetirməklə həmin bayramların rəsmi olaraq qeyri-iş günü hesab edilməsinə nail olmuşdur(4;5).

N. Nərimanovu narahat edən məsələlərdən biri də hökumət orqanlarında çalışan azərbaycanlıların digər millətlərin nümayəndələrilə müqayisədə azlığı, Azərbaycan məktəbləri ilə müqayisədə rusdilli məktəblərin getdikcə çoxalması, hər sahədə ayrıseçkiliyin olması idi. Bu işdə bəzi yerli kommunistlərin də günahkar olduğunu göstərir, onların əməllərini tənqid edir, bu siyasətin gələcəkdə böyük fəsadlar törədəcəyi xəbərdarlığını edirdi.

O, həqiqət uğrunda mübarizə apararaq cəmiyyətin saflaşdırılmasına xidməti başlıca amallardan hesab edirdi. N. Nərimanov milli və həm də bəşəri düşüncə, sahibi, humanist şəxsiyyət idi.

Tarixi mənbələr təsdiq edir ki, A.İ. Mikoyan (1895-1978), L.İ. Mirzoyan (1897-1939), Q.K. Orconikidze (1886-1937) (Zaqafqaziya Diyar Partiya Komitəsinin başçısı) Azərbaycanda rəhbər vəzifələr tutmaqla xalqımızın əleyhinə fəaliyyət göstərmiş, həmişə milli dəyərlərimizə qəsd etmişlər. N. Nərimanov bu şəxslərin və onların tərəfdarlarının Azərbaycanla bağlı çıxış və hərəkətlərini kəskin tənqid etmiş, onu müstəqilliyə qarşı yönəlmiş hərəkətlər kimi əsaslandırmış, bu barədə V.İ. Leninə (1870-1924)- Sovetlərin, kom-

munistlərin siyasi liderinə rəsmi məktubla müraciətlər ünvanlamışdır. N.Nərimanov yazırdı ki, "dəhşətli vəziyyət yaranıb. Mərkəz Gürcüstanın, Ermənistanın, Azərbaycanın müstəqilliyini tanısa da, Azərbaycanın mübahisəsiz ərazilərini Ermənistana verir. ...Əziz Vladimir İliç, "Müstəqil Azərbaycan" sizin dilinizdən çıxmamışdımı? Azərbaycan həm ərazisini," həm də müstəqilliyini itirir"... Çoxmillətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz." (3, s. 103-104).

N. Nərimanov doğru olaraq qeyd edirdi ki, elə insan var ki, onun yoxluğu qohum-əqrabasına, ya da millətinə təsir edər. Elə insan da var ki, onun ölümü bütün bəşəriyyəti kədərləndirər.

Bütün bunlar onu göstərir ki, N. Nərimanov Sovet hakimiyyətinin Şərq siyasətinə etirazını bildirmiş, Cənubi Qafqazda aparılan kadr siyasətinin ziyanlı olduğunu, Sovet hökumətini məhvə sürüklədiyi cəsarətlə qeyd etmişdir.

N. Nərimanovun V.İ. Leninə müraciəti, digər məktub və çıxışlarında sübut olunur ki, Sovet Ermənistanında hakimiyyət formal olaraq bolşevik hakimiyyətidir. Əslində burada daşnaklar və digər siyasi qüvvələr də hakimiyyətdə təmsil olunmuş və hökumət daşnak siyasəti yeridirdi.

N. Nərimanov Bakıda, Azərbaycanda işlədiyi müddətdə burada əsas söz sahibi idi, Mərkəz də onunla hesablaşmağa məcbur olurdu.O, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, qorunması ilə bağlı çox çalışmış, böyük fədakarlıq göstərmiş, ömrünün sonunadək mübarizə aparmışdır. Lakin o, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri seçiləndən sonra Azərbaycanı idarə edənlər bu ölkəni daha çox talamağa, milli dəyərlərimizi məhv etməyə başladılar. N. Nərimanov Dağlıq Qarabağ ərazisinə muxtariyyət statusunun verilməsinin də əleyhinə idi. O yazırdı ki, Dağlıq Qarabağ L.İ. Mirzoyanın (1897-1939) güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir (3,s.100). "...Mənim zərrə qədər şübhəm yoxdur ki, Serqo (Q.K. Orconikidze – İ.C.) və Stalinin simasında AKP MK (Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi – İ.C.) biz türklərə etibar etmir" (3,s.101).

Ümumiyyətlə, tarixi mənbələr təsdiq edir ki, N. Nərimanovun həyat və fəaliyyətinin başlıca amalı Azərbaycan xalqına xidmət, vətən, millət naminə fədakarlıq göstərməklə millətimizin inkişafını təmin etmək, böyüyən nəsillərimizi azad, milli ruhlu insanlar kimi formalaşdırmaq, tarixi, mədəni irsimizi qorumaq, dövlətçilik ənənələrimizi yaşatmaq olmuşdur. Onun yaratdığı irs dəyər kimi ilk növbədə tarixi-pedaqoji baxımdan çox əhəmiyyətlidir. Bu irsdə şəxsiyyət-vətəndaş, vətəndaşlıq mövqeyi, şəxsiyyətin milli maraqlar uğrunda mübarizəsi, təhsilin insan həyatında rolu, milli tərbiyənin təsir gücü, vətənpərvərlik tərbiyəsi, ailə tərbiyəsi və sair kimi mühüm pedaqoji məsələlər də əksini tapmışdır.

Təhsil müəssisələrində tədris prosesində, yaxud dərsdənkənar, auditoriyadankənar vaxtlarda N. Nərimanov irsinə müraciət olunması və bu böyük şəxsiyyətin tarixi, mənəvi-əxlaqi fikirlərinin təlim-tərbiyə prosesində elmi prinsiplər əsasında, milli, dövlətçilik mənafelərimizi nəzərə almaqla, məqsədəuyğun şərhi imkanları genişdir. Eyni zamanda N. Nərimanov ideyalarının elmi-pedaqoji baxımdan daha dərindən tədqiqi, onun maarifçilik görüşlərinin müasir yanaşmalar əsasında araşdırılması vacibdir.

Bu günkü nəsillərimizin ruhunda N. Nərimanovun mütərəqqi ideyalarını yaşatmaqla tariximizə hörmətlə yanaşmalı, dəyərlərimizi qorumalıyıq.

**Ədəbiyyat:**


1. Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair/ İ.V. Stalinə məktub/, Bakı, 1992.
2. Nəriman Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər (elmi redaktor Ramiz Mehdiyev; tərtib edən Teymur Əhmədov) Bakı: Nurlar, 2002, 104 s.
3. Nəriman Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər (elmi redaktor Ramiz Mehdiyev; tərtib edən Teymur Əhmədov) Bakı: Nurlar, 2016, 175 s.
4. Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı, 2001.
5. Həsənov H.Ə. Nəriman Nərimanovun tarixi missiyası. Bakı, 2005.


**E-mail:** i.cebrayilov@arti.edu.az

**Rəyçi:** *ped.ü.fəls.dok., prof.* **A.N. Abbasov**

**Redaksiyaya daxil olub: 17.03.2020.**

UOT 371

***Bayram Fəti oğlu Apoyev***
*Gəncə Dövlət Universitetinin Pedaqoji fakültəsinin dekanı*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# NİZAMİ GƏNCƏVİNİN İLK POEMASI – PEDAQOJİ FİKİRLƏR XƏZİNƏSİDİR

***Байрам Фати оглы Апоев***
*доктор философии по педагогике, декан*
*Гянджинского Государственного Университета*

# ПЕРВАЯ ПОЭМА НИЗАМИ ГЯНДЖЕВИ - СОКРОВИЩНИЦА ПЕДАГОГИЧЕСКИХ МЫСЛЕЙ

***Bayram Fati Apoev***
*dean of the Faculty of Education*
*Ganja State University*

# THE FIRST POEM OF NIZAMI GANJAVI - TREASURES OF PEDAGOGICAL THOUGHTS

**Xülasə.** Məqalədə dahi şair-pedaqoq Nizami Gəncəvinin "Sirlər xəzinəsi poeması yeni pedaqoji təfəkkür baxımından nəzərdən keçirilir və təhlil olunur. Bir daha görünür ki, əsər müdrik pedaqoji fikirlər xəzinəsi rolunu oynayır. Poemada əqli tərbiyə və mənəvi tərbiyə məsələləri daha üstünlük təşkil edir.

***Açar sözlər***: *Nizami Gəncəvi, dahi şair, "Xəmsə", "Sirlər xəzinəsi", əqli tərbiyə, əxlaq tərbiyəsi, ekoloji tərbiyə*

**Резюме.** В статье поэма «Сокровищница тайн» гениального поэта-педагога Низами Гянджеви исследована и проанализирована в рамках новой педагогической мысли. Было установлено, что это произведение является сокровищницей мудрых педагогических идей. В статье преобладают вопросы об умственном и нравственном воспитании.

***Ключевые слова***: *Низами Гянджеви, гениальный поэт, , «Хамса», «Сокровищница тайн», умственное воспитание, нравственное воспитание, экологическое воспитание.*

**Summary.** Genius poet-pedagogist Nizami Ganchavi`s "Treasure of Mysteries" has been researched and analyzed in the frame of new pedagogical thought in the article.

It has been determined that this poem is a treasure of wise pedagogical ideas. While the treasure prevails over this intellectual, ethical, labor and environmental education (aesthetic, physical, economic and law education) there are many valuable points in other areas of education in the work as well.

***Key words***: *genius poet. N. Ganjavi "Khamsa", "Treasure of Mysteries", mental upbringing, ethics upbringing, ecological upbringing*

Ölməz sənət nümunəsi ilə təkcə Azərbaycan xalqının deyil üç yüz milyonluq Türk dünyasının, eləcə də bütün tərəqqipərvər bəşəriyyətin qəlbində və mədəniyyət tarixində silinməz iz salmış Nizami Gəncəvinin əbədiyaşar poetik və fəlsəfi, həmçinin pedaqoji irsi doqquz əsrə yaxındır ki, "xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir … Qüdrətli söz ustasının ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir" [1].

Dahi şairin ölməz irsinə öz nitq və çıxışlarında dönə-dönə yüksək qiymət verən Ümummilli Liderimiz Heydər Əliyev onun vətəni Gəncə şəhərinə səfərlərinin birində (Nizami Gəncəvi məqbərəsinin önündəki çıxışında) deyirdi: "Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində,

bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar" [2, 114-115].

Azərbaycan nizamişünaslarının, eləcə də Şərq və Qərb dünyasının bir çox görkəmli şərqşünas alimlərinin hər zaman nadir poeziya incisi kimi dəyərləndirdikləri "Xəmsə" müdrik fikirlər çeşməsi olub, bu gün də öz aktuallığı və əhəmiyyəti ilə təkcə ədəbiyyatşünasların və filosofların deyil, psixoloq və pedaqoqların, digər humanitar və təbiət elmləri üzrə tədqiqatçıların diqqət mərkəzindədir. Çünki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin öz nitq və çıxışlarında dəfələrlə vurğuladığı kimi: "Nizami bu gün də müasirimiz olaraq qalır. O özünün ölməz humanist ideyaları ilə bəşəriyyətin işıqlı gələcəyinin qurulmasında iştirak edir" [3, 18].

Dahi şairin əbədiyaşar irsinin ümumbəşəri miqyasda yüksək əhəmiyyət kəsb etdiyini dünyanın bir çox görkəmli şərqşünas və ədəbiyyatşünas alimləri etiraf etmişlər. Bu baxımdan dahi şairin misilsiz yaradıcılığının ümumbəşəri əhəmiyyətini görkəmli dilçı və ədəbiyyatşünas alim, akademik Nizami Cəfərov daha lakonik və daha dəqiq ifadə etmişdir: "… neçə yüz illərdir ki, humanizm, sülh, həmrəylik, ali insani hisslər təbliğ edən Nizami dühası bəşəriyyətə ruh, mənəvi güc, enerji verir" [4].

Bəli, yaradıcılığının başlıca qayəsi, məqsədi, hədəfi ədalətli cəmiyyət və kamil insan olan dahi şairin müdrik fikirlər xəzinəsi "Xəmsə"sinin hər bir poeması, hər bir beyti və hər bir misrası əsrlər boyu insanları Haqq yoluna, mənəvi saflığa səsləmiş və bu gün də səsləməkdədir. Heç də təsadüfi deyildir ki, nizamişünas alimlərin çoxu "Xəmsə"ni əvəzsiz "əxlaq dərsliyi" adlandırmış, neçə-neçə nəsillərin mənəvi zənginliyində onun misilsiz rolunu dönə-dönə vurğulamışlar. XX əsrin 40-cı illərində "pedaqoji nizamişünaslığın" banisi prof. M.Ə. Muradxanov yaşadığımız yüzilliyin ilk onilliyində isə bu sətirlərin müəllifi apardıqları xüsusi tədqiqat işləri nəticəsində təkzibedilməz faktlar əsasında sübut etmişlər ki, Nizami Gəncəvi dahi mütəfəkkir şair və filosof olmaqla bərabər, böyük tərbiyəçi-pedaqoq olmuşdur. Onun təhsil, təlim, tərbiyə və şəxsiyyətin formalaşması ilə bağlı poetik dildə söylədiyi müdrik fikirlər bugünədək öz əhəmiyyətini itirməmiş, müasir elmi pedaqogikanın əsas müddəaları ilə səsləşməkdədir.

Aparılan tədqiqatlar göstərir ki, "Xəmsə"-yə daxil olan poemaların hamısı pedaqoji fikirlərlə zəngindir. Bu məqalədə dahi şairin ilk irihəcmli əsəri olan "Sirlər xəzinəsi" üzərində xüsusi dayanmağı, buradakı pedaqoji fikirlərin bəzilərini yeni pedaqoji təfəkkür prizmasından tədqiq və təhlil etməyi qarşımıza məqsəd qoymuşuq. Bu məqsədlə "Sirlər xəzinəsi" poemasının həm filoloji, həm də müxtəlif müəlliflər (S. Rüstəm, X.R. Ulutürk, X. Yusifli) tərəfindən edilmiş poetik tərcümələrindən istifadə etmişik.

"Sirlər xəzinəsi" şairin ən çox tədqiq edilən əsərlərindən biri olduğuna baxmayaraq, indiyədək bu poemanın yazılması tarixi tam dəqiqləşməyib. Belə ki, ayrı-ayrı tədqiqatçıların fikrinə görə şair ilk poemasını 1165-1180-ci illər arasında yazmışdır. Görkəmli nizamişünas alim prof. X. Yusifli bu əsərin 1174-1175-ci illərdə yazıldığını həqiqətə daha yaxın hesab edir.

Məlum həqiqətdir ki, şairin yaradıcılığından bəhs edən nizamişünasların hər biri təbii olaraq onun ilk poemasının başlıca məqsədi, əsas ideyası, qısa məzmunu barədə müəyyən fikirlər irəli sürmüş, əsərin "Xəmsə"dəki yeri və əhəmiyyətinə öz münasibətlərini ümumi şəkildə bildirmişlər. Lakin poemanın tədqiqi və təhlilinə xüsusi diqqət yetirən bir çox alimlər (X.Hüseynov, T. Kərimli, R.Əliyev, X.Yusifli, S.Hacı və b.) "Sirlər xəzinəsi"nin təkcə Nizami Gəncəvi yaradıcılığında deyil, bütövlükdə Şərq ədəbiyyatında, epik poema janrının inkişafındakı rolunu çox yüksək qiymətləndirmişlər. Məsələn, akademik T. Kərimli bu poemanı "epik şeirə yeni şivə gətirən" bir əsər, prof. R.Əliyev "Şərq xalqlarının bədii təfəkkür tərzində, ədəbiyyatında yeni bir dövr açmış ilk böyük əsər", prof. X.Yusifli "Nizaminin yaradıcılıq manifesti", akademik İ. Həbibbəyli şairin "həqiqətən, sirlər xəzinədarı olduğunu" göstərən poema, Siracəddin Hacı "insanlğın ana yasası" adlandırmışdır.

Biz isə, uzun illər ərzində "Xəmsə"yə daxil olan bütün poemaların, o cümlədən "Sirlər xəzinəsi"nin yeni pedaqoji təfəkkür primasından tədqiqi və təhlili nəticəsində belə bir qəti qənaətə gəlmişik ki, dahi Nizaminin ilk poeması – pedaqoji fikirlər xəzinəsidir. Doğrudur, pedaqoq alimlərimizdən M. Muradxanov, Y. Talıbov, S.Quliyev, Z.Qaralov və b. şairin pedaqoji baxışlarına həsr olunmuş əsərlərində "Sirlər xəzinəsi" poemasından da tərbiyə məsələlərinə dair bəzi fikir-

ləri qeyd etmişlər. Lakin "əsas fikri insan cəmiyyətinin ədalətsizliyini aradan götürmək üçün yollar axtarmaq"dan ibarət olan bu poemanın pedaqoji aspektdə daha dərindən tədqiqi və daha geniş təhlili tərəfimizdən aparılmış, alınan nəticələr bu məqalədə ümumiləşdirilmişdir.

Apardığımız tədqiqat göstərir ki, dahi Nizami özünün "ədalətli cəmiyyət və kamil insan" konsepsiyasının bünövrəsini məhz "Sirlər xəzinəsi" əsərində qoymuşdur. Şairin möhkəm inam və əqidəsinə görə ədalətli cəmiyyətin qurulmasının başlıca yolu kamil insanın tərbiyələndirilməsidir. Kamil insan dedikdə, O, əqli zənginliyi, yüksək mənəvi saflığı və möhkəm fiziki sağlamlığı özündə cəmləşdirən, dərin dini və elmi dünyagörüşə sahib olan şəxsiyyəti nəzərdə tuturdu. Əsərin əsas məzmununu təşkil edən 20 söhbətin (məqalənin, fəslin) demək olar ki, hamısında şəxsiyyətin formalaşdırılması, kamil insan tərbiyəsi ilə bağlı fikirlər "qırmızı xətlə" keçir.

Həmin fikirlərin müasir elmi pedaqogikanın əsas kateqoriyaları və anlayışları ilə müqayisəli təhlili göstərir ki, fədakar nizamişünas, "Sirlər xəzinəsi" poemasının tədqiqi və şərhinə 10 cildlik, 6 min səhifəlik fundamental elmi tədqiqat işini tamamlayan, bununla "nizamişünaslığa layiqli töhfə" verən Siracəddin Hacının qeyd etdiyi kimi "O, din alimidir, filosofdur, arifdir, aşiqdir, şairdir, mücahiddir". Və eyni zamanda böyük tərbiyəçi-pedaqoqdur! Müasir elmi pedaqogikanın insan tərbiyəsi ilə bağlı araşdırmağa səy göstərdiyi bir çox problemləri, o, hələ səkkiz əsr yarım bundan əvvəl həll etməyə çalışmışdır.

Əlbəttə, dahi şairin bu poemada öz əksini tapmış zəngin pedaqoji fikirlərini bir məqalə çərçivəsində tam əhatə etmək mümkün deyildir. Ona görə də burada tərbiyənin əsas sahələrinin bəziləri ilə bağlı dahi mütəfəkkir şair və böyük tərbiyəçi-pedaqoq olan Nizaminin müdrik fikirlərini tədqiq və təhlil etməyə çalışmışıq.

Məlum olduğu kimi, pedaqoq alimlər əqli tərbiyəni ümumi tərbiyə işinin əsas sahələri (tərkib hissələri) sırasında ilk yerdə qeyd edirlər. Dahi şairin əsası "Sirlər xəzinəsi"ndə qoyulan kamil insan konsepsiyasının başlıca müddəalarından birini məhz əqli tərbiyə ilə bağlı fikirlər təşkil edir. Kamil insan dedikdə o, ilk növbədə dərin ağıla, zəkaya, zəngin biliklərə sahib olan dünyaya əqlin gözü ilə baxmağı, gücü ilə görünməz sirləri açmağı bacaran insanı nəzərdə tuturdu. Poemanın başlanğıcından demək olar ki, sonunadək ağlın, kamalın, əqli zənginliyin insan həyatında oynadığı böyük rolu tərənnüm edən dahi şair-pedaqoq insanları ağılla hərəkət etməyə, kamilliyə qovuşmağa səsləyir. Fikrimizi təsdiqləyən konkret misallara diqqət yetirək.

Poemanın hələ əvvəlində – "Peyğəmbərin mədhi"ndə ağıllı insanın olmadığı yerdə avamlığın, nadanlığın hökm sürdüyünü, "orada daşqalaq" və "dəlilər savaşının" baş alıb getdiyini vurğulayan böyük mütəfəkkir, göstərir ki, Uca Tanrı "Ərəb ariflərinə … nurlu ay", "Əcəm hakimlərinə … arxa, haray" kimi Məhəmməd peyğəmbəri göndərdi ki, ağılsızları ağıllandırsın. "Peyğəmbərin mədhi"ndən dərhal sonra – "Davud oğlu Məlik Fəxrəddin Bəhram şahın şəninə" həsr etdiyi misralarda, eləcə də "Bəhram şaha xitab və təzim" də "Dünyanı ayaqla yox, dolanmışam başımla, ayaqdəyməz yerlərə yol açmışam başımla" sözlərilə şair ağlın gücü sayəsində əlçatmaz, ünyetməz zirvələrə yol açmağın mümkünlüyünü göstərir, bu poemanı ithaf etdiyi Ərzincan hakiminin yüksək əqli keyfiyyətlərə sahib olduğunu "Məcəsti"ni şərh edən "bilginlərə qibləgah", "Hər elmin tacidarı, fənnin memarı sənsən" və s. kimi ifadələrlə bildirir.

Şairin fikrinə görə ağıl tərbiyəsinin, kamil insanın formalaşmasının başlıca vasitəsi təlim-tərbiyə prosesidir. Təlim-tərbiyə görməyən insanı nadan, naşı hesab edən şair, "Könül pərvərisi haqqında tənhalıq düşüncələri"ndə yazır: "Gördü ki, tərbiyəsiz, təlimsiz bir naşıyam, təlim ədəb verdi ki, İnsan adı daşıyam". Poemanın birinci məqalətində ("Adəmin xilqəti";X.R. Ulutürkün tərcüməsində "Adəmin yaradılması") əqli tərbiyədə təlim prosesinin mühüm rol oynadığına işarə edən şair-pedaqoq ilk insanın (Adəmin) "göyün çilçırağından işıqlı" bir kamala qovuşması üçün "O, hələ süd qoxulu qırx günlük bir cocuqkən, dil açdı, dərs öyrəndi qırx yaşlı müdriklərdən" – deyir.

"Dünyanın keşməkeşli və bəşəri iztirabları" (X.R. Ulutürkün tərcüməsində: "Dünya hadisələrinə dair") adlı üçüncü məqalətdə (söhbətdə) böyük tərbiyəçi-pedaqoq öyrədir ki, uşaq neçə ki, ağıla, kamala yetməyib "əyləncədən kam" almağa çalışır, qəflət yuxusunda qalır. Belə insan dəlidən demək olar ki fərqlənmir, çünki düşüncəsi olmur. İnsan ancaq ağıla, kamala ye-

tişməklə səadətə qovuşa bilər. Buradaca şair "Ucalmağa qoyarmı, qafilliyi insanı?" sualı ilə insanlara xəbərdarlıq edir. Kamilliyə qovuşmağın yolunu göstərir: "Boş durma, yaz, alışdır gözəl xəttə qələmi, yazmasan da götürüb barı qəddə qələmi" X.R. Ulutürk axırıncı misranı daha dəqiq tərcümə etmişdir: "Barı qələm ucu yon, barı bacar pozmağı". Bu misralardan aydın göründüyü kimi, dahi Nizami əqli tərbiyə işində, insanın kamilləşməsində "yazı-pozu"ya, yəni təlim prosesinə böyük önəm verirdi.

İnsanın kainatda yeri, rolu, digər canlılardan üstünlüyü məsələsinə həsr etdiyi yeddinci məqalətdə (söhbətdə) onu "yerdə fələyi heyrətdə qoyan", bu dünyanın "şərəfi, şanı", "əşrəfi", "xeyirxahlıq bütü", "üstünlükdə birinci" varlıq adlandıran şair, ağılı bəşər övladının ən yüksək keyfiyyəti adlandırır, ona müraciətlə deyir: "Vərdişinlə, ağlınla sən gözüsən dünyanın". Qeyd edək ki, bu məqalətin (söhbətin) adı S. Rüstəmin tərcüməsində "İnsanın ülviyyəti", X.R. Ulutürkdə: "İnsanlıq mərtəbəsinin bütün xilqətlərdən üstünlüyü", X.Yusiflinin tərcüməsində isə "İnsanların başqa canlılardan şərəfli olması" kimi verilmişdir. Fikrimizcə, bu söhbətin X.R. Ulutürk tərəfindən tərcüməsi orijinala daha yaxındır və məzmunu daha dəqiq ifadə edir.

"Xilqətin gözəlliyi və kamalın qüdrəti" (X. Yusiflinin tərcüməsində "Yaradılışın gözəlliyi"; X.R. Ulutürkdə: "Yaradılışın hüsnünə dair") adlanan səkkizinci məqalətdə böyük insanpərvər şair-pedaqoq, bir daha insanın digər canlılardan üstünlüyünü, gözəlliyini vəsf edir və xüsusi vurğulayır ki, başsız, yəni ağılsız insan heç nəyə nail ola, "bac-xəraca" sahib çıxa bilməz. Həmin məqalətin sonunda bir daha ağlın, kamalın qüdrətindən, insan həyaındakı böyük rolundan söhbət açır və öyrədir ki, ağlı olan kəs insana "narahatlıq, əziyyət" verən zərərli vərdişlərdən (çox yemək, tamaha, hərisliyə uymaq, dələduza, şər işlərə qoşulmaq, qəflət yuxusuna dalmaq və s.) uzaq qaçar.

Müasir elmi pedaqogikaya görə ağıllı insanın başlıca keyfiyyətlərindən biri uzaqgörənlikdir. Poemanın doqquzuncu məqalətində ("Müdriklik və alicənablıq") böyük tərbiyəçi şair bu məsələyə xüsusi olaraq toxunur, aqil, müdrik, "məqamı fələkdən də uca" olan insanı qəflət yuxusunda yatmamağa, uzaqgörənliyə səsləyir, belə bir həqiqəti aşılamağa, çalışır ki, bəşər övladı "qafilliyə kor kimi" meylini salmasa, uzaqgörənlikdə qışın azuqəsini yayda tədarük eyləyən qarışqadan da, arıdan da üstün olar. "Arıdan, qarışqadan heç də əskik" olmayan insan bu dünyadan "kam almaq" üçün, kamalla hərəkət etməli, uzaqgörən olmalı, "yayda qışın qeydinə qalmalı"dır.

"Haqsızlıq və doğruluq" adlanan on dördüncü məqalədə şair-pedaqoq əqli tərbiyə ilə bağlı məsələlərə daha geniş yer verir, ağılın insan həyatındakı böyük rolunu başa salmağa çalışır, bu məqsədlə öz əməli ilə "aləmin şöhrəti" olan müdrikləri "qəflətdə yatan" "nadanlar"-la müqayisə edir. Müqayisə yolu ilə başa salır ki, ağlı, kamalı olmayanın eşşəkdən heç bir fərqi yoxdur. İsa peyğəmbər məhz ağlı sayəsində möcüzələr göstərə bilirdi. Ağılsız insan heç bir hünər göstərə bilməz, heç bir "şan-şöhrətə" qovuşmaz. Ona görə də dahi şair-pedaqoq tövsiyə edir ki:

Ya ağlınla ucalıb al Günəşə qovuş sən,
Ya da uca dərgahın qarşısından sovuş sən.

Bu məqalətdə şairin verdiyi məsləhətlərdən biri də insanın ağlını əlindən alan mənfi vərdişlərlə, konkret desək sərxoşluqla bağlıdır. Tərbiyəçi pedaqoq burada çox aydın bir dillə izah edir ki, əvvəllər halal hesab olunan şərab qəmi dağıtsa da "ağıla düşməndir" deyə onu sonralar "haram etdilər". Ona görə də tövsiyə edir ki: "Ağa, işmə, ağlını əldən alan şərabdır". Ardınca xəbərdar edir: "İçmə, huşyar eyləməz o içdiyin mey səni, yaddan çıxar varlığın, şərab eylər key səni". Və nəhayət, sərxoşların aqibətini yada salır ki, hər kəs ibrət götürsün:

Sərxoşluğa uyan kəs ələm çəkər ömürlük,
Aqilliyin üstündən qələm çəkər ömürlük.

Böyük tərbiyəçinin bu məsələ ilə bağlı gəldiyi əqli nəticə isə belədir:

Qəflət dünyasındadır, kim ki meyin
quludur,
Mey qafilin alnına qəflət damğası vurur.

On beşinci məqalətin ("Paxılları məzəmmət") sonunda verilən "Şahzadə hekayəti"ndə "Kamalındır dövlətin, kamalına arxalan" deyən; "Ağıl-kamal, mücrüsü ülviyyətə bağlıdır" həqiqətini anladan şair, məsləhət görür ki:

Paslandırma qınında xəncərini kamalın,
Xəncəriylə doğrasın daim kini kamalın.

On altıncı məqalətin sonunda verilən "Ağıllı uşağın hekayəti"ndə şair-pedaqoq öz

düşmənini ölümdən xilas edən uzaqgörən uşağın nümunəsində dərin ağlın-kamalın insan həyatındakı rolunu bir daha yüksək dəyərləndirir:

Öz ağlının gözüylə baxan kimdir aləmə,
Ən qüdrətli, yenilməz bir hakimdir aləmə.

Növbəti – on yeddinci məqalətdə ("Heysiyyəti qorumaq") isə mütəfəkkir şair, ağılı insanın "ruhu", "canı" adlandırır, "onsuz quru bədənsən" deyir.

Əvvəlindən sonadək müdrik pedaqoji fikirlər xəzinəsi olan poemanın tərbiyənin əsas sahələri (tərkib hissələri) üzrə tədqiqi göstərir ki, burada əxlaq tərbiyəsi məsələləri daha geniş yer tutur. Əsərin başlıca məzmununu təşkil edən 20 məqalətin demək olar ki, hər birində bu və ya digər əxlaqi keyfiyyətin tərənnümünə geniş rast gəlirik. Fikrimizə arqument sayıla biləcək konkret nümunələrin bəzilərinə diqqət yetirək. Qeyd edək ki, "Xəmsə"də, o cümlədən "əxlaq dərsliyi" adlandırılan "Sirlər xəzinəsi"ndə əksini tapmış müsbət əxlaqi keyfiyyətlər (yaxşılıq, dostluq, vətənpərvərlik, düzlük və doğruçuluq, sadəlik və təvazökarlıq və s.) barədə tərbiyəçi şairin fikirləri nisbətən geniş tədqiq olunduğu üçün burada mənfi əxlaqi sifətlərin ifşasına yönələn nümunələr üzərində xüsusi dayanmağı daha məqsədəuyğun hesab edirik.

Humanist şairin insanlarda görmək istəmədiyi, nifrət etdiyi, tənqid atəşinə tutduğu mənfi əxlaqi sifətlərə "Xəmsə"nin bütün poemalarında geniş rast gəlirik. "Sirlər xəzinəsi"ndə belə sifətlərdən diqqəti daha çox cəlb edənləri nəfsgirlik, hərislik, tamahkarlıq, dargözlük, ikiüzlülük, vicdansızlıq, paxıllıq və sairdir.

Poemanın elə ilk məqalətində ("Adəmin xilqəti") şair-pedaqoq insan mənəviyyatını korlayan nəfsgirliyi, tamahkarlığı kəskin tənqid edir, ilk bəşər övladının – Adəmin məhz nəfsinə "təp" deyə, tamahına güc gələ bilmədiyi üçün ağlını, düşüncəsini başından alan, ürəyinə yemək həvəsi salan "cansız … daşbatmaz, qupquruca, daş kimi bir buğdanın" "toruna" düşdüyünü, nəticədə cənnətdən qovulduğunu yada salır və öyüd verir ki:

Ey ömrünün kələfi dolaşan çaşqın bəşər,
Bircə buğdadan ötrü insan da tora düşər?!
Arpa cadı yeməkdən heç zaman bezikmə sən,
Adəm tamah saldığı buğdaya göz dikmə sən!

"Dünyanın keşməkeşi və bəşərin iztirabları" adlanan dördüncü məqalətdə şair başa salmağa çalışır ki, nəfsgirlik, tamahkarlıq insan ıdüzgün yoldan çıxaran "xəta"dır. Bu xəta yolu ilə hətta "Süleyman mülkü" qazananlar hazırda torpaq altındadırlar, özləri ilə heç nə apara bilməyiblər:

Süleyman mülkü umma. Nəfs, tamah xətadır,
Mülkü durur … mülkədar özü yer altındadır.

Altıncı məqalətin ("Varlığın qüdrəti") sonundakı "Ovçu ilə tülkünün hekayəti"ndə "tamahın neştəriylə ürəyini" qanadan acgöz, həris insanları "qan sormağa can atan" çibinə, mığmığaya bənzədən şair, belələrini mənəviyyatsız, məsləksiz hesab edir: "Məslək yolu seçənlər tamaha baş əyərmi?" deyir.

"İnsanın ülviyyəti"nə həsr etdiyi yeddinci söhbətdə bəşər övladının ən ülvi varlıq olduğunu anladan şair cənnətə qovuşmağın yollarından birinin "tamahı öldürməkdən" keçdiyini vurğulayır və belə bir məsləhət verir:

Öz nəfsini mələdən, lələdən oğul ol sən,
İblisə qul olunca, məsləkinə qul ol sən.

"Xilqətin gözəlliyi və kamalın qüdrəti"ni səkkizinci məqalətdə tərənnüm edən şair, eyni zamanda bəşər övladını ağılsızlaşdıran, fəlakətə sürükləyən tamahkarlığın və hərisliyin ifşasına geniş yer verir, "tamahını cilovlayan", "nəfsini öldürməyi" özünə amal seçən kamal sahiblərindən nümunə götürməyə səsləyir və xəbərdarlıq edir ki:

Hərisliyə uymağın qorxuludur, qorxulu!
Ondan nəşə duymağın qorxuludur, qorxulu.

Poemanın"Zirəklik" (X.R. Ulutürkdə: "Məsləkdə çapuq irəliləmə") on altıncı məqalətində "tamah yolunda" sələm alanları ifşa edən şair, nəyin bahasına olursa-olsun var-dövlətini artırmağa çalışan hərislərə müraciətlə deyir:

Nə vaxtacan əl atıb özgə budağına sən,
- Dövlətim kaş bir az da çox olsun! – deyəcəksən?

Və belələrinə xatırladır ki, "qamarlayıb aləmi tutsan da" sənə heç bir faydası olmayacaq. Çünki gedəndə: "əliboş gedəcəksən!". Məqalətin sonunda var dövlət üçün canını oda yaxan hərisləri, acgözləri, nəfsinin qulu olanları şair bir daha xəbərdar edir ki, onların sonu "məhşər odunda" yanmaqdır, fəlakətdir:

Yanar məhşər kürəsi, burar tamah
boynunu,
Qənaətin qılıncı vurar tamah boynunu.

Hərisliyə uyan "sələmçilər", "vara möhtac" olanlar "məmnunluq kəmərini belə möhkəm bağlayanlar"dan nümunə götürməlidir. Çünki məmnunluq – "hər başın şərəf tacı"dır. Aza qane olub hərisliyə uymayanlar "tamahkarlıq yolunda qamçılanan deyildir". Tamahkarlıq, hətta, "ən dövlətli kübarı" "miskinləşdirir", cılızlaşdırır. Nəfsin qulu olanlar "hər cür qayda-qanunu" vurub dağıdır, tamahının qurbanı olur. Bütün bu müdrik fikirlər poemanın "Heysiyyəti qorumaq" (X.R. Ulutürkdə: "Tapınma və təcrid"; X. Yusiflinin tərcüməsində: "Haqqa pərəstiş, təcərrüd və xəlvətə çəkilmək haqqında") adlı on yeddinci məqalətində aydın əks olunmuşdur.

Poemada şairin kəskin tənqid atəşinə tutduğu mənfi əxlaqi sifətlərdən biri ikiüzlülükdür. "Xəmsə"yə daxil olan bütün poemalarda ikiüzlülərin ifşasına bu və ya digər dərəcədə rast gəlirik. Lakin "Sirlər xəzinəsi"ndə tərbiyəçi bu mənfi əxlaqi sifətə sahib olanların tənqidinə ayrıca məqalət (söhbət) həsr etmişdir. "İkiüzlüləri məzəmmət" adlanan on səkkizinci məqalətdə ikiüzlü insanları "saxta qızıl"a, "qəlp pula" bənzədir "hər sözünə qulp qoyan" elələrini tanımağı, onlara "gendən baxıb" aldanmamağı, üzdəki hallarına deyil, arxadakı əməllərinə diqqət yetirməyi, "sirr vermə"məyi tövsiyə edir. Çünki beləlləri üzdə "aydan arı", "işıq kimi parlaq", "şam kimi dümdüz", "sadə" görünsə də, əslində öz əməlləri ilə hər biri "düyünlü ud", "içi xəbis vücuddu". Etdiyin yaxşılığı "tez unudub", "nöqsanını" car çəkən, "hər sözünə qulp" qoyan ikiüzlü riyakarlara qətiyyən sirr verməməyi tövsiyə edən şair, başa salır ki, "nitqləri alovlu, ciyərləri buz kimi" olan , guya "sən can-ciyərsən" deyib səni "qucaqlayıb öpən", "yalmanıb, yaltaqlanıb" sənə dostluq təklif edənlərdən heç zaman dost olmaz. Əksinə, qəlblərindəki "kindən, nifrətdən" qıvrılan öz mənfətini güdən belə ikiüzlülər düşməndən daha qorxuludur:

Nəfs, mənfəət güdən hər ünsiyyət, hər
tədbir,
Düşmənliklə mayalı dostluğun kəfənidir.

İndiyədək böyük tərbiyəçi-pedaqoqun ekoloji tərbiyə ilə bağlı fikirləri, o cümlədən bünövrəsi məhz "Sirlər xəzinəsi" əsərində qoyulan, tərbiyə işinin bu mühüm sahəsinin nəzəri əsasını təşkil edən təbiəti mühafizə konsepsiyası çox az tədqiq olunmuşdur. Belə ki, həmin məsələ ilə bağlı bu sətirlərin müəllifinin bir neçə məqaləsi istisna olmaqla, nəzərəçarpacaq elmi əsərlərə rast gəlmək çətindir. Bütün bunları nəzərə alaraq şairin təbiəti mühafizə konsepsiyası və ekoloji tərbiyə ilə bağlı "Sirlər xəzinəsi"ndə aydın ifadəsini tapmış müdrik fikirləri üzərində xüsusi dayanmağı zəruri hesab edirik.

Onu da qeyd edək ki, nizamişünaslıqda bu vacib məsələyə ilk dəfə diqqəti yönəldən dahi şairin tərcümeyi-halının, həyat və yaradıcılığının öyrənilməsində böyük əməyi keçən mərhum professor Rüstəm Əliyev olmuşdur. O, hələ 1981-ci ildə dahi şairin ilk poemasına yazdığı "Nizami Gəncəvi və onun "Sirlər xəzinəsi" poeması" adlı "Ön söz"də bu məsələ üzərində xüsusi dayanmışdır: "İnsanların təbiətə münasibəti müsəlman filosoflarını Nizamidən çox-çox əvvəl düşündürürdü. Lakin həmin məsələ öz bədii həllini tam və kamil şəkildə birinci dəfə Nizaminin yaradıcılığında tapdı". Görkəmli şərqşünas alim adı çəkilən yazısında dahi Nizaminin təbiəti mühafizə konsepsiyasının mahiyyətini belə şərh edir: "Şairin təliminə görə, təbiət vahid, bölünməz bir orqanizmdir. İnsan da təbiətin bir hissəsidir. Təbiətin hər üzvü müəyyən bir vəzifə ifa edir. Təbiətin bir üzvünün zədələnməsi onun bütün cisminə xələl gətirə bilər, onun nəticəsində də insanlar çox böyük təhlükəyə düçar olar" (*yenə orada*).

Məlumdur ki, "ekologiya" termini XIX əsrdə Amerika alimi Q. Toro və alman alimi E. Hekkel tərəfindən elmə gətirilsə də ekoloji problemlər bəşəriyyəti XX əsrin ikinci yarısından narahat etmiş, "ekoloji tərbiyə" anlayışı isə son 20-30 ildə elmi-pedaqoji ədəbiyyata daxil edilmişdir. Deməli, dahi şair təbiəti mühafizənin və onun başlıca istiqamətlərindən biri olan ekoloji tərbiyə işinin zəruriliyini əsaslandırmağa çalışan alimləri səkkiz yüz il qabaqlamış, bu məsələ ilə bağlı "kamil təlim" (R. Əliyev) yaratmışdır. Həmin konsepsiyanın əsası "Sirlər xəzinəsi"ndə qoyulmuş, sonrakı poemalarda inkişaf etdirilmişdir.

Poemada şairin təbiətin mühafizəsi məsələsinə ayrıca məqalət və hekayət (Yeddinci söhbət) həsr etməsi onun bu problemə necə həssaslıqla və diqqətlə yanaşdığına dəlalət edir. "İnsanın ülviyyəti" adlanan bu məqalətdə insanı

"dünyanın əşrəfi", "xeyirxahlıq bütü" adlandırır və ona müraciətlə deyir:

Bu dünyanın hikməti çatmaz sona
əzəldən,
Hər canlının şirindir canı ona əzəldən.
Üstünlükdə varlığın birincidir dünyada,
Hər canlı da səngintək bir incidir dünyada.

Nümunə göstərilən bu misralardan aydın görünür ki, böyük tərbiyəçi-pedaqoq təbiətin hər bir üzvünün qorunmasının zəruriliyinə diqqəti yönəldir və başa salmağa çalışır ki, ey dünyanın "əşrəfi", "fələklər qədər uca", "min-min xilqət" içində hamıdan üstün olan insan, sən öz ülviyyətinlə dünyada birinci olsan da, digər canlılar da sənin kimi "bir incidir", təbiətdə öz dəyəri var. Sənə öz canın şirin olduğu qədər də hər bir canlının da canı özü üçün şirindir. Bir halda ki, sənin "can verməyə qüdrətin yoxdur", digər canlıların canını almağa çalışma. Çünki qanını tökdüyün hər bir canlının "qan bahası"nı verməli olacaqsan – həm bu dünyada, həm də o dünyada: "Qan bahası istəyən çoxdur deyə qan alma, can verməyə qüdrətin yoxdur deyə can alma" (yenə orada).

Məqalətin adından və yuxarıda nümunə göstərilən misallardan, məqalətin sonunda verilən hekayətin ("Firidunla ceyranın hekayəsi") məzmunundan məlum olur ki, mütəfəkkir şair-pedaqoq burada ekologiyanın əsasən etik-estetik istiqamətinə toxunmuşdur. Bu fikri təsdiqləyən bir neçə misraya diqqət yetirək:

Ovlağa çatan kimi öv gəzdi gözü şahın,
Vuracağı ceyrana vuruldu özü şahın.
Ürkək gözü, sağrısı qıyma deyir ovçuya,
Şuxluğu qansızlığa uyma deyir ovçuya.

Göründüyü kimi, Firidun şah ceyranın gözəlliyinə vurulduğu üçün (estetik istiqamət) insafsızlıq, yazığı gəldiyinə görə "qansızlıq" (əxlaqi-etik istiqamət) edə bilmir, "hirsi səmuma", "kamanı muma" dönür, "göz oxşayan" dilsiz təbiət gözəlini ovlamaq fikrindən daşınır. Hekayətin sonunda tərbiyəçi-pedaqoq bir daha insanları öz ülviyyətini qoruyub saxlamağa, təbiətin gözəlliklərindən zövq almağa, elə bu zövqün xatirinə həyatımızın bəzəyi olan digər canlıları da məhv etməməyə səsləyir:

Zövq əhli hər bir zaman hey zövq alsa
yaxşıdır,
Təbilçinin təbilini özü çalsa yaxşıdır.
Ülviyyət timsalıtək ucalmağa çalış sən,
Ülviyyət göylərindən öc almağa çalış sən.

Beləliklə, yuxarıda göstərilən çoxsaylı nümunələr, eləcə də məqalənin həcmini nəzərə alaraq burada xüsusi qeyd edə bilmədiyimiz digər misallar sübut edir ki, dahi şair-pedaqoqun ilk poeması həqiqətən də müdrik pedaqoji fikirlər xəzinəsidir. Bu xəzinədə əqli tərbiyə, əxlaq tərbiyəsi, əmək tərbiyəsi və ekaloji tərbiyə ilə bağlı bu günədək öz dəyərini qoruyub saxlayan söz inciləri üstünlük təşkil etsə də, tərbiyə işinin digər sahələrinə (estetik tərbiyə, fiziki tərbiyə, iqtisadi tərbiyə, hüquq tərbiyəsi) aid qiymətli pedaqoji fikirlər də az deyildir.

**Problemin aktuallığı**. Nizami Gəncəvi yaradıcılığını şagirdlərin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici baxımından təhlil süzgəcindən keçirilməsi aktuallığı ilə diqqəti cəlb edir.

**Problemin yeniliyi**. Nizami Gəncəvinin"Sirlər xəzinəsi" poeması pedaqoji fikirlər xəzinəsi kimi araşdırılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar, magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**

1. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 23 dekabr 2011-ci il.

2. Heydər Əliyev və Gəncə. Bakı: Şərq-Qərb, 1999, 156 s.

3. İlham Əliyev və mədəniyyət. 2003-2008. İki cilddə. II cild. Bakı: İdeal print, 2008, 568 s.

4. Cəfərov N. Dahi Nizami Gəncəvinin "Xosrov və Şirin" mənzum romanının mükəmməl nəşri. "Respublika" qəz., 2018, 2 dekabr

**E-mail:** bayram.apoyev@mail.ru

**Rəyçi:** *ped.ü.elm.dok., prof.* **Ş.T. Tağıyev**

**Redaksiyaya daxil olub: 05.05.2020**

## *MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ*

UOT 373.3/.5

***Фикрет Камал оглы Исаев***
*доктор наук по физико-математическим наукам, профессор*
*Азербайджанский Медицинский Университет*

***Элаза Самед гызы Гусейнова***
*доктор философии по физико-математическим наукам, доцент*
*Азербайджанский Медицинский Университет*

***Даста Гойча гызы Касымова***
*ассистент*
*Азербайджанского Медицинского Университета*

# СПЕКТРАЛЬНЫЕ И ВОЛТАМПЕРНЫЕ ХАРАКТЕРИСТИКИ ФОТОДИОДОВ НА ОСНОВЕ СЛОИСТОГО ПОЛУПРОВОДНИКА ТЕЛЛУРИДА ГАЛЛИЯ

***Fikrət Kamal oğlu İsayev***
*fizika-riyaziyyat üzrə elmlər doktoru, professor*
*Azərbaycan Tibb Universiteti*

***Elaza Səməd qızı Hüseynova***
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Tibb Universiteti*

***Dəstə Göyçə qızı Qasımova***
*Azərbaycan Tibb Universitetinin assistenti*

# LAYLI YARIMKEÇİRİCİ QALLİUM TELLURİD ƏSASINDA HAZIRLANMIŞ FOTODİODLARIN SPEKTRAL VƏ VOLTAMPER XARAKTERİSTİKALARI

***Fikrat Kamal Isayev***
*doctor of sciences in physics and mathematics, professor*
*Azerbaijan Medical University*

***Elaza Samed Huseynova***
*PhD in Physics and Mathematics*
*Azerbaijan Medical University*

***Dasta Goyca Kasumova***
*assistant at Azerbaijan Medical University*

# SPECTRAL AND VOLT-AMPERE CHARACTERISTICS OF PHOTODIODES ON THE BASIS OF LAYERED GALLIUM TELLURIDE SEMICONDUCTOR

**Xülasə:** Məqalədə yarımkeçirici monokristal əsasında hazırlanmış *Sn-p-GaTe* fotodiodlarının fotohəssaslığının spektral paylanması və volt-amper xarakteristikasının ölçülməsinin nəticələri verilir. İki növ fotodiodun fotohəssaslığının düzünə və əks istiqamətlərdə gərginlikdən spektral asılılığı müzakirə edilir. Həmçinin dördelementli *Sn-p-GaTe* fotodiodlarının dolt-amper xarakteristikaları təyin edilir və nəticələr təhlil edilir.

Göstərilmişdir ki, qallium tellur monokristallarının ilkin xassələrini bilməklə, spektrin görünən və yaxın infraqırmızı oblastlarında işləyə bilən, zəruri fotoelektrik xassələrinə malik fotodiodlar hazırlamaq olar. Bu tip fotodiodlar elm və texnikanın, habelə tibbin çox sahələrində işlədilə bilər.

***Açar sözlər:*** *optoelektron qurğu, ajnjpriyomnik, fotodiod, fotoelektrik parametrlər, kvant, fotocərəyan, yarımkeçirici diod, optik tomoqraf, voltamper xarakteristikası, akseptor, donor, fotohəssaslıq, əks istiqamətdəki cərəyan, əks istiqamətdəki gərginlik*

**Резюме:** В работе приводятся результаты измерений спектрального распределения фоточувствительности и воль-амперной характеристики фотодиодов на основе монокристаллического полупроводника *Sn-p-GaTe*. Обсуждаются спектральные зависимости фоточувствительности фотодиодов при прямом и обратном направлении напряжения двух типов фотодиодов. Так же анализируются результаты воль-амперной характеристики четырехэлементных фотодиодов *Sn-p-GaTe* .

Выяснено, что зная исходные свойства монокристаллического теллурида галлия можно изготовить фотодиоды с заданными фотоэлектрическими параметрами, применяемые в видимой и ближней инфракрасной областях спектра. Эти фотодиоды применяются во многих областях науки и техники, в том числе в медицине.

***Ключевые слова:*** *оптоэлектронные устройства, фотоприемник, фотодиод, фотоэлектрические параметры, квант, фототок, полупроводниковый диод, темновой ток, оптический томограф, вольт-амперная характеристика, акцептор, донор, фоточувствительность, обратный ток*

**Summary:** Results of measurements of spectral distribution of photosensitivity and voltage-ampere characteristics of photodiodes is presented in terms of *Sn-p-GaTe* monocrystal semiconductor. Spectral dependences of photosensetivity of photodiodes at direct and inverse directions is discussed for two types of photodiodes. Morever, the results of voltage-ampere characteristics of four *Sn-p-GaTe* elements diodes like has been analyzed in the given paper.

It is found that the knowing initial properties of monocrystal like *TeGa* one can made the photodiodes with given photoelectric parameters which can be used in visible and infrared range of electromagnetic scale. These kinds of photodiodes is applied in many fields of science and technology as well in medicine.

***Key words:*** *optoelectrical device, photoreceiver, photodiode, photoelectric parameters, quantum, photocurrent, semiconductor diode, optical tomograph, voltage-ampere characteristics, acceptor, donor, photosensitivity, inverse current*

